**Azərbaycan Milli Elmlər Akademiyası**
**akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu**

# TÜRK MƏTBUATINDA «ERMƏNİ MƏSƏLƏSİ»

**BAKI-2014**

Kitab AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
Elmi Şurasının qərarı ilə nəşr olunur.

**Elmi redaktor:** **Gövhər Baxşəliyeva,**
*filologiya elmləri doktoru, professor*
*AMEA-nın müxbir üzvü*

**Məsul redaktor: Ruhəngiz Cümşüdlü,**
*filologiya üzrə fəlsəfə doktoru*

**Rəyçilər:** **Xalidə Quliyeva-Qafqazlı**
*filologiya üzrə fəlsəfə doktoru*

**Barat Osmanova**
*filologiya üzrə fəlsəfə doktoru*

**Kəmalə Ələkbərova**
*filologiya üzrə fəlsəfə doktoru*

**Azərbaycan dilinə tərcümə edən: Emilya Xəlilova**

**Türk mətbuatında «erməni məsələsi».**
Bakı, «Zərdabi» nəşriyyatı, 2014, 212 səh.

*Bu kitabda ayrı-ayrı müəlliflərin türk mətbuatında çıxan məqalələri və çap olunmuş kitablardan «erməni məsələsinə» dair məlumatlar toplanmışdır. Bu məlumatlar ölkədəki ictimai-siyasi vəziyyət, Türkiyəni parçalamaq məqsədi ilə ölkənin şərqində ermənilərə muxtariyyət verilməsini vəd edən xarici dövlətlərin təhriki ilə ermənilərin üsyana qalxmaları və asayişi pozmaları, türklərə qarşı qanlı cinayətlər və qırğınlar törətmələri, verdikləri işgəncə və zülmlər, tarixi həqiqətlər və sübut olunmuş faktlar əsasında yazılmışdır.*

**ISBN 978-9952-82608-4**

©AMEA Şərqşünaslıq İnstitutu, 2014

# ÖN SÖZ

«Dənizdən dənizə Böyük Ermənistan» yaratmaq xülyasına düşən ermənilər, daima qonşu dövlətlərin torpaqlarına göz dikərək onu mənimsəməklə öz ərazilərinə qatmaq və ərazilərini genişlətmək arzusunda olmuşlar. Onlar bu siyasətlərini həyata keçirmək üçün, müxtəlif əsası olmayan iddialarla çıxış edərək türklərə qarşı düşmənçilik planlarından əl çəkmirlər və daima türklərin ermənilərə qarşı «uydurma soyqırımı məsələsini» gündəmdə saxlamağa çalışırlar. Bu işdə onlara erməni diasporu və xaricdəki havadarları da yardım edirlər.

Müəyyən dairələr də «uydurma erməni soyqırımından» siyasi alət kimi istifadə edərək bəzi məsələlərdə türklərə təzyiq etməyə çalışırlar.

Türkiyə Böyük Millət Məclisinin üzvü Atilla Kaya bir müsahibəsində bu «uydurma soyqırımı» məsələsinə toxunur və göstərir ki, «ABŞ erməni soyqırımı məsələsini Türkiyə siyasəti üzərində «Domokl qılıncı» kimi asıb. Nə vaxt ki, ABŞ türklərin siyasətini istədiyi istiqamətə yönəltməyə çalışır, bu zaman «bu soyqırımı» məsələsinə əl atır» («Türk dünyası» qəzeti, 12 yanvar. 2011. № 1(29) səh 3).

I Dünya müharibəsi dövründə ermənilərin də başqa yerə köçürülməsi zamanı baş verən hadisələr və ümumiyyətlə, türk-erməni ixtilaflarının başlanma səbəbləri haqqında mövcud sənədlərin saxlanıldığı arxivlərin açılması barədə türklərin ermənilərə təklifi cavabsız qalmışdır. Ermənilər bu təklifdən boyun qaçırır və əsl həqiqətin üzə çıxmasından qorxurlar. Atalar sözləridir: «Yalan ayaq tutar yeriməz», və «Haqq nazilər, üzülməz». Ermənilərin apardıqları bu siyasət, uydurma iddiaları, böhtanları türk millətinin adına heç bir ləkə gətirə bilməz. Türklər əmindirlər ki, Osmanlı İmperatorluğu dövründə heç bir erməni soyqırımı olmamış, əksinə, ermənilər türklərə divan tutmuşlar. Ermənilərin bu uydurma yalanlarına cavab olaraq Türkiyədə bir çox kitablar nəşr olunmuşdur. Bunlardan Türközü Halil Kemalın «Osmanlı və

Sovyet belgelerile ermeni mezalimi (Ankara, 1983)», Süslü Azminin «Ruslara göre ermenilerin türklere yaptıkları mezalim», Demiroğlu Albay Faizin «Vanda erməni mezalimi (1895-1920-ci illərdə)», Süslü Azminin «Ermeniler ve Tehcir olayı» (köçürülməsi); «Ermeniler hakkında makaleler derlemeler» (Ankara 1978, 1982), «Ermeniler tarafından yapılan katliam belgeleri (1914-919-cu illər)» və sairə kimi kitabları göstərmək olar.

Azərbaycan türkcəsinə çevirdiyimiz «Ermeniler hakkında makaleler derlemeler» kitabında ayrı-ayrı müəlliflərin ermənilər haqqında məqalələri toplanmışdır. Bu müəlliflər şəxsən özlərinin şahidi olduğu hadisələri qələmə almışlar.

Məqalələrdən məlum olur ki, türklərin ermənilərlə əlaqələri XI əsrdən başlamış və bu əlaqələr XVI əsrdən etibarən zaman-zaman baş vermiş ixtilaflarla davam etmişdir.

XIX əsrdən etibarən əsası olmayan səbəblərlə üsyanlara başlayan ermənilər, bu üsyanları 1860-cı illərdə təşkil etdikləri təşkilatların yardımı və xarici dövlətlərin təhriki ilə törətmişlər.

Halbuki, Osmanlı İmperatorluğu dövründə orada yaşayan başqa millətlərlə yanaşı, ermənilərə də rahat yaşamaq və mədəniyyətlərini inkişaf etdirmək üçün əlverişli şərait yaradılmış və onlara bir çox hüquqlar verilmişdi. Onların dini, mədəni, ictimai və iqtisadi hüquqlarına hörmət edilmiş, ermənilər bütün sahələrdə yüksək vəzifələrə çəkilmişlər.

Lakin ermənilərə verilən bu siyasi və iqtisadi imtiyazlara baxmayaraq, 1914-1918-ci illərdə erməni quldur dəstələri rusların və başqa xarici dövlətlərin təhriki ilə türklərə qarşı qanlı cinayətlər törətməkdən çəkinməmişlər.

Onlar təkcə Türkiyədə deyil, həmçinin xarici dövlətlərdəki Türk səfirlərinə qarşı da terror aksiyaları törətmişlər.

Atatürk Universiteti Tibb fakültəsinin müəllimi, dr.prof. Zəki Başar «Keçmişi unudan ermənilər», «ABŞ Konqresinə müraciət», «Diqqətlə və ibrətlə oxunmalı», «Əvvəlki və sonrakı günlərdə Ərzurumun qurtuluşu», «Xalqımıza qarşı olan ermənilər» kimi məqalələrdə bu məsələlərə aydınlıq gətirmişdir.

Həmçinin, ruslar tərəfindən işğal olunmuş Ərzurumun Türk ordusu tərəfindən azad edilməsi zamanı müəllifin özünün də şahidi olduğu bir çox hadisələr bu məqalələrdə öz əksini tapmışdır.

Bu məqalələr arasında tarixçi Əhməd Rəfiq Altınayın 1919-cu ildə İstanbulda nəşr olunan «Qafqaz yollarında xatirələr və təəssüratlar» adlı kitabından bir hissə də çap olunmuşdur.

Müəllif Türkiyə Qızıl Aypara Cəmiyyəti və Alman- Avstriya Qızılxaç heyətinin tərkibində Türkiyə nümayəndəsi olaraq 1918-ci ildə Ərzincan, Ərzurum, Trabzon, Gümüşhane, Kars və Batum bölgələrinin rus zabitləri və texniki əsgərlərinin də xidmət etdiyi erməni hərbi qüvvələrinin və quldur dəstələrinin bu yerlərdə yaşayan dinc türk əhalisinə qarşı törətdikləri vəhşilikləri, türk millətini məhv etmək üçün etdikləri zülmləri öz gözləri ilə görmüş və bu mənzərələrdən dəhşətə gəlmişdir.

Bu şəhərlər xarabalığa çevrilmiş, Osmanlı ordusu köməyə gələnə qədər ermənilər hər tərəfi yandırmış, əllərinə keçən türkləri faciəli bir surətdə öldürmüş, talanlar etmiş, bir sözlə insanlığa yaraşmayan ən qanlı cinayətlər törətmişlər.

Hərbi Dəniz Qüvvələri naziri və IV Ordu Komandanı olmuş Camal Paşanın «Erməni problemi», «İttihadçılar və ermənilər», «Adana hadisəsi», «Rusiya və erməni problemi», «Ermənilərin köçürülməsi», «Əsas məsuliyyət daşıyan şəxslər» kimi məqalələrində ermənilərin Türkiyə üçün bir problemə çevrilməsi, onların Adanada törətdikləri vəhşiliklər, I Dünya müharibəsi dövründə Anadoludan türklərlə bərabər ermənilərin də təhlükəsizliyini qorumaq məqsədilə Mesopotamiyaya köçürülərkən yollarda şəraitin ağır olması və ərzaq çatışmaması nəticəsində ölüm hallarının baş verməsi kimi hadisələr öz əksini tapmışdır.

Müəllif qeyd edir ki, əvvəllər bu iki xalq arasında heç bir dini ixtilaf, heç bir problem yaranmamış, bütün Osmanlı məmləkətlərində yaşayan türklərlə ermənilər arasında böyük bir anlaşma olmuşdur. Ermənilər Osmanlılardan dostluq və qardaşlıq münasibətləri görərək, beş əsrlik bir zaman ərzində heç bir türk –

erməni ixtilafı baş verməmiş, hər iki millət qaynayıb qarışmış, türk dilini bilməyən, türk adət-ənənələrinə bələd olmayan heç bir erməni qalmamışdı.

Fateh Sultan II Mehmet İstanbulu fəth etdiyi zaman (1453) Rum Patriarx iqamətgahını saxlamaqla, rumlara bir çox məzhəb imtiyazları adı altında xüsusi hüquqlar verməklə yanaşı, erməniləri də unutmamış, Bursada yaşayan keşiş Yuvakimi İstanbula dəvət edərək, Sultanlıq mərkəzində bir Erməni Patriarx iqamətgahı təsis etmiş və onlara da bir çox hüquq və xüsusi imtiyazlar vermişdi. Müəllifin yazdığına görə, sonralar türklərlə ermənilər arasında baş verən düşmənçiliyin əsas səbəbi Rus siyasəti olmuşdur. Ruslar istila etmək siyasətilə Osmanlı İmperatorluğu üzərinə hücuma keçərkən xristian millətlərindən özlərinin xeyrinə bir siyasi alət kimi istifadə edərək çox ağıllı bir siyasət yürütdülər. Buna görə də böyük şəhər və kiçik kəndlərdə, bütün Osmanlı dövləti daxilində erməni inqilab komitələri tərəfindən gizli təşkilat şöbələri yaradıldı və bu şöbələr daima erməniləri türklər əleyhinə zəhərləyir və Şərqi Anadoludakı altı əyalətdən ibarət bir erməni muxtar vilayəti təşkil olunana kimi öz fəaliyyətlərini dayandırmamağa sövq edirdilər. O zamandan etibarən, ermənilərlə türklər arasında çox gərgin qarşıdurmalar, düşmənçilik yarandı. Ermənilərə muxtariyyət verilməsi məsələsini ortaya atan rusların erməniləri qızışdırmasından sonra bir çox vilayətlərdə hər iki tərəfdən qırğınlar, qanlı toqquşmalar baş verdi.

Müəllif yazır ki, Şərqi Anadolu vilayətlərindən milyon yarım erməni köçürülərkən, onların 600.000 nəfəri ölmüşsə, bəs Trabzon, Ərzurum, Van, Bitlis vilayətlərinin rus istilası zamanı ermənilər bir milyondan artıq türkü öldürdüyünə görə nə üçün məsuliyyət daşımır. Rus istilası zamanı canlarını qurtarmaq üçün Diyarbakırdan, Hələb və Adana yolu ilə Konya, Ərzurum və Ərzincandan Sivasa pənah aparmış müsəlman mühacirlərin başına gələn fəlakətlər daha acınacaqlı olmuşdur. Lakin o

biçarələr müsəlman olduqları üçün heç bir alman və amerikalı missioner bu məsələ haqqında məlumat verməmişdir.

«Ermənilər haqqında məqalələr toplusu» kitabında 1918-ci ildə Ərzurum, Ərzincan və Karsın ermənilərdən azad olunması zamanı qərargah polkovniki, I Qafqaz Korpusunun komandanı olmuş Kazım Qarabəkirin 1939- cu ildə çap olunmuş «Ərzurum və Ərzincanın Qurtuluşu» adlı kitabından da ayrı-ayrı hissələr verilmişdir. Kitabın böyük hissəsini məhz Kazım Qarabəkirin bu şəhərlərin ermənilərdən geri alınması zamanı gedən döyüşlər haqqındakı xatirələri təşkil edir. Kazim Qarabəkir türk əsgərlərinin soyuğa, aclığa, ağır yol şəraitinə baxmayaraq qəhrəmancasına döyüşdüyünü, ermənilərin cəbhə xəttini yararaq Ərzincanı, Ərzurumu azad etmələrindən bəhs edir.

Ərzurumun qurtuluşu uğrunda gedən döyüşlərdə baş verən hadisələrin əvvəlindən sonuna qədər şahidi olmuş, Ərzurum qalası rus II artilleriya polkunun komandanı, müharibədə əsir alınmış podpolkovnik Tverdo-Xlebovun öz xatirələrini qələmə aldığı «Tarixçə» və «Xatirə» adlı risalələri rus dilindən tərcümə edilərək bu kitaba daxil edilmişdir. Bu risalələrdə müəllifin özünün şahidi olduğu hadisələr, ermənilərin qəddarlığı, Ərzurum şəhəri və onun ətrafında ermənilərin türklərə qarşı etdikləri amansız vəhşiliklər, dinc əhalinin necə təhqir edilərək öldürülməsi, əhaliyə edilən zülmlər öz əksini tapmışdır.

Həmçinin ruslardan I Aksigin idarəsi müfəttişi dr. Xoreşenov adlı bir şəxsin 1917-ci ilin dekabr ayında Axalkalakidəki türklərə qarşı ermənilərin etdikləri vəhşiliklər və qırğınlar haqqındakı məqaləsi də çox təsirlidir. Müəllif bu məqalədə Ağbabalı bölgəsindən səkkiz kəndlinin Boqdanovka kəndində yaşayan Duxaborlardan quru ot satın almaq məqsədilə gedərkən, bundan xəbər tutan qonşu kəndlərdə yaşayan ermənilərin bu silahsız türklərə qarşı etdikləri qəddar hərəkətləri və sonunda onları vəhşicəsinə öldürmələrindən bəhs edir.

Müəllif məqaləsini bu sözlərlə bitirir. «XX əsrin Ermənistanında yaşayan «mədəni» (!) ermənilərin etdikləri vəhşiliklər».

Beləliklə, bu kitabda ermənilər haqqında üzə çıxarılmış həqiqətləri, lazımlı və sübut olunmuş faktları Azərbaycan türkcəsinə çevirərək oxuculara çatdırmağı çox vacib bir məsələ kimi nəzərə aldıq və ümidvarıq ki, bu kitab oxucuların böyük marağına səbəb olacaq. Bu kitabı mənə təqdim edən Türkiyədə işləmiş f.ü.f.d. Allahşükür Qurbanova öz təşəkkürümü bildirirəm.

Kitabdakı bəzi şəxs adları və coğrafi yerlərin təhrif olunmaması üçün, Türk dilində olduğu kimi saxlamağı məqsədəuyğun saydıq.

***Emilya Xəlilova***

**Prof. Dr. Zəki Başar**
*(Atatürk Universiteti, Tibb fakültəsinin müəllimi)*

# KEÇMİŞİ UNUDAN ERMƏNİLƏR

Ermənilərlə əlaqələrimiz XI əsrdən başlamış və XVI əsrdən etibarən zaman-zaman baş verən ixtilaflarla davam etmişdir.

Ermənilər XIX əsrdə heç bir əsası olmayan səbəblərlə bəziləri qanlı bir şəkildə (1897-cı ildə baş vermiş üsyanlar kimi) yatırılan bir çox üsyanlar etmişdilər. Bütün bunlarla kifayətlənməyən ermənilər, 1860-cı ildə yaratdıqları təşkilatların yardımı və xaricilərin təhriki ilə üsyana başlamışlar.

Erməni təşkilatlarından ən çox qarşısına məqsəd qoyan Hınçak (Zəng səsi) komitəsinin mərkəzi İsveçrədə yerləşirdi və onun da İstanbulda fəal bir şöbəsi vardı.

1890-cı ildə terrorçu və ruspərəst olan «Daşnaksutyun» adlı başqa bir cəmiyyət təşkil olunmuşdu. Bunlardan əlavə digər cəmiyyətlər də vardı.

Məlum olduğu kimi, 1877-ci ildə baş vermiş Türk-Rus müharibəsi bizim məğlubiyyətimizlə sona çatmışdır. Plevnedə qələbə qazanan ruslar, İstanbula qədər gəlib çıxmışdılar. Yaşılköydə imzalanan Ayastefanos müqaviləsində bizim əleyhimizə çox ağır şərtlər irəli sürüldü. Yenə həmin ildə imzalanan Berlin müqaviləsində (1878) və Ayastefanos müqaviləsində irəli sürülən şərtlərin bir qədər yumşaldılması hiss olunurdu. Bununla bərabər, Anadoluda ermənilərin yaşadığı yerlərdə reforma keçirilməsinin nəzərdə tutulması iğtişaş salan erməniləri daha da azğınlaşdırmışdı. Əslində ermənilərin öz aralarında da heç bir birlik, yox idi. Təəssüf ki, təhrikçilərin təsiri ilə onlar öz doğru yollarını azmışdılar. Yenə həmin illərdə, yəni 1877-ci il Osmanlı-Rus müharibəsi zamanı, erməni millət vəkili Hamazasp Osmanlı parlamentində çıxış edərkən baş verən hadisələrə və onları törədənlərə qarşı çıxmışdır. Onun çıxışının mətni belədir: «....İllərdən bəri Rusiya xristianları

müdafiə etmək məqsədilə meydana çıxmışdır. Onların bu münaqişə yaradan hərəkətləri məlumdur. Lakin biz xristianlar öz yaşayışımızdan məmnunuq və heç bir himayəyə ehtiyacımız yoxdur. Bunu bəyan edirəm ki, erməni milləti 500 ildən bəri Osmanlı dövlətinin tam himayəsi altında təhlükəsiz və rahat yaşayır. Mən Ərzurumdan millət vəkili olan bir erməniyəm. 48 il əvvəl müxtəlif hiylələrlə aldadılaraq Rusiyaya köçürülən 10.000 erməni oradakı vəziyyəti gördükdən sonra təkrar ana vətənə qayıtmaq məcburiyyətində qaldılar və burada, Türkiyədə əvvəlki kimi yenə də xoş rəftar və himayə gördülər. Mən Osmanlı dövləti deyilən bir atanın övladı olduğum üçün bu məclisdə bir millət vəkili kimi şərəfə nail olmuşam. Ərzurumda vaxtilə ermənilərin göstərdikləri fədakarlıqlar kimi, indi gənclər də müsəlman qardaşları ilə bərabər əllərində silah, dəstələr təşkil edərək müştərək halda düşmənə qarşı vuruşmaqdadırlar».

Millət vəkili Hamazasp Əfəndi öz çıxışında səmimi ola bilər. Lakin onun söylədikləri kimi, güya 1877-ci ildə ermənilər fədakarlıqlar göstərmiş və indi də erməni gəncləri müsəlman qardaşları ilə ortaq düşmənə qarşı vuruşmuşlar. Bu tamamilə yalandır. Əksinə, ermənilər Aziziyəyə gecə vaxtı hücum edən ruslara bələdçilik etmiş və onlara köməklik göstərmişdilər.

Məlum olduğu kimi, hələ Fateh (II Mehmet) zamanında ermənilərə 1462-ci ildə patriarxlıq təşkil etmələrinə icazə verilmişdi. Bununla bərabər onların iqtisadi, ictimai və mədəni hüquqlarına da daima hörmət göstərilmişdir. Bu xoş rəftar və münasibətdən istifadə edən ermənilər şirkətlər yaratmış, məktəblər açmış və cəmiyyətlər təşkil etmişdilər. Həmçinin, Merzifonda açdıqları dini məktəbi bitirənlərin təşkil etdikləri komitələrdə 1862-ci ildən bəri əsas məqsədlərinin bir millət halında birləşmək olduğunu bəyan etmiş və bu arzularının gerçəkləşməsi üçün çox çalışmışdılar.

Ermənilərin bu cəhdləri Sultan II Əbdülhəmidin siyasi xatirələrində açıqca yazılmışdır. Xüsusilə Anqlo-Amerikan missionerləri yanlış fikirlər söyləyərək erməniləri qızışdırmağa çalışmışdılar.

Bütün bunların 1891-ci ildə Atinadakı inqilabçı erməni komitələrinin üsyan etmək üçün planlar tərtib etməsində böyük rolu olmuşdur.

Halbuki biz ermənilərə çox qədim tarixdə (1462-ci ildə) patriaxlığın təşkil olunmasına icazə verməklə bərabər, ictimai, mədəni və iqtisadi hüquqlarına hörmət etmiş və üstəlik onları yüksək vəzifələrə çəkərək millətin taleyində söz sahibi olmalarında da heç bir maneçilik törətməmişik. Bununla bərabər ermənilərdən millət vəkilləri və Milli Məclis sədrinin müavinləri seçmiş (Ohannes Allahverdi), onlara Xarici İşlər, Maaliyə. Tikinti, Poçta-Teleqraf Nazirliklərində məsul vəzifələr tapşırmış, bəzilərinə də general və marşal (Ohannes Kuyucuyan) adları vermişik. Şübhəsiz bunların hamısı ermənilərə olan səmimi hisslərimizin və xoş rəftarımızın yaxşı göstəriciləri sayıla bilər.

Bizim tarix boyunca ermənilərə təmiz ürəklə və insani münasibətlə yanaşmağımız, həqiqi bir vətəndaş kimi rəftar etməyimiz, onların bizimlə qaynayıb qarışmalarına və mədəniyyətimizi mənimsəmələrinə səbəb olmuşdur. 1835-ci illərdə ordumuzda qulluq edən və Nizip müharibəsində iştirak etmiş Feldmarşal Von Moltke bizim fikirlərimizin doğru olduğunu təsdiqləyən aşağıdakı fikirləri yazmışdır: «Ermənilərə əslində xristian türklər demək mümkündür. Onlar hökmranlıq edən millətin adətlərindən, hətta dilindən o qədər çox şeylər götürmüşdülər ki» [1].

Ermənilər onlara verilən bütün bu hüquq və şərəfli məqamlarla birlikdə gördükləri saysız - hesabsız yaxşılıqları və xoş rəftarı unudaraq, 1914-cü illərdə azğın quldur dəstələrlə törətmədikləri işlər qalmamışdır. Daha acınacaqlısı odur ki, bu quldur dəstələrinin başında Osmanlı parlamentində millət vəkili olmuş Hamparsun Boyacıyan, Karakin Pastırmacıyan, Vaham Papazyan və onlar kimi millətin taleyində müəyyən söz sahibləri olan adamlar dayanmışdılar.

Qeyd etdiyimiz kimi ermənilər I Dünya müharibəsi illərində (1914-1918) törətmədikləri işlər qalmamışdı. Şərq, cənub-şərq və

---

[1] Feldmarşal Von Moltke: "Türkiyə məktubları". S. 5.

qismən də cənubda zərərli işlərin ən ağırını, xəyanətlərin ən pisini və cinayətlərin ən qanlısını törərətməkdən çəkinməmişlər.

Misal üçün, Ərzurumda 11 mart 1918-ci il tarixində soyqırımı edərək evlərə doldurulmuş adamlarımızı yandırmaqla 12 min vətəndaşımızı məhv etmişdilər. Təkcə Yanıqdərədə bir gecədə 3000 türkü ağıla gəlməyən işgəncələrlə öldürmüşdülər. Bütün bu hadisələri törədən sanki ermənilər deyilmiş kimi, indi də «intiqam» günlərini planlaşdırırlar.

Bəzi məsələlərdə mərhəmət göstərərək ermənilərə hüquq vermək istəyən Sultan II Əbdülhəmidin dediyi kimi: «Ermənilər böyük dövlətlərin arxasında gizlənərək çox kiçicik bir səbəblə şivən qoparan, çəkmədikləri acı üçün ağlayan insanlardır». Onlar vərdiş etdiyi işlərdən vaz keçmək istəmirlər.

Qeyd etdiyimiz kimi, keçmişi unudan və həqiqətən də çəkmədikləri acı günlər üçün ağlayan ermənilər hər fürsət düşdükcə, xüsusi olaraq hər il müəyyən bir tarixdə qeyd etdikləri intiqam günlərində biz türkləri günahlandırıb, bizə qarşı çıxmaqdadırlar. Bunlardan birisini də keçən il (iyun 1975-ci ildə) Amerikanın Boston şəhərində bir televiziya proqramında çıxış edərkən bu fikirləri təkrarlamış və bizləri özlərinə məxsus bir dillə günahlandırmışdı. [2]

Amerikadakı tələbələrimiz vaxtında həyəcanla təşkil etdikləri bir müzakirədə ermənilərin hadisələri şişirtmələrinə qarşı çıxaraq həqiqəti üzə çıxarmaqla çox düzgün hərəkət etmişlər. Bir türk ilə iki amerikalıdan ibarət olan bir heyət arasında apardıqları müzakirədə türklər adından Osman Kadiroğlu çıxış etmiş və haqlı olaraq belə demişdir: «Altmış il əvvəl baş verən bir hadisədə təkcə ermənilər deyil, türklərdən də çoxlu ölənlər olmuşdu. Belə olduğu halda günahın nə üçün Türkiyə Respublikasının üzərinə yükləndiyini başa düşmürük». O çıxışını bitirərkən kin, nifrət yerinə, insanların bir-birini sevməsi üçün əzmlə çalışmalarını arzu etmişdir.

[2] "Milliyyət" qəzeti. 5 iyun. 1975-ci il.

Eyni zamanda Amerikada doğulub böyüyən Edvard Taşçı adlı bir erməninin prezidentimizə təqdim etdiyi 17 oktyabr 1965-ci il tarixli məktubundan parçalar oxunmuşdur:

**Hörmətli Prezident!**

«Bütün ermənilər türklərə nifrət etmirlər. Burada toplaşanlardan bir-birlərinə məhəbbət və hörmət bəsləyən bir çox adamlar vardır. Bəzi ermənilər, hadisələr baş verən zaman türklərdən də çox vətəndaşların və əsgərlərin öldüyünü qəbul etmək istəmirlər. Nə üçün bu nifrət, kin duyğularını körükləyənlər var?

Türklər əleyhinə nümayişə çıxanlara nifrət edirəm. Bütün bu hərəkətlərin daha çox bir qrup halında Daşnaksağan təşkilatı tərəfindən təşkil edildiyini sizə çatdırmaq istəyirəm. O ağır günlərdə Daşnaksağanlar türklər kimi, erməniləri də dəhşət içində qoymuşdular».

Çıxış edən Amerikalı Dr. Renold Nevburgh bunları söyləyir: "Osmanlı İmperatorluğu dövründə baş verən bir hadisəyə görə Türkiyə Pespublikasını təqsirləndirmək düzgün bir hərəkət deyildir. Ermənilərin irəli sürdükləri bu soyqırımı məsələsi əlli il əvvəl, yəni 1925-ci ildə deyil, altmış il əvvəl Osmanlılar dövründə (1915-ci ildə) baş vermişdir.

Türkiyə Respublikasının bu hadisəyə cavabdeh olmasını tələb edirlər. Halbuki Atatürkün Osmanlı İmperatorluğuna qarşı mübarizə apardığını, Churchilein Atatürk üçün «XX əsrin ən böyük şəxsiyyətlərindən biridir» dediyi yaddaşlardadır».

Başqa bir amerikalı Dr. Stuart Rosenthall altmış il əvvəl baş vermiş bir hadisənin hələ də nifrət və kinə səbəb olduğunu aydınlaşdırdıqdan sonra belə demişdir: «Türklər o zaman çar Rusiyası ilə vuruşurdular. Ermənilərin içərisində türklərə qarşı düşmən mövqedə dayanan qrupların olduğunu bilirik. Amma Türkiyəni dolaşdım, oradakı azsaylı xalqlarla söhbət etdim. Amerikada türklərə qarşı müşahidə olunan pis fikirlərə Türkiyədə rast gəlmədim. Altmış il əvvəl olub bitənləri bugünkü Türkiyənin üzərinə yıxmaq çox xatalıdır. Amerikadakı bir erməni qrupunun

bu kin və nifrəti qızışdırdığına inanıram. Öz nəvələrinə pis hisslər aşılamağın mənası ola bilməz. Artıq altmış illik qan davasına son qoymağın zamanı gəlmişdir.»

Türkiyə Respublikasında yaşayan erməni vətəndaşlarımızdan da misallar verə bilərik: İstanbul Hüquq fakültəsi müəllimlərindən Prof. Kevork Acəmoğlunun «Milliyyət» qəzetinin 1970-ci il tarixli nömrəsində çıxan bir məqaləsindən bəhs etmişdik. Müəllif bu məqaləsində erməni əsilli türklərin talelərini Türkiyənin taleyinə bağladıqlarını söyləyərək, onların içərisində Türkiyənin fiziki və mənəvi bütövlüyünə qarşı çıxan heç bir şəxsin olmadığını» qeyd etmişdir.[3]

1975-ci ildə Beyrutdakı Türk Hava Yolları Bürosunu partlatmaq üçün dinamit qoyulmasına öz etirazını ifadə edən Antuan Doğanalp adlı bir erməni vətəndaşımız da öz soydaşlarına belə müraciət etmişdir. «Siz yalnız türklərin deyil, ermənilərin də düşmənisiniz. Batsın sizin təşkilatınız da, ordunuz da. Türkiyə ermənilərinin insan kimi yaşadıqları bu torpaqlarda türk düşmənlərini lənətlə xatırlayırlar».[4]

Diqqət edilərsə, Antuan Doğanalp soydaşlarına «batsın təşkilatınız da, ordunuz da» deməklə onların təşkilatına da toxunur.

1965-cı ildə Prezidentimizə məktub yazan amerikalı erməni Edvard Taşcı: "Türklər əleyhinə çıxanlara nifrət edirəm" deyərkən türklərə qarşı daha çox düşmənçilik edən Daşnaksağan təşkilatı tərəfindən bu hadisələrin törədildiyini ifadə etmiş və bir az əvvəl adını çəkdiyimiz soydaşının fikirlərini təsdiq etmiş olur.

Toplantıda çıxış edənlərdən amerikali Dr. Stuart Rosenthall türklərə qarşı kin və nifrəti qızışdıranların Amerikadakı kiçik bir erməni qrupunun üzvləri olduğunu söyləmişdir. Yəqin ki, bütün bu sözləri söyləməkdə onun bir əsası vardır.

16 fevral 1976-cı ildə Beyrutda öldürülən, səfirliyin birinci katibinin qatillərinin "Gizli erməni ordusu" təşkilatının üzvləri

---

[3] "Milliyyət" qəzeti 30 Aprel 1970-ci il.

[4] Ərzurumda çıxan 12 mart tarixli "Millətin səsi qəzeti: "Günümüzün erməniləri nə deyirlər" başlıqlı məqalə.

olduğu qəzetlərdəki xəbərlərdən məlum olmuşdu. Hadisələrin inkişafına nəzər yetirdikdə, 22 oktyabr 1975-ci il Vyanadakı səfirimiz Daniş Tunalıgil, ondan iki gün sonra, 25 oktyabr 1975-ci ildə Parisdəki səfirimiz İsmayıl Ərəz, 9 iyun 1977-ci ildə Vatikandakı səfirimiz Taha Carımın öldürülmələrində bu təşkilatın və ya buna bənzər başqa qrup üzvlərinin barmaqlarının olması ehtimalı daha da qüvvətlənir, bu da heç vaxt unudulmayacaqdır.

Necə olursa olsun, keçmişi unudanların oyanmaları başqalarından daha çox özləri və cəmiyyətləri üçün yararlı olacaqdır.

*Prof. Dr. Zəki Başar*

## KEÇMİŞDƏKİ DAVRANIŞLARIYLA TÜRKLƏR-ERMƏNİLƏR

Sovet İttifaqının respublikalarından biri olan Ermənistan şərq tərəfdən sərhəd qonşumuzdur. Ermənilər Miladdan öncə XX əsrdə tarix səhnəsinə çıxdıqlarını, ancaq həqiqətdə Miladdan öncə VII-VIII əsrlərdə yaşadıqlarına dair məlumat olduğunu yazırlar[1].

Ermənilər bununla özlərinin qədim bir millət olduqlarını göstərmək istəyirlər. Ərzuruma gələrək xalq maarifi salonunda çıxış edən məşhur ingilis tarixçisi Toyinbinin söylədiyi kimi, ömürləri boyunca bufer dövlət səviyyəsində olan iki kiçik krallıq yarada bilmişdilər. Bunlardan biri indi yaşadıqları yerlərdə yaranmışdı ki, Miladdan öncə 1080-ci ildə Səlcuqlular tərəfindən, Kilikiyada yaranan ikinci krallıq isə XIII əsrdə Məmlük türkləri tərəfindən yox edilmişdir.

Əgər biz türklərin XI əsrdə kütləvi halda Anadoluda məskən salmağımız yada salınarsa, demək ermənilərlə eyni ölkənin əhalisi olaraq birgə yaşamağımız da bu tarixdən etibarən başlayır. Hər dövrdə onlarla bir vətəndaş kimi xoş rəftar etməyimiz nəticəsində, xüsusilə mədəniyyət və incəsənətimizi mənimsəmiş, başqa sözlə bizə bənzəməyə can atmışlar.

Misal üçün, teatrımızda və klassik musiqimizdə Manikyan, Zakarya, Tatyos, Güllü Agop, Menemenciyan, Nigos, Artakilər və başqaları incəsənət aləmimizə daxil olmuş və ümumiyyətlə türk xalqına xidmət etmişlər.

Ayrıca bu vəziyyəti təsdiqləyən bir sənəd kimi feldmarşal H.Von Moltkenin "Türkiyə məktubları" adlı əsərində yazılan (s.35) bir cümləni təkrar etmək istəyirik: "Əslində ermənilərə

[1] Dr. Karapet Arman, Türk-Erməni əlaqələri, 4 aprel 1977-ci il tarixli "Tərcüman" qəzeti.

xristian türklər demək olar. Onlar bu böyük millətin adətlərindən, hətta dilindən də çox şeylər mənimsəmişlər...” *

Həqiqətən bizdən ayrılalı aradan illər keçdiyi halda, dünyanın bir çox ölkələrində yaşayan ermənilərdən türk dilinə və adətlərinə bağlı olanların sayının çox olduğu görülür.

Hal-hazırda ümumi sayları 3.749.152 olan ermənilərdən 2.700.000 nəfəri Sovet Ermənistanı Respublikasında, qalanlar isə 1.049.150 nəfəri dünyanın müxtəlif ölkələrində yaşamaqdadırlar. Bunlardan 60.000 nəfəri Türkiyə vətəndaşı olaraq bizimlə birgə yaşayır və hər dövrdə olduğu kimi bizimlə eyni hüquqa malikdirlər.

Tarix boyunca onları həqiqi bir vətəndaş kimi qəbul etməyimizə baxmayaraq, ermənilər ilk dəfə vergi bəhanəsilə, həm də Fateh dövründə onlara verdiyimiz imkanları (patriarxlıq hüququ, məktəblər açmaq, şirkətlər qurmaq, iqtisadi hüquqlar) unudaraq Kanuni Sultan Süleyman zamanında üsyan etmək istəmişdilər. Sonrakı əsrlərdə bir tərəfdən Rusiya, digər tərəfdən də Avropa dövlətləri Osmanlı İmperatorluğunu parçalamaq siyasəti güdmüşdülər. Məqsədlərinə nail ola bilmək üçün burada Anqlo-Amerikan missionerləri müxtəlif təşkilatların, komitələrin, missionerlərin, konsulların vasitəsilə xristian etnik qruplardan, xüsusilə Anadoluda ermənilərdən və gürcülərdən istifadə etmişdilər. 1914-cü ildə başlayan I Dünya müharibəsi illərində, Türkiyədə 17 böyük missionerlik mərkəzinin yerləşdiyi və 174 missionerin də keşikçi olduğu

* 1955-1961-ci illərdə Amerikada olmuş prof . dr. Muzaffer Kürkcüoğlunun bu sahədə bəzi müşahidələri vardır. Şəxsən bizim də, söylənənləri təsdiq edən gördüklərimiz və eşitdiklərimiz olmuşdur. 1963-cü ildə Fransada olduğumuz əsnada 2-3 günlüyünə Belçikaya getmişdik. Brüsseldən Parisə dönmək üçün qatar gözlərkən stansiyada 30 yaşlarında olan iki gəncin çox gözəl türkcə danışıqlarının şahidi olmuşduq. Onlarla görüşdüyümüz zaman Yunanıstanlı olduqlarını, Hollandiyada kənd təsərrüfatı işləri ilə məşğul olduqlarını, milliyətcə erməni olan ailələrinin Karsdan gəldiklərini, evlərində türkcə danışmaqdan başqa, umumiyyətlə türk yeməklərini yediklərini söyləmişdilər. Fransanın cənubunda olan Grenobledə yaşayan, çəkməçilik edərək ailəsini dolandıran bir erməni ailəsinin türk ailəsi kimi olduğunu söyləmiş, evlərində türkcə danışdıqlarını və hər işlərini türk adətlərinə görə etdiklərini pansionunda yaşadığım Madam Relavedən eşitdim.

görünür. Bunlara, siyasi məqsədlərini həyata keçirmək üçün təşkil etdikləri mason lojalarının da əlavə olunması lazım gəlir.

1789-cu ildə böyük Fransız inqilabının «əkdiyi toxumun məhsulu bol olmuş» və böyük rəğbət qazanmışdı. Bu səbəblə XIX əsrin ortalarında Avropada çox yaxşı inkişaf edən milliyyətçi cərəyanlar-qaraçılar, yunanlar, serblər və bolqarlar kimi, ermənilər də təşkilatlanmağa sövq etmişlər. İmperatorluğu təşkil edənlərin (ərəb, alban, yunan, bolqar, erməni) «siyasi adəmi - mərkəziyyətdən» bəhs edərək müstəqillik şərqiləri söyləmələri də bununla əlaqədardır və bu illərə təsadüf edir. Yenə bu dövrdə ermənilər Hınçak (1890). Daşnaksutyun (1890), Ramqar, kimi terrorçu fədai təşkilatları yaratmışdılar. Bunların siyasi yollarıdan istifadə edərək, gördükləri işlər kifayət deyilmiş kimi, 1853 və 1877-1878-ci illərdəki Rus-Türk müharibələrində düşməni də dəstəkləmişdilər. Erməni patriarxı Narses əfəndinin müstəqil olmaları üçün Rus çarından öz münasibətini bildirməsini xahiş etməsi də bu tarixə (1878-1879) təsadüf edir.

Çox İllər və əsrlər boyu hər cür mərhəmətli rəftar edib bağrımıza basdığımız ermənilər, əllərinə fürsət düşəndə biz türkləri xəncərlə öldürməyə cəhd etmişdilər. Bizim insanpərvər rəftarımızın əvəzində ermənilər dəfələrlə üsyana qalxmağa cəhd etmişlər. Məs: 1861-cı ildə Livana muxtariyyət verildikdən sonra, onlara da muxtariyyət verilməsi üçün durmadan narahatlıqlar yaratmış və 1862, 1867, 1878, 1879-cu illərdə üsyanlar etmişdilər. Hətta 1892-ci ilin milad bayramında Türkiyədəki bütün kilsələrdə üsyana qalxmaq çağırışları edərək hədlərini aşmışdılar.

İstiqlal müharibəsindən əvvəlki illərdə (1919) yunanlar qiyam etmək, mitinqlər təşkil etmək məqsədilə Mavrimira təşkilatını yaratmışdılar. O günlərdə erməni patriarxı Zaven Əfəndi də təəssüf ki, bu təşkilatla yanaşı, erməniləri də bu işə təhrik etmişdir.[2]

Şərqdəki xristianların müdafiəçisi olan Katogi Kosu (şərq xristian millətlərinin hamisi) Rusiyadan Türkiyədəki erməniləri öz himayələri altına almasını xahiş etmişdir. Ruslar bu işdə bir

[2] Qazı Mustafa Kemal Atatürk: "Nutuk" s.5-10. İstanbul 1927.

tərəfdən öz xeyirləri üçün çalışarkən, digər tərəfdən də Bədirxani Əbdülrəzzaqa pul yardımı edərək Kürdüstan knyazlığı yaratmağa çağırmış və Seyidtihanı hökumət əleyhinə qızışdırmışdılar.[3]

Bizim onlarla çox mədəni davranıb, birgə eyni səviyyədə işləməyimizi sübut edən əhəmiyyətli sənədlərdən bəziləri də, onlara senator, millət vəkili, nazir, general, marşal kimi verdiyimiz yüksək adlar, mövqelər, məqamlar, rütbələr və dərəcələrdir. [4]

Bunlardan bir neçə misal çəkmək lazım gələrsə, bir erməni vətəndaşımızın yazdıqlarına istinad edərək: 21 general, 22 nazir, 33 millət vəkili; 7 səfir, 11 konsul, 11 universitet müəllimi, 8 general həkim, 41 yüksək dərəcəli məmurlardan bəhs edə bilərik.[5]

Bütün bu sadalanan fakt və məlumatları 1878-ci illərdə Osmanlı parlamentində etdikləri çıxışları ilə təsdiqləyən millət vəkilləri vardır. Bunlardan birinin o illərdə Ərzurum millət vəkili olmuş Hamazasp Əfəndinin çıxışını əvvəlki yazımızda vermişdik.

1912-ci il Balkan müharibəsindəki məğlubiyyətimiz həmçinin 1914-1918-ci il I Dünya müharibəsində eyni aqibətə uğramağımız şərq və cənub-şərqi Anadoludakı erməni vətəndaşlarımızı ümidləndirib azğınlaşdırmışdı. Özünü müdafiə etmək gücündə olmayan mülki vətəndaşlarımızın başına açmadıqları oyunlar qalmamışdı.

1915-ci illərdə Anadoludakı ermənilərin müharibənin sonuna qədər Mesopotamiyaya göndərilərək, orada saxlanılmaları üçün verilən qərar həyata keçirilərkən, onların qayğılarını çəkmək və hər hansı bir hücuma məruz qalmamaları üçün əldən gələn hər cür tədbir görülmüşdür. Buna baxmayaraq Şərqi Anadolu vilayətlərindən köçürülən 1,5 milyon ermənidən 600.000 nəfərinin müxtəlif səbəblərlə itkin düşdükləri ürək ağrısı ilə söylənilir. Bu mövzuda səfir Morgithan və səfirliyin baş katibi Mandetştamın yalanlara istinad olunan məruzə və yazılarını mənbə olaraq

[3] Cemal Paşa. Dəniz qüvvələri naziri və 4-cü ordu komandanı, "Xatirələr"
[4] Prof. Dr. Zəki Başar "Ermənilərdən gördüklərimiz" Ankara 1975-ci il. S. 22.
[5] Dr. Karapet. Arman. 4-5 aprel tarixli. "Tərcüman" qəzeti.

seçərək bu iddiaya inananlar, rəhmətlik Dəniz Qüvvələri naziri Camal Paşanın əsərində qeyd etdiyi kimi, aldanmış olacaqdırlar.

Vəziyyət belə olduğu halda ermənilərin Rus müharibəsi və istilası dövründə Van, Bitlis, Ərzurum, Trabzon xalqından 1,5 milyon türkün qanına bais olmaları faktı dünya xalqlarının diqqətindən kənarda qalmamalıdır. [6]

İş bununla bitməmişdir. İmperatorluğumuzu parçalamaq istəyənlər 1878-ci il Berlin sülh müqaviləsinin gerçəkləşdirilməsinə çalışmak və erməniləri qoruyub dövlət qurmağa təşviq etməklə bu əməllərinə davam etmişdilər. Belə ki, Loyd Georgenin 1920-ci illərdə belə ermənilərin tərəfini saxladığı görülür. Rus imperializminə qarşı Ermənistan, Gürcüstan ilə Pontus Respublikasının yaxşı bir istehkam olacağı qənaətinə gəldikləri anlaşılır[7].

Modros mütarikəsini öz xeyirləri üçün istifadə etməklə ingilislər erməni iddiasına da biganə qalmamışdılar. Daima irq, din, məzhəb fərqlərini ortaya ataraq qızışdırıcı siyasətlərini davam etdirmişdilər. Digər tərəfdən Loyd Georgenin "Xristianlığın müzəffər komandanı"adını verdiyi general Allanby də planlaşdırılan "Böyük Ermənistanın" yaranması üçün zəmin hazırlamağa çalışmışdır.

Ermənilər indi də Amerika, Fransa, Livan... kimi müxtəlif ölkələrdə hər il müəyyən gündə biz türklərin əleyhinə yığıncaq təşkil etməyi unutmamaqdadırlar. "Ermənistan gizli qurtuluş ordusu" keçmişdəki fədai təşkilatlarını axtarmaq niyyətindədir.

Bu yazımı Rusiya akademiyasının işçisi, prof. Boris Piotrovskinin sözlərilə bitirmək istərəm.

"Tarixin qədim dövrlərində bir erməni dövlətinin mövcud olduğunu isbat edən əsər vardır. Lakin bunlar çox qədim zamanlarda qalmışdır. Bu gün həmin dövlətin öz sərhədlərini dirçəltməyə yönələn cəhdi ağıla gələcək məsələ deyildir.[8]

[6] Camal Paşa. Dəniz Qüvvələri naziri və 4-cü Ordu komandanı, "Xatirələr".
[7] Prof. Dr. Zəki Başar: "Ermənilərdən gördüklərimiz" Ankara 1975-ci il c. 22.
[8] Prof. Boris Piatrovski, 27.9.1977 tarixli. "Milliyet" qəzetindəki məqaləsindən.

*Prof.Dr.Zəki Başar*

# ABŞ KONQRESİNƏ MÜRACİƏT*

Hörmətli Sədr,

Bu məktubu, ABŞ konqresinin ermənilərə aid bir layihəni qəbul etməsi səbəbilə yazaraq sizə təqdim edirəm.

24 aprelin «İnsanın insana zülm günü» kimi qəbul etməyinizə qarşı ümumiyyətlə heç bir etirazımız yoxdur. Lakin xoşa gəlməyən və şəxsən mənim qəbul etmədiyim bir məsələ varsa, o da 60 il əvvəl baş vermiş I Dünya müharibəsi illərinə yenidən qayıtmağınızdır. Bu illərə qayıdarkən dünya xalqları arasında milyonlarca insan tələfatlına səbəb olan və 4 il davam edən böyük bir müharibənin səhnələrindən ancaq türk-erməni məsələsinə toxunmağınız şübhə doğurur.

I Dünya müharibəsindən sonra yenə milyonlarca insanın məhvinə və milyardlarca insanın itkin düşməsinə səbəb olan II Dünya müharibəsi baş vermişdir. Müharibə edənlərin arasında və hətta ən başda ölkəniz də iştirak etmişdir

Bu gün də dünyanın dörd bir tərəfində müharibələr, hücum və qətllər, Cənubi və Şimali Koreyalarda, Kambocada milli azadlıq hərəkatçıları ilə hökumət qüvvələri arasında, Ərəb dünyası ilə İsrail arasında, İngiltərə ilə İrlandiya arasında qarşıdurmalar davam etməkdədir.

Vəziyyət belə olduğu halda, bütün nümayəndələr məclisinin lideri hörmətli millət vəkili Tomas O’Neille I Dünya müharibəsinin və 1915-ci ilin qanlı səhnəsindən bəhs edərkən, sadəcə türklərin 600.000 ermənini öldürdüklərini söyləməsilə bu məsələyə birtərəfli yanaşmış və hər halda öz şəxsi hisslərini büruzə vermiş olur. İlk öncə bu 600.000 rəqəmində təkid olunarsa 1,5 milyon türkə qəsd edildiyi də qəbul olunmalıdır. Digər tərəfdən baş

* Amerika parlamentinə təqdim olunan bu müraciəti ingiliscəyə Dos. Dr. Faruk Memik tərcümə etmişdir. Müraciətə əlavə edilmiş işgəncə növləri isə Dos.Dr. Aydoğan Albayraq tərəfindən ingiliscəyə tərcümə edilmişdir.

vermiş hadisələri daha çox ermənilərin törətdikləri və hər yerdə yüz minlərcə türkü işgəncələrlə öldürdükləri unudulmamalıdır.

Çox güman ki, Xarici Işlər Nazirliyimiz həqiqətlərə istinad edən sübutlarla, layihədən türklərin adlarının çıxarılmasını tələb edərək, bu tələbin yerinə yetirilməsinə çalışmışdır. Bu sahədəki işlərinə görə onlara təşəkkürlərimi bildirirəm.

Əslində «gün» təyin etməklə hörmətli məclis lideri yeni bir iş görmür. Ermənilər uzun illərdən etibarən xüsusilə Livan, Fransa, Amerika və başqa ölkələrdə aprel ayında təşkil etdikləri yığıncaqlarda proqramlarını öz tələblərinə uyğun şəkildə qiymətləndirməyə çalışırlar.

Lazımsız və həqiqətə uyğun olmayan bu layihənin müəllifləri təyin etdikləri «günü» «ermənilərlə türklərin bir-birlərini öldürmə günü» kimi adlandıra bilərdilər.

Göründüyü kimi, təkcə ermənilərin tərəfini saxlamaq və sadəcə türklərin erməniləri öldürdüklərindən bəhs etməklə həqiqətlərə etinasız yanaşılmış və eyni zamanda 24 aprelin "İnsanın insana zülm günü" adı ilə elan edilməsinin demək olar ki heç bir mənası qalmamışdır.

Qənaətimizə görə, 24 aprel «günün»dən ermənilərin və türklərin adları çıxarılmalı və bu bütün dünya millətlərinə şamil edilməlidir.

Yeri gəlmişkən, icazənizlə, erməni mövzusu üzərində bir az dayanacağam. Məlum olduğu kimi, biz türklərin ermənilərlə əlaqələrimiz əsasən XI əsrdən başlamışdır. Əsrlərcə onlarla birlikdə yaşamış və onlarla çox yaxşı rəftar etmişik. Onlara millət vəkilliyi, senatorluq, parlament sədrinin müavinliyi, nazirlik, marşallıq və sair kimi müxtəlif bir çox yüksək vəzifələr verməkdə heç bir manelər törətməmişik. Digər tərəfdən hələ 1461-ci ildə Patriarxlıq yaratmaqlarına icazə verməkdən əlavə 1860-cı ildə bir də «Erməni ümumi milli məclisi» təşkil etmələrinə izin vermişik.

Bütün bunların əvəzində ermənilərin nələr etdiklərini bilirsinizmi? Vergi bəhanəsilə və həqiqətə uyğun olmayan digər müxtəlif səbəblərlə durmadan üsyan etmək... Ayrıca üsyan

cəmiyyətləri və fədai təşkilatları yaradaraq millətin rahatlığını və dövlətin nüfuzunu pozmaq... Bütün bunlara baxmayaraq bir türk dövləti və milləti olaraq ermənilərə əsrlərcə fədakarcasına çox dözümlülüklər göstərdiklərimiz tarixi həqiqətlərdir.

Bunları yazmaqla, keçmiş əsrlərdə həddən çox humanist və demokratikcəsinə davranmağımızın nümunələrini göstərmək və sənədləri arxivlərimizdə saxladığımızı söyləmək istəyirəm.

Məlum olduğu kimi, 1877-ci il türk-rus müharibəsindən sonra imzalanan Ayastefanos və Berlin müqavilələrindən sonra erməni problemi meydana çıxmışdır. Vəziyyət belə olmaqla yanaşı, türk parlamentinin o zamankı erməni vəkillərindən Mr. Hupen ilə Mr.Hamazaspın müsbət və səmimi çıxışlarının məclis protokollarından oxunması maraqlı olacaqdır. Bu protokollar kimi digər tarixi sənədlərdə də ermənilərin haqlı olduğunu təsdiq edəcək heç bir sübut olmayacaq.

Erməni bir hüquq müəllimi olan Prof. Dr. Kevork Acəmoğlu 1970-ci ilin aprelində yazdığı bir məqalədə: «Ermənilər özlərini türklərin taleyinə bağlamışdılar. Türkiyənin maddi və mənəvi bütövlüyünə qarşı çıxacaq tək bir adam aramızda yoxdur» demişdir.

Aradan illər keçdikdən sonra Antuvan Doğanalp adlı digər bir erməni vətəndaşımız çıxıb 1 mart 1975-ci ildə bunları söyləmişdir: «Beyrutdakı Türk Hava Yolları Bürosuna dinamit qoyub partladan türk düşməni ermənilər sizlərə səslənirəm! Siz yalnız türklərin deyil, ermənilərin də düşmənisiniz. Batsın sizin təşkilatınız da, gizli ordunuz da. Maddi mənfəətinizi güdərək, etdiyiniz bu hərəkətlər sizlərə mənfəətlər gətirə bilər. Ancaq tarixi hadisələri gərginləşdirərək, insana yaraşmayan kobud hərəkətlərlə bir çox insanın rahatlığını pozmaqda və həyatını zülmətə sürükləməkdəsiniz.

Türkiyə erməniləri insan kimi yaşadıqları bu torpaqlarda türk düşmənlərini lənətlə xatırlayırlar.Bunu dost da, düşmən də bilməlidir. Türkün əleyhinə olan hər bir hərəkət nifrətlə qınanır.

Yetər artıq, illərcə baş verən bu dərdlər, əzablar.... Sizin kimi ağılsızlar, minlərcə türkün və erməninin ölümünə səbəb oldu.

Bayquşlar, artıq susun, düşmənçilik və ölüm gətirməyin. İnsanlara qarşılıqlı sevgi və rahatlıq gətirəcək işlər görün».

Əslən erməni olan vətəndaşımızın ürəyindən gələn və ağzından çıxan bu sözlərin həqiqi bir mənası var. Tarixi həqiqətlər və mülahizələr bu yoldadır. Daha qədim dövrlərə müraciət edib Hınçak quldurlarının nə kimi işlər görmək istədiklərini bilmək istəyirsinizsə, uzun müddət ölkəmizdə işlədiyi üçün Türkiyəni və türkləri yaxından tanıyan Dr. Hamlinin çox qədim zamanlarda (23 dekabr 1873) Boston şəhərində nəşr olunmuş yazılarını mütləq tapıb oxumalısınız. Erməni Hınçak quldur dəstələrinin törətdikləri hadisələrin şahidi olmuş və 28 yanvar 1973-cü ildə Los-Anjelosda Türkiyə Xarici İşlər Nazirliyinin iki gənc əməkdaşını aldadaraq öldürən erməni Mkrtıç Yanikyandan bu quldurların heç bir fərqləri olmadığı qənaətinə gələcəksiniz.

Sözü çox uzatmamaq üçün, saylarını süni surətdə şişirdərək, çox miqdarda öldürüldüklərini iddia edən ermənilərin neçə yüz min türkü öldürdüklərini xatırladıb, I Dünya müharibəsi illərində verdikləri işgəncələrdən misallar verməklə kifayətlənəcəyəm.

Sadəcə 15 növünü bildirəcəyimiz bu işgəncələr müharibədən və canilikla törədilən hadisələrdən 52 il sonra, yəni xalqın sakit yaşadığı bir tarixdə (1967-ci ildə) şəxsən tərəfimizdən sübut edilmişdir.

Bunları oxuyub bir az düşünməklə, həqiqətləri yenidən daha çox anlayacaqsınız. Sadəcə anlamaqla kifayətlənməyib, mədəni bir şəxs olaraq kədərlənəcəyinizi və vicdanınızın təsəlli tapması üçün öz hisslərinizdən uzaqlaşaraq, həqiqəti axtaracağınıza ümid edirəm.

Layihənin müəllifi hörmətli millət vəkili və onun yoldaşlarına isə, zamanın və tarixin artıq üstünü küllə örtdüyü yanğınları yenidən körükləməmələrini arzu etdiyimi çatdırıram.

Siz amerikalılar, hələ yeni sayılan tariximizdə ölkə daxilində müharibələr etmiş və müstəqillik üçün vuruşmuşsunuz.

Bu gün də azadlıq ideyalarının liderliyi vəzifəsini öz üzərinə götürən Amerikanın məsul şəxslərindən təmkinlilik, ehtiyatlılıq, bitərəflilik və insan hüquqlarına hörmət edilməsini gözlədiyimi bildirir və bu istəyimizi yaxşı qarşılayacağınıza ümid edirəm.

Ermənilərin verdiyi işgəncələrə dair yazını əlavə olaraq təqdim edirəm.

**Hörmətlə**

# DİQQƏTLƏ VƏ İBRƏTLƏ OXUNMALI!

**A**

Bu kitabda yazılanlar ermənilərlə əlaqələrimizin, etdiklərimiz və gördüklərimiz işlərin sadəcə bir qismini təşkil edir. Diqqət edənlər həqiqətlərin necə bitərəflilikdə qələmə alındıqlarını və mənbələri verərkən sənədlərlə təsdiq olunduqlarını görəcəklər. Bütün bunlara baxmayaraq, ermənilər türklərlə qarşılıqlı olaraq həya keçirdikləri işlərin Respublika dövründən əvvəlki vaxta aid olduğunu unudaraq, «Birləşmiş erməni xatırlama dərnəyi» ilə «Kipr müdafiə dərnəyi» və «Los Anjelos Universiteti tələbə dərnəyi»nin həqiqətləri təhrif olunmuş halda verməklə necə gündəlik siyasət və təbliğat apardıqlarını ibrətlə oxuyacaqlar.

«-24 aprel 1975-ci il tarixi 60 il əvvəl yerli hökumət tərəfindən öz yerlərindən uzaqlaşdırılan bütün ermənilərin günüdür.

-Türklər və inqilab hökuməti XX əsrin böyük, tamamilə məhv etmə siyasətini ermənilərə qarşı etmişdir.

-3000 illik keçmişi olan ermənilər yurdlarından sistemli bir şəkildə sürgün edilmiş, Suriya çöllərində məhv olmuşlar.

- 60 ildir Birləşmiş Millətlər yanında burada yaşayan şəxslər kimi nə etdik.

- Birləşmiş Millətlər Təşkilatı soyqırım üçün türklərə heç bir təsir etmədiyi kimi, bugünkü ABD hökumətində səfir Mr.Henri Norgenthandan başqa heç kim öz etirazını bildirmədi.

- Hər il ADB Türkiyəyə 37,6 milyon dollar verməkdədir. Çünki buradan gələn heroin və tiryək yolunun qarşısını kəsmək məcburiyyətindədir. Tiryəkin istehsalçıları türklərdir. Kissinger Türkiyəyə olan yardımı hələ də dəstəkləməkdədir. «NATO» tərkibində olmalarına baxmayaraq, Kipri istila və işğal etmişdirlər. Bu səbəbdən Türkiyəyə edilən yardımın kəsilməsinə çox inanırıq.

- Əyalət senatorumuza və konqres üzvlərinə məktub yazın. Türkiyənin bu hərəkətini başa salın və öyrənin.»

***Birləşmiş Erməni Xatırlama Dərnəyi***

**B**

«Əziz demokratlar və dostlarımız.

-Türkiyə kiçik Kipr adasını istila etmiş və xaraba qoymuşdur.

-Onların bu hərəkəti yeni bir yayılma siyasətidir. ABŞ-dakı tiryəkin 80 %-i Türkiyədə yetişdirilir.

-Türklər xristianları, erməniləri və yunanları yox etmiş və etməkdədir.

-Senator və konqres üzvlərinə; Kennedy, Eagleton, Fillbright, Royball və Danielsona müraciət edərək, Kissingerin Kipr haqqındakı yanlış siyasətini tənqid edin.

Senator Ttnney və Cranstonun daha əzmlə çalışacağına inanırıq.

-Biz bütün xeyirxah demokratlara səslənirik.

-Türkiyəyə ABD-nin yardımı kəsilsin.

- İndi Kiprdən türk ordusu çəkilsin.

-Kennedy və Eagletona yazaraq, Kipr və ona yardım etmək məsələsi əleyhinə verilən səslər dəstəklənsin.

-250.000 kiprli Türk höküməti tərəfindən sürgün edilmişdir.

-C.İ.A.- Senato və Pentaqona rəhbərlik edən Kissinger siyasətinə son qoyulmalıdır.

Kipr, Çili və Bonqladeş onun əsəridir».

***Kipr (Yunan) Müdafiə Cəmiyyəti***

**C**

«-Bura haradır?-

- Nə üçün kimsəsizdir? Bir çox adamlar keçmişdə məhsuldar tarlalar və bağlarla əhatə olunmuş şəhərləri xatırlayırlar. Burada yaşayanlar 24 aprel 1915-ci ildə sistemli şəkildə öz yurdlarından sürgün edilən ermənilərdi.

Bu gün Türkiyə hökuməti öz günahını qəbul etməməkdə israrlıdır. Qədim dövrdə etdikləri hərəkətlərə görə özlərini haqlı çıxarmağa çalışmaqda davam edir. Mədəni təxribat indi də davam etməkdədir. Erməni və yunan məktəbləri, yetimxanaları və kilsələri də yox edilmişdir.

İndi ermənilər ədalət istəyir».

***"Los Anjelos Universiteti Tələbə Dərnəyi"*** *

* Amerikada nəşr olunan bildirişi Dos. Dr. Ənvər Konukçu tərcümə etmişdir .

***Prof.Dr. Zəki Başar***

# ƏVVƏLKİ VƏ SONRAKI GÜNLƏRDƏ ƏRZURUMUN QURTULUŞU

Qurtuluş ifadəsi, ümumiyyətlə bölgə-bölgə, vilayət-vilayət, hətta qəza-qəza ölkəmizin düşməndən və ya düşmənlərdən təmizlənməsi mənasına gəlir.

Düşmən deyərkən, bir çox yerdə xalqımıza görə əksər hallarda ingilis, fransız, bolqar, yunan, şərqdə isə xüsusilə ruslar və ermənilər yada düşməkdədir.

Bu tarixi faktlar əsasında Krım, 1893-cü il müharibəsi, Trablus, Balkan, I Dünya müharibəsi və İstiqlal müharibələrimiz haqqında müxtəlif yazıların yazılması və müxtəlif danışıqların təkrar olunması belə nəticəyə gəlməyə səbəb olmuşdur.

Həqiqətdə düşmənlər bu saydıqlarımızdan ibarət deyildir. Ürək ağrısı ilə qeyd etdiyimiz bir qisim soydaşlarımız, vətəndaşlarımız və dindaşlarımız da vardır ki, bunların fərd, cəmiyyət və millət olaraq türklərə qarşı törətdikləri düşmənçilik hərəkətlərini xalqımız hələ də bağışlamayıb.

«Başımıza gələnlər» adlı əsəri ilə 1293-cü (1877-ci il) müharibəsinin şərq cəbhəsini təsvir edən mərhum Mehmet Arif mülki xalq və əsgərlər tərəfindən törədilən bəzi xəyanətlərə işlərinə toxunmaqla yanaşı, bir qisim kürd və çərkəz köçərilərindən də ürək ağrısı ilə bəhs etmişdir. 1293-cü il müharibəsindən təxminən 40 il sonra baş vermiş I Dünya müharibəsinin bəzi səhifələrini «Türk ellərində xatirələrim» adlı kitabında qələmə alan Fəxrəddin Ərdoğan verdiyi nümunələr və hətta xatırlatdığı insan adları ilə bir növ Mehmet Arifin fikirlərini sübut etmiş olur.

Misal üçün, ingilislərlə əlbir olan ərəblərin, ərəb şəriflərinin və şeyxlərinin biz türkləri arxadan vurmaları, həm də yaxın tariximizin belə kədərli vəziyyətinə şahid olanlar, «Xüsusi Təşkilatda» çalışanlar Lavrensin qarşısında vəzifə alanlar tərəfindən yazılıb təsvir olunmaqdadır. Bütün bunlardan kədərli

deyə qiymətləndirdiyimiz həqiqətdən daha çox üzüntülü olanı Milli azadlıq mübarizəsi illərində Anadolumuzda əksəriyyəti özümüzdən olanların qiyamlarını təşkil edənlər və onlara qoşulanların olmasıdır.

Digər tərəfdən, o, illərdə 18-22 milyona qədər olan əhalimizin 4-6 milyonun xristian olduğu yaddan çıxmamalıdır.

1914-cü illərdə, yəni I Dünya müharibəsi başlandığı illərdə, Türkiyədə 174 missionerin polis işçisi olduğu və bunların 17 böyük missioner idarələrindən başqa doqquz xəstəxana və 426 məktəblərinin[1] olması da diqqəti cəlb edir. Bütün bunların öz məqsədləri uğrunda əleyhimizə çalışdıqları da şübhəsizdir.

Bizimkilərin təxribatçılığına gəlincə;

Bunların başı 1919-cu ilin sentyabr-oktyabr aylarında I və II Bozkır (Konyanın bir qəzası) üsyanlarına qarışmışdı. Çox keçmədən ölkənin müxtəlif yerlərində olan xəyanətlər bir-birinin ardınca baş verir. Misal üçün, 1919-cu ilin oktyabr ayında baş verən Şeyx Əşrəfin Hart "Bayburtun bucağı" [2] hadisəsi, yaxud üsyanı ilə 1919-cu ilin oktyabr - noyabr ayında baş verən və Qaracabəy, Gönən- Manyas, Susurluq kimi olduqca geniş bir sahəni əhatə edən I Anzavur üsyanı aralarında gün fərqi olmaqla bir-birlərinə qarışmış və öz məqsədlərinə çatmaq üçün birləşmiş görünürlər.

Sonra da xaincəsinə davranışların, üsyan dəstələrinin bir-birinin davamı olduğu görülür.

1920-ci ilin fevral-aprel aylarında eyni bölgədə II Anzavur üsyanı, 1920-ci ilin aprel may, avqust-sentyabr aylarında I və II Düzcə üsyanları, 1920-ci ilin may-avqust, sentyabr-dekabr aylarında Yozqat üsyanları, 1920-cı ilin may-iyun aylarında Zilə üsyanı, 1920-ci ilin oktyabr-noyabr aylarında Konya üsyanı, uyun-sentyabr aylarında Viranşehir bölgəsində Milli Aşirəti üsyanı, 1921-ci ilin mart-iyun aylarında Sivas-Ərzincan arasında yerləşən Koçkiri üsyanı və nəhayət Samsun və Qara dəniz sahillərini əhatə

---

[1] Doğan Avcıoğlu: "Milli Qurtuluş" tarixi, s. 285.
[2] Bayburt-vilayət adı.

edən və Milli azadlıq mübarizəsi dövründə davam edən Pontus hərəkatı bunlardan bir neçə kədərli misaldır.

Heyf ki, bütün bu üzücü və kədərli misallar, şübhəsiz tərtəmiz vətəndaş kütlələrinin duyğularını əks etdirən, "İstiqlal Marşının" müəllifi, rəhmətlik şairimiz Mehmet Akif Ərsoyun "Yarəbbi, zəfər nəsib et, sonra hüzuruna dəvət et" deyərək Allaha yalvarışından sonrakı illərə və günlərə təsadüf etməkdədir.

Unudulmamalıdır ki, zəmanəmizin realist baxışı ilə baxdıqda aydın olur ki, düşmənlərin düşmənçilik təşəbbüsləri təkcə yuxarıda saydıqlarımızdan ibarət deyildir. İstiqaməti nə olursa olsun istismara yol açan, cəmiyyətin dinclik və rahatlığına xələl gətirən hər bir hərəkət, millətin birlik və bərabərliyini pozan hər bir təşəbbüs, xalqın azadlıq və mədəniyyətini ləngidən hər bir davranış, çıxılmaz vəziyyətə və ifrata varan hər gediş, maskasının görünüşü və qalınlığı nə dərəcədə olursa olsun, özündə və daxilində mənfəətpərəstlik və yolundan azdırıb aldatmaq kimi, gizli qalan hər bir hərəkət bir növ xəyanətdir. Bunların hərəkətlərini təşkil edən, bu işə təşviq edən, onları həyata keçirən və dəstəkləyənlər də Şeyx Əşrəflərdən, Anzavurlardan fərqi olmayan bir xaindən başqa insan sayıla bilməzlər və insan da deyildirlər.

Qurtuluşun ümumi dəyərini aydınlaşdırmaq, xaricdə və daxildə kimdən, kimlərdən qurtulduğumuzu və qurtulmağımızın vacib olduğunu anlatmaq üçün qısaca məlumat verərək, misallar gətirdikdən sonra mövzumuza başlayacağıq.

Tarix boyunca ruslarla ən çox qarşı-qarşıya vuruşduğu halda, Ərzurum heç vaxt bir sərhəd bölgəsi olmamışsa da (şərqdə Kars şəhəri var), qədim dövrdəki müharibələrdə demək olar ki, əhəmiyyətli bir qala şəhəri olmuşdur. İstər bu keyfiyyətinə və istərsə də geosiyasi xüsusiyyətinə görə ona göz dikənlər az olmamışdır. Həqiqətən də, Bizansın, iranlıların, ərəblərin, gürcülərin, rusların və ermənilərin gözləri hər zaman Ərzurumda qalmışdır. Buna rəğmən bu şəhər həmişə biz türklərin əlində qalmış və ürəyimizdə yer tutmuşdur.

Ərzurumun türklərin əlində qalaraq onlara məxsus edilməsi, Sultan Alp Arslanın qılıncı sayəsində olmuşdur. Unutmaq olmaz ki, "M. 1514-cü ildə Şah İsmayılı məğlub edərək Çaldırandan dönən Sultan Yavuzun gücü ilə Ərzurum yenidən türklərə və ölkəyə məxsus edilmişdir. Əslində doqquz yüz ildən bəri bizim olan Ərzurumun qara günləri çox olmuşdur. Tez-tez rusların hücumuna məruz qalan Ərzurum, onların tərəfindən dəfələrlə yandırılıb xarabaya çevrilmişdir.

Həqiqətən 1828, 1856, 1876, 1877 və 1916-cı illərdə bir-birinin ardınca təkrarlanan Rus hücumlarında Ərzurum dəfələrlə yandırılmasına baxmayaraq, ərzurumlu heç bir zaman qorxmamış, vahiməyə düşüb məğlubiyyətə uğramamışdır.

1856-ci ildəki hərəkatı ilə Həsəni Bəsri məhəlləsi Gavurboğan (kafir boğan) adlandırılmışdı. Tarixi mənasına görə, xalqımızın şəhərinə, məhəlləsinə və qonşusuna göz dikərək hücum edənlərin cavablarının verməsi və əsl igidlik xatirəsi kimi bu ad ilə adlandırılmış və əbədi olaraq belə qalmışdır.

93 (1877)-cü ildə Aziziyədə vuruşaraq dastanlaşan və hər biri yazıçılarımızın, rəssamlarımızın və heykəltəraşlarımızın şah əsərlərinə mövzu olmağı gözləyən qəhrəman qızlarımızdan Hürmüzlərimiz, Nənələrimiz, Namələrimiz, Şərifələrimiz, Fatmalarımız, Gülüzarlarımız..., qəhrəman oğullarımızdan Şükrü Ustalarımız, Hacı Həsənlərimiz, Bəhlul oğlu Aslanlarımız, Yaşar Əmmilərimiz, Ağabəyilərimiz vardır. Və nəhayət, bu iki gündə verdiyimiz 10-15 qadın, 450-500 kişi şəhidlərimizlə bu torpaqlar uğrunda ölməyi gözə alaraq ölməyi bacardığımızı göstərmiş və bunu isbat etmiş oluruq.

1856 və 1877-ci illərdə çox az istisnalar ilə o dövrün valisi İsmail Hakkının imzası ilə bir teleqram yazısı təsdiqlənmiş şəkildə, bir xalq olaraq göstərdiyimiz vətənpərvərliyin soy və qan baxımından biz Ərzurumlular üçün türklüyə məxsus bir mərdlik və alicənablıq xüsusiyyətinə malik olduğumuzu yenidən bir daha isbat etdiyimizi, 1916-1918-ci illərdəki davranışlarımızla göstərmiş oluruq. Həm də:

*"Bu kurtuluş günüdür, Erzurumun düşmandan,*
*Et kemikten ayrılmaz, Erzurum da vatandan".*

- deyərək ermənilərlə qədim ölkənin bir çox yerlərində olduğu kimi, ümumiliklə şərqdə və Ərzurum vilayətində də əsrlərcə məhəllə-məhəllə, bazar-bazar, dükan-dükan, nəhayət kənd-kənd və tarla-tarla bir-birimizin yanında yaşamışıq. Hələ bölgəyə və bu yerlərə qılınc gücü ilə yerləşdiyimiz ilk günlərdən etibarən hüquqlarına, varlıqlarına hörmət etdiyimizi amannamə[3] şəklində olan təminatlardan daha etibarlı olan insani davranışımızla hər zaman göstərmişdik. Bu göstərdiyimiz hərəkətləri bizim dövlətin gücünə, əsrlərcə çox yüksək səviyyəli mədəniyyətimizə və xalqımızın çoxluğuna güvənib daima mədəni bir şəkildə etmişik.

Həqiqətən miladi 1224-cü il tarixində monqollar tərəfindən xalqının qılıncdan keçirilməsi və sürgün olunmalarının nəticəsi olaraq Ərzurum bomboş qalmışdır. Şəhərin əhalisi X əsrin əvvəllərində ancaq 2810 nəfər idi. Əsrlər keçdikdən sonra, yəni XVIII əsrdə əhalinin sayı 24.400 nəfərə çatmışdır. Bunlardan 18.000 nəfəri türk, 6000 nəfəri erməni, qalanları isə yunan və s. idi. 1871-ci ildə əhalinin sayı 116.588 nəfər olmuşdur. Bu əhalinin də 86.901 nəfəri türk idi. 1898-ci ildə bu vilayətin əhalisi 669.000 nəfərə çatmışdır ki, bunların da 538.422 nəfəri türk olmuşdur. Türklərin sayı təxminən hər zaman ermənilərin, hətta bütün xristianların sayından üç, üçdən artıq və dörd dəfə çox olduğu görünür.

Ermənilərin hüquqlarına hörmət etməklə yanaşı, demək olar ki, onlara bir çox başqa hüquqlar da vermişik. Məşrutiyyətin elanından sonra I Dünya müharibəsi illərində özünü Arman Qaro adlandıran, biz türklərə qarşı ağır cinayətlər törədən şəxslərlə tapışıb və birləşən Karakin Pastırmacıyanı millət vəkili seçərək İstanbula göndərmişdik. Eynilə 1877-ci ilin ilk dövrlərində 4 millət vəkilindən ibarət bir dəstədə Əhməd Muxtar ilə Hacı Raufun yanında Hamazasyan Hallaçyan ilə Taniel Qaraciyanı da göndərmişdik.

[3] İslam dövlətlərində düşmənə təhlükəsiz olduğunu bildirmək üçün verilən sənəd.

Ermənilər öz əməllərini həyata keçirmək üçün Ərzuruma çox əhəmiyyət vermişdilər. Əhəmiyyətli olmasının başlıca səbəblərindən birisi də, buranın rus sərhədlərinə yaxın olması, yolların kəsişmə nöqtəsində olması, onlara aid bir çox kəndlərin Rusiyaya doğru bir keçid kimi uzanıb getmələri olmuşdur. Bu səbəblərdən faydalanan ermənilər Qafqazdakı erməniləri Türkiyəyə köçürmüş, silahlılar dəstəsini burada yaratmış və Daşnaksutyun bürosunu buraya köçürməyi qərarlaşdırmışdılar.. Birinci Dünya müharibəsinin başladığı illərdə Erməni üsyan komitələrinin birliyinin iki həftə davam edən ümumi konqresinin Ərzurumda keçirilməsinin də bu səbəblərlə əlaqəsi vardır.

Kanuni Sultan Süleyman zamanında vergi bəhanəsilə ilk dəfə üsyana qalxmış ermənilər siyasi məqsədlərini həyata keçirmək üçün mason lojaları da yaratmışdılar. Bunlardan (SER) mason lojasının siyasi tariximizdə əhəmiyyətli bir yeri olduğu bildirilir.[4]

Digər tərəfdən ehtimal ki ermənilər 1789-cu il Fransız üsyanından ilham alaraq 1861-ci il kimi tariximizin ən böhranlı bir dövründə muxtariyyət məsələsini ortaya atmışdılar.

Nəhayət 1890-cı ildə Ərzurumda aparılan silah yoxlamalarını və indiki Atatürk İnşaat İnstitutunun əvvəlki yerində yerləşən Sanasaryan adlı erməni məktəbinin üzərinə bayrağımızın asılmasını da bəhanə edərək bütün məhəllə üsyana qalxmışdı. Bundan sonra hər il, hətta hər ay və hər gün bu pis əməllərini, yaramazlıqlarını daha da artıraraq xalqımızın rahatlığını pozmuş, dövlətimizin başını qatmaqla, qayğılarını artırmaqla Birinci Dünya Müharibəsinə doğru irəliləmişlər. 1908-ci il Trablusgərb müharibəsi və 1912-ci il Balkan müharibəsində məğlubiyyətə uğramağımız demək olar ki, erməniləri çox sevindirmişdi. Bölünəcək ölkədən bir parça qoparacaqlarını ümid edərək ruslarla birləşən ermənilər böyük xəyallar arxasınca qaçmış, onların qələbə çalmaları üçün yardımlarını əsirgəməmiş və hər sahədə onlarla əlbir olmaqdan çəkinməmişdilər. 1915-ci illərdə şərqdə böyük itkilər verərək sonsuz dərəcədə pərt olan xalqımız Mərkəzi

---

[4] Masonluk və Masonlar.

Anadoluya çəkilərkən, ordumuzu təqib edərək Ərzuruma doğru irəliləyən rus əsgərlərinə yerli ermənilərin zəfər nəğmələri söyləyərək bələdçilik etmələri də onların öz ümid və xəyallarından əl çəkmədiklərini göstərir.

1916-cı il 16 fevralda Ərzurumun ruslar tərəfindən işğal olunması ermənilərin ümid və sevinclərini daha da artırmış və onları çılğına döndərmişdi.

Aparılan müharibədə taleyimizin üzümüzə gülmədiyini hiss edən xalqımız, xüsusilə ermənilərlə qarışıq halda yaşayanlar və qonşu kəndlərdə olanlar başda olmaqla bir çoxları yurdumuzun, Anadolumuzun mərkəzlərinə köçmüşdülər. Uzaqlarda və öz kəndlərində qalanlar isə əksəriyyətlə qəsəbə mərkəzlərinə və bəzi əlverişli kəndlərdə toplanmışdılar. Belə vəziyyət xalqımızın təhlükəsizlik cəsarətini artırıb həmrəyliklərini təmin etdiyinə görə kütləvi halda öldürülmələrinin qismən də olsa qabağını almışdır.

Nəhayət şəhərə girən ruslar, məhəllə və küçələrə növbətçilər qoymaqdan başqa, həm öz işlərini yerinə yetirmək və həm də xalqın təhlükəsizliyini qorumaq üçün əhəmiyyətli binalarda asayiş keşikçiləri qərargahı yaratmışdılar. Bu qərargahlarda çoxlu sayda zabit, kifayət qədər rus əsgərləri və ayrıca hər on-on beş məhəlləyə bir nümayəndə təyin edilməklə, aralarında türklərin də olduğunu o günlərin şahidlərindən öyrənmişdik.

Türk nümayəndələri xalqla, məhəllə muxtarı və gözətçiləri ilə təmasda olaraq, ermənilərin və rus ordusuna mənsub olan əsgərlərin etdikləri yaramaz hərəkətləri əlaqədar yerlərə çatdırmaqla, səlahiyyətli adamlardan aldıqları əmrləri də xalqa bildirərlərmiş.

Ümumi idarəçilik bu şəkildə aparılmaqla bərabər, xüsusilə yerli erməniləri müxtəlif vəd və təminatlarla aldadaraq öz tərəflərinə çəkdikləri, bəzi zəif xarakterli yaramaz adamlarla birlikdə iftira və böhtan yayan komitələr yaradaraq, danosçuluğu adət halına saldıqları məlum olmuşdur.[5]

---

[5] Rəhmətlik Mehmet Kobaza, əvvəllər Həsənbəsri məhəlləli Mehmet Kaloğlu, ayrıca Qəni Kulləbi, Əziz Geçikli, Sırrı Çamaçırçı ilə 1967, 1968 və 1969-cu illərdə apardığımız tədqiqatları təsdiq etmişdir. Bu şəkildə bir-birlərini təsdiq

İdarəçiliyi təşkil etmiş işğalçı ruslar görkəmli adamları ermənilərin təlqin və iftiraları ilə toplayıb sürgün etməklə kifayətlənməyib, şəhərlilərimizin bir çoxunu asmaqla öldürmüşdülər. Bunların arasında Qumludərəli Həsən, Veyisəfəndili çörəkçi Emo, Komisli Ali, Səlim oğlu Səbri, Laz Yəhya, Camal əfəndi, Evyıxan oğlu Şükrü, Dövlət baş borclar idarəsi katibi Mumtaz bəy və başqaıarının adları verilmişdir.

Şübhəsiz ki, rusların ilk zamanlarda qətl etdiyi insanların sayı ancaq bundan ibarət deyildir. Qəza və kəndlərdə də öldürülənlər az olmamışdır. Misal üçün, İspir adlı qəzamızın Varcens, Eşkens, Şeyxmuş, Hontus, Mezehrek kəndlərində yüzlərcə qadın və uşaqları müxtəlif işgəncələrlə öldürdükləri kimi, türk partizanlarının yerini xəbər verməyən Mehmet Nuhoğlunu da süngü ilə öldürmüşdülər. Eyni zamanda 65 nəfər Norgahlı həmyerlimizi güllələmişdilər.

Rusların mərkəzi komandanlığı altında və asayışi qoruma idarəsində işləyənlər arasında çalışan və əksəriyyətinin adlarının Əmrullah, Ataullah, Nurullah olduğu bildirilən Kazanşəhərlilərin türk xalqı ilə çox yaxşı rəftar etdiklərini o günlərin şahidi olanlardan məmnuniyyətlə öyrəndiyimizi qeyd etmək istərik.

---

edən, tamamlayan belə məlumatlara baxıldıqda, xaincəsinə xidmətlər göstərən və iftira edənlər arasında dəfələrlə kişi qiyafətinə girərək, düşmənlərlə birlikdə gəzib varlı evlərini nişan verən fəsli qadın ilə, yaşca böyük olan Şöhrət adındakı qadından başqa (o Ərzurumlular tərəfindən öldürülmüşdür), Çaxmaq kəndindən Nuri, Tahmisci Hafiz, Gavurboğanlı kürd Yusif, Çırçır məhəlləli Şevket, Bayburtlu Rəşid, Sıvırcıq məhəlləli Gavur Əli və bir də Çil Təyyarın oğlu Agah da bu işlərdə iştirak etmişdilər. Yalnız Agah sonralar ermənilərin etdikləri zülmlərə və oğurluqlarına qarşı çıxmış, hətta ermənilərin zorla aparmaq istədikləri Murad Paşalı Hacı Tayfurun gəlinini ermənilərin əlindən alaraq, namusunu ləkələnməkdən qurtarmışdır. Adı çəkilən Çaxmaqlı Nuri şəxsən ermənilər tərəfindən öldürülmüş, qalanları da Cin Əlinin oğlu Mehmet, Göləli Camal və digər ərzurumlular tərəfindən öldürülmüşdülər. Xalqın mərhəmətinə sığınan bir neçə nəfər də zəlil kimi yaşayaraq, öz əcəlləri ilə ölmüşdülər.

## XALQIMIZA QARŞI OLAN ERMƏNİLƏR

Ruslar çəkilib gedərkən onların yerini tutan, özlərini işğalçı kimi göstərərək xalqımıza qarşı duran ermənilər olmuşdu. Əvvəlcə də qeyd etdiyimiz kimi, böyük xəyallar quran və ümid arxasınca qaçan ermənilər ilk zamanlarda rusların işlərinə çox yaramışdılar. Ruslar isə öz siyasətlərinə uyğun olaraq onların silahlandırılmasına və hər tərəfli təchizatına əhəmiyyət verirdilər.

Belə bir vəziyyətdə olan ermənilər ruslar çəkilib getdikdən sonra hər işi öz əllərinə almış, Hınçak və Daşnak komitələrinin səyi ilə daha çox təchiz edilmiş və mükəmməl bir hala salınmışdılar.

1877-1878-ci il müharibəsində məğlubiyyətə uğramağımız nəticəsində Ayastefanos müqaviləsinin ağır şərtləri əsasında bu arada böyük Bolqarıstan qurulmasını, Rumıniya, Serbiya və Qaradağın müstəqilliyinin elan edilməsini nəzərə alan ermənilər, I Dünya müharibəsindəki məğlubiyyətimizə görə, öz muxtariyyət arzularını reallaşmış sayırdılar. Necə ki, Ərzurum hərəkatının uğuruna inanan erməni patriarxı Nersin Varcebetyan tərəfindən rus baş komandanı Qrandük Nikolaya müraciət edərək, artıq erməni dövlətinin qurulmasının vacibliyini təkrarlamışdı.

Şərqi Anadoluda yerləşən və xeyli silahla təchiz olunduqlarına işarət olunan erməni dəstələrinə rəhbərlik edən Mazmanov rus ordusunda yetişmiş bir erməni zabiti idi. Bunun kimi intiqam polklarının və erməni qüvvələrinin baş komandanı olan Andranik də Rusiyada yetişmiş, gizli siyasi cəmiyyətin qatı millətçi üzvü idi.

Bunların və bunlara bənzər başqalarının idarə etdikləri erməni əsgərləri çox keçmədən vilayət, qəza və kəndlərdə yaşayan yerli ermənilərin yardımı və bələdçiliyi ilə insanlığa yaraşmayan hərəkətlərlə yaramazlıqlar etməyə başladılar.

Əsas imkansızlıq üzündən və müxtəlif səbəblərə görə köçə bilməyən və eyni zamanda özlərinin təhlükəsizliyini təmin edə bilməyən minlərcə, on minlərcə türk kəndli və şəhərlisini, uşaq,

qadın və qoca demədən kütləvi şəkildə cinayətkar əməllərlə öldürmüşdülər.

Rusların hərəkətlərini təkrar edərək yollarda işləməyə dəvət etdikləri və hətta zorla gətirdikləri həmyerlilərimizi kütlə halında yox etmişdilər. Onları Taxtacılardakı Osman ağa malikanəsi ilə Tuzcu kəndinin camisi, Konaklı kəndindəki Salih ağa və Dəvriş bəyin evləri kimi binalara dolduraraq yandırmışdılar. Yaxud Təkədərəsi kəndində Həsən ağanın evində etdikləri kimi, əhali ilə ağzına qədər doldurulan yerləri bombalamışdılar.

Bu qara və qanlı günləri yaşayan Ərzurumun 12 martdakı qurtuluşundan qısa bir zaman sonra, yəni 6 may 1918-ci ildə Ərzuruma gəlmiş mərhum tarixçi Əhməd Rəfiq bunları yazmışdır: "Yanğın olan yerdəyəm. Türklərin bu tarixi və fədakar şəhəri adətən bir xaraba halındadır, küçələr və binalar, məscidlər və məktəblər tamamilə xaraba qalmış, evlər ölülərlə dolu idi. Yanıb dağılmış evlərin xarabalıqlarına ayağın ucu ilə toxunulduğu zaman, qaralmış, dişləri ağara qalmış insan kəllələrinə, uşaq başlarına, qol və bud, gövdə və ayaq tikələrinə rast gəlmək olur."[6]

Yenə də tarixçimiz təkcə Ərzurum küçələrindən toplanan adam ölüsünün 4000-dən artıq olduğunu yazmışdır.

Ruslardan sonra ermənilər bir ilə qədər davam edən işğalları dövründə və geri çəkilərkən ən yaramaz və iyrənc şəkildə əhaliyə işgəncələr vermiş və qətllər etmişdilər. Bunları bənd-bənd siralayaraq, törətdikləri insanlığa yaraşmayan davranışları nifrət və lənətlə bir daha nəzərə çatdırmaq üçün bəzi nümunələri təkrarlamaq istəyirik. [7]

1 - Müdafiə olunmağa gücü olmayan məsum insanların başlarını parçalamışlar, qılıncla boyunlarını üzmüşlər. Ağac budamış kimi, qollarını və ayaqlarını kəsmiş və bəzilərini də tikə-tikə doğramışdılar.

2 - Müxtəlif bəhanələrlə bir yerə topladıqları əhalini, küçələrin ortasında öldürmüşlər, ayrıca bəzilərinin bədənlərini

[6] Prof., Dr. Zəki Başar. "Qurtuluş yazılarımla Ərzurum", 1967. s. 79.
[7] Müxtəlif cəhətləri ilə Ərzurum və ətrafı, 1968. s. 64-65.

süngüləyərək dəlik-deşik etmişlər. Yollarda işlətmək, müxtəlif bəhanələr və müxtəlif təminatlarla inandırıb evlərindən uzaqlaşdırdıqları əhalini ən ağır işgəncələrlə öldürüb dərələrə doldurmuşlar. Üç min adamın yatdığı «Yanıqdərə» bunlardan birisidir.

3 - Yuxarıda da qeyd etdiyimiz kimi, kəndlərdə və şəhərdə bir dəstə adamları evlərə doldurub yandırmışdılar. Taxtacılar küçəsindəki Ezirmikli Osman Ağanın malikanəsi ilə Konaklı kəndindəki Salih Ağanın, Dərviş bəyin evləri, Təkə dərəsi kəndində Musagilin Həsən və Ağaya aid evlər belə qətllərə səhnə olan yerlərdən bir neçəsidir. Bunlardan əlavə, digər bir ev yandırma hadisəsi Qarayazı qəzasının Hanik kəndində, çox dramatik bir şəkildə baş vermişdir.

Yetmişə qədər qadın və kişi bir tövləyə doldurulduqdan sonra, tövlədə başı açılıb buraxılmış bir camışın belinə yorğan bağlamışlar. Camışın belinə Mirzə adlı bir vətəndaşı oturdaraq bərk-bərk bağlamış və onun təpəsindən bir qab neft tökərək camışla birlikdə yandırmışlar. Yanmağa başlayan heyvan Mirzənin fəryadından daha da azğınlaşaraq ətrafını vurub dağıtmış və tövləyə doldurulmuş adamları ayaqlayaraq, yandırıb öldürmüşdür. Bununla da kifayətlənməyərək, yenidən yandırılan tövlə yanıb kül olmuş və 70 vətəndaşın məzarına çevrilmişdir.

4 - İnsafı və insanlıq hisslərini itirərək, yataqda yatan xəstələri ayaqlar altına alıb əzmək və başqa müxtəlif əzablar verməklə öldürmüşdülər.

5 - Uşaqları analarının gözləri qarşısında qoyun kimi boğazlarını kəsib, quyulara atmaqla kifayətlənməmişdilər. Hınısda olduğu kimi bir ananın qucağından əmzikli uşağı alaraq, ananın gözləri qarşısında doğramış, yanan təndirdə ətini bişirmiş və anaya yedirtməyə çalışmışdılar.

6 - Qadınların, qızların barmaqlarında, qollarında gördükləri üzük, bilərzik kimi zinət əşyalarını almaq üçün qollarını, barmaqlarını kəsmişdilər.

7- Toplayıb apardıqları qadınları və qızları həftələrlə yanlarında saxlamaqla namussuzluğa yuvarlanmış və qadınların

arasında 7-8 yaşlarında uşaqları saxlamaqla öz alçaq və namussuz hərəkətləri ilə cinayətlər törətmişdilər.

8- Hamilə qadınların qarınlarını yararaq çıxardıqları uşaqları süngülərinin ucunda yuxarı qaldıraraq öz vəhşiliklərini göstərmişdilər.

9- Məscidlərdən tövlə kimi istifadə etmiş və bir çox məzarlıqları tanınmayacaq dərəcədə dağıtmışdılar.

10- Zülm, işgəncə, pis və alçaq hərəkətlər kimi ağıla gələn nə varsa, onların hamısını artıqlaması ilə icra etmişdilər.

Əlbəttə ki, bütün bu hərəkətləri və daha acınacaqlı işləri törədən ermənilərdən xalqımızı qurbanlıq qoyun kimi olmaqdan qurtaranlarımız, təşkilat yaradanlarımız, müqavimət göstərənlərimiz, hücuma keçənlərimiz və hətta intiqam alanlarımız da az olmamışdır.

Şəhərin dağılacağı vaxtlarda Vali Tahsin Özər əvvəlcədən anbar halında istifadə olunmuş Qoşa minarələr və Qala məscidinə zərər dəyməməsi üçün lazım olan işləri görməyi inzibati idarənin baş katibi Hüseyin Çamaşırçı vasitəsilə xalqa çatdırılmasını tapşırmışdır. Valinin bu əmri xüsusən Marancı Tevfik Əfəndi tərəfindən yerinə yetirilmişdir.[8] Digər tərəfdən, ermənilərin çox gizli saxlamalarına baxmayaraq, soyqırımı təşkil etmək üçün niyyət və hazırlıqları onlarla təmasda olan türk nümayəndələri tərəfindən hiss edilərək xalqa xəbərdarlıq edilməsi də, ölüm hadisələrin nisbətən az olmasına səbəb olmuşdur.

Erməni hücumlarına qarşı qəzalarımızda, xüsusilə İspir, Oltu, Olur, Narman, Tortum...da komitələr təşkil olunmuş, müqavimət dəstələri yaranmış, xalq arasında vətənpərvər, çox cəsur, inamlı qəhrəmanlar meydana çıxmışdır. Bunların hər biri hörmət və rəhmətlə yad olunmağa layiq nümunəvi xidmətlər etmişdilər. Yaşadığımız qara illər, qara aylar və qapqara günlərdən sonra aydın, işıqlı günlərə çıxarkən;

[8] Məlumat Sirri Camaşırçı tərəfindən verilmişdir.

*«Ne mübarek, ne aziz, ne mukaddes bu vatan,*
*Uğrunda göz kırpmadan dökülüyor temiz kan»*

demişdik.

Çünki ermənilərin keçmiş illərin arxasında qalan pis, natəmiz, alçaq niyyətləri qədər törətdikləri və yenə də təkrar etmək istədikləri alçaqlıqların, xəyanətlərin, etdikləri cinayətlərin hər növü bütün çılpaklığı ilə meydana çıxmışdır.

Qədim tarixlərdə erməni gizli siyasi cəmiyyət üzvləri ilə bir amerikalının danışığı bu baxımdan çox mənalı görünür. Danışıq aparan amerikalı dr. Hamlinin (İstanbuldakı Amerikan kollecinin təsisçisi və direktoru) bu söhbətini əks etdirən 23 dekabr 1893-cü il tarixli məktubu «Boston» qəzetində nəşr olunmuşdur.

- Rusların Anadoluya girmələrinin planını hazırladıqlarını söyləyən gizli komitə üzvü olan erməniyə, dr. Hamlin "necə" deyə soruşduqda, komitəcinin cavabı belə olmuşdur.

- «Bütün imperatorluqda təşkilatlanmış Hınçak dəstələri türkləri öldürmək, kəndlərini dağıtmaq üçün fürsət axtaracaqlar. Sonra dağa çəkiləcəklər. O zaman dəliyə dönən müsəlmanlar da bölgələrindəki müdafiə olunmayan ermənilərin üzərinə elə hücum edəcəklər ki... Elə bir soyqırımı olacaqdır ki, bu dəhşət qarşısında Rusiya insanlıq və xristianlıq naminə hücuma keçib Anadolunu işğal edəcəkdir».

Amerikalı çaşıb qaldı və dəhşətə gəldi: - «Belə bir işi necə edərsiniz? Bu nə qorxunc plandır!».[9]

Göründüyü kimi, bir amerikalının belə qorxunc gördüyü bir planı tətbiq etməyə çalışanların qarşısına ərzurumlularla qucaqlaşaraq qüvvələrini birləşdirən Türk ordusu çıxacaq, müxtəlif işgəncə və xəyanətlərin hər növünü, ən alçağını törədənlərin öhdəsindən gələcək, işgəncə və xəyanət qurbanlarının şübhəsiz ki, intiqamını alacaqdır!...

[9] 1 Mart 1970-ci il tarixli "Hürriyət" qəzeti, Metin Toker: "Argentinadakı son erməni gizli siyasi komitə üzvlərinə dair reportaj".

*«Erzurumun bu zafer, destan olmuş ünüdür,*
*Ana, baba günündə, dadaşın düğünüdür.*
*Vatan borcu ödenmez, bu bir hakikat ama,*
*Vatan borclu kalmıştır,Erzuruma daima».*[10]

12 mart 1918-ci ildə "Ərzurum" öz qurtuluşu ilə 23 iyul 1919-cu ildə Ərzurum konqresində iştirak etmiş, buradan 4 sentyabr 1919-cu ildə çağırılan Sivas konqresinə getmiş, Sivasdan sonra Misakı-Millidən (28 yanvar 1920 - Milli pakt) keçərək və güclənərək 23 aprel 1920-ci ilə çatmışdır. Nəhayət, 29 oktyabr 1923-cü ilə qovuşmuş və beləliklə, Cümhuriyətin təməlində yer almışdır.

[10] Mənzum parçalar rəhmətlik Gl.Dr. Faiq Daşçıoğlundan götürülmüşdür.

***Əhməd Rəfiq Altınay***

## “QAFQAZ YOLLARINDA XATİRƏLƏR VƏ TƏƏSSÜRATLAR” KİTABINDAN

Tarixçi Əhməd Rəfiq Altınay İstanbul Universiteti ədəbiyyat fakültəsində müəllim işləyərkən, 1918-ci ildə Ərzincan, Ərzurum, Trabzon, Gümüşhane, Kars və Batum bölgələrinin azad olduğu vaxtlarda rus zabitləri və texniki əsgərlərin də xidmət etdiyi etməni Daşnak komitəsinin rəhbərliyi altındakı erməni hərbi qüvvələri və quldur dəstələrinin burada yaşayan türkləri ən vəhşi üsullarla qırıb yox etmək üçün etdikləri «Məzalimi» (zülmləri) araşdırmaq üçün gələn Türkiyə Qızıl Aypara Cəmiyyəti və Alman-Avstriya Qızılxaç heyətinin tərkibində «Türk nümayəndəsi» olaraq iştirak etmişdir. Gördüklərini, Mondros mütarikəsindən (atəşkəsindən ) sonra 1919-cu ildə İstanbulda “Qafqaz yollarında xatirələr və təəssüratlar» adı ilə 78 səhifəlik bir kitab çap etdirmişdir. Aşağıda verilən parçalar həmin kitabdan eynilə götürülmüşdür.

### Trabzon, 17 aprel 1918.

Aylarca (18 aprel 1916 - 18 dekabr 1918-cı illər arasında) Moskva istilası altında qalan, aylarca ana vətənindən uzaqda yaşayan bu şəhər, indi bahar çiçəklərilə bəzənmiş, çox şövqlə və sevinclə, toplarilə, gülərüzlə, vətən həsrətilə ziyarətə gələnləri hörmətlə salamlayır. Lakin bu sevincdə yaralı və pərişan bir qəlbin acı təbəssümləri hiss olunur. Trabzon yaralanmış, Trabzon pərişan, Trabzon mənəvi və maddi cəhətdən bir xarabazar, başında zərif çiçəklərlə görünən bu qız, gözəl və cazibəli simasını ancaq çələnglər içində təbəssümlü göstərir. Lakin onun daxili aləmini görsəniz, vücuduna baxsanız, mərmilərdən, qatil əllərdən, qantökən barmaqlardan neçə yaralar almış, necə zərbələr yemiş, necə fəlakətlər görmüş...

Pərişan halda olan xalq, 18 dekabr 1917-ci ildən 24 fevral 1918-cı ilin qurtuluş gününə kimi, erməni və rum* quldur dəstələrinin işğalı altında olduğu vaxt uğradığı faciəli bir yanğından sonra, sönən ocaqlarını, yanan evlərini görməyə gələn, uşaqlıq xatirələrini mühafizə edən yerlərin məhv olduğunu acı bir təbəssümlə seyr edən insanlar vəziyyətində olmuşdur. Qarşı tərəfdə, önündə bir çuval fındıq, kasıb bir qoca divar dibində oturub düşünür. Bu tərəfdə kiçik, sarışın, yalınayaq uşaqlar çirkli üzləri ilə küçənin palçıqları arasında qaçışırlar. Yorğun və üzgün görkəmdə olan, üzlərini bərk-bərk bağlamış qadınlar, kiçicik çarşaflı qızlarının əllərindən tutmuşlar və yoxuşlardan taqətsiz bir halda qalxırlar.

Dağılmamış çox az bina var. Şəhərin ən səliqəli, əldəyməmiş binaları qayaların dibində yerləşən Rum kilsəsi, Rum məktəbi, Rum məzarlığı və əksəriyyəti Rum evləridir. Qədim Trabzon, qəhrəman Yavuzun (Birinci Səlim) gənlcik illərinin şahidi olan məhəllələr, Bizans və Osmanlı qalalarının içi tamamilə dağılmış...

Hər şey, hər yer, hər ev, hər küçə, hər türbə dağılmış. Bu faciəli yanğının dağıntıları ortasında camilərin çılpaq minarələri, məzarlıqların tamamilə qırılmış daşları, dayanacaqlara çevrilmiş meydanlar ürəyə ələm verir... Camilər dəhşətli bir halda. Təxminən hamısı tövləyə çevrilmiş. Içlərində dörd-beş barmaq qalınlığında peyin yığılmış. Mehrabları, minbərləri, taxta hissələri tamamilə dağılmış, Allahın birliyinə aid yazılan kəlimələr silinmiş. Divarlara rusca yazılar yazılmaqla bərabər, çox biabırçı rəsmlər də çəkilmiş ki, bu rəsmlərdə Türk qadınlığı təhqir edilmiş. Minarələrdən bəziləri qırılmış, bəzilərinin qiymətli oymalı şərəfələri dağıdılmış. İçkale camisi tam tövlə halına salınmış.

Sahil körpüsünün yanındakı qəbirsanlıq dağıdılıb yerlə bir edilmiş və yerində taxtadan böyük bir teatr səhnəsi düzəldilmiş. Bələdiyyə bağı böyük bir maşın dayanacağı olmuş. Bazar kimsəsiz və qaranlıq. Mağazalar bomboş olmuş. Bəzilərinin

* Rum- Türkiyədə doğulub, yaşayan yunanlar.

qıfılları qırılmış, kassaları süngülərlə sındırılmış. Hər yerdə dəhşətli quldurluq əlamətləri var....

Bu təxribat qəbirsanlıqların ortasındakı türbələrə qədər gedib çıxmışdır. Bu türbələrdən biri də Gülbahar Sultan Türbəsidir. Gülbahar Sultan Dulqədiroğullarından olub, Yavuz Sultan Səlimin anasıdır.... Anası Gülbahar Sultan I Səlim (1512-də) taxta oturduqdan yeddi il əvvəl Trabzonda vəfat etmiş, İmarət camisinin sıx sərv ağaclarının altında dəfn olunmuşdu. Üzərində səkkiz güşəli zərif bir türbə düzəldilmiş. Son təxribatdan, bu türbə də zədələnmiş. Türbənin pəncərələri, içərisindəki mehrab tamamilə dağıdılmış. Divarları güllələrlə deşilmiş, pəncərələrinin dəmir barmaqlıqları sökülüb çıxarılmış. Çilçıraqların və qəndillərin boş qalan zəncirləri həzin bir halda havada sallanır. Hətta məzarda bir dəfinə gizlədildiyini düşünərək Yavuzun möhtərəm anasının məzarını da darmadağın etməkdən çəkinməmişdilər.

Bütün bu təxribatlar Qafqaz erməniləri ilə Ərzurum, Ərzincan və Van tərəflərdən (1914-cü ildə, I Dünya müharibəsi başlamamışdan bir az əvvəl) Rusiyaya qaçan, sonra Osmanlılardan intiqam almaq üçün (Tiflisdə) könüllü olaraq rus ordusu tərkibinə daxil olan ermənilər tərəfindən icra olunmuşdur. Əhalinin danışdığına görə rus idarəçiliyində qayda-qanun ciddi imiş. Lakin, 17 noyabr 1917-ci il bolşeviklər meydana çıxınca vəziyyət dəyişmişdir. Rus əsgərləri zabitlərin əmrinə itaət etməməyə başlamışlar. O zaman da ermənilər sərbəst qalmış və bolşeviklərə qoşulan rus əsgərləri ilə birlikdə talançılığa və xüsusilə türklərə zülm etməyə və ortalığı dağıtmağa başlamışlar. 24 fevral 1918-ci il Osmanlı ordusu yetişincəyə qədər hər tərəfi yandırmış, dağıtmış, ordunun yaxınlaşdığını hiss edər-etməz əllərinə keçən müsəlmanları faciəli bir surətdə öldürmüş, ən gözəl şəhərləri xarabalığa çevirmişlər. Trabzon bu təxribatın Qara dəniz sahilində faciəli bir nümunəsidir. Küçələrdə görünən rusca yazılar kədərli bir istilanın ürək ağrıdan kitabələri kimi mövcuddur.

## Ardasa, 25 aprel 1918

Zıqana dağlarından yol burula-burula aşağı enir. Bütün kəndlər xaraba. Əhali vətənlərini, evlərini, ata-baba ocaqlarını tərk edib, kim bilir haralara getmişlər, haralarda ölmüşlər! Bu gözəl Anadolu beləydimi? Bir zamanlar bu ocaqlardan da tüstülər qalxar, bu ovalıqlarda da sürülər otlar, bu evlərdə də xoşbəxt ailələr qənaətlə, lakin səadətlə yaşayırdılar. İndi hər tərəf bir məzar, hər yer bir xarabazar.

Ardasaya gəldiyimiz zaman xarabalıqdan başqa heç nə görünmürdü. Rusların təxribatından, ermənilərin zülmündən adam dəhşətə gəlir. Adam bir fənər dirəyi görsə, onu darağacı zənn edir. Ardasa viran, caminin içi, qəbirsanlıq tamamilə dağılmış. Cami ilə mədrəsə tövləyə çevrilmiş. Qəbirsanlığın bir hissəsində qəhvəxana açılmış. Küçələr patron gilizləri ilə dolu. Burada rus idarəçiliyi dövründə yaşamış Həsən Baba şəhər haqqında danışılan bu məlumatlardan xəbərdar idi.

Ruslar burada lap çox adam öldürmüşlər. Ordumuzun Qabaqtəpədə qazandıqları qələbələr, Ardasada rusları dəli etmişdi. Bir çox müsəlmanlar rumların təşviqilə casusluqda ittiham edilərək nahaq yerə öldürülmüşdü. Rumlardan bəziləri ruslara təmannasız olaraq casusluq etmiş, özlərini Moskvanın rəhbərliyi altında əbədi olaraq yaşayacaqlarını sanmışlar. Rus bolşevikləri müsəlmanların fəlakətini daha da artırmış.

## Ərzincan, 29 aprel. 1918

Ardasadan Ərzincana gedən yolun üzərində ən gözəl, ruha təsəlli verən yer- Gümüşhanədir... Gümüşhanənin bağları üzüm, alma, ərik və qoz ağacları ilə dolu. Bağlar dar bir vadidə yerləşir. Yol vadinin kənarından keçir. Ruslar ən gözəl meyvə bağlarını dağıtmışlar. Kəsilmiş söyüdlərin, qoz ağaclarının, qiymətli meyvə ağaclarının böyük və ağ kötükləri öldürülmüş bir adam kimi yerdə qalır... Təkyə kəndi tamamilə xaraba qalmış. Ətrafındakı mədən suyu, torpaqları narıncı rəngə boyayaraq daima qaynayır.

Ruslar inqilab baş verdiyinə görə vətənlərinə qayıtdıqdan sonra, ermənilərin zülm etdiyi şəhərlərdən biri də Ərzincandır. Vaxtilə 20 min əhalisi olan qəsəbədə, indi üç-dörd min adam belə yoxdur. Rusların istilası dövründə qaçıb, gedə bilməyənlər, qəsəbədə qalanlar kasıb və aciz adamlar idi. Bunların da yeddi yüzə yaxın olan qismi ermənilər tərəfindən qılıncla doğranmış, öldürülmüş, yandırılmış və quyulara atılmış. Qəsəbə Osmanlı ordusu tərəfindən fevralın 13-də alınmışdı. Ölülərin toplanması hələ qurtarmayıb. Bu faciəli qan və səfalət qarşısında qarlı dağlar, baharı qarşılamağa hazırlaşan düzənliklər, yenicə çiçək açmış ağaclar səssiz- səmirsiz və sakit... Hər tərəfdə dəhşətli bir istilanın təsiri görünür. Keçirdikləri faciələr hamının qəlbində unudulmaz bir izlər qoymuşdur. Bələdiyyə idarəsinin qarşısı üzlərini bərk-bərk bağlamış, çarşaflı, ayaqyalın qadınlarla dolu. Bunlar aclıqdan şikayət edir. Bələdiyyə idarəsinin mərhəmətinə sığınırlar. O tərəfdə iki-üç nəfər başı çalmalı quyudan çıxarılmış bir cənazəni hündür bir daş üzərinə qoymuşlar, əllərində bel qəbir qazmaqla məşğuldurlar.

## Ərzurum, 6 may 1918

Ərzincan kimsəsizliyi ilə ürək ağrıdır. Bu yanğın yerlərindən bir an əvvəl tez uzaqlaşmaq bir səadətdir. Yola çıxdığımız zaman rast gəldiklərimiz aclıq mənzərələri və səfalətlərdir. Ermənilər tərəfindən kəsilmiş başlar, parçalanmış bədənlər heç vaxt gözlərimizin qabağından getmir. Bicanda kəndin yanan yerlərinə getdiyimiz zaman ətrafıma göz gəzdirdim...Kiçik bir qız uşağı, başı yolun kənarına yuvarlanmış, oyulmuş gözləri, ağarmış dişləriylə qaranlıqlar içində sanki ağlayırdı. Bican kiçik və xaraba bir kənd... Yollar, evlərin içi, hər yer atılmış güllə gilizləri ilə doludur....

Mamahatunun camisi, türbəsi, hamamı, karvansarayı, səliqəli və yüksək binalarının hamısı xaraba qalmış. Döyüş sursatı camilərə doldurulmuş və ermənilər camini də göyə sovurmuşlar.

Bu tarixi binanın böyük hissələri bir daş parçası kimi bir tərəfə atılmış, cami bünövrəsindən uçub dağılmış.....

Ermənilər Mamahatunda yüzlərcə insanı tələf etmişlər. Parkın yanındakı çökəklik türk ölüləri ilə dolu.

Ilıcaya yaxınlaşarkən, Ərzurumun müdafiəsi üçün düzəldilmiş məftil çəpərlər görünür. Yollar bomboş. Bəzən şəhərin kənarındakı xəndəklərdə kəsilmiş başlara, qoparılmış əl və ayaqlara təsadüf edilir. Yarəbbi, buralarda necə cinayətlər törədilmiş! İndi buralarda insandan əsər görünmür.

Ilıca səliqəli və böyük bir kənd. Ərzurum düzənliyi buradan başlayır. Düzənliyin solunda yerləşən kəndlər tamamilə dağılmış... Ermənilər əhaliyə ən çox burada zülm vermişlər. Çoluq-çocuq, qadın-kişi bir sözlə kənd sakinlərinin çoxunu öldürmüşlər. Kənddə tək bir nəfər də qalmamış.

**Ərzurum, 9 may 1918.**

Ərzurum Palantökən dağının ətəyində, əzəmətli camiləri, gözəl minarələri, hündür binaları, qarğa yuvaları ilə dolu hündür qovaq ağacları ilə böyük bir xarabalıq, adamın ağlını çaşdıran bir yanğın yeri...

Vaxtilə abad şəhər olması xaraba qalmış divarlardan və dağılmamış binalardan hiss olunur. İki mərtəbəli daşdan tikilmiş evlər sırf Ərzuruma xas olan memarlıq üslubudur. Yuxarı mərtəbənin əksər hissəsi açıq, sütunlu eyvan tərzində çıxıntılı düzəlmiş, alt mərtəbəsi zərif kəsmələrlə bəzədilmişdir. Binaların bir qismi möhkəm daşlardan, bir qismi isə adi kərpicdən tikilmişdir. Bəzi evlərin qapıları açılmış, içəridəkilərin görünməməsi üçün, əlavə şəbəkəli qapı qoyulmuşdur.

Ərzurum əhalisi çox ağıllı və mehribandır. Sözlərində düzgün adamlardır. Sənətkarı da bilikli adam, irfan sahibidir. Onların sizə hörmət üçün bir "Bəyim, gözüm üstünə gələn" sözlərlə müraciətləri var ki, bu bəsit cümlə onların itaətpərvərlik və səmimiyyətinə dəlalət edir. Anadolunun bu sərhəd şəhərində yaşayan əhaliyə ürəkdən hörmət bəsləməmək qeyri mümkündür.

16 fevral 1916-cı ildən başlayan rus istilası altında silahsız yaşayan, erməni zülmünə uşaqlarını, igidlərini, hətta qadınlarını qurban verən həmin bu xalqdır.

Ərzurum bir xarabalıq kimi. Camilər anbar kimi istifadə olunduğu üçün dağılmamış qalib . Lakin bunlar da müstəsnalıq təşkil edir. Lələ Mustafa Paşa camisi - memar Sinanın başqalarından seçilən bu gözəl abidəsinin bütün bəzəkləri dağıdılmışdır. Pəncərələrinin ətrafını bəzəyən bahalı kaşılar da sökülmüşdü. Ərzurumun bu hissəsi tamamilə dağılmış. Hökumət və dövlət idarələrini ermənilər yandırdığına görə tüstüdən qapqara olmuş, qorxunc bir skelet halında dörd divardan başqa bir şey qalmamışdı. 1918-ci ilin mart ayında yandırılan vilayət mehmanxanası və Ədliyə idarəsi sonradan təmir edilmişdi.

Kilsə meydanının ətrafı, müsəlman məhəllələri dağıdılmış və yandırılmış, 1887-ci ildə Sultan Həmidin tikdirdiyi və 1957-1962-ci illərdə Atatürk Universitetinin yerləşdiyi və indi şair Nəfi adına orta məktəb teatr binasına çevrilmişdi. Bazarın üstündə ruslardan qalma, üzərlərində rusca yazılar olan kino göstərilən yerlər var...

Sivasa və mərkəzlərə köçüb gedən yerli əhali hələ də öz yerlərinə qayıtmamış. Orada olan əhali ancaq on min nəfər olar. Aprel 1915-ci il London gizli müqavilələrinə görə Anadolumuz bölünərkən, Çar Rusiyası o zamankı geniş Trabzon, Ərzurum, Bitlis və Van vilayətlərini özünə pay ayırmışdır. Rusiya 1916-cı ildə buralarda dekovil (ensiz dəmir yolu) və şose yollar çəkərkən, rus və kazak köçərilərini burada yerləşdirmək üçün layihələr də hazırlamışdı. Bunu 1917-cı ilin yayında həyata keçirmək üçün "Erməni Muxtariyyətini"də bir hiylə olaraq ortaya atan ruslar Ərzurumu mühüm bir əməliyyat bazası kimi nəzərə almışdılar. Şəhərə çoxlu lazımlı əşyalar gətirilmiş və rus zabitləri ailələri ilə Ərzuruma yerləşdirilmişdilər. Əyləncələr, teatrlar, kinolar da daxil olmaqla heç bir şey əksik deyildi. 7 noyabr 1917-ci ildə bolşevik inqilabi baş verdikdən sonra ruslar Ərzurumu tərk edib getdiyinə görə şəhər tamamilə ermənilərin əlində qalmışdı. Bütün bu zülmlər, yanğınlar və faciələr də elə o zaman baş vermişdir. 12

mart 1918-ci ildə şəhər azad olduqdan sonra Ərzurum küçələrindən toplanan müsəlman meyitləri dörd mindən artıq olmuşdu. Hələ evlərə doldurularaq yandırılanlar, yol çəkmək bəhanəsilə (Yanıqdərə kimi) uzaqlara aparılıb öldürülənlər bu hesaba daxil deyil.

Ərzurumda yandırılan binaların sayı hesabı yoxdur. Martın doqquzunda buranı tərk edib gedən ermənilər təxminən hər tərəfi yandırmış, dağıtmış, özlərinə lazım gəldiyi zaman da müdafiə etmişlər. Daşdan hörülmüş mağazaların üzərindəki mərmi yerləri bu müdafiənin son nişanələridir. Artıq müdafiə oluna bilməyəcəklərini düşünən ermənilər öz arxalarınca ölüm və yanğından ibarət bir xarabalıq qoyaraq qaçmışlar. Faciəli intiqam..

Ərzurum yaralanmış bir qəhrəman - əsrlərdən bəri Osmanlı sərhədlərini qoruyan, türk tarixinə şan-şöhrət, qürur və fəxr olunacaq səhifələr də əlavə edən gözəl şəhər indi böyük bir fəlakətdən qurtulmuş, yaralarının müalicəsi ilə məşğul olan bir insan vəziyyətindədir. Osmanlıların əsrlərdən bəri yüksəltdikləri abidələr yansa da tamam dağılmamışdır.

## Ərzurumdan Karsa gediş, 14 may 1918

Pasin düzənliyi geniş böyük, kimsəsiz bir çöl kimi. Düzənliyin ətrafindakı kəndlər, çılpaq qovaq ağacları ilə xaraba və tərk edilmiş, kimsəsiz boz bir torpaq yığını halında qalmışdır. Bu uzun məsafəli yol üzərində Həsənqala istisna olmaqla, səliqəli, nəzər diqqəti cəlb edəcək bir yer yoxdur.

Sarıqamış geniş bir düzənlik ortasında daxmalar, taxta evlər, səliqəli binalar, dəmiryolları ilə dolu bir yerdir. Ətrafı şam ağaclı dağlarla əhatəli. Ortasından keçən yolun ətrafında tövlələr və kasıb evləri var. Bazarı səliqəli və daş binalardan ibarətdir. Lakin 5 aprel 1918-ci ildə azad olduqdan bir gün əvvəl tamamilə yandırılmış. Bazarın yanında adi taxta evlər var... Bazarın içindəki teatr və kino binaları da yanmış...

Hər tərəfdə dəhşətli bir istilanın, qorxulu və ağrılı bir qaçqınlığın nişanələri hiss olunur. Ermənilər yol kənarındakı

kəndləri xaraba qoymuş, arxalarından gələn Osmanlılara qarşı Karsda yeni bir müdafiə qüvvələri təşkil etmək üçün, buralarda yaşayan zavallıların ağzından tikələrini, əyinlərindən paltarlarını, anbarlarından ərzaqlarını almışlar. Yollar buzov ölüləriylə dolu. Osmanlıların təqibindən qaçan ermənilərin sol cinahı bu yerləri talan etmiş. Talan bu gözəl kəndlərin ən böyük düşməni.

Karsa yaxınlaşdıqca xarabalıqların sayı daha da artır. Keçdiyimiz küçələr, sanki bir ocaq yeri. Buralar ermənilər tərəfindən xarabaya çevrilən müsəlman məhəllələri.... Artıq Karsın mərkəzindəyik... Küçələrdə əhalidən heç kim yox. Bir-iki Osmanlı əsgəri dağılmamış idarələrin önündə keşik çəkir.

**Kars, 15 may 1918**

Şəhərdə mətbəə, teatr, kino binaları bazar boyunca yerləşir. Bu gözəl və möhkəm binalar ermənilər tərəfindən yandırılmışdır. Yanmamış mağazaların önündə Osmanlı əsgərləri növbə çəkirlər. 25 aprel 1918-ci ildə Kars şəhəri azad olduqdan bir gün əvvəl ermənilər ərzaq anbarlarına od vurmuş, yandığını zənn edərək, çıxıb getmişlər. Lakin yanğın baş verməmiş. benzin pəncərələrdən damlara doğru axaraq, sönmüşdür. Ruslar çox ağıllı düşünmüşlər. Bir millətin ən mühüm qüvvəsini, hətta istila və təmsil etmə qüvvəsini də, onun dili, ədəbiyyatı və mədəniyyəti təşkil edər. Ruslar hökmranlıqları altına aldıqları xalqın geyimlərinə qədər dəyişərək, təsir altına salmışlar. Sarıqamışdan Karsa qədər bir çox rum kəndləri var ki, (1882-ci ildən sonra köçkün olaraq yerləşdirilmiş) onların dilləri rusca, geyimləri rus geyimləri, rumcaları da çox kobud olmuşdu.

Ancaq bunun 93-cü ildəki fəlakətimizdən sonra (1877-1878-ci il Osmanlı-Rus müharibəsi) qırx il əsarətdə qalan Kars vilayətindəki türklər üzərində heç bir təsiri olmamışdır. Türklərin yaşadıqları yerlərin ətrafında koloniya olaraq yerləşdirilmiş köçkün ruslar belə türk dilini öyrənməyə məcbur olmuşlar. Türklər öz adət-ənənələrini, milli mahnılarını, mədəniyyətlərini tamamilə mühafizə etmişlər. Buna görə də bizim əsas

görəcəyimiz iş türk mədəniyyətini yüksəltmək, dilimizi ciddi şəkildə sadələşdirmək, buralarda yaşayan türk qardaşlarımızla həqiqi bir ortaq dil yaratmaq, milyonlarla türkü eyni mədəniyyət, eyni hiss və fikirlə birləşdirmək, bir-biriləri arasında əlaqə yaratmaqdan ibarət olmalıdır.

Karsda heç bir dükan açıq deyil və alış-veriş də yox. Bütün şəhər yanmış küçələri, xaraba qalmış məhəllələri ilə türk əsgərlərinin nəzarəti altında. Uzaqlarda qəhrəman əsgərlərimiz Gümrünü (1837-1924-cü illər arasında rusca «Aleksandropol» adlandırılan, 1924-cü ildən bəri rəsmi olaraq «Leninakan» adlandırılan şəhər - E.X) almağa çalışırlar. Gümrüdən gələn zabitlər Karsı necə aldıqlarını hərarətlə danışırlar. 25 aprel 1918-ci ildə əsgərlərin Karsa gecə vaxtı daxil olması çox dəhşətli olmuş. Ermənilər nə edəcəklərini, haraya qaçacaqlarını bilməyib çaşıb qalmışlar.

Zabitlər şəhəri və müsəlman əsirləri mühafizə etmək üçün rumlardan ibarət bir qrup təşkil etmişdilər. Lakin bütün bu təşkilat əsgərimizin müntəzəm hücumu sayəsində heç bir uğur qazana bilməmişdir. Gecə şəhər alovlar içində yanırmış. Bir tərəfdən də əsgərimiz Karsa daxil olurmuş. Küçələrdə qışqıranlar, qaçanlar, fəryad edənlərin sayı hesabı yox imiş.

Kars ən kiçik qayasına qədər Osmanlıdır. Təntənəli səfərlər Kars ətrafında hazırlanırdı. Bu gün Kars çayı sahilində xarabalıqları görünən, ən səliqəli və mükəmməl hissəsi qayaların təpəsində vüqarla və fəxrlə dayanaraq, bütün şəhərə hakim olan Kars qalası indi əsarətdən qurtulmuş qəhrəman bir əsgər kimi, sevimli bayrağının fərəhləndirici dalğaları altında, öz şanlı keçmişini yad etməklə məst olmuş, sanki geniş üfüqlər qarşısında dincələn kimidir.

**Ərdahan, 18 may 1918**

Biz Karsdan günəşli bir havada ayrıldıq. Gecəni Gölənin mərkəzi Mərdinikdə keçirəcəyik. Mərdinik ətrafındakı Okçu kəndi tamamilə dağılmış. Bu bədbəxt kənd çoxdan basdırılmış bir adam məzarını xatırladır. Divarlarında otlar bitmiş, çiçəklər

açmış. Okçu kəndinin adamları ordumuzun 1915-ci il yanvar ayının ilk günlərində Sarıqamış müharibəsi başlarkən bizə yardımla və ruslara xəyanətlə ittiham olunan, kəndləri və evləri rus kazakları tərəfindən dağıdılıb, talan edilən zavallılardır.

Onlar indi Mərdinikdə yerləşdirilmişlər. Mərdinikin əhalisi vaxtilə türklər və ermənilərdən ibarət imiş. Siyasət düşkünləri illərdən bəri birlikdə yaşayan iki milləti bir-birindən ayırmış. Kilsələr boş, camilər xaraba, evlər kimsəsiz. Bir çox evlərdə yerləşən Okçu kəndliləri orada özlərini yad adam kimi hiss edirlər.

Ərdahana qədər uzanan bu məntəqədə rus kəndləri ilə yanaşı bir çox türk kəndləri də var. Türklüyün ən çox hakim olduğu yerlər buralardır. Dili səlis və incə türkcədir. Bu dilə çox az (bazara aid) rus kəlmələri qarışmış. Türküləri (xalq mahnıları) tamamilə məhəbbət və mərdliyi tərənnüm edir.

Mərdinik ətrafındakı müsəlman kəndləri dağılmış. Zavallı kəndlilər:

*«Bu viran yer, bahar mıdır, arandır,*
*Kaadir Mevlam çox muradlar verendir»* ,

deməkdə nə qədər haqlıdır.

Ərdahanda bazarın bir qismini ermənilər yandırmışlar. Lakin xaraba qalan hissələr əhəmiyyətsizdir. Çünki yerli türk milisləri Ərdahandan gizli siyasi komitə üzvləri olan erməniləri uzaqlaşdırmış və buranı silahla qorumuşlar.

Ərdahanın əhalisi türk və başqa müsəlmanlardır. Əhalinin türklüyə və osmanlılığa o qədər məhəbbətləri var ki, bazar boyunca üzərində «Məhəbbət qiraətxanası» yazılmış yerlərdə daima qrammofonlar oxuyur, milli xalq mahnılarını böyük zövq və sevinclə dinləyirlər.

Vətənsevərlik hissi, türklük məhəbbəti buralarda çox güclüdür. Rus mədəniyyəti türklərə milliyyətçilik məhəbbətinin qiymətini anlatmışdır. Milli mədəniyyətindən məhrum olmaq ürəklərdə acı bir həsrət yaratmışdır. İndi bütün xalq rusların ölkəni tərk edib getmələrindən istifadə etmək istəyir. Əvvəlki milli həyata qovuşmaq, şərəfli keçmişin parlaq günlərini yaşamağı arzu edir.

*Camal Paşa*[*]

# ERMƏNİ PROBLEMİ

Biz erməniləri və xüsusilə onların qiyamçılarını rumlardan və bolqarlardan daha çox sevərik. Çünki onlar digər iki xalqdan daha çox mərd və qəhrəmandırlar. İkiüzlülük bilməzlər, dostluqlarında sadiq, düşmənçiliklərində qüvvətlidirlər. Xüsusilə, bizim inamımız budur ki, ermənilərlə türklər arasındakı düşmənçiliyin başlıca səbəbi Rusiya siyasətidir. Dini ixtilaf, yəni müsəlmançılıq və xristianlıq məsələsi bundan altmış, yetmiş il əvvəl, daha doğrusu 1877-1878-ci ildə Osmanlı-Rus müharibəsindən beş, on il əvvəl, bu iki xalq arasında qətiyyən problem kimi mövcud olmamışdı. Anadoluda, Rumelidə və İstanbulda, xülasə, bütün Osmanlı məmləkətlərində ermənilərlə türklər arasında o qədər böyük bir həmrəylik olmuşdur ki, Osmanlı tarixi o zamana qədər ən kiçik bir erməni məsələsi belə qeyd etməmişdir.

Xüsusi münasibətlərində türklərlə ermənilər arasındakı dostluq bütün sahələrdə özünü göstərirdi. Anadolu kəndlərində yaşayan bir türk ticarət işləri ilə əlaqədar olaraq uzaq bir yerə getsə, ailəsinin hüquq və namusunu qorumağı və ona nəzarət etməyi qonşusu erməniyə tapşırar və erməni də türk qonşularına qarşı eyni etimadı göstərməkdən çəkinməzdi.

İstər Anadoluda, istər Rumelidə və istərsə də İstanbulda yaşayan ermənilərin heç biri öz ana dillərini bilmirdi. Bütün məktəblərdə erməni hərflərilə türk dili öyrədilir və kilsələrdə dini ayinlər türkcə aparılırdı. Dövlətin ən yüksək mənsəblərinə ermənilər təyin edilmiş, bir sözlə ermənilər Osmanlı dövlətinin ən sadiq təbəəsi sayılmışdı.

Səfir Morgenthan nə deyirsə desin, tarixi həqiqətləri nə qədər inkar etməyə çalışırsa çalışsın, proqramındakı ədalət və mərhəmətlilik prinsiplərinin tez bir surətdə genişlənməsinə və

[*] 4-cü ordu komandanı və Hərbi Dəniz Qüvvələri Naziri Camal Paşa: 1920-cı ildə yazılan "Xatirələrindən" sadələşdirilən son nəşrindən.

təşəkkül tapmasına yeganə dəstək olan Osmanlılardan gördükləri dostluq və qardaşlıq münasibətləri erməniləri türklərə qarşı minnətdar etmiş və beş əsrlik bir zaman ərzində heç bir erməni-türk ixtilafı olmadığı kimi, türkün dili ilə danışmayan, türk adət-ənənələrinə bələd olmayan heç bir erməni qalmamışdı.

Fateh Sultan II Mehmet İstanbulu fəth etdiyi zaman heç bir xarici müdaxilə olmadan, sırf öz arzusu ilə Rum patriarx iqamətgahını olduğu kimi saxlamış, rumlara məzhəb imtiyazları adı altında bir çox xüsusi hüquqlar bəxş etmiş və həmçinin Anadolunun mərkəzlərində müsəlmanlar arasında çox azlıq halında yaşamaqda olan ermənilərin hüquq və mənfəətlərini daha yaxından mühafizə edə bilmək məqsədilə, birbaşa sultanliq mərkəzində bir erməni patriarx iqamətgahı təsis etmiş, ermənilərə də rumlara hüquq və xüsusi imtiyazlar bağışlamışdı.

Tarixdə Osmanlıların belə səmimi hərəkətlərini, bu xeyirxah işlərini ört-basdır etmək üçün, Osmanlıların guya xristian dininin bəzi işlərini dinə zidd hərəkət kimi qiymətləndirmələrini utanmadan yayan bəzi Avropa tarixçilərini təqlid edən bədnam Mandelstamm da öz kitabının 190-cı səhifəsində eyni qənaətləri təkrar etmişdir.

Ermənilər ancaq onlara bəxşedilən bu məzhəbi imtiyazlar sayəsində öz dinlərini və milli xüsusiyyətlərini qoruyub saxlaya bildiklərini çox yaxşı bilir və bunun üçün kürd dərəbəyləri tərəfindən gördükləri bəzi təzyiqlərə qarşı türklər və xüsusilə Türk hökuməti ilə çox səmimi bir dostluq şəraitində həyatlarını davam etdirirlər. Ermənilərin XIX əsrdən əvvəl də Kürdüstan dərəbəylərindən bir çox zülmlər, işgəncələr gördüklərini Zarzeski və sair onun kimi bir çox yazıçıların əsərlərindən misallar gətirərək isbat etməyə çalışan Mandelstamm Əfəndi görəsən Böyük Fransız inqilabına qədər Avropada xalqın çəkdiyi zülmləri xatırlamaq istəmirmi? Uzağa getməyə lüzum yoxdur. Son rus inqilabına qədər mujiklərin Rusiyadakı həyatı məgər ermənilərin Türkiyədəki həyatından daha çox firavan olmuşdur? Utanmadan indi də özünü rus inqilabının ən atəşli təbliğatçılarından biri kimi

göstərməyə çalışan Mandelstamm, Rusiyada dərəbəylərin rus kəndlisinə etdikləri zülmlər haqqında, rus inqilabına həsr olunmuş əsərləri görəsən bizim oxumadığımızımı düşünür?

Əgər bu əsərin mübaliğəli olduğunu göstərməyə çalışarsa, biz Mandelstammın yalan söylədiyini çəkinmədən sübut edərik.

Buna görə yenə təkrar edirik ki, 1853-1855-ci il Krım müharibəsindən sonrakı illərə kimi ermənilərlə türklər çox dostluq şəraitində birlikdə yaşamış və türklərin ermənilərə qarşı heç bir təcavüzü baş verməmişdir.

Ruslar böyük bir istila siyasətilə Osmanlı İmperatorluğu üzərinə hücuma keçdikləri zaman uğur qazanmaq üçün Rumeli və Anadoludakı xristian millətindən özlərinin xeyrinə bir alət kimi istifadə etməyi çox ağıllı bir siyasət kimi qəbul etdilər və Rumelində növbə ilə qaraçı, rum, serb və bolqar xalqlarından istifadə etdikləri kimi, Anadoluda da gürcülərdən sonra ermənilərdən istifadə etməyi münasib bildilər.

Qəribədir ki, Mandelstamm kitabının 300-cü səhifəsində, istibdadçı Rusiyanın Türkiyədəki xristian millətlərini türk zülmündən qurtarmaq sahəsindəki cəhdlərinin Rus inqilabçı hökuməti tərəfindən tamamilə bəyəniləcəyini yazdıqdan sonra, “özü çox ağır bir istibdad altında yaşayan mujik daima rumları, bolqarları, serbləri əsarətdən qurtarmaq məqsədilə müharibə etmişdir” iddiasında olur. Xristianlığından şübhə etdiyimiz bu Moskva yazıçısı, dini təəssübü hər şeydən üstün tutan mujiki öz kəndində daha çox əsir kimi yaşamağa razı salmaq üçün “Müsəlmanın əlindən xristianı qurtaracaqsan” sözündən daha təsirli nə təsəvvür edə bilərdi? Bunların hamısı bütün dünyanın nifrət edərək qorxduğu məşhur Moskva siyasətidir ki, Çar hökuməti ilə bərabər məhv olub getməsini, bütün bəşəriyyətin dincliyi və istirahəti naminə arzu etməkdən özümüzü saxlaya bilmirik.

Bunu da etiraf etmək lazım gəlir ki, XIX əsrin ortalarında Avropada artıq lazımınca inkişaf etməyə başlayan milliyyətçi cərəyanlar təhsil almaq və ticarətlə məşğul olmaq üçün Avropa

və Amerikaya getmiş erməni gənclərinin, mənsub olduqları xalqın daha çox firavan bir yaşayışa, müəyyən bir ictimai və siyasi həyata malik olmalarını arzu edəcək bir düşüncəni mənimsəmələrinə səbəb olmuşdu.

Rus diplomatları bu düşüncəni dəstəkləməyi vacib bir məsələ kimi qiymətləndirmiş, o zamandan etibarən Türkiyədəki ermənilərin dövlət əleyhinə üsyana qalxmalarını təmin etmək üçün əllərindən gələn hər bir yardımı etmişlər.

Bir, iki əsrlik zəif idarəçilik nəticəsində meydana çıxan hərbi və inzibati anarxistləri aradan qaldırmaq, dövləti nizamlı və qüdrətli bir yola qoymaq üçün ən radikal tədbirlərə əl atmağa qərar verən Sultan II Mahmud, XIX əsrin əvvəllərində İstanbulda yeniçəri əsgərlərini ləğv etdiyi kimi, Rumeli və Anadoluda olan dərəbəylər və onların tərəfdarlarının da məhv edilməsinə xeyli zəhmət çəkmişdi. Bunların arasında köçəri dərəbəyləri də olduqca şiddətli zərbələrə məruz qalmışdılar.

Lakin zavallı Sultan Mahmud, bir tərəfdən ölkənin daxilində islahatlar aparmaq istərkən, digər tərəfdən bütün təşkilatı Moskva hökuməti tərəfindən idarə olunan Etniki Eteriyanın daima törətdiyi fəsadlar nəticəsində qiyam qaldıran rumları sakitləşdirmək üçün, min dərdə düçar olmuş və nəhayət fransız, ingilis və rusların təcavüzlərinə məruz qalaraq Navarində donanmasını tamamilə itirdikdən sonra Rum istiqlalını tanımağa məcbur olmuşdu.

Nəhayət yenə fransızların təşviqi ilə qiyam edən Misir valisi Mehmet Ali Paşa, Osmanlı tac və taxtını ələ keçirmək məqsədilə yolunu azaraq Kütahyaya qədər Osmanlı mülkünü istila etməyə müvəffəq olmuşdur.

Bu qədər xarici və daxili təzyiqlərə məruz qalan bir dövlətin yalnız erməniləri deyil, bütün vətəndaşlarını xoşbəxtlik və firavanlığa çıxaracaq tədbirlərə əl atacağını kim mümkün hesab edə bilər. Sultan Əbdülməcid zamanında isə, ermənilər elə fövqəladə imtiyazlara nail oldular ki, bunu hətta Mandelstamm da çox heyrətlə yada salır. Bu şəxs əsərinin 190-cı səhifəsində qeyd

edir ki: «Hətta erməni milləti 1863-cü ildə həqiqi bir konstitusiyaya nail oldu. Bu konstitusiya nəticəsində ermənilər İstanbul patriarxal iqamətində toplanmaq üçün ümumi bir məclisə malik oldular. Ümumi məclis 140 üzvdən ibarət olur və bunların 120-si bir başa millət tərəfindən seçiılırdi».

Görəsən Reis Vilsonun milli azlıqların hüquqları üçün bundan da nüfuzlu bir üsul kəşf etməyə qüdrəti vardırmı?

Osmanlı hökuməti ermənilərə bu konstitusiyanı xarici dövlətlərin təzyiqinə məruz qalmadan özü təsdiq etmişdi. Ermənilər o zamana qədər özlərini elə sadaqətli göstərmişlər, dövləti o qədər məmnun etmişlər ki, sadiq erməni milləti üçün daha da xoşbəxt günlər verəcək olan bu konstitusiyanı bəxş etməkdə bir an belə tərəddüd etməmişdi.

Bununla belə, bu konstitusiya da rusların ermənilərin işlərinə qarışmaları üçün xüsusi bir vasitə olmuşdu.

Erməni üsyançılarından bəziləri hələ 1853-cü il Osmanlı-Rus müharibəsi dövründə ruslara yardım etmişdilər. Elə o zamandan başlayaraq bu əlaqəni ruslar kəsməmiş və erməni üçyançılarını türklərə qarşı təşviq etməyə başlamışlar. Bu təşviqlər öz təsirini çox tez bir zamanda göstərmişdir, belə ki, ermənilərə konstitusiya bəxşedildiyi tarixdən cəmi dörd il keçdiyi bir zamanda, 1876-cı ildə Zeytində ilk erməni üsyanı baş vermişdi. Xarakteri ilə gözlənilməyən bu silahlı üsyan həm dövləti, həm də türkləri dərindən düşündürməyə başladı. Xüsusilə, 1877-1878-ci ildə Osmanlı-Rus müharibəsi dövründə Rusiya erməniləri ilə Anadolu ermənilərinin Osmanlı ordusuna qarşı yaratdıqları maneələr ermənilər haqqındakı təsəvvürləri puç etmişdi.

O əsnada erməni patriarxı Nerses Əfəndinin Ayastefanosa gedərək ermənilərin müstəqilliyə nail olmaları üçün Rusiya çarından onların müdafiə olunmasını xahiş etməsi və ondan yardım istəməsi, ermənilərin o zamana qədər nail olduqları “sadiq millət” adını tamamilə aradan qaldırmışdı.

Bolqar qurtuluşunu təmin etdikdən sonra, Osmanlı dövlətinin daxili işlərinə qarışmaq üçün artıq heç bir vasitə tapa bilməyəcəyini başa düşən Rus siyasəti, Ayastefanos müqaviləsinə ermənilər haqqında xüsusi bir maddə əlavə etməklə, bu imkanı əldə etmək istəmişdi.

Eyni maddə başqa şəkildə Berlin müqaviləsinə də daxil edildi.

Elə o zamandan etibarən ermənilər ilə türklər arasında çox gərgin qarşıdurma yarandı.

Ən böyük şəhərlərdən tutmuş ən kiçik kəndlərə qədər bütün Osmanlı dövləti daxilində erməni inqilab komitələri tərəfindən çox müntəzəm gizli bir təşkilat yaradıldı. Bu gizli təşkilat daima erməniləri türklər əleyhinə zəhərləyir və şərqi Anadoludakı altı vilayətdən ibarət bir erməni muxtar əyaləti təşkil etmələrinə qədər ermənilərin sakit durmamalarını təmin etməyə çalışırdılar.

Ermənilərin bu inqilab təşəbbüsləri Osmanlı hökumətinə də məlum idi. Ermənilərin məqsədi özlərindən sayca çox olan türkləri öz idarəsi altına alacaq bir Ermənistan yaratmaq olduğuna görə, türklərin də əsas məqsədi ermənənin bu arzusunun həyata keçirilməsinə imkan verməmək idi. Daha doğrusu əhalisi türk olan Anadolunun böyük bir hissəsinin ermənilər vasitəsilə Rusiya tərəfindən istila etmək arzusunu çox yaxşı başa düşən Osmanlı hökuməti, buna görə də ermənini ruslar tərəfindən türkün ölkəsinə atılmış bir ilan kimi qiymətləndirməyə məcbur olurdu.

Ayrı-ayrı yerlərdə baş verən və ən azğın ermənilər tərəfindən təşkil olunan bəzi azğınlıqları nəzərə alan Avropa dövlətləri, yenə Rusiyanın təzyiqi altında 1880-cı ildə Babi-aliyə (Sultan Türkiyəsində mərkəzi hökumət) ermənilər haqqında islahatlar aparılmasına dair bir nota vermişdilər. O vaxtlar bir tərəfdən də bolqarlar Şərqi Rumelini Bolqarıstana ilhaq etməyə təşəbbüs göstərmişlər. Əsasən erməni məsələsini daima Türkiyənin çox mühüm xarici və daxili məsələlərlə məşğul olduğu bir vaxtda irəli sürürlər.

İkinci Əbdülhəmid o zamanlar bu məsələni birtəhər həll edərək, bəzi vədlərlə işi sakitləşdirmişdi. Lakin, 1894-cü ildən 1896-cı ilə qədər olan dövrlərdə erməni qiyamçıları həqiqi fəaliyyətə başlamış və hər tərəfdə müxtəlif qiyamlar təşkil etmişdilər. Bu erməni qiyamları beş-altı əsr ərzində böyük bir qarşılıqlı sevgi ilə yaşayan üç millәti bir-birinin qanına susayaraq, bir-birinin əleyhinə qalxmağa sövq etmiş, Anadolunu, hətta İstanbulu al-qana boyamışdı.

Mandelstamm kimi ən qəddar türk düşmənləri də bunu inkar edə bilmirlər ki, bu illərdə baş verən hadisələr dövründə belə, türkün erməni haqqında o qədər də düşmənçiliyi olmamış və kin də bəsləməmişdi. Bir çox türklər erməniləri qorumaq üçün bir-birilə rəqabət aparmış və hətta İstanbulda çoxlu türk ailələri qonşuları olan erməniləri öz evlərində gizlətmiş və onları ölümdən qurtarmışdılar. Bir çox dövlət başçıları İstanbuldakı gömrükdə işləyən hamballar vasitəsilə törədilən etməni soyqırımını nifrətlə qarşılamış və bu faciənin qarşısını almaq üçün bacardıqları hər şeyi etmişlər.

Marşal Fuad Paşanın Kadıköy ermənilərini qorumaq üçün əl atdığı ən ciddi tədbirlər hamıya məlumdur. Mandelstamm öz kitabında Fuad Paşanın sonralar düçar olduğu fəlakətin səbəbini ermənilərə göstərdiyi xilasetmə işi ilə əlaqələndirirsə də, bunun doğru olmadığını İstanbulda hamı bilir.

Təqribən iki ildən çox davam edən bu soyqırımlar əsnasında, türklər də ermənilər tərəfindən öldürülmüş və hər iki tərəf işgəncə və cinayət törətməkdə demək olar ki, yarışmışdılar. Lakin erməni millətinin hər tərəfdən azlıqda qalması türklərin qalibiyyətini zəruri etmişdi. Əgər müsəlmanlar çox erməni öldürmüşlərsə, ermənilər də çox müsəlman öldürməkdən geri qalmamışlar. Yunan üsyanı zamanı Morada rumlar tərəfindən öldürülən türklər bu dediklərimiz fikirlərə əsaslı bir sübutdur. Lakin onlar türk və müsəlman olduqlarına görə, o zavallılar üçün mərsiyələr oxuyacaq Lord Bayronlar, Viktor Hüqolar meydana çıxmamış və o qəddarcasına törədilən hadisələr Osmanlılar

tərəfindən yazılan tarix kitablarında bir neçə səhifəni təşkil etməkdən başqa bir iz qoymamışdır. Ölkənin idarə olunması haqqındakı qənaətlərimin zərurətinə görə, ölkədə baş verən qiyamların xalq tərəfindən yatırılmasından və xüsusilə soyqırımlarından nifrət edirəm. Çünki belə idarəçilik məmləkət üçün zərərdən başqa heç bir fayda verməyəcəyi kimi, millətimin təmiz olan tarixini də çox ləkələyər.

Bu hiss təxminən türk millətçilərinin yaratdıqları "Gənc türk" qiyamçılarının demək olar ki, hamısında olduğu üçün, bu 1894-1896-cı illərdəki erməni hadisələrinin II Əbdülhəmidin bir siyasi səhvi və öz istibdadını davam etdirmək üçün əl atdığı kobud bir tədbir kimi qiymətləndirdilər. Buna görə də, o zaman Avropada olan Əhməd Pza Bəy və yoldaşları bu işə çox böyük yardımlar etdilər.

Mənim kimi, ölkənin daxilindəki qiyamçılar da eyni fikri qəbul edərək türklüyə çox böyük zərbələr vura biləcək bir mahiyyətdə inkişaf edən erməni soyqırımına görə Əbdülhəmidi ittiham etməkdən çəkinmədilər.

Türk qiyamçılarının bu bitərəf təmayüllərini görən erməni qiyamçılarının namuslu adamları o zaman bu vəziyyəti daha düzgün tədqiq etməyə başlamışdılar. Bir yandan Rusiyanın türk ermənilərinin muxtariyyət əldə etmələri üçün həddən artıq cəhdlər edərkən, o biri tərəfdən Qafqaz ermənilərini istibdadın ən əzici təsirləri altında saxladığı görünürdü.

Hətta Rusiya çarı Şərqi Anadoluda heç bir dəmiryolu çəkdirilməməsi üçün verilən vədin qarşılığında, 1896-cı il qiyamından sonra Qafqaza qaçıb getmiş ermənilərin Osmanlı ölkələrinə geri qayıtmalarına icazə verilməyəcəyinə dair ikinci Əbdülhəmidə qəti olaraq vəd vermişdir.

Rusiyanın Osmanlı İmperatorluğu və ermənilərə bəslədiyi həqiqi niyyətlərinin dərəcəsini göstərmək üçün bundan bariz bir misal ola bilməz.

Heç kim inkar edə bilməz ki, bir ölkədə rifah halının yüksəlməsi inkişaf sayəsində baş verir. İnkişaf isə, dəmiryollarının,

şoselərin çəkilməsilə başlar. Bir tərəfdən ermənilərin məskunlaşdığı vilayətlərdə rifah halının yüksəlməsi və onların təhlükəsizliyi üçün islahat keçirilməsini tələb edən Rusiya, bu iki məsələnin yerinə yetirilməsi üçün, ən əsaslı istehsal vasitələrindən olan dəmiryollarının inşa edilməməsini tələb edir. Görəsən Mandelstamm cənabları bunu nə ilə izah edir? Kitablarında yalnız bunu iddia edən bir Avropalı yazıçısını təhqir etməklə kifayətlənmişlər. Halbuki təhqir etmək isbat etmək deyildir.

Bu ikiüzlü rus siyasəti namuslu erməni qiyamçılarını ciddi olaraq düşündürür və erməniliyi müstəqilliyə qovuşduraq deyərkən, türk boyundurugundan yüz min dəfə ağır olan “Rus boyunduruğu altına salmayaq” mülahizəsini irəli sürürdülər.

Buna görə də Türk inqilab komitələri iştirakçılarının bütün millətlərin rifah halını yaxşılaşdıracaq tədbirlərə əl atmalarından ibarət olan fikirləri erməni komitələrinin ən namuslu və ən radikal olan «Daşnaksutyun» komitəsi üzvləri tərəfindən də, çox əlverişli bir məsələ kimi qiymətləndirilirdi.

Mandelstamm cənabları da mənim bu fikirlərimi fərziyyə hesab edə bilməz. Çünki «İttihad və Tərəqqi» cəmiyyətinin 1907-ci ilin dekabr ayında Parisdə çağırılan konqresində iştirak edən «Daşnaksutyunçular» təxminən buna yaxın olan ifadələr işlətmiş, «İttihad və Tərəqqi» komitəsi ilə əməkdaşlıq edəcəklərinə söz vermişdilər. Bundan sonra 1908-ci ilin avqust ayında İstanbulda görüşdüyüm «Daşnaksutyun» komitəsi rəhbərlərindən Malumyan Əfəndi (Agnoni) ermənilərin məruz qaldığı bu rus təhlükəsi haqqında şəxsən mənə bir neçə dəfə demişdi.

Lakin erməni inqilab komitələrindən sayılan «Hınçakist» və «Hınçakist reforme» komitəsi kimi, başçıları ilə bərabər üzvlərindən bir çoxlarının Rusiyaya satılmış olan komitələr, türk komitələrinə qətiyyən yaxın gəlmir və Rusiyanın himayəsi altında bir Ermənistan təşkil etmək fikrini öz proqramlarında əsas prinsip kimi qəbul edirdilər. Bu komitələr bir tərəfdən erməni katolikoslarının, digər tərəfdən yenə eyni erməni inqilab təşkilatı kimi sayıla biləcək rus konsulxanalarının payladıqları pullar

sayəsində Keşişlər Partiyası da Rus çarının himayəsini İslam xəlifəsinin himayəsindən üstün tutmağın vacib olduğuna dair nəsihətlər verməkdən çəkinmirdilər.

1908-ci il inqilabı dövründə erməni və etnik inqilabçılar belə vəziyyətdə idilər.

Əsasən Səlanikdə yaranmış olan «İttihad və Tərəqqi» gizli cəmiyyətinin əsas daxili siyasət proqramı «Midhət Paşa» konstitusiyasının qüvvəyə minməsinin bərpa olunması idi. Bu konstitusiyanın əsasında Osmanlı mülkində «Osmanlı idarəsi cəmiyyəti» və səlahiyyətin genişlənməsi qanunlarının tətbiqi dururdu.

Halbuki Makedoniya Bolqar komitəsilə Etniki Eteriyanın idarə etdiyi Makedoniya rum komitəsinin, yenə Makedoniya hərb komitəsinin və alban, erməni qiyam komitələrinin prinsipləri «siyasi adəmi-mərkəziyyət idarəsi» üsulu idi. «Siyasi adəmi-mərkəziyyət» üsulu müxtəlif millətlərin yaşadıqları məntəqələrə daimi olaraq müstəqillik vermək və hamısının Osmanlı İmperatorluğu adı altında yaşayıb, çalışmaqdan ibarətdi.

Əgər Osmanlı İmperatorluğunun parçalanmasını bütün varlığı ilə arzu edən və bunun üçün min cür intriqalar törədən xarici düşmənlər olmasaydı, «İttihad və Tərəqqi Cəmiyyəti» də Prins Səbahəddin Bəyin hərarətlə müdafiə etdiyi bu prinsipi qəbul etməkdə bir an belə tərəddüd etməzdi.

Lakin Suriyaya göz dikmiş fransızlarla Mesopotamiyaya və bütün Livan yarımadasına sahib çıxan ingilislər, Şərqi Anadolu vilayətlərini ələ keçirmək üçün fürsət gözləyən ruslar, Makedoniyanı parçalamaq istəyən bolqar, serb və yunanlar, Albaniyaya əl atmağa çalışan avstriyalılarla italyanlar və yenə Aralıq dənizi adalarına sahib çıxan yunanlar «siyasi adəmi-mərkəziyyət idarəsi» prinsipi əsasında yaradılacaq bu vilayətləri bir-bir mənimsəmək üçün görəsən bir çətinlik çəkərdilərmi? Bizim «adəmi-mərkəziyyət» prinsipimizin mahiyyəti Avstriya hökumətinin «adəmi-mərkəziyyət» prinsipinin mahiyyətindən çox qüvvətlimi olacaqdı? Bu prinsip çexoslovakların, xorvatların, slovenlərin Avstriyadan tamamilə ayrılmaq haqqındakı arzularını həyata

keçirə bildimi? Bizim mərkəzi hökumətimiz məgər o qədər qüdrətli və güclümü olacaqdı ki, müxtəlif və həris olan düşmənlərimizin intriqalarına qarşı bu müstəqil vilayətləri mühafizə edə bilməyimizi təmin edə biləcəkdi?

Krit adasının nail olduğu müstəqil idarəçilikdən daha geniş müstəqil idarəçilik ağıla gəlməzkən, kritliləri Yunanıstana birləşmək fikrindən daşındıra bildikmi?

Kipr adası, ingilislərin işğalı altında çox müstəsna bir həyat tərzi yaşayarkən, hər il bu adanın rəhbərliyi Yunanıstana birləşmək haqqında fikirləri təkrar etmirdilərmi?

Böyük bir müstəqil rəhbərliyə sahib olan Şərqi Rumelinin (Türkiyənin Avropa hissəsi) Bolqarıstana birləşməyinə mane ola bildikmi?

Seçilən vilayətlərin ən yaxşılarından birini təşkil edən Misirin ingilislər tərəfindən işğal olunması çətinlikləmi baş tutdu?

Küveyt şeyxi Mübariküssabah əsrlərdən bəri Osmanlı xəlifəliyinə tabe olduğu halda, ingilis himayəsi altına düşmək iddiasına görə, Ingilislər «Küveyt» adasını mənimsəməkdən əl çəkdilərmi?

İraq əhalisi də eyni arzuda olduqlarına görə ingilislər oranı da öz himayələri altında saymaları çətin bir məsələ idimi?

Eyni fikirləri fransızların Suriyaya daxil ola bilməsi haqqında da söyləmək olar.

Makedoniya ilə Albaniyanı, Şərqi Rumeli ilə Bosniya Herseqoviniyanı bir birindən ayrımı qəbul edəcəkdik?

İndi bir çox suallar vardır ki, bunlara "siyasi adəmi mərkəziyyət idarəsi" tərəfdarlarının məqbul cavablar verə biləcəklərini heç təsəvvür edə bilmirəm.

Bizi türk siyasəti yürütməkdə ittiham edənlərə çox qətiyyətlə bildirirəm ki, biz türk siyasəti deyil, Osmanlı cəmiyyətinə aid siyasəti apardıq. Əgər «adəmi-mərkəziyyət» üsulu ilə idarəetmək prinsipini qəbul etsəydik, o zaman «İttihad və Tərəqqi» cəmiyyəti türk siyasəti yürütməyə məcbur olacaq və

bütün yerli muxtariyyətlərə nail olmuş ölkələr arasında ancaq türklərin sakin olduğu vilayətlərdə türklərə yerli muxtariyyət verilməsinə çalışacaqdıq. Buna görə də «adəmi-mərkəziyyət» üsulu ilə idarə etmək tərəfdarları türk millətinə mənsub olanlardır ki, onlar həqiqətən də türk siyasətinin ardınca gedəcəklər. Bizlər isə, Osmanlı cəmiyyətinə aid siyasətin ardınca getdiyimizə görə, mərkəzin, yəni imperatorluq hökumətinin vilayətlər üzərindəki nüfuzunu zəiflətməmək şərtilə, yerli özünüidarəetmə prinsipinə geniş imkanlar yaratmaq və ordunu iki yerə bölməməyi əsas məqsəd olaraq qəbul etdik.

Lakin türk gəncliyi öz mənliyini başa düşən və millətinin inkişafı üçün mübarizəyə qalxan müxtəlif Osmanlı millətləri arasında yalnız türklərin lidersiz və kimsəsiz qaldığını anlayaraq, türkün elm, irfan və istedad baxımından inkişafını yüksəltmək üçün çalışmışdır. Bunu «İttihad və Tərəqqi» cəmiyyətinin qadağan etmək səlahiyyətinə malik olmadığı kimi, «adəmi-mərkəziyyətlə» idarə etmənin tərəfdarlarının da qadağan edəcəklərini düşünmürəm. Osmanlı imperatorluğunun rəsmi dilinin türkcə olmasını istəmək, başqa millətləri türkləşdirmək istəyidirmi? Osmanlı İmperatorluğunda məktəblərin dövlətin nəzarəti altında olmasını və ondan bir nümunə kimi istifadə olunmasını arzu etmək, məgər başqa millətləri türk etmək istəyirdirmi?

Mən öz qənaətimə görə hər şeydən əvvəl türk olduğumu heç vaxt unuda bilmərəm və bu millətin Osmanlı İmperatorluğunun təməl daşı olduğuna tamamilə inanıram. Osmanlı İmperatorluğunun elm və mədəniyyət baxımından yüksəlməsi, Osmanlı cəmiyyətini qüvvətləndirər və Osmanlı İmperatorluğunu möhkəmləndirər. Çünki əsasən Osmanlı İmperatorluğunu təşkil edənlər türkdür. Buna misal istənilərsə, bu günkü acınacaqlı vəziyyətimizi göstərə bilərəm. Ərəblər istiqlaliyyət qazanmaq məqsədilə üsyana qalxdılar və nə vəziyyətə düşdülər? Bunu əvvəlcə də izah etdim. Misir Osmanlı cəmiyyətindən ayrılar-ayrılmaz ingilis himayəsi altına düşdü. Gənclər bu himayədən qurtarmaq üçün qiyam edincə, ingilislərin zorakı zərbələri altında əzildilər.

Fransızlar Suriyanın sahil bölgələri ilə Cəbəli-Lübnanı (Livan dağını) istila etməklə kifayətlənməyib, mərkəzi bölgələri də öz işğalları altına almaq istəyirlər.

Lakin türkün mübarək yurdu olan Anadoludan yüksələn türk sədası yeni «Osmanlı İmperatorluğu» türküsünü oxuyur. Türkün kiçicik bir yuvası olan Qərbi Türkiyənin nəcib övladı türk adını hər təhlükəyə qarşı sinə gərərək davam etdirməyə çalışır. O zaman Osmanlı cəmiyyətini təmin etmək istəyənlərə xatırladırıq ki, onların ən böyük vəzifələri türkü yüksəltmək, türkü yaşatmaq və türkü artırmaqdır.

Hamı tərəfindən qəbul edilməsini arzu etdiyim fikirlərimi izah edən kiçik məlumatımın lüzumsuz bir məsələ kimi qiymətləndirilməməsini rica edərək, öz xatirələrimə davam edirəm.

## İTTİHADÇILAR VƏ ERMƏNİLƏR

Məşrutiyyətin elanından sonra «İttihad və Tərəqqi» cəmiyyəti, ümumi mərkəzi Osmanlı torpağında yerləşən müxtəlif siyasi inqilab cəmiyyətlərini «Osmanlı Cəmiyyəti» adı ilə siyasi cəmiyyət halında birləşdirmək arzusunda olduğunu göstərdi.

Bu məqsədlə əvvəlcə müxtəlif bolqar üsyan cəmiyyətləri ilə əlaqə yaratdıq. Ən əvvəl məşhur Sandanski, Çernopoyev və yoldaşları ilə müzakirəyə başladıq.

Biz əsas Osmanlılıq prinsiplərindən bəhs edərkən, Bolqar üsyançıları Makedoniyanın müstəqilliyi haqqındakı fikirlərinin birindən belə əl çəkmək istəmirdilər. Tələt Bəylə birlikdə apardığımız bu müzakirələr zamanı nə çəkdiklərimizi bir Allah bilir, bir də biz. Hələ müzakirələr aparmaq üçün ilk dəfə seçdiyimiz Menlek, Petriç, Osmaniyə və Cumai Bala adlı bolqar kəndlərində Sandanski ilə bərabər keçirdiyimiz günlərin dəhşətli xatirələrini heç vaxt unuda bilmərəm. Bununla belə üsyan komitələri arasında ən çox razılığa gəldiyimiz yenə bolqarlardı.

Əsl Bolqar Makedoniya komitəsi öz siyasi proqramından heç vaz keçmək istəmirdi. Müzakirə üçün Etniki Eteriya adından Səlanikə gəlmiş bir yunan isə Krit və Sisam adalarının Yunanıstana ilhaq olunmasını və digər yunan adalarına müstəqil idarəetmə üsulu verilməsini, yunan Makedoniyası adı ilə adlandırılan bölgəyə də daha geniş imtiyazlar verilməsinin qarşılığında Yunanıstanla Türkiyə arasında bir müqavilə bağlanmasını təklif edirdi. Əlbəttə, bizim fikrimiz Yunanıstanla razılığa gəlmək deyil, Osmanlı məmləkətləri daxilindəki rumları «İttihad və Tərəqqi» cəmiyyətinə daxil etmək və beləliklə bir Osmanlı cəmiyyəti yaratmaq əsas məqsəd olduğundan bu təklifləri rədd etmişdik.

1907-ci ilin avqust ayında «İttihad və Tərəqqi» cəmiyyətinin rəhbər işçiləri müvəqqəti olaraq İstanbula gəlmişdi.

O zaman bir tərəfdən Prins Səbahəddin Bəy və digər tərəfdən erməni komitələriylə müzakirəyə başladıq.

Müzakirədə bizim tərəfdən mən, Tələt Bəy və Bəhaəddin Şakir Bəy iştirak edirdik. Prins Səbahəddin Bəy tərəfindən Dr. Nihat Rəşad Bəy, ermənilərdən də Malumyan və Şahirikyan Əfəndilər görüşdə iştirak edirdilər. «Adəmi - mərkəziyyətlə idarə» prinsiplərinin Osmanlı hökuməti üçün meydana gətirəcəyi bütün təhlükələri bir-bir onlara sayırdıq.

Prins Səbahəddin Bəyin prinsipləri ilə Daşnaksutyun cəmiyyətinin prinsipləri bir qədər bir-birinə bənzədiklərindən, onlar eyni tərzdə cavablar verirdilər. Qəribədir ki, Dr. Nihat Rəşad Bəy erməni inqilab cəmiyyətinin tələb etdiyi imtiyazlardan daha geniş imtiyazlar verməyin tərəfdarı idi və bunların meydana gətirəcəyi təhlükələri heç qəbul etmirdi.

Nəhayət, Malumyan Əfəndi Daşnaksütyun komitəsi adından aşağıdakı təklifi verdi.

«İttihad və Tərəqqi» cəmiyyətilə «Daşnaksutyun» cəmiyyəti Osmanlı İmperatorluğunda Məşrutiyyət idarəsi təhlükəyə düçar olması baxımından əməkdaşlıq edirlər, lakin əsas proqramlarını həyata keçirtməkdə hər ikisi sərbəst olurlar. Yəni Daşnaksutyun cəmiyyəti ölkədə öz inqilab təşkilatının fəaliyyətini davam etdirir. Belə ki, indiyə qədər gizli olan bu təşkilat bundan sonra bir siyasi cəmiyyət olaraq üzvləri öz vəzifələrini yerinə yetirmək üçün açıq fəaliyyətə başlayırlar.

Təbii ki, bu təklifi qəbul etməkdən başqa çarəmiz yoxdu. Xülasə, üç dörd ay davam edən çalışma və müzakirələrə baxmayaraq, heç bir millətin siyasi inqilab komitələrini «İttihad və Tərəqqi» cəmiyyətinin tərkibinə daxil etməyə müvəffəq ola bilmədik. Çünki onların məqsədləri ilə bizim məqsədimiz arasında çox böyük fərqlər vardı. Onlar istəyirdilər ki, indiyə kimi bir çox təhlükəyə məruz qalaraq müstəqillik üçün gizlicə apardıqları mübarizələrini və təşviqlərini bundan sonra açıq şəkildə aparsınlar və məqsədlərinə daha tez nail olsunlar. Biz istəyirdik ki, necə Osmanlı hökuməti bütün Osmanlı millətlərinin

birləşməsindən yaranmış bir hökumət olmuşsa, «İttihad və Tərəqqi» cəmiyyəti də bütün Osmanlı millətlərinin qədim inqilab cəmiyyətlərindən ibarət bir cəmiyyət halına gəlsin. Osmanlı cəmiyyəti dedikdə, bunun bütün millətlərə şamil edilməsi lüzumunu bütün Osmanlılara anlatmağa çalışmaqla bərabər, Məşrutiyyət idarəsini təhlükədən qoruya bilsin.

Ancaq milli məqsədləri üçün çalışan siyasi cəmiyyətlərdən heç biri bu təklifimizi qəbul etmədilər. Çünki hamısı əsasən təlimatlarını xaricdən alır və bizə yalnız zahiri cəhətdən bir gülərüzlülük göstərirdilər. Əvvəlcə də yazdığım kimi, ermənilərin rus boyunduruğu altına düşmələrindən çox qorxan «Daşnaksutyun» cəmiyyəti özünü ən çox bizə tərəfdar kimi göstərdiyi halda, o da təşkilatının fəaliyyətini davam etdirəcəyini və siyasi məqsədlərinə nail olmaq üçün açıq halda çalışacağını bildirdi. Erməni «Hınçakist» və «Hınçakisti reforme» komitələri isə bizimlə müzakirəyə belə gəlməmişdilər. Onların başçıları İstanbuldakı rus səfirliyi ilə münasibətlərini açıq bir şəkildə davam etdirirdilər.

1909-cu ilin yanvar ayında, Hüseyin Hilmi Paşa kabinetinin «İttihad və Tərəqqi» cəmiyyətini qızışdırması nəticəsində, Şərqi Anadolu vilayətlərində ermənilərlə türklər arasında baş verən ərazi ixtilaflarını həll etmək və bu vilayətləri təftiş etmək üçün Senat üzvlərindən olan Ədliyyə müfəttişi Qalib Bəyin rəhbərliyi altında iki türk və iki ermənidən ibarət bir heyət təşkil olunmuşdu. Təyin olunmuş türk nümayəndələrindən biri Avropada olduğu üçün onun yerinə «Daşnaksutyun» cəmiyyətinin rəhbərliyi ilə yaxşı münasibətlər yaratmış qərargah mayoru Zəki Bəy və mən bu heyətin tərkibində idik. Mənim bu heyətə daxil olmaığımı «Daşnaksutyun» cəmiyyətinin başçıları xahiş etmişdilər. Çünki avqust ayında onlarla danışıqlar apardığımız zaman mənim irəli sürdüyüm fikirləri çox ədalətli saymış, mənim bitərəf və «İttihad və Tərəqqi» cəmiyyətinin səlahiyyətli üzvlərindən biri olduğum üçün edəcəyim hərəkətlərin cəmiyyət

üzvləri tərəfindən etiraza səbəb olmayacağını söyləyirdi. Təklifi məmnuniyyətlə qəbul edərək Səlanikdən İstanbula gəldim.

Bununla belə hökumətin bu təşəbbüsü, Milli Məclisdəki Şərqi Anadoludan olan millət vəkillərinin böyük etirazlarına səbəb oldu. Bu tərzdə təftiş heyətləri göndərilməsinin valilərin konstitusiya ilə təsdiq olunmuş müəyyən hüquq və vəzifələrinin pozulması fikrini irəli sürdülər. O zaman Daxili İşlər Naziri olan Fərid Paşa isə, Milli Məclisdə hökumətin bu təşəbbüsünü müdafiə edə bilmədiyi üçün, 31 mart (13 aprel 1909) hadisəsinin baş verdiyi zamana qədər İstanbulda işsiz olaraq gözləməyə məcbur olmuşdum.

31 mart hadisəsindən sonra isə, bu məsələ tamamilə unuduldu. Mən də 1909-cu ilin may ayının sonlarında Üsküdar rəhbərliyinə təyin olundum.

## ADANA HADİSƏSİ

İstanbulda «İttihad və Tərəqqi» cəmiyyətinin yüksək vəzifəli şəxsləri ilə tərəfdarlarının hamısını ortadan götürmək məqsədilə təşkil olunan 31 mart hadisəsinin baş verdiyi dövrdə Adana vilayətində də türklərlə ermənilər arasında böyük bir soyqırım baş vermişdi. 1909-cu ilin avqust ayının ortalarında Adana valisi təyin olunduğum üçün Osmanlı Məşrutiyyət tarixinin ən kədərli hadisələrindən olan bu soyqırımın psixoloji səbəblərini mənim qədər tədqiq etmiş başqa birisinin olmadığı fikrindəyəm.

Məşrutiyyətin elanından sonra Osmanlı məmləkətlərinin hər tərəfində xalq o dərəcədə başlı-başına buraxılmışdı ki, ən kiçik jandarmasından ən böyük valiyə qədər heç bir hökümət məmurunun əhali üzərində nüfuzu qalmamışdı. Söz azadlığı istər mətbuat, istərsə də xalq tərəfindən çox yanlış bir surətdə başa düşülmüş və hər adamın ağzına gələn hər sözü istədiyi şəxsə cürətlə söyləyə biləcəyini düşünürdü. Əvvəlki dövrdə mütləqiyyət üsulunun tələbinə uyğun olaraq xalqı təzyiq altında saxlamış olan bəzi valilər, bir çox icra, ədliyyə və inzibati orqanlarda çalışan məmurlar çox kobud və qanuna zidd təcavüzlərə məruz qalmış və Məşrutiyyətdən əvvəl hətta «İttihad və Tərəqqi» cəmiyyətinin adını belə eşitməmiş olan bir çox yerlərdə, fırıldaqçılar özlərini azadlıq qəhrəmanı adlandıraraq, dövlət məmurlarının vəzifəyə qoyulmasının qarşısını alacaq dərəcələrdə azğın hərəkətlər etmişdilər.

Məşrutiyyətin ilk günlərində rəhbərlikdə olduğum zamanlara aid xatirələrimdə belə hadisələr həddən çoxdur.

«İttihad və Tərəqqi» cəmiyyətinin rəhbərliyi bu azğın hərəkətlərin qarşısını almaq üçün lazım olan bütün tədbirlərə əl atır və heç bir şəxsin qanuna zidd hərəkətlərə düçar olmaması üçün çalışırdılar.

Cəmiyyət, təşkilat olmayan yerlərdə onu təşkil etmək və cəmiyyətin qaydalarını xalqa başa salmaq üçün xüsusi nümayəndələr göndərsə də, bu nümayəndələrin seçilməsində çox vaxt müvəffəq ola bilmirdi. Bir çox cəmiyyət nümayəndələri nizamnaməmizin ölkədə hökumətin mövqeyini mühafizə edəcək qanunlarını qiymətləndirə bilməyərək, onlar da xalqın rahatlığını pozan adamlara qoşulurdular.

Nəhayət «İttihad və Tərəqqi» cəmiyyətinə qarşı çıxan bir çox siyasətçilər, İstanbuldakı mətbuat azadlığının zərərli cəhətindən istifadə edərək, hücumlarını bu cəmiyyətin əleyhinə çevirməyə başladılar. Ölkəni həqiqətən çıxılmaz bir anarxist vəziyyətə saldılar. Hökumət sultanlıq mərkəzində bütün səlahiyyətlərindən, qüdrət və nüfuzundan məhrum olanda, digər tərəflərin nə vəziyyətə düçar olduğunu təsəvvür etmək çətin deyildir. Hər vilayət mərkəzində təşkil olunan «İttihad və Tərəqqi» şöbələrinin ardınca, bu şöbələrdə nüfuz qazana bilməyənlər İstanbulda bir-birinin ardınca yaranmağa başlayan müxtəlif adda siyasi cəmiyyətlərin şöbələrini təşkil etməyə və bunun sayəsində özlərinə nüfuz qazanmağa çalışdılar.

Müsəlman və türk əhalisi belə bir intiqama düçar olduğu halda, xristianlar da xüsusi komitələrinin təşkilatını yaradaraq öz proqramları dairəsində fəaliyyətə başladılar.

Adana vilayəti əhalisinin əksəriyyətini türklər təşkil edir. Bunlardan sonra ermənilər, daha sonra da «ərəb xidmətçisi» adı verilən ərəblər və nəhayət yunanlar təşkil edir. Vilayətin əhalisinin ümumi sayı beş yüz əlli mindən artıqdır. Bunun təqribən altmış mini erməni, iyirmi beş mini «ərəb xidmətçisi», on beş mini rumdur. Yerdə qalanın hamısı türkdür. Təxminən hamısı əkinçilik işləri ilə məşğul olan əhali arasında əsrlərdən bəri qarşılıqlı dostluq münasibətləri olmuşdur.

Bu həqiqət də inkar edilə bilməz ki, Adana vilayətində osmanlılardan çox əvvəl orada türklər yaşamışdı. Osmanlılar bu diyarı «Ramazanoğulları» deyilən bir ailənin əlindən almışdılar. Baxmayaraq ki, Kilikya deyilən bu vilayətdə əhli-səlib

(xristianları XI-XIII əsrdə Şərqə - səlib yürüşləri) zamanında bir erməni krallığının yaşadığını tarixdə qeyd edirlərsə də, bu krallığın dövründə həmin vilayətdə bir çox türklərin məskun olduğunu və türk feodallarının erməni krallığına heç bir imkan vermədikləri də tarixi həqiqətlərdəndir.

İndi Adana vilayətində yaşayan ermənilərdən bir çoxu sərvət qazanmaq məqsədilə XIX əsrdə Diyarbakır, Sivas, Elazığ tərəflərindən buraya köçmüş adamlardır.

Əsl yerli Adanalı ermənilər vilayətin şimal sərhədinin axırında yerləşən «Haçin» qəsəbəsilə Kozan bölgəsinin mərkəzi olan Sis qəsəbəsinin bir neçə kəndində və İsgəndərun körfəzi sahilində yerləşən Dördyol kəndi və onun ətrafındakı bir neçə kənddə yaşayan ermənilərdir.

«Ərəb xidmətçiləri» isə Əbdüləziz dövründə Lazkiyə bölgəsindəki rafizilərin (şiə mənsəbinin bir qolu) sürgün edilməsi zamanı əhalisi çox az, ərazisi də çox münbit və məhsuldar olan Adana düzənliyini abadlaşdırmaq məqsədilə o yerlərdən gətirilmiş şəxslərdir.

Vilayətin türk və erməni əhalisi əvvəlcə də yazdığım kimi, qarşılıqlı etimad şəraitində yaşayırdı və aralarında heç bir anlaşılmazlıq yox idi.

1894-1896-cı il inqilabı və soyqırımı zamanı Adana vilayətində heç bir hadisə baş verməmiş və bu mübarizələrin vilayətlərinə sirayət edə bilməməsi üçün türklər ermənilərlə birgə çalışmış və müvəffəq olmuşdular.

Məşrutiyyətin elanından sonra Adanada yaranan türk siyasi cəmiyyətlərinə qarşılıq olaraq ermənilər də «Daşnaksutyun», «Hınçakist» və «Reforme Hınçakist» şöbələrini yaratdılar və daha doğrusu əvvəlcədən mövcud olan gizli təşkilatlarını meydana çıxardılar.

O zaman Adana erməni nümayəndəliyində olan Muşeq Əfəndi adında gənc və son dərəcədə şöhrətpərəst olan bir keşiş, eyni zamanda «Hınçakist» təşkilatının rəhbərlərindən idi. Bu adamın əxlaqsızlığı haqqında ermənilərin özləri belə danışıb

qurtara bilməzlər. Əgər şəxsən ermənilərdən eşitdiyim hekayələr doğrudursa, demək olar ki, hər cür əxlaqsızlıq bu şəxsdə toplanmışdır.

Monsenyör Muşeq Məşrutiyyətin elanından sonra, özünü Adana ermənilərinin ən böyük dini və siyasi rəisi mövqeyinə qoymuşdu.

Hökumətin zəif və aciz məmurlarından ədəbsizcəsinə istifadə etməyə çalışan bu keşişin bir gün idarə heyətinin iclasında valiyə qarşı kobud rəftar etdiyini və vilayət jandarma rəisini gedib döyəcəyi ilə hədələyərək hiddətlə iclası tərk etdiyini mənə danışdılar.

O zaman bir çox erməni gənclərinin də Monsenyör Muşeqə tərəfdar olduqlarını və müxtəlif yerlərdə təşkil etdikləri mitinqlərdə ermənilərin artıq türk boyunduruğundan qurtulma zamanının yetişdiyini heç nədən çəkinmədən açıqca söylədiklərini eşitmişdim.

Çox haqlı olaraq söyləmək məcburiyyətindəyəm ki, Monsenyör Muşeq ilə yoldaşlarının bu azğın hərəkətlərində Daşnaksutyun cəmiyyətinin nümayəndəsi iştirak etmir və belə hərəkətlərin ağır nəticələr verə biləcəyini İstanbuldakı Daşnaksutyun nümayəndələrinə bildirildi.

Monsenyör Muşeq öz azğın hərəkətlərilə kifayətlənməyərək, adamlarını silahlandırmaq üçün Avropadan tüfəng və tapanca gətirməyə başlamışdı. O zaman hökumət hər şeyi sərbəst buraxdığı kimi, silah ticarəti və idxalına da sərbəstlik vermişdir. Monsenyör Muşeq, artıq ermənilərin silahlı olduğundan, bir daha 1894-cü ildəki soyqırım kimi hadisələrdən qorxmayacaqlarından və bir erməninin tükünə toxunularsa, bunun əvəzində on türkün məhv ediləcəyindən çəkinmədən bəhs edirdi.

Monsenyör Muşeqin bu azğıncasına nümayiş etdirdiyi hərəkəti və xəbərdarlığı Adana türklərini buna qarşı tədbirlər görməyə məcbur edirdi.

İndi burada o zamankı Adana hökumətinin ən məsuliyyətli günləri başlayır. Çünki, bir hökumət zəif və aciz olarsa, bu

işlərdən qurtulmaq çətin olar. Monsenyör Muşeqin bu azğınlığı müsəlman əhalinin üsyana qalxmasına səbəb olmuş və Muşeq cənablarını, onun yoldaşlarını və türklərdən qarışıqlıq salmağa meyilli olan şəxsləri də yaxalayıb həbs etmək, onları qanuni olaraq təqib etmək və hətta lazım gələrsə vilayətdə hərbi vəziyyət elan etmək ən qəti tədbir olardı.

Lakin o zaman Həsən Fəhmi Bəyin dəfn mərasimini təşkil edən Muhamməddiyə Cəmiyyəti tərəfindən Babi-ali küçəsində təhqirə məruz qalan Sədrəzəm Hüseyin Hilmi Paşa İstanbulda belə qəti tədbirləri tətbiq etməyə cürət və təşəbbüsə malik deyildi.

Azadlığın anarxiya olmadığını xalqa başa salmaq hökumətlərin ən birinci vəzifəsidir. Təəssüf ki, 1908-ci ilin son üç ayından 1909-cu ilin əvvəllərinə kimi Türkiyədə belə bir hökumət yox idi.

O vaxtlar Cavad Bəy Adana vilayətində vali idi. Cavad Bəyi ən yaxşı əxlaqlı və xoş xasiyyətli bir şəxs kimi nümunə göstərmək olardı. Lakin rəhbərlik etməkdə səriştəsi olmayan və xoş xasiyyətə malik olan bu şəxs o dövrdə Adana valiliyini idarə edəcək bir vəziyyətdə deyildi.

Diviziya komandanlığında isə Fəriq Mustafa Rəmzi Paşa adlı yaşlı bir hərbçi vardı. Gəncliyində böyük bir şöhrət qazanmış bu yaşlı hərbçi də bütün həyatı boyu namuslu və vətənpərvər olmuşdu. Lakin həm yaşlı, sonra da inzibati vasitələrdən məhrum olan bu möhtərəm şəxsin Adanada komandanlıq vəzifələrini yerinə yetirəcək şərtlərə malik olduğunu demək olmaz.

Cəbəlbərəkət bölgəsini isə Asaf Bəy adlı bir şəxs idarə edirdi ki. kölgəsindən qorxacaq ürəksiz olan bu şəxsin bölgəyə necə rəhbərlik etdiyini başa düşə bilmirəm.

1909-cu ilin əvvəllərində Adanada hamının dilinin əzbəri olan şayiələr gəzirdi ki. guya bu yaxınlarda ermənilər üsyan edərək türkləri qıracaqlar və bu yol ilə vilayətin Avropa donanması tərəfindən işğalını və sonra da Ermənistan yaradılmasını təmin edəcəklər.

Türklər bu şayiələrə o qədər inanmışdılar ki, hətta tanınmış adamların bəziləri ehtiyat edərək öz ailələrini təhlükəsiz yerlərə köçürməyə başlamışdılar.

Ermənilərin azğınlığı dövründə məhv olmamaq üçün tədbirlər görmək fikirlərini, İstanbuldakı Muhamməidiyə Cəmiyyəti tərəfindən Adanaya göndərilmiş bəzi şəxslərin yaydığını mənə demişdilərsə də, bunun doğru olması haqqında bir ipucu əldə edə bilmədim.

1909-cu ilin aprel ayında hər iki tərəf münasibəti o qədər gərginləşdirmişdi ki, axşama, sabaha kimi iki xalqın bir-biri üzərinə hücum edəcəklərinə artıq heç kimin şübhəsi qalmamışdı.

Nəhayət, aprel ayının 14-də Monsenyör Muşeqin əmrilə ermənilər tərəfindən başlayan təcavüzlərlə Adana hadisələri baş verdi.

Adana, Tarsus, Hamidiyə, Misis, Ərzin, Dördyol, Azizlidə, xülasə ermənilərin çoxluq təşkil etdikləri hər yerdə elə dəhşətli soyqırımlar başlamışdı ki, bunları təfsilatı ilə söyləmək, insanda çox ciddi nifrətlər oyanmasına səbəb olar.

Vilayət mərkəzində aciz qalan hökumət Adana və ətraf yerlərdə müsəlmanların təcavüzə uğramaması üçün, ümumi üsyan tədbirinə keçməsini əmr etməkdə ağılsızlıq etmiş, Dördyol ermənilərinin silahlı bir dəstə ilə Cəbəlbərəkət bölgəsinin mərkəzi olan Ərzin qəsəbəsinə doğru irəlilədiyi xəbərini alan qəsəbə başçısı Asaf Bəy, otağından belə çıxmayaraq, bütün ətraf yerlərə və həmçinin ətrafda yerləşən Kozan bölgəsinə, burada müsəlmanların soyqırımı təhlükəsinə məruz qaldığından, vətənini, millətini sevən hər türkün silahlanaraq Cəbəlbərəkət bölgəsinin imdadına çatmasına dair teleqramlar yağdırmış.

Dördyol ermənilərinin Ərzin qəsəbəsi üzərinə hücum etmələri doğrudur. Ermənilərin məqsədi Cəbəlbərəkət bölgəsindəki türkləri qırmaq idi. Lakin bir bölgə başçısının otağında oturub əhalini başlı-başına buraxaraq silahlanmağa dəvət etməsi qətiyyən bağışlanmaz bir cinayətdir. Çünki özünə təhlükənin yaxınlaşdığını görən xalq, təcavüz edənlərin yalnız silahlı olan-

lara deyil, silahsız qadın, qoca və uşaqlar əleyhinə də təcavüz edə bilər və xüsusilə cürət edə bilərdi. Necə ki, elə də oldu.

«İlk Adana hadisəsi»nin səbəb və amilləri bunlardır. «İkinci Adana hadisəsi» adlandırılan və birinci hadisədən on bir gün sonra yalnız Adana şəhərində baş verən hadisə isə, gecə vaxtı bəzi erməni gənclərinin əsgər qərargahına atəş açmasından sonra başlamış və Adana şəhərində soyqırımın daha dəhşətli şəkil almasına səbəb olmuşdu.

Mənim fikrimcə Adana soyqırımı üçün məsuliyyəti tək başına «Les Vepres Ciliciennes»in məşhur yazıçısı Monsenyör Muşeg daşıyır. Bu şəxsin törədə biləcəyi azğın və yaramaz hərəkətlərini hiss edərək, vaxtında qarşısını alacaq və mane olacaq tədbirlər görməyən o zamankı Adana hökuməti də eyni dərəcədə məsuliyyət daşıyır.

Hadisələr baş verdikdən sonra hökumət idarəçiliyi tamam itirərək soyqırım və talanlara qarşı acizlik göstərərək sakit dayanmaları, aciz qalmaları isə heç bağışlana bilməz.

Lakin bu həqiqətdir ki, Adana vilayətinin rəsmi və qeyri rəsmi bütün müsəlman və türk əhalisi bu hadisənin baş verməsindən iki-üç ay əvvəldən başlayaraq, Adana ermənilərinin müsəlmanlara qarşı soyqırımı etmək üçün hazırlıq gördüklərini və hər gün silah gətirdiklərini bilir və onları gözləyən təhlükəni hiss edirdilər. Monsenyör Muşeq və onun ətrafındakılar isə öz nitqləri və kobud sözləri ilə psixoloji təsir göstərərək, bu təhlükənin daha da yaxınlaşdığını çəkinmədən söyləyirdilər.

Əvvəlcə də izah etdiyim psixoloji səbəblər təkcə mənim fikrim deyildir. O zaman Adana konsulluğunda işləyən ingilis mayorlarından Mr.Dougthy-Wylie də eynilə bu qənaətdə idi.

Çanaqqala müharibələri zamanı çox böyük qəhrəmanlıq göstərərək, vətən uğrunda canını fəda etmiş bu dəyərli şəxsin həyatda olmayıb sözümü təsdiq edə bilməməsinə görə çox kədərlənirəm. Türklərin və ərəb xidmətçilərinin soyqırım əsnasında göstərdikləri dəhşətli özbaşınalıqları nifrətlə söyləməklə yanaşı, bu hadisənin əsl səbəbkarı Monsenyör Muşeqin olduğunu

Amerikalı missioner Mr.Chambers ilə Tarsus Amerikan məktəbinin müdiri Mr.Christin də mənə demişdilər.

Adana soyqırımı əsnasında 17.000 erməni və 1.850 müsəlman ölmüşdür. Bu rəqəmlər göstərir ki, əgər Adanada ermənilər sayca türklərdən artıq olsaydılar, əksinə ermənilər türkləri qırardılar. Qətliam zamanı hər iki tərəfin etdiyi hərəkətlər bir-birindən fərqli deyildi. Ermənilər də fürsət tapdıqları yerlərdə türk qadın və uşaqlarına qarşı amansız hərəkətlər etmiş və zincirdən buraxılmış xalqın bir-birindən fərqli olmadığını sübut etmişdilər.

Adanaya vali təyin olunduğum zaman, hökumət ixtiyarıma iki yüz min lirəlik kredit ayırmışdı. Bunun yüz min lirəsi şəhər və kəndlərdə yanmış olan erməni və müsəlmanın ev və dükanlarının yenidən tikilməsinə sərf olunacaq, yüz min lirəsi də tacir, sənətkarlar və fermerlərin yenidən öz işlərinə başlamaları üçün on il ərzində ödəmək şərtilə, onlara borc olaraq veriləcəkdi.

Rəhbərliyim altında Adanada bir inşaat komissiyası təşkil etdim. Komissiyanın tərkibi amerikalı misyoner Mr.Chambers, əcnəbilər və əksətiyyəti ermənilər olmaqla bir çox yerlilərdən ibarət idi. Adanaya gəlişimdən dörd ay sonra gördüyüm tədbirlər sayəsində vilayətin daxilindəki erməni kəndlərinin hamısı yenidən qurulmuş, mərkəzdə də kiçik ailələrə aid olan evlərin hamısı yenidən tikilmişdi.

Xülasə dörd-beş ay içində ermənilər ticarətlərinə, sənətlərinə və əkinçiliklərinə tamamilə başladılar və müsəlmanlarla aralarındakı soyuq münasibətdən zahiri cəhətdən də olsa heç bir əsər qalmadı.

Mandelstamm kitabının 207-ci səhifəsində Adana soyqırımında məsuliyyət daşıyan müsəlmanların nüfuzu olmayanlardan yalnız doqquz adamın edam olunduğunu türklər haqqındakı qərəzkar təbliğatilə məşhur olan Adosidis adlı bir rumun əsərinə istinad edərək iddia edirsə də, istər Adosidis və istərsə də Mandelstamm yalan söyləyirlər. Adanaya gəlişimdən dörd ay sonra təkcə Adana şəhərində qanunauyğun olaraq Hərbi Tribunalın məhkumlarından otuz müsəlmanı edam etdirməklə yanaşı, ondan

iki ay sonra da Ərzin qəsəbəsində on yeddi müsəlmanı edam etdirdim. Bunlarla bərabər yalnız bir erməni edam olunmuşdur. Edam olunan müsəlmanlar arasında Adananın ən qədim və ən zəngin ailələrinə mənsub gənclərlə yanaşı, Bahçə qəzasının müftisi də vardı. Bu müftinin o ətrafda yaşayan türklər arasında böyük nüfuzu var idi.

Çox təəssüf edirəm ki, Adanada baş verən hadisənin ikinci günü bir əcnəbi gəmisi ilə İsgəndəriyəyə qaçan Monsenyör Muşeq o zaman əlimə keçmədi. Yenə haqlı olaraq, Hərbi Tribunal tərəfindən qiyabi olaraq edama məhkum edilmiş bu şəxs əlimə keçsəydi, onu da Bahçə qəzası müftisinin qarşısından asdırardım.

Adanada vali işlədiyim dövrdə ermənilərin rifahı və itirdiklərinin əvəzini ödəmək üçün çəkdiyim zəhmətləri ermənilər özləri də etiraf etməkdən çəkinməzlər. Xüsusilə, o dövrdə Adananı ziyarət etməyə gələn fransız, ingilis, isveçrəli və amerikalı əcnəbilər bunları öz gözləriylə görmüş və məni təbrik etmişdilər.

Hadisə zamanı yetim qalan erməni uşaqlarının təlim-tərbiyəsi üçün Adanada tikdirdiyim böyük yetimxana indi də qalır.

Adanadan sonra Bağdad vilayətinə vali təyin olundum və oradan 1912-ci ilin avqust ayında istefa verərək İstanbula qayıtdığım zaman Osmanlı hökuməti ən təhlükəli bir dövrünü yaşayırdı.

Əvvəla İtaliya ilə hələ də müharibə şəraitində idik. Sonra Bolqarıstan, Serbiya, Qaradağ və Yunanıstan bizim əleyhimizə olaraq birləşmişlər və hər an müharibəyə başlamaq üçün bir bəhanə axtarırdılar. Albaniya üsyan etmək ərəfəsində idi. Suriyada bütün ərəb mətbuatı əhalini üsyana çağırır və ərəb vilayətləri islahat keçirilməsini istəyirdilər.

Erməni patriarxı Ermənistanda islahat keçirilməsini bildirən tələblərilə Babi-aliyə bir-birinin ardınca bəyanat göndərirdi. Əsl ən dəhşətlisi o idi ki, «Alaskar Zabitan qrupu» adı ilə adlandırılan bir dəstə zabit orduda çox yaramaz hərəkətlərlə anarxiya yaratmışdılar. Çanaqqala, İzmir və Albaniyada olan ordu demək olar ki, üsyan halında idilər. Dövlətin başında Qazi Muxtar Paşa kabinəsi dururdu.

## RUSİYA VƏ ERMƏNİ PROBLEMİ

Belə bir şəraitdə Balkan müharibəsi başladı.

Ordularımız bir-birinin ardınca hər tərəfdən məğlubiyyətə düçar olduqları vaxt, bu fürsətdən istifadə edən Moskva diplomatiyası ilə Fransız diplomatiyası fəaliyyətə başladı.

Fransızlar ərəbləri Suriyada islahat keçirilməsi tələbinə təşviq etdikləri kimi. İstanbuldakı rus səfiri də 1912-ci il noyabr ayının 26-da Rusiya Xarici İşlər Nazirinə vurduğu teleqramda Ermənistan məsələsini yenidən gündəmə gəldiyini bildirmişdi.

Mr. De. Gieres teleqramında yazırdı ki, «Erməni soyqırımının Anadolu və İstanbulu qanlara boyadığı bədnam 1894-1896-cı illərdən bəri vəziyyət heç dəyişməmişdir. Sultan Əbdülhəmidin Rusiya, Fransa və İngiltərənin təzyiqi altında 1895-ci ilin 20 oktyabrında hazırladığı islahat fərmanı tamam unudulmuşdur. Ərazi məsələsi gündən-günə çətinləşir. Ərazinin böyük bir hissəsi üsyançı köçəri tayfaları tərəfindən zorla alınmış və ya alınmaq üzrədir. Hökumət məmurları buna mane olmaqdansa, onları himayə edərək bu işə təşviq edirlər. Konsullarımızın hamısı quldurların və talançıların erməniləri öldürməkdə və erməni qadınlarının da İslam dinini qəbul etməyə məcbur edildikləri məsələsində onlarla həmrəydilər.

Bu cinayətləri törədənlər haqqında heç bir cinayət işi açılmamışdır. İstanbuldakı erməni patriarxı Babi-aliyə (Osmanlı hökumətinə) və Ədliyyə Nazirliyinə təqdim etdiyi yazıda Türkiyədəki erməni təbəəsinin məruz qaldığı zülm və işgəncələri həqiqi surətdə təsvir edir. Mr. De Giers sözünə davam edərək deyir ki: «Belə vəziyyət erməni kütlələrinin daha çox Rusiyaya tərəf meyllənmələrinə səbəb ola bilər. Ermənistandakı rus konsullarının hamısı ermənilərin bu fikirdə olduqlarını təsdiq edirlər. Ermənilər Rusiyanın nəzarəti altında islahat aparılmasını və hətta rus işğalı altında olmalarını istəyirlər. Erməni katolikosu şərqdəki xristianların müdafiəçisi olan Rusiyadan Türkiyədəki

bədbəxt erməniləri öz himayəsi altına almasını cənabı-haqq adına xahiş edir». Səfir erməni məsələsini Rusiya üçün böyük əhəmiyyəti olan vacib bir iş hesab edir və hökumətin bu işi tənzimləmək üçün təşəbbüs göstərməsini arzu edir. Ancaq işğal vaxtının çatmadığını, hələ tez olduğunu bildirir, özünü «islahat tərəfdarı kimi göstərirdi. Lakin bir dəfə buraya ayaq basarkən, 1895-ci il qanununun faciəli aqibətini yada salmaq və islahatı Rus və ya Avropalı məmurların nəzarəti altına almaq lazımdır» deyir. Mr.De Giers «Türkiyənin düşdüyü bu qarmaqarışıq vəziyyətə görə, islahatın gözlənilən sakit bir şəraitdə mümkün ola bilməyəcəyini ehtimal edərək, ordularımızın bu zonalara daxil olmaları üçün hazır dayanmalarının lazım gəldiyini» deyərək sözünü bitirir.

Hələ 1912-ci ilin əvvəlindən Rusiyadakı Eçmiadzin katolikosu Boğos Nubar Paşanı Osmanlı ermənilərinin muxtariyyətini əldə etmək məsələsi ilə əlaqədar olaraq Avropa ölkələrinə göndərmişdi ki, bu da rus diplomatiyasından başqa bir şey deyildir.

Rusların Ermənistan haqqındakı pis niyyətlərini ört-basdır etmək üçün işlətdikləri siyasətlə fransızların Suriya haqqındakı siyasətləri bir-birinə çox bənzəyir. Rus səfirinin köməkçisi ermənilərə dair islahatı Ermənistanın ruslar tərəfindən işğal olunması üçün atılmış bir addım hesab edirdi ki, bu da ən doğru yoldur. Moskva siyasətinin erməni islahatındakı məqsədinin nə olduğunu çox gözəl açıqlayan sətirlərin «Rus turuncu» (narıncı) kitabında yazılmasına təəccüb edirəm. Hər halda «Cənabı-haqq canilərə cinayətlərini etiraf etdirmiş» deməkdə özümü haqlı sayıram.

Ruslar bu son illərdə Qafqaz ermənilərinə qarşı siyasətlərini dəyişdirdilər. Əvvəlcə erməniləri təzyiq altında saxladıqlarına görə həqiqi erməni inqilabçılarının Rusiyaya qarşı inamsızlıq və etimadsızlıq göstərdiyini nəzərə alan Moskva öz hiyləgər siyasətini dəyişdirmiş, Eçmiadzin monastırının əvvəlcə müsadirə edilmiş bütün əmlakı yenidən geri qaytarılmış, həmçinin

ermənilərdən olan siyasi məhkumlar haqqında ümumi əfv elan etmiş və s. kimi xeyirxah işlər görməyə başlamışdı.

Bu siyasətin nəticəsində o zamana qədər ruslardan nifrət edən erməni inqilabçıları da ruslara yaxınlaşmağa başlamışdı. Boğos Nubar Paşanın Avropada fəaliyyətə başlamasından sonra və xüsusilə 1913-cü ilin ortalarında erməni islahatı haqqında rusların təşəbbüslərinə mane olmaq məsələsində yardım etmələrini və artıq Balkan müharibəsi sona çatdığı üçün, bundan sonra Şərqi Anadoludakı köçəri tayfalarını daha çox ciddi nəzarət altında saxlamaq və bunun sayəsində ermənilərin rifah halının yaxşılaşmasını təmin etməyin mümkün ola biləcəyini Osmanlı hökuməti dəfələrlə Daşnaksutyun cəmiyyətinin başçılarına bildirmişdi.

Bunların çoxundan aldığımız cavab, «...Madam ki, böyük dövlətlər işə başlamışlar, artıq bundan bizim vaz keçməyimiz mümkün deyildir» tərzində idi.

8 fevral 1914-cü il müqaviləsi bizim nə qədər kədərimizə, rusların isə nə qədər sevincinə səbəb olursa olsun, Osmanlı hökuməti bu müqavilənin bütün maddələrini tamamilə tətbiq etməyə qərar vermişdi. Lakin Rusların öz siyasətini yeritmək üçün maneələr törətmək haqqında düşünmək olarmı?

Şərqi Anadoluda rahatlıq və sakitliyin pozulması onların əsas məqsədi deyilmi? Bunun üçün əvvəlcə erməniləri himayə etmək və onların xeyrinə Avropanın mərhəmət hisslərini oyandırmaq lazımdır. Lakin bunun ardınca köçəri bəyləri və bəylərdən daha çox nüfuzlu olan şeyxləri qızışdıraraq, bunları həm hökumət, həm də ermənilər əleyhinə qiyama qaldırmaq vacibdir.

Bu düşünülmüş məqsədlə Rusiya hökuməti bir tərəfdən bədnam Bədirxani Əbdürrəzzaq Bəyi Rusiya daxilində himayə edərək, guya Kürdüstan knyazlığı təşkil etmək üçün çoxlu pullar vermiş, bir tərəfdən də Bitlisdəki Şeyit Tahanı Bitlis konsulu vasitəsilə hökumət əleyhinə qiyama qaldırmışdır. Bunu Mr. Mandelstamm inkar etməyə çalışsa da, hər halda həqiqəti gizləmək mümkün deyildir.

## ERMƏNİLƏRİN KÖÇÜRÜLMƏSİ

Ermənilər haqqında islahat məsələsinin bu şəkildə müzakirəsi davam etdiyi bir zamanda dünya müharibəsi başladı. Osmanlı hökuməti Almaniya ilə müttəfiq olduğundan gec-tez bu müharibəyə qoşulmağa məcbur olacağına əmindi. Buna görə də bu çox dəhşətli və uzun müddət davam edən müharibə illərində daxili islahatla məşğul olmağın mümkün ola bilməyəcəyindən Şərqi Anadolu vilayətlərinə göndərilmiş iki müfəttişin öz vəzifələrini davam etdirməsini lazım bilməmişdi. Əslində bizim yeganə məqsədimiz bu dünya müharibəsi sayəsində ölkəmizdəki müstəqilliyimizə zərbə vurmaq istəyən nə qədər dövlət qərarları varsa, bunların hamısından qurtulmaq və bundan sonra öz ölkəmizdə yerli şərtlərə uyğun olan islahatı şəxsən özümüz keçirərək azad və müstəqil millətlər kimi yaşamaqdı.

Kapitulyasiyaları və Cəbəllübnan (Livan dağı) imtiyazlarını ləğv etməyə çalışdığımız kimi, son zamanlarda Rusiyanın zorakılığı və təzyiqi nəticəsində Şərqi Anadoluda islahat aparılmasına aid qəbul etdiyimiz müqaviləni cırıb atmaq istəyirdik.

Mən bu mövzuda ətraflı danışdığım kimi, biz bu dünya müharibəsinə bundan sonra layiqli millətlər kimi müstəqillik içində yaşamaq niyyətilə girmişdik.

Niyyətimiz belə olduqda fikirləşirəm ki, ermənilərin yaşadıqları vilayətlərdə islahat aparmaq üçün əbədi düşmənimiz olan Rusiyanın təzyiqi ilə imzaladığımız müqavilənin artıq əhəmiyyəti olmaz.

Bu düşüncələr heç bir zaman ölkəmizdə bizim islahat keçirmək fikrində olmadığımıza sübut ola bilməz. Ümumi islahat keçirmək arzusu bizdə o qədər qətiyyətli idi ki, əsasən bu daxili islahatı keçirmədikcə ölkədə yaşamaq imkanının olmayacağına inamımız vardı.

Buna görə də bütün ölkəmizdə islahat təşəbbüslərini dünya müharibəsindən sonraya saxlamaq və hələlik millətin ümumi

qüvvələrini müharibəyə yönəltməyin lazım gələcəyinə qərar vermiş və bu düşüncələrimizi Daşnaksutyun cəmiyyətinin başçılarına da deməkdən çəkinməmişdik.

Nəhayət dünya müharibəsinə biz də qoşulduq. Qoşulmağımızdan bir neçə gün sonra mənə edilən təklifə əsasən Dördüncü orduya komandan təyin olunaraq, İstanbuldan Suriyaya getdim. Bundan sonra Şərqi Anadolu vilayətlərində vəziyyətin necə olması, dövlətin nəyə görə ermənilərin kütləvi olaraq köçürülməsinə qərar verməsindən xəbərim yoxdur. O zaman İstanbulda aparılan müzakirələrdə iştirak etmədiyim kimi, bu sahədə mənim fikirlərimi də soruşmadılar. Yalnız günün birində Daxili İşlər Nazirliyindən vilayətlərə göndərilən müvəqqəti qanuna əsasən ermənilərin Mesopotamiyaya köçürülərək müharibənin sonuna kimi orada yaşayacaqlarını öyrəndim. Baş Komandanlıq Nazirliyindən də mülki məmurlar vasitəsilə idarə ediləcək bu köçürülmə zamanı ordu məntəqəsindən keçən ermənilərə bir təcavüz edilməsinə imkan verilməməsi də bildirilirdi.

Bundan başqa mənim heç bir şeydən xəbərim yoxdu. O zaman mən «İkinci Kanal müharibəsi»* üçün, 1915-ci il payızın sonlarında Suriyaya göndəriləcək hərbi qüvvələrin yeganə mənzil xətti olan Pozantılarda müxtəlif ərzaq və taxıl toplamaqla məşğul idim. Bu mənzil xəttində intizamsızlığa səbəb ola biləcək hər bir təşəbbüs mənim fikrimcə «II-ci Kanal müharibəsi» üçün çox böyük fəsadlar törədə biləcəyinə görə və köçürülən ermənilərin Pozantiya gələcəklərini, oradan da Tarsus və Adana yolu ilə

---

* İkinci Kanal müharibəsi" – Osmanlı İmperatorliğunun I Dünya müharibəsi dövründə Süveyş kanalında təşkil etdikləri ikinci hərəkatdır. Hərəkatın məqsədi Misirdə ingilislərin qarşısını kəsərək, qərb cəbhəsinə qüvvə göndərmələrinə mane olmaq və mümkün olarsa Misiri azad etməkdi. Hərəkat 4-cü Ordu komandanı və Dəniz Qüvvələri naziri Camal Paşanın komandası altında həyata keçəcəkdi. İyul ayının 27-də 1916-cı ildə Orduda vəzifədə olan alman polkovniki Kres von Kressensteinin komandasındakı 10.000 əsgərlə bu hərəkat həyata keçdi. Lakin ağır bir məğlubiyyətlə Osmanlı qüvvələri Əl Arişə çəkilmək məcburiyyətində qaldı. (Tarix - 27 iyul – 5 avqust. Sina yarımadası.- 1916. – E.X).

Hələb şəhərinə tərəf gedəcəkləri xəbərini aldığım zaman son dərəcə qəzəblənmişdim.

Bu dövrdə Baş komandanlıq Nazirliyi ilə yaratdığım əlaqələrim o zamankı hərbi qəzetlərdə gizli saxlandığı üçün, sonradan nəşr olunarkən məlum olacaqdır ki, mən erməniləri Mesopotamiyaya köçürməkdənsə, onların Konya, Ankara və Kastamonu kimi mərkəzi vilayətlərdə yerləşdirilmələrini münasib bilirdim. Lakin dövlət tərəfindən verilən xüsusi qanuna əsaslanaraq təşəbbüs edilmiş bu məsələyə dair etirazımın qəbul edilməyəcəyindən erməni mühacir tayfalarının Adana və Hələb şəhərlərindən keçərək Mesopotamiyaya köçürülməsinə mane olmamağıma dair qəti əmr aldığım üçün çarəsiz qalaraq razı oldum.

O zaman Elazığ və Diyarbakır vilayətlərində erməni mühacir tayfalarına hücumlar olduğuna dair uzaqdan uzağa xəbərlər alırdım. Köçürülmə işi yalnız mülki məmurlar tərəfindən idarə olunurdu və ordunun bu köçürülmə işi ilə heç bir əlaqəsi yox idi. Lakin başqa ordu məntəqələrində köçürülən ermənilərə qarşı təcavüzlər törədildiyindən mənim rəhbərlik etdiyim ordu məntəqəsində də bu təcavüzlərin təkrarlanmaması üçün bu xüsusda çox ciddi əmrlər vermək məcburiyyətində qaldım.

Yenə o dövrdə Pozantıdan Hələbə qədər olan yol boyunca mühacirlərin yaşayışı üçün mülki məmurlar tərəfindən kafi dərəcədə ərzağın tədarük oluna bilmədiyini və ermənilərin çox acınacaqlı bir səfalət içində bütün yol boyunca yayıldıqları xəbəri mənə çatdıqda vəziyyəti şəxsən yoxlamaq üçün Hələbdən Pozantıya qədər bir səyahət etdim. Orduya məxsus olan döyüş sahələrindəki anbarlardan erməni mühacirlərinə çörək verilməsini əmr etməklə yanaşı, hərbi həkimlərin də erməni xəstələrini müalicə etmələrini təşkil etdim.

Xülasə, bu köçürülmə əsnasında ermənilərə çox yardımlar etdim və bu gördüyüm işlər xaricilər və ermənilərin bütün ədalətli insanları tərəfindən etiraf olunan işlərdir.

Erməni məsələsi haqqında Almaniya Xarici İşlər Nazirliyinin rəsmi xəbərlərini nəşr etmiş Mr. Lepsiyusun kitabında,

verdiyim əmrlər və gördüyüm işlərin bəziləri haqqında yazıldığını görürəm. Bu əsnada əsgər bölmələri ilə vilayətlərə vurduğum teleqramların hamısı hərbi qəzetlərdə mühafizə edildiyi üçün, gələcəkdə bir gün bunlar nəşr olunduğu zaman bütün bu xeyixah işlərin insani hisslərim nəticəsində baş verdiyi hamıya aydın olacaqdır.

Anadolu ermənilərinin köçürülməsindən sonra Adana və Hələb ermənilərinin də köçürülməsinə dair əmr mülki məmurlara verildiyi zaman mən bunun da əleyhinə çıxdım. Bu məsələyə ehtiyac olmadığını və bu işlərin Dördüncü ordu məntəqəsinin iqtisadi və əkinçilik işlərinin vəziyyətinə pis təsir edəcəyini dəfələrlə İstanbula bildirdim. Lakin mülki məmurlara verilmiş bu əmrlərə qarışmayaraq yalnız onlara yardım etməyim haqqında xəbərdarlıq aldığım üçün, bu işlərə mane ola bilmədim.

Bütün erməni mühacirlərinin Mesopotamiyaya göndərilməsi nəticəsində\, orada səfalət içində olacaqlarına əmin olduğum üçün, onlardan bir çoxlarını Suriya və Beyrut vilayətləri mərkəzində yerləşdirilmələrini münasib bildim. Buna icazə almaq üçün təkidlə İstanbula yazaraq razılıqlarını aldım. Bunun nəticəsində də bu vilayətlərdə təxminən yüz əlli minə qədər ermənini yerləşdirməyə müvəffəq oldum.

Bunların yetim uşaqları, dul qadınları və kişilərinə nə qədər yardım etdiyimi burada təkrarlamaqdan çəkinirəm. Mənə elə gəlir ki, bunları ətraflı danışmaq istəsəm öz insani hisslərimlə etdiyim bu yardımların mənəvi dəyərinə xələl gələr.

Lakin bu qədər yardımlarıma baxmayaraq xarici siyasi düşmənlərimizin məni də bu erməni hadisələrinə görə mənəvi məsuliyyət daşıyan şəxs kimi göstərmək istədilər və hətta mütarikə illərində (1918-ci ildə) İstanbulda qurulmuş oyuncaq hökuməti tərəfindən ermənilərin köçürülmə işlərində və qətllərdə müştərək məsuliyyət daşıyan şəxs kimi edama məhkum edildiyim üçün «Şəxsiyyət müdafiəsi» baxımından bir qədər məlumat verməyi lazım bildim.

Bu etirafdan sonra hamının rəyi belə olar ki, ermənilərin köçürülmə və soyqırımı məsələsi ilə mənim zərrə qədər əlaqəm olmayıb. Köçürülmə haqqında qərar verildiyi zaman müzakirələrdə iştirak etmədiyim kimi, qətllərdə nəinki iştirak etdim, əksinə qarşısını aldım. Köçürülmə hadisəsindən sonra mühacirlərə çoxlu yardımlar etdim.

Lakin görəsən İstanbulda olsaydım, Şərqi Anadolu vilayətlərində və ordunun arxasında baş verən hadisələri bilərək müzakirələrdə iştirak etsəydim, köçürülmə qərarına razılıq verməyəcəkdimmi? Bunu indi deyə bilmərəm. Fikirləşirəm ki, ümumi köçürülmə hadisəsi kimi çox ağır və bütün dünya mədəniyyətinin maraqlanacağı bir qərarı ala bilmək üçün yoldaşlarım çox böyük səbəblər göstərmiş və sənədlər əldə etmişdilər. Bu təfsilatı çox yaxın bir zamanda, onların öz nəşr olunmuş əsərlərindən anlayaraq şübhə və maraqdan qurtaracağımıza inanıram.

Lakin qəti bir inamla bu qənaətdəyəm ki, ermənilər Qafqaz ordumuz üçün, arxadan təhlükə yaradacaq və ordunun tamamilə dağılmasına səbəb olacaq təşəbbüslərdən də çəkinməmişdilər. O dərəcədə ki, bütün Osmanlı dövlətini təhlükə qarşısında qoyacaq və Anadolunun tamam ruslar tərəfindən istila olunmasına səbəb olacaq bir ümumi fəlakətə imkan verməkdənsə, erməni millətinin fəsadlar törətməyə qadir ola bilməyəcək bir yerə köçürməyi yoldaşlarım daha müvafiq görmüşdülər.

Mən həmin məsələlərə rəy verməyə səlahiyyətim çatmadığına görə, bu işlərə aydınlıq gətirilməsini, onların izah olunmasını və səbəblərini göstərməyi yoldaşlarımın ixtiyarına verirəm.

## ƏSAS MƏSULİYYƏT DAŞIYAN ŞƏXSLƏR

Yola salma və köçürülmə əsnasında baş verən hadisələrin səbəbinə gəlincə:

Bunu əvvəlcə də yazdığım kimi, türklərlə ermənilər arasında altmış-yetmiş ildən bəri davam etməkdə olan düşmənçilik hissinə əsaslanmaq zəruridir. Əsrlərdən bəri birlikdə yaşayan bu iki milləti bir-birinə düşmən edən Moskva siyasətinin Allah bəlasını versin.

1915-ci ildə köçürülmə zamanı eşitdiyim törədilmiş cinayətlər həqiqətən nifrətə layiqdir. Lakin ermənilərin üsyan əsnasında müsəlmanlara qarşı törətdikləri cinayətlər də alçaqlıq və faciə cəhətindən bu hadisələrdən geri qalmamışdır. Bütün bu cinayətlərin səbəbi nə olursa olsun, bunların qarşısını almaq üçün cəhd etmək lazım idi. Hökumət, ermənilər tərəfindən törədilən cinayətlərdən müsəlman əhalini, Osmanlı ordusu ilə Osmanlı dövlətinin siyasi varlığını qorumaq üçün təcili və əhəmiyyətli bir çarə kimi köçürülmə məsələsinə əl atdı. Lakin bunun nəticəsində türklərin cinayətlərinə səbəblər hazırladı. Görəsən bunun başqa cür bir çarəsi yox idimi? Köçürülmə əsnasında mühacirləri təcavüzdən qorumaq mümkün olmazdımı? Bunun cavabı, köçürülmə məsələsinə qərar verənlərlə onu yerinə yetirənlərin açıqlamasından bəlli olacaq. Hər halda mən təsdiq edirəm ki, rəhbərlik etdiyim ordunun məntəqəsindən ermənilər keçərkən bəzi tək-tük hadisələr istisna olmaqla, mühacirlərə təcavüz edilməsinə qətiyyən imkan vermədim. Mühacirət zamanı baş vermiş səfalət mənzərəsinə gəlincə, Rus istilası əsnasında ermənilərin etdikləri zülm və cinayətlərdən canlarını qurtarmaq üçün Diyarbakırdan Hələb və Adana yolu ilə Konyaya, Ərzurum və Ərzincandan Sivasa pənah aparmış müsəlman mühacirlərin başına gələn fəlakətlər bundan az olmamışdır. Lakin o biçarələr müsəlman olduqları üçün heç bir alman və ya amerikalı missioner onlar haqqında heç bir məlumat belə vermədi, onların fəlakətli

günlərini və səfalətini ədəbi bir dillə yazmaq lüzumunu öz vicdanına sığışdıra bilmədi.

Osmanlı hökumətinin Şərqi Anadolu vilayətlərindən milyon yarım erməni köçürdüyünü və yollarda bunların altı yüz min nəfərindən bir qisminin öldürüldüyünü, bir qisminin də aclıq və səfalətdən öldüyünü nəzərə alaq. Lakin Trabzon, Ərzurum, Van və Bitlis vilayətlərinin ruslar tərəfindən istilası zamanı o vilayətlərdə yaşayan türklərdən bir neçəsinin ermənilər tərəfindən ən vəhşi cinayətlərlə öldürüldüyünü və neçəsinin köçürülmə əsnasında tələf olduğunu bilən varmı? Biz məlumat verək ki, bu səbəbdən ölən müsəlman əhalinin miqdarı dəqiq olaraq bir milyondan artıqdır. Ermənilərin törətdikləri soyqırım nəticəsində baş verən ümumi səfalətdən ermənilər nə üçün məsuliyyət daşımırlar. Yoxsa türk xalqının qiyməti, Morgenthanlar, Mandelstammlar və onlar kimi bəzi siyasətçilərin nəzərində olduğu kimi, bəşəriyyət aləmində də milçəklər dərəcəsindədirmi?

Xeyr Əfəndilər, xeyr. Bu iki milləti nahaq yerə ittiham etməyin, əsl günah bunlarda deyil, bunları alçaqcasına bir-birinə düşmənçilik etməyə təşviq edən Moskva siyasətidir. Türkü öldürmək, onun min illərlə olan milli şöhrətini məhv edərək mirasına yiyələnmək istəyən və əsasən qan içməkdən başqa heç bir şey düşünməyən Moskva, ermənini türkün başına bir bəla etdi. Türk, ölməmək üçün ermənini öldürmək lazımdır fikrinə düşdü. Buna görə də, şahidi olduğumuz hadisə və faciələr baş verdi. Bir tərəfdən deyildiyi kimi, altı yüz min erməni, digər tərəfdən də bir milyon yarım türk əhalisi qırıldı. İndi də utanmaq nə olduğunu bilməyən Moskva siyasətçiləri və onların Morgenthan kimi axmaq və səfeh əlaltıları, bütün günahı öldürülmək istənilən türkün üzərinə yıxmaq üçün dünya mətbuatında yalandan səs-küy qaldırmağa çalışırlar.

Mandelstamm Van müstəsna olmaqla, ermənilərin başqa bir yerdə üsyan etmədiklərindən bəhs edir. Mən Şərqi Anadolu vilayətlərində və Qafqaz ordumuzun arxasında baş verən hadisələrdən xəbərim olmasa da, mənim rəhbərliyim altında olan

ordunun məntəqəsində baş verən hadisələrdən tamamilə xəbərdaram.

1915-ci ilin ortalarında Zeytində və Urlada baş verən hadisələr, tamamilə bir erməni üsyanından başqa bir şey deyildi. Musa Baba tərəflərindəki qiyam da bu üsyanın hazırlığı üçündü. Məlum bir həqiqətdir ki, İsgəndərun körfəzinin başlanğıcı olan Rəsülhonzirdən başlayaraq Dördyol, Musa baba, Hələb, Antep, Urfa və Zeytin tərəflərində baş verəcək bir erməni üsyanının Suriyanı Anadoludan qopara biləcək bir təşəbbüs olacağını çox gözəl qiymətləndirmiş olan Şərqi Aralıq dənizindəki fransız və ingilis ordularının komandanları, Çanaqqala müharibələrinin ən dəhşətli anlarında ermənilərə verdikləri əmrlərlə bu üsyanı təşkil etmişdilər. Əslində buralarda ermənilər çoxdan bəri hazır dayandıqlarından fəaliyyətə keçmək üçün yalnız bir əmr almaları kafi idi.

Görəsən bu hadisələrdə marağı olan və iştirak edən dövlətlərin məmurları mənim mülahizələrimin doğru olmadığını söyləyə bilərmi? İndi artıq müharibə sona çatdığı üçün, həqiqətdən xəbərdar olan ictimaiyyət qarşısında bu məsələlərin etiraf edilməsini çox namuslu bir hərəkət kimi qiymətləndirirəm.

Əgər Mandelstamm bu hadisələrin bir üsyan olmadığını və yalnız öz canlarını müdafiə etmək məqsədilə silahlı müqavimət göstərdikləri fikrində təkid edərsə, xəbər verim ki, müttəfiqləri olan fransız və ingilis zabitləri ki, bu üsyanı tərtib və idarə ediblər, onlar Mandelstammın bu sözlərinə çox gülərlər.

## İSTİQBAL HAQQINDA DÜŞÜNCƏLƏR

Bu gün dünya müharibəsi sona çatmış və Osmanlı səltənətinin ən gözəl inciləri olan Suriya, İraq və Ərəb adası heyf ki, ana vətəndən ayrılmış. Türkiyə yalnız türklərə aid olan mübarək Anadolunu öz əlində saxlamaq üçün mübarizəyə başlamışdır.

Dünya müharibəsi zamanı üç milyondan çox qurban vermiş zavallı Türkiyənin təsəlli tapması üçün yeganə bir şey varsa, o da əsrlərcə düşməni olan Çar hökumətinin məhvini və dağılmağını görməkdən ibarətdir. Bu gün Qafqazda baş verən hadisələr nəticəsində yaranmış dövlətlər arasında Ermənistan Respublikasını da görürük.

Lakin yenə görürük ki, Türkiyə erməniləri başda İstanbul patriarxı Zaven Əfəndi olduğu halda türklərə zərərlər verəcək intriqalara əl atmaqdan çəkinmirlər. Türklər Eçmiadzin və İrəvan tərəflərində bir Ermənistan Respublikası yaranmasının qətiyyən əleyhinə deyildirlər. Lakin onun müqabilində, bu respublikanın Cənubi Qafqazda müxtəlif xalqların təşkil etdiyi Azərbaycan və Gürcüstan respublikaları, Asiyanın əsl sahibi olan Osmanlı İmperatorluğu ilə sülh şəraitində yaşamasını və qonşu torpağına göz dikməməsini qətiyyətlə tələb edirlər. Ərzurumu, Bitlisi, Vanı, Diyarbakırı, Elazığı ermənilərin artıq əbədi olaraq unutmalarını, həm özlərinin. həm də türklərin rahatlığı və xoşbəxtliyi naminə tövsiyə edirəm.

Türkiyə ermənilərinin təmin olunması mümkün olmayan bu arzularından vaz keçdiklərini öz əməllərində isbat edəcəkləri gün, öz həmvətənləri olan türklərlə birlikdə çox dostluq və mehribançılıq şəraitində yaşamağa başlayarlar.

Lakin Türkiyədə qalıb yaşamaq istəyənlər, bundan sonra özlərini təmiz və xalis bir Osmanlı kimi göstərməyə çalışmalı və bu yolda yaramaz və şübhə doğuracaq hərəkətlərdən çəkinmələri əsas şərtdir. Artıq Türkiyə erməniləri arasında Daşnaksutyunların,

Hınçakların və sairənin yeri yoxdur. Hətta bu təşkilatın Qafqaz Ermənistanı üçün də zərərli olacağı fikrindəyəm.

Bu gün istər Cənubi Qafqaz Respublikasının və istərsə də Osmanlı İmperatorluğunun yeganə vəzifəsi bir-birinə yardım edərək dağılmış ölkələrinin abadlaşdırılmasına, dövlət işlərinin qaydaya salınmasına və möhkəmləndirilməsinə çalışmalarından ibarətdir. Bu dörd ölkə (Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan - E.X.) rəhbərlərinin diqqətinə çatdırılmalı əsas vəzifələrdən biri də budur ki, Moskvanın bir daha Qaf dağının bu tərəflərini istila etməsinə imkan verməməlidirlər. Bunun üçün bu dörd ölkə arasında ancaq Moskva istilasına qarşı müdafiə olunmaq üçün, bir ittifaq yaratmaq da, bu ölkə rəhbərlərinin ən vacib işlərindən biri olmalıdır.

Mənim ermənilərə nə qədər xoş münasibətim olduğunu hər kəsdən çox bugünkü erməni patriarxı Zaven Əfəndi bilir. 1915-ci ilin dekabr ayında İstanbula gəldiyim zaman şəxsən özü Perapalas otelinə, mənim ziyarətimə gələrək Patriarx iqamətgahının razılığı ilə bütün ermənilər adından təşəkkür bəyan etmişdi. Bu gün İstanbuldakı Rum patriarxının intriqalarında Zaven Əfəndinin bir alət olduğunu bildikdən sonra, mən bir ermənisevər şəxs kimi onun yadına salardım ki, bundan əvvəl söylədiyim sözləri çox diqqətlə tədqiq etsin.

O zaman bu mülahizəmin ermənilik adına nə qədər böyük fayda verəcəyini qiymətləndirərək, Rum patriarxının əlində bir oyuncaq olmaqdan bəlkə çəkinmiş ola bilər.

Əgər biz bu dörd yaxın şərq millətini, əvvəlcə də bildirdiyim kimi, təkcə Moskvaya qarşı bir müdafiə ittifaqı yaratmasaq və Şimali Qafqaz Respublikasının da təşəkkül edərək, bu ittifaqımıza girməsinə yardım etməsək, illərdən bəri hamımızı boyunduruğu altında yaşatmaq istəyən Rusiyanın məhvedici əlinə düşəcəyimizə heç şübhə etməyək.

Kim bilir, bəlkə bir gün gələr, indi ingilis və fransızların nüfuzu altına düşmüş zavallı ərəblərlə əcəmlər də bugünkü ağalarının əlindən qurtular və bizim bu gün təşkil edəcəyimiz

ittifaqın heyətinə daxil olarlar. O zaman da Yaxın Şərq ölkələrinin millətləri öz müqəddəratlarının müstəqil sahibi olaraq, azad bir şəkildə yaşaya bilərlər. Osmanlı, Erməni, Gürcü, Azərbaycan və Şimali Qafqaz siyasətçilərinə göstərdiyim bu siyasi qayə, fikirləşirəm ki, indiyə kimi nifaq və qarışıqlıq yuvası hesab edilən Yaxın Şərq, iyirmi il keçməz cənnətə dönər və qətiyyən xarici dövlətlərə möhtac olmayacaq dərəcədə tərəqqi edə biləcək bir vəziyyətə malik olar.

Osmanlı İmperatorluğunun böyük bir qismini təşkil edən türklər üçün bu arzu əsaslı bir surətdə mövcuddur. Yalnız azlıq təşkil edən ermənilərin bir Osmanlı vətəndaşı kimi qalmaq istədikləri təqdirdə, yetmiş il əvvəlki Osmanlı erməniləri kimi saf və həqiqi Osmanlılıq hissləri bəslədiklərini isbat etmələri kafidir.

Mənim bu qanlı keçmişi əbədi olaraq unudaraq, parlaq bir gələcək təmin etmək üçün təklif etdiyim yeganə çarə budur. Daha yaxşı yol göstərəcək adamlarla əsaslı görüşmələr keçirməyə mən də, mənimlə eyni fikirdə olan həmvətənlərim də hazırıq.

1913-cü ilin əvvəllərində Parisdə təşkil olunan Ərəb Konqresi üzvlərindən Beyrutlu bir müsəlman Fransa Xarici İşlər Naziri Mr. Pichona belə demişdi:

«Biz əgər Ərəb Konqresini Parisdə təşkil ediriksə də, məqsədimiz yalnız Ərəbistan vilayətlərində islahat aparılmasını Osmanlı hökumətindən tələb etməkdən ibarətdir. Fransanın Suriyanı işğal etməsi və ya öz himayəsi altına almasını qətiyyən arzu etmərik».

Mr. Pichon Fransanın Suriya haqqında pis bir niyyətləri olmadığını nümayiş etdirmək məqsədilə, bu söhbəti səfir Mr. Somparda elə orada çatdırmışdı.

Təxminən eyni tarixlərdə, yəni 1913-cü il martın on beşində ruslar da Boğos Nubar Paşaya eyni sözləri, bəlkə də eyni kəlimələri təkrar edirdi. Parisdəki rus səfiri Mr. İzvolskinin Rusiya Xarici İşlər Naziri Mr. Sazanova yazdığı məktub fikirlərimizi isbat edər. Öz məktubunda səfir yazır ki: «Boqos Nubar Paşa, Türkiyə ermənilərinin azadlıq və ya konstitusiyada

dəyişikliklər aparılması məsələləri ilə heç bir zaman məşğul almaq istəmədiklərini dəfələrlə bəyan etdi. Yeganə məqsədləri Berlin müqaviləsində nəzərdə tutulmuş Rusiya, İngiltərə və Fransa tərəfindən hazırlanan və bu günə kimi dondurulmuş vəziyyətdə qalan islahatın həyata keçirilməsinə nail olmaqdir».

Ərəb və erməni islahatçılarının eyni vaxtda və eyni tərzdə ruhlandıqlarını göstərən bu rəvayətlər Türkiyənin bölünməsi haqqındakı o zaman Fransa ilə Rusiya arasında qərarlaşdırılmış siyasətin fikirləşirəm ki, ən gözəl sübutu olar.

Nəhayət 22 may 1913-cü ildə Rusiya Xarici İşlər Nazirliyi ermənilər haqqında islahat aparılması üçün ilk addımını atmış Mr. Sazanov o zaman Berlindəki rus səfirinə vurduğu bir teleqrafda Ermənistana dair islahat üçün Babi-alidə təşəbbüs göstərməyə razı olmasını Almaniya hökumətindən tələb edirdi ki, bu tarix Enez-Midye xəttini Bolqar-Türk sərhədi kimi qəbul edərək, ilk Mondros Mütarikəsində (atəşkəs) imza atmağa məcbur olduğumuz tarixlərə, yəni Osmanlı hökumətinin zəiflədiyi vaxta təsadüf edir. Həmin tarixlərdə İstanbulda ermənilər öz milli xüsusiyyətlərini təsəvvür olunmayacaq dərəcədə nümayiş etdirməyə başlamışdılar. Erməni hərflərinin icad olunduğu tarixin, bilmirəm neçənci ilini bayram edərək şənliklər keçirən ermənilər böyük nümayişlər keçirmiş və hətta küçələrdə havaya erməni milli rənglərindən ibarət əlvan kağız pilələri atmaqdan da çəkinməmişlər. Biz bunlara Həzrəti Eyyub* səbri ilə dözür və xoşa gəlməyən bir hadisənin baş verməsinə mane olmaq üçün tədbirlər görürdük. O zaman mən İstanbulun komendantı olduğum halda, ermənilər tərəfindən dəvət olunduğum Taksim Bağına getmiş və erməni millətini son dərəcə yüksək səviyyədə mədh edən bir nitq söyləmişdim.

Rusiya Xarici İşlər Naziri, 1895-ci ildə Osmanlı hökumətinə təqdim edilmiş islahat layihəsini əsas layihə kimi

---

* Quranda adı çəkilən və səbirli insan nümunəsi olaraq göstərilən İsrailoğulları peyğəmbərlərindən biri.

qəbul edərək yeni bir islahat layihəsini tənzimləməyi İstanbuldakı böyük dövlətlərin səfirlərinə təklif edirdi.

İngiltərə və Fransa bu təklifi dərhal qəbul etdilər. Yalnız Almaniya, böyük dövlətlərin səfirlik işçilərindən təşkil ediləcək komissiyaya Osmanlı hökuməti tərəfindən təyin olunacaq işçilərin də daxil olmasını təklif edirdi. Rusiya bundan qətiyyətlə imtina etdi və nəhayət Alaköydə bir tərcüməçilər komissiyasının yaradılması üçün Almaniyanın da razılığı alındı.

Hələ bu komissiya işə başlamamışdan əvvəl, İstanbuldakı Rus səfirliyi baş tərcüməçi Mandelstamma bir islahat layihəsi hazırlatdırmışdı. Gələcəkdə qurulacaq bir dövlətin sona çatmış tədbirlərindən olan, geniş bir məntəqədə məskunlaşdırılmış azlıqda qalan bir millətin hüquqlarının qorunması üçün o dövlətə utanmadan belə bir layihənin necə təklif oluna biləcəyinə qiymət verməyi insaflı insanların vicdanına buraxıram.

***Kazım Qarabəkir*** [*]

# ƏRZURUMUN QURTULUŞU

Ərzurumu azad etmək üçün bütün əsgərlərimin necə narahat olduqlarını hiss edirdim. Hərbi bölmələrimdə yoxlama apararkən üzlərindəki iztirablardan ərzurumlular çox asanlıqla seçilirdi. Bunlarla göz-gözə gəldikcə mən də onlar kimi həyəcanlanırdım. Bunun səbəbi yalnız onların komandanı olduğumdan və ya Ərzurumu azad etmək vəzifəm olduğunu düşünməkdən ibarət deyildi. Mən çox kiçik olarkən Ərzurumun suyunu içmiş, çörəyini yemiş, havasını udmuşam. Hətta ən mühüm hadisə o idi ki, yaramazlıq nəticəsində bir hovuza düşərək başım yaralanmış və bir ovuc qanım Ərzurum torpaqlarına qarışmışdı. Bu qədər zəngin təəssüratlarla mən də özümü bir ərzurumlu sayıram.

İrəliyə hərəkət etmək üçün «üç düşmənlə» qarşılaşmaq məcburiyyətində idik:

1) - Aclıq təhlükəsi idi. Aclıq hamının həmişə və xüsusilə orduların müharibədə ən böyük düşmənidir.

2) – Ermənilərdi: Yaşadıqları yerlərdə ümumi soyqırım etdiklərindən, bunlar düşməndən daha dəhşətli bir varlıqdır.

3) - Qış mövsümü idi: Şərqdə, xüsusilə Ərzurum və ətraf yerlərində bu aylarda çox qorxuncdur.

Hər cür düşmənə qalib gələcək güclü əzm və qüdrətimiz olduğunu hiss edirəm. Daxilimizdən coşan irəliyə doğru hərəkət etmək arzularımızı, hər cür tədbirləri dəqiqliyi ilə hesablayaraq, işi uğurla başa çatdırmağı bir an yadımdan çıxarmırdım.

Hər üç düşmənə qarşı bir komandan kimi vəziyyətim belə idi:

[*] 1939-cu ildə İstanbulda nəşr edilmiş «Ərzincan və Ərzurumun qurtuluşu» kitabından (s. 130-229). Müəllif 1918-ci ildə Ərzincan-Ərzurum və Karsı azad edərkən qərargah polkovniki rütbəsilə I Qafqaz korpusu komandanı idi. 28 iyul 1918-ci ildə Paşa olmuşdur. (Paşa- Osmanlı Türkiyəsində yüksək hərbi titul –E.X).

1) - Aclığa qarşı: Ərzincanda təxribat və talan edilməsinə imkan vermədən əldə etdiyimiz anbarlar, bizi aclıq düşməninə qalib gələcəyimizə inamı artırmışdı. İrəlidə olan ərzaq mərkəzlərini də ardıcıl sürətli zərbələrlə tutmaqla korpusumu bütün qüdrət və qüvvətilə Ərzuruma çatdıra bilərdim. Xüsusilə Yerhana qədər cəbhəarxası nəqliyyat vasitələrinin gündə 12 ton azuqə daşımasını da korpus komandanlarından xahiş edərək razılıqlarını almışdım.

Doğrudur, bütün korpusumun gündəlik azuqə ehtiyacı 31 tondu, lakin 10 diviziya ordu ehtiyatında olduğundan, mənim korpusuma 20 ton azuqə kafi idi.

2) - Ermənilərə qarşı: İki diviziya ilə korpus hissələrim vasitəsilə Ərzurumu azad etmək kifayət edərdi.

Ermənilərin ən güclü müqaviməti Ərzurumun istehkam mövqelərində olacağını və bizi də yollarda yayındırmağa çalışdıqlarını bütün varlığımla təxmin edirdim.

Çünki qarın çox yağması bərk soyuqların olmasına görə hər hansı dağ yüksəkliklərini bütün qüvvələrilə müdafiəyə qalxaraq, Ərzurum üçün də təhlükəli vəziyyət yaratmaq ermənilərin mənfəətlərinə uyğun olmazdı.

Bundan başqa, bu qışın qiyamətində ermənilər bizim də böyük qüvvələrlə Ərzuruma hucüm edəcəyimizi gözləməyəcəklərindən, bir çox yerləri azacıq qüvvələrlə müdafiə edə biləcəklərinə güvənərək, anbarları da yandıracaqlarına çox da inanmırdım. Əgər ermənilər mənim kimi düşünməsələr belə, Ərzurumdan uzaq hər hansı bir mövqedə öz güclərini sınamağa girişərlərsə, bu bizim üçün də daha asan həll olunan bir məsələ olduğu üçün, belə hərəkət etmələrini arzu edərdim.

3) - Qışa gəlincə: Artıq buna alışmışdıq. Bundan başqa, neçə ildir rusların qarşısında daima geri çəkilmələr və «dağların başlarını müdafiə edəcəyik» deyə maddi cəhətdən çətinliklər və mənəvi cəhətdən də ruhdan düşmək artıq hamını dözümsüz edərək təngə gətirmişdi. İrəliyə doğru hərəkət etmək üçün artıq qışdan qorxmurduq, qışı ən zəif düşmən kimi görürdük. Belə hərtərəfli hesablamalarla irəliyə hərəkət etmək hazırlığı

görürdüm. Ordu komandanımız Vəhib Paşaya bu haqda fikirlərimi bildirdim.

Heç gözləmədiyim belə bir cavab aldım: «Sağ və sol cinahlardakı korpuslar hələ sizin istiqamətinizdən çox geridə olduğundan, hələlik bu gözəl fikirlərinizdən vaz keçin. İrəli hərəkət etməyin vaxtını mən təyin edərəm!»

Mən irəliyə doğru hərəkət etməyi öz arzuma görə istəmirdim. Vəziyyət bunu tələb edirdi. Əlimizdəki ərzağı dayandığımız yerdə yeyib bitirdikdən sonra məhv olacağımız kimi, ermənilər də Ərzurum əhalisini məhv edəcəkdi. Buna görə də çox böyük məsuliyyətlərə qatlanaraq, qəbul edilmiş gözlənilməyən əmrə uyğun olaraq hərəkət etməkdən başqa çarəm yoxdu.

İndiki vəziyyətdə ordu komandanının Sansa Boğazının qərb tərəfi deyə çəkdiyi öndəki təhlükəsizlik xəttini mən 60 kilometr də şərqə tərəf uzadaraq Kötür körpüsünə qədər çatdırmışdım. Məqsədim Mamahatunu bir hücumla almaq idi. Orada da çox şey tapacağıma ümid edirdim.

18 fevralda aldığım xəbərlərə görə bəzi erməni hissələrinin Bicanda toplanaraq Sansa Boğazına (dar dərə keçidi) hücum edəcəklərini hiss edincə, dərhal azuqə ilə təminat cəhətindən vəziyyətinin yaxşı olduğu bir polku da (10 pulomyot ilə birlikdə 28-ci polku) Xalid Bəyin köməyinə göndərdim. Ruslardan qalan ərzaq anbarlarını almaq üçün də əlavə olaraq bu əmri verdim. «Komadanızla Sansa və Cəbicə dağ keçidlərinin şərq tərəfdəki girişini bağlayacaq və Kötür körpüsünü-Piris-İncədağ-Mürzalik Komu xəttini kəşf edib nəzarət etdirəcəksiniz».

19 fevral səhər vaxtı ordu komandanı Vəhib Paşa müşayiətçilərilə birlikdə qərargahı olan Suşehrinə doğru hərəkət etdi. Onları qarşıladıq. Erməni zülmünə dair topladığım sənədləri şəkilləri ilə birlikdə təqdim etdim.[1]

---

[1] Ərzincandan başlayaraq Ərzurum-Kars və bütün şərqdə olduğum yerlərdə ermənilərin etdikləri soyqırımı və yandırıb-yaxdıqları yerləri fotolarla sübut edən və hər zaman hadisələrin şahidi olanlardan soruşub sənədləşdirmə ilə hazırladığım bir əsər mütarikə dövründə (atəşkəs) Abdulla Paşanın Müdafiə

Bu gün Sansa komandasının komandanı (Dəli) Xalid Bəydən aldığım xəbər məni heç də məmnun etmədi. Verdiyi raportun xülasəsi belədir: «Bican və Karqın alındı. Kötür körpüsü də bu gün alınacaqdır. Ermənilər buralardakı anbarları yandıraraq Mamahatuna çəkilmişdilər. Dördüncü korpus məntəqəsindən geri çəkilən erməni qüvvələrinin də Mamahatuna getdikləri haqda məlumat alındı. Ermənilər anbarları yandırdıqlarına görə və Dersim milisləri[2] də getdikləri kəndləri çəyirtgə hücumuna məruz qalmış bir tarla mənzərəsi halına saldıqlarından ərzaq sahəsində çətinliklər yaranırdı».

Dersim milislərindən başqa bir şey də gözləmirdim. Hər tərəfdən xoşagəlməyən xəbərlər aldığıma görə, bu xəbərə görə də çox kədərlənmədim.

Arxasına bir çuval ərzaq yükləyən Dersimli öz doğma yurduna gedirdi. Bu gözlənilən bir işdi. Lakin ən pis hadisə, ermənilərin anbarları yandırmaları idi. Bu vəziyyət öndəki hərbi komandanı da arxadan ərzaqla təmin etmək və bunun da diviziya tərəfindən tənzim edilməsi lazım gəlirdi. Buna görə də Sansa komandasını ləğv etdim. Korpus rəhbəri olaraq 9-cu diviziya komandanı Rüşdü Bəyi 20 fevralda Bicana yola saldım. Mamahatuna bir hücum təşkil etdirərək boşa çıxmış ərzaq tapmağa dair ümidlərimi bərpa etmək istədim. Bu işə görə Rüştü Bəyə verdiyim əmrlərin xülasəsi belədir.

1) - Korpus atıcı batalyonu, qüdrətli dağ batalyonu, 36-cı diviziya süvari rotası, 28-ci polk və qüdrətli dağ komandası… Kötür körpüsünü geri alacaq.

2) - 9-cu diviziya süvari rotası ilə bu diviziyadan 17-ci polkun 51-ci batalyonu, Kuşmaşat məntəqəsindən Pirisə tərəf hərəkət edəcəkdir.

Bu iki silahlı qüvvələr Kötür körpüsü ilə İkicə arasındakı Karasu keçidlərini himayə edib nəzarətə alacaq və lazım gəldikdə müdafiə edəcəkdir.

---

Naziri olduğu zaman nazir müavini olmuş polkovnik İsmət İnönü bəyin köməkliyi ilə türkcə və fransızca nəşr olunmuşdur.

[2] Könüllü surətdə düzəldilən qeyri-nizami qoşun.

3) – Tərkibində 180 əsgər olan Şərqi Dersim diviziyası Dördüncü korpus ilə əlaqəni mühafizə edəcək, Hobek dağının şərqindəki Parsnik-Kozviran-Kızılca-Çakırkaya məntəqəsini alaraq, Tuzla dərəsi keçidlərinə nəzarət edəcəkdir.

4) – 80 milis və 140 piyada əsgərdən ibarət olan Xalid Bəyin dəstəsi Qərbi Dersim milisləri korpus süvariləriylə qüvvətləndirilərək əlverişli şərait olarsa Mamahatunu alacaqlar.

İkinci ordu komandanlığının səlahiyyətli müvəkkili olduğum zaman, Dersim milislərinin sayı haqqında dəftərimə qeyd etdiyim bu rəqəmlərə həyəcanla baxdım: Şərqi Dersimdə 919 nəfəri, Qərbi Dersimdə isə 2567 nəfəri gücləndirib döyüşə hazırlayırdıq. Ərzincan hərbi əməliyyatlarında çox zəif olan bir piyada batalyonu da daxil olmaqla Qərbi Dersimdən 735 nəfər hərəkatda iştirak etdi və onlar Ərzincana gələrkən 250 milis və 30 nəfər də piyada əsgər qalmışdı.

İndi həmin milislərdən əlimizdə ancaq 80 nəfəri qalmışdı.

20 fevral axşamı 9-cu Korpus qərargahı Surpviranda, 28-ci Polk Sansada gecələdi.

36-cı diviziya komandanlığına təyin olunan polkovnik Hacı Həmdi Bəy Ərzincana gəldiyi üçün, diviziyasında rəhbərliyi əvəz edən Cavid Bəy korpus qərargahının rəisi vəzifəsinə təyin olundu. Rəis müavini Avni Bəy də birinci şöbə müdiri vəzifəsinə keçirildi. 22 fevrala qədər komandalar öz vəzifələrini davam etdirdilər. Bu gün səhər saat 10-da Xalid Bəy öz komandası və 9-cu, 36-cı diviziyanın süvari rotası ilə birlikdə Mamahatunu azad etdi.

9-cu diviziyanın qərargahı Bicana daxil oldu. Dördüncü və İkinci Qafqaz korpusu ilə əlaqə yaratmaq üçün qüvvətli kəşfiyyat dəstəsi yola salındı. Sansada telefon mərkəzi açdırılaraq bir məlumat mərkəzi təsis olundu.

Korpus radio stansiyasını da bugün Rəfahiyədən Ərzincana köçürtdüm.

9-cu diviziyanın 107-ci polku Kemahdan Ərzincana hücuma keçən zaman buradakı 108-ci polkla birləşəcək. Bu yolla hər iki diviziyanın əsas qüvvələri Ərzincanda toplanmış olacaqlar.

Dəstəmizin əvvəli Mamahatunda, sonu isə Rəfahiyə və Kemahda olmaqla, 160 kilometrlik bir yürüyüş vəziyyətindəyik. Əsas qüvvənin olduğu Ərzincandan müdafiə xəttimizə qədər 80 kilometrdir. Ermənilər bizə hücum etmədikləri üçün mühasirədə deyildik. Bir tərəfdən əhalini soyqırımlardan qurtarmaq arzusu, digər tərəfdən də azuqə tapmaq arzusu, bu vəziyyəti almağı zəruri etdi.

23 fevral 1334 (1918)-ci ildə ordunun əmrilə sərhəd xətləri aşağıdakı kimi ayrıldı. 1-ci və II-ci Qafqaz korpusları arasında kəşfiyyat və mühafizə sərhəd xətti.

«Karadivan kəndindən sonra Kağbeştanın tam şimalındakı Karasu, Kat və Karabıyık cənubuna qədər Karasuyu təqib edər. Karasu müştərəkdir».

«I-ci Qafqaz və IV-cü korpuslar arasındakı mühafizə və kəşfiyyat sərhəd xətti Bağırpaşa dağı-Koşan dağı-Sercilək (Camal) dağı-Bəyaz dağ-Kərkənşeyxin cənubunda Tuzla dərəsini kəsər. Tuzla dərəsi I-ci Qafqaz korpusu, dağ yüksəklikləri xətti, IV-cü korpus da daxildir».

23 fevralda 9-cu diviziyanın göndərdiyi raportun xülasəsi: «Kürürtlü kəndindən Həsən ağanın ifadəsinə görə, təqribən minə qədər erməni 6 topdan istifadə edərək 1334 (1918)-ci il 21 fevralda Yeniköy yolu ilə şərqə tərəf hərəkət etmiş və 300 müsəlmanı şəhid etmişlər».

«Mamahatunu ermənilər tamamilə yandırmışlar. Yalnız Mamahatunda bir miqdar konserva və çay (8 ton ət konservası, 3,5 ton ərzaq, səngər qazmaq üçün alətlər, külli miqdarda döyüş sürsatı və partlayıcı maddələr olduğu, sonradan məlum olmuşdur) əldə edilmişdir».

«Yoldan kənar əks istiqamətlərdəki anbarları, əhali talan etməkdədir».

Ermənilər yandırsın, əhali talan etsin! Heç bir şey bizi artıq yolumuzdan saxlaya bilməyəcəkdir. Çünki mən də arxa cəbhədəki anbarlardan azuqənin bütün vasitələrimizlə köçürülməsini sürətləndirməklə yanaşı, necə olsa da talan edilməmiş bir anbar ələ keçirəcəyimdən də ümidimi kəsmədim.

# ƏRZURUMA DOĞRU HƏRƏKAT DAVAM EDİR

24 fevralda Yeniköy istiqamətinə 50 nəfərlik bir süvari zabit kəşfiyyat dəstəsi və Aşkalə istiqamətinə də 4 bölükdən ibarət bir zabit kəşfiyyat dəstəsi, milislər də onlarla birləşdirilərək göndərildi.

Bu gün ordudan gələn əmrdə, Trabzonun 37-ci diviziya tərəfindən alındığı bildirilir və korpusların ön cəbhəsi belə göstərildi: «Van gölü sahilindəki Ahlat-Pırhas Əbulbahar-Sulun-Mamahatun-Bayburt-Kalanqa dərəsi(Trabzonun şərqində)

Mamahatunu mühafizə etmək və eyni zamanda Ərzurum istiqamətinə göndəriləcək kəşfiyyat dəstələrimizi himayə etməklə 25 fevralda 9-cu diviziya komandanına verdiyim əmrin xülasəsi belədir: «Xalid Bəy komandasına bir batalyon da əlavə edərək Mamahatunun 6 kilometr şərqindəki Çinar-Komu və şimalındakı Vartik-Pekeric xəttini korpus əmniyyət xətti olaraq tutun.

İxtiyarınızdakı avanqard əsgərlərin əksəriyyətini təşkil edən hissələr də Karasu xəttində və Kötür körpüsündə olsun».

24 fevralda üçüncü ordu komandanlığından, ermənilər haqqında aşağıdakı məlumat bildirildi:

Daşnak cəmiyyətinin baş idarəsindəki qeydlərə görə, ermənilərin uşaqları da daxil olmaqla, sayları və yaşadıqları yerlər bunlardır:

16.000 – Horasan, Dilman, Rumya ətrafında
23.000 – Van və ətraf qəzalarda
1.800 – Başkalə və ətrafında
3.500 – Bəyazitdə
15.000 – Qarakilsə (Buraya mənim təklifimə görə Qaraköse adı verildi) və ətrafında
14.000 – Hınıs. Tutak və Muş məntəqəsində
4.600 – Ərzurumda
77.000 yekun, kəsirsiz 80.000.

25 fevralda ətrafımdakı korpusların vəziyyəti belə idi: «Sağ tərəfimdəki IV korpusun sağ cinahdakı diviziyasının avanqard polku Ahlatı azad etmiş, sol cinahdan göndərilən komanda Aşağı Korti ətrafındakı Daranı azad etmişdir:

Sol tərəfimdəki Qafqaz II korpusunun sağ cinahdakı diviziyasının avanqard polku Bayburtu tutmuş, lakin kəşfiyyat dəstələrini Maden Hanlarına qədər irəli apara bilmişdir. Mərkəz diviziyasının irəlidəki bölmələri cənubdan Cevizliyə dərədən axan bulağın yanındakı Azayan Hanlarını, sol cinah diviziyasının əksər hissəsi Trabzon şərqində Sebükbar diviziya hərbi hissələri ilə Ofu işğal etmək əmrini almış.

Yəni, dünən ordunun əmr etdiyi kimi cəbhə təşkil olunmuşdu.

25 fevralda mənim cəbhəmin vəziyyəti və baş verən hadisələr belədir: Yeniköy istiqamətinə göndərilən 50 nəfərlik süvari zabit kəşfiyyat dəstəmiz Yeniköydə hücum edən ermənilərin 200 nəfər piyada və 60 nəfər süvari əsgərləri ilə qarşılaşmış. Burada baş verən vuruşmada bir əsgərimiz şəhid olmuş və bir heyvan ölmüş. Tuzla dərəsindəki kəşfiyyat hissələrimiz Yavı istiqamətinə doğru hərəkət edəcəklər.

9-cu diviziyanın komandanı: «Yeniköy hələ mühafizə olunduğuna görə, orada anbarların olması ehtimal olunur» mülahizəsi ilə milis, piyada və süvari dəstələrindən ibarət olan bir dəstənin gecə vaxtı hücuma keçməklə Yeniköyü mühasirəyə almaq və azad etmək üçün icazə istədi.

Bu məlumata çox sevindim. Düşündüyüm hər iki ehtimala görə, bu qayda ilə hərəkət etmək haqqında dərhal 25 fevralda 9-cu diviziyanın komandanı Rüşdü Bəyə belə bir məlumat yazdım. Xülasəsi: «Yeniköydəki ermənilər Karabıyık və Aşkalədə olan erməni hərbi hissələrinin mühafizə dəstəsi olmayıb, tək bir dəstə isə hücumla dəf edilmiş və anbarların yandırılmasına imkan verilmədən, onların ələ keçirilməsi üçün bu əməliyyatın öhdəsindən gələcək bacarıqlı hərbi qüvvə göndərilsin. Başqa bir

hərbi qüvvənin avanqard hissəsi isə arxadakı qüvvənin vəziyyətini və miqdarını öyrənməlidir.

Anbarların Ərzuruma sərbəst olaraq köçürülməsinə imkan verməmək üçün dekovil* xətlərinin dağıdılmasına cəhd edilsin.

Kəşfiyyat dəstəmiz rusların Yeniköyə qədər dekovil xətləri çəkdiklərini xəbər vermişdi. (Bu xəttin bir səhra dəmiryolu olduğunu və Yeniköyün qərbində yerləşən Kükürtlüdəki boz kömür (linyit) mədənlərinə doğru çəkilməkdə olduğunu və bu xəttin Sarıqamışa qədər uzandığını sonradan öyrəndik).

Fevralın 26-da bərk qar yağmağa başladı. 9-cu diviyiza komandanının bugünkü raportundan məlum oldu ki, dünən Aşkalə, bu gün də Yeniköy əsgərlərimiz tərəfindən azad olunmuşdur.

Belə ki, «Aşkalədə 60, Pınarkapanda 40 erməni atlısı görünmüşdü. Kükürtlü istiqamətinə gedən milislərlə bərabər 4 bölməlik zabit kəşfiyyat dəstəmiz ətraf kəndlərin əhalisi ilə birlikdə fevralın 25-də günortadan sonra Aşkalədə olan ermənilərin üzərinə hücuma keçmişlər. 6 nəfər itki verən ermənilər Ərzurum istiqamətinə qaçmışlar, Aşkalə də əsgərlərimiz tərəfindən azad olunmuş və bir miqdar da ərzaq ələ keçmişdi. Aşkalə əhalisindən 35 nəfəri ermənilər şəhid etmiş, qalanları isə azad edilmişdir.

«Bu gün, 26 fevralda Yeniköy istiqamətində aparılan kəşfiyyatda kənddən tüstülər çıxdığı görülmüş, diviziyanın süvari dəstəsi hücum edərək buranı azad etmişdi. Ermənilər burada 20-ə qədər ev yandıra bilmişlər və qaçarkən bir miqdar ərzaq qoymuşlar. Xalid Bəyin dəstəsi fevralın 27-də Yeniköyə gedəcəkdir».

«Tuzla dərəsindəki kəşfiyyat hissəmiz də Yavı üzərinə gedirmiş».

Ərzağın vəziyyəti haqqında da belə məlumat verilir. «Hərbi hissələrin gətirdiyi inventar və 7 günlük ehtiyat ərzağı ilə arxadan Surperana gətirilən ərzaq ayın 27-nin axşamına qədər kafidir.

* (Dekovil-relslərin arası 60 sm və ya daha dar olan dəmir yolu - E.X).

Mamahatunda olan hissələrin Surperandan ərzaq gətirilməsinə imkanı yoxdur. Martın birindən etibarən iaşəmizin Sansadan təmin olunması və addım-addım irəliləyən hərbi hissələrin Sansadan ərzaq göndərilməsi üçün yük heyvanları və ya dəvə karvanının verilməsini acizanə surətdə xahiş edirəm».

Hər gün irəli gedirdik, erməni qüvvələrinimi, yoxsa ərzaq anbarlarınımı axtarırdıq, bilmirdim? Bildiyim bir şey varsa o da dəhşətli soyqırımların və yanğınların daima burnumuza gəldiyi qan və yanğın iyisi idi. Bu acı təsirlər altında mən çoxlu ərzaq ələ keçirəcəyimizə hələ də ümidimi itirməmişdim. Bu ümid bəlkə də qanlı göz yaşlarıyla ordumuzdan mədəd gözləyən, min bir iztirab içində qıvranan və inləyən Ərzurum xalqının mənə mənəvi cəhətdən etdikləri bir təsirdi:

Gəlirik Ərzurumlular, gəlirik. Aclığı və soyuğu düşünəcək bir halda deyilik. Gündüzlər olduğu kimi, gecə yuxumuzda da sizin iniltilərinizi hiss edirik. Bir ovuc arpa da tapa bilsək, dayanan deyilik…

Ordu komandanının təyin etdiyi cəbhədən də əlavə şərqə tərəf hərəkət etmişik. Vəhib Paşa bizə şifahi olaraq vəd etdiyinə baxmayaraq, hələ də arxa cəbhə bizə Yerhandan ərzaq vermirdi. Bu səbəbdən də mən avanqard dəstəsi üçün bölüşdürülmüş anbarı Sansaya göndərə bilmirdim.

Ərzurumu azad etmək üçün ağır şərtlər altında olduğumuzu bildirmək üçün, 26 fevral günü axşamkı ərzaq vəziyyətimizi qeyd edirəm.

Təəccüb doğuracaq cəhət o idi ki, Kəmah və Məlikşərifdəki hissələr azuqə təminatı cəhətdən çox pis vəziyyətdə idilər. Heyvanlar üçün yem bəzən əksik verilir, bəzən də heç verilmirdi. Belə pis münasibət hərbi əməliyyatlarımızdan qabaq da olurdu.

Azuqə ilə təmin ediləcək adamların o məntəqələri tərk etmələrinə baxmayaraq, arxa cəbhənin belə davranmasına çaşıb qalır və şikayət edirdim. Bundan başqa arxa cəbhənin işi xeyli azaldığından Yerhandan bizə ərzaq verilməməsini heç cürə başa düşə bilmirdik. Ərzaq vəziyyətimizi bu gün ordu komandanına

bildirdim. Cavabında mənə «36-cı diviziyanın Kemahdakı hissələrini Ərzincana köçürün» əmri gəldi.

Səbəbi də bu idi ki, arxa cəbhə Kemahı ərzaqla təmin edə bilmirmiş.

Bu gün, 26 fevralda mən də ordu komandanına eynilə aşağıdakı təklifi yazdım: «İndiyə kimi yaranmış şəraitə və alınan xəbərlərə görə erməni quldurlarının Ərzurumda böyük hissələrlə müqavimət göstərəcəklərinə təxmin etmədiyimdən, 36-cı diviziyanın arxadakı hissələrinin Ərzincanda saxlanılması üçün ərzaq təminatına xərclənəcək vəsait 9-cu diviziyanın Ərzincanda qalan hissələrinin irəli getməsi üçün ayrılsın və bu diviziya ilə daha yaxın bir zamanda Ərzurumu azad etmək üçün əlverişli şərait olduğunu ərz edirəm».

Axşamüstü Vəhib Paşa telefonla mənimlə əlaqə yaratdı: «Kazım bəy, icazə olmadan baş götürüb irəli gedirsən; uğurlarınızdan çox razıyam. Lakin sağ və sol tərəflərdəki korpusları sizin hərəkətlərinizlə uyğunlaşdıra bilmirəm. Mən cəbhə xəttini təyin edirəm, sən əlavə olaraq 60 kilometr irəli gedirsən.

İndi də tək bir diviziya ilə Ərzuruma hücum etməyi təklif edirsən. Səni bu diviziyaya nə üçün gətirdiyimi demişdim. Narahat olduğumu unutma. Ərzurum istehkam mövqeyi və partizan müharibəsi qarşısında qala biləcəyini heç fikirləşirsənmi?» Mən isə: - Çox düşünülmüş halda hərəkət etdiyimə arxayın olun. Partizan müharibəsinə əslində ermənilər özləri imkan vermirlər. Çünki etdikləri cinayətlərin əvəzində, ordumuzun da onların üzərindən bir silindr kimi keçərək, onları biçəcəyimizi bilirlər. Ərzurumun istehkam mövqeyinə gəlincə, əsaslı kəşfiyyatlara və şəxsi əlaqələrimə əmin olaraq hücum edəcəyəm. Ermənilər dəhşətli soyqırımlar edirlər və ətrafı yandırırlar. Vaxtı itirmək, Ərzurumun bir tonqal yeri və bir məzarlığa çevrilməsinə səbəb ola bilər. Əgər yaxşı anbarlar əldə edə bilsəm, 36-cı diviziyanı dərhal cəbhəyə göndərəcəm» - deyə cavab verdim.

-Ərzuruma tərəf qəti hərəkət etmək üçün əmr yazıram. Sənə Fələstin cəbhəsindəki hadisələrdən xəbər verim: Fevralın 21-də ingilislər sol cinahımıza qarşı hücumlarını təkrar etmişlər. Hər yerdə əsgərlərimiz onların hücumlarını dəf edə bilmədikləri üçün əvvəlcədən müəyyən edilmiş yeni mövqelərə çəkilmişlər. Falkenhayim Almaniyaya gedir, yerinə Leyman Paşa, İldırım Ordusu komandanı təyin olundu. İkinci və Altıncı Ordular, İldırım Beşinci Ordu adını aldı. Həmin Ordu Bandırmaya gedəcək…

Əvvəl yazdığın təklifləri bu səfər də qəbul etdim. Ərzuruma dair əmri gözləyərsiniz. Gözlərinizdən öpürəm.

-Təşəkkür edir, hörmətlərimi bildirirəm.

Fevralın 27-də ordudan bu əmr gəldi: «Ərzurumda 7000 erməni qüvvələrinin toplanması təxmin edilməkdədir. Ərzuruma qəti olaraq hücuma başlamaq üçün Birinci və İkinci Qafqaz korpusları (Otuz yeddinci diviziya istisna olmaqla) avanqard hissələr ilə tutduqları xəttin (Yeniköy-Aşkalə-Of) qərbində hazırlıqlar görməklə məşğul olacaqlar. Dördüncü korpus ilə Birinci korpus arasındakı kəşfiyyat və əmniyyət sərhəd xətti Kərkənşeyxdən sonra Parmaksız-Əjdərtəpəsi-Karagöl dağının yüksəkliyindəki cəbhə xətti - Ərəblər məzarı (hamısı I Qafqaz korpusuna daxil) istiqamətində, Birinci və İkinci Qafqaz korpusları arasında da Karabıyıkdan sonra, Evrəni-Ağviran-Gəz (hamısı II Qafqaz korpusuna daxil) Ərzurum istiqamətidir».

«Birinci Qafqaz korpusu 36-cı diviziyanın arxadakı hissələrini Ərzincan və onun ətrafına cəlb edəcəkdir.

«Ərzuruma yönələn bu hərəkatda On Birinci Qafqaz diviziyası ilə bərabər, ordu ehtiyatını təşkil edəcək Onuncu Qafqaz diviziyası 28 fevral 1334-cü ildən (1918) etibarən müvəqqəti olaraq İkinci Qafqaz korpusunun ixtiyarına veriləcəkdir. Bu diviziya ərzağa görə ən az zamanda Şirvan və onun ətrafında yerləşdirilməlidir».

Hərbi qərargahdakı hissələrlə birlikdə əmri oxuyub xəritəmdə o yerləri işarə etdikdə donub qaldım.

Biz iki mühüm məsələ qarşısında idik.

1) –Bir diviziyanın ərzaq məsələsini təmin edərək Ərzuruma daxil ola bilmək üçün çalışarkən, ordu komandanı hər iki korpusu Ərzurum qarşısında toplamağı düşünür və indidən Yeniköyün qərbində korpusumu hazır etməyi əmr edir.

2) – Ərzuruma hücum etmək üçün əsas küçəni tamamilə İkinci Qafqaz korpusuna ayıraraq, mənim korpusumu Evrəni-Ağviranın cənubuna, yəni bu qış mövsümündə keçilməsi mümkün olmayan məntəqəyə göndərir. Ərzincanda da hər tərəf ən azı bir metrə qar ilə örtülü. Qarın Ərzurumda teleqraf tellərinə qədər çatdığına şübhəmiz yox. Şose yolundan çıxmaq fəlakətdir. Ordu qərargahının yerləşdiyi Suşehrindəki yaz havasımı onları belə xatalı əmr verməyə sövq ediır, yoxsa ərzaq imkansızlığına görə iki korpusun Yeniköy-Aşkalə cəbhə xəttinin qərbində toplanmasının mümkün olmadığı bilindiyindən, təkbaşına mənim korpusumun Ərzurum qarşısına gedə bilməyəcəyini düşünərək belə əmr verir? Başa düşə bilmədim.

Lakin, görəsən belə bir halda Ərzurumun vəziyyəti necə olacaq?...

Bu gün fevralın 27-dir. Kavurma çökəyi tərəfində erməni qüvvələri görünmədi. Lakin, Aşkalənin qərbinə keçən hərbi hissəmizlə ermənilər arasında toqquşma baş vermiş və ermənilər topdan da istifadə etmişlər. Türk kəndliləri qaçıb hərbi hissəmizə sığınırlar. 9-cu diviziya komandanının bu gün üçün planı belədir: «Xalid Bəyin komandasının avanqard hissələri Tülkü Tepesi-Karabıyık-Yuxarı Kağdariç cəbhə xəttində dayanaraq, II Qafqaz korpusundan gələn süvari polkunun Aşkaləyə daxil olmasını və bizim 28-ci komandanın Yeniköy məntəqəsinə yaxınlaşmasını gözləyərək, Karabıyıkın şərqinə kəşfiyyat dəstəsi göndərəcək. Xalid Bəyin ixtiyarına 28-ci polkun dağ komandası veriləcək. Bicandakı qüdrətli dağ komandası Karqına, Sansadakı atıcı batalyonu, pulemyotlu dəstə və güclü dağ batalyonu da Bicana gələcək».

Öndəki xətt təhlükəsizdir. Lakin kəşfiyyat işlərini Ərzurumun istehkam mövqeyinə kimi aparılmasını lazım bilərək, 9-cu diviziyaya bu gün (27 fevral) bu əmri verdim: «Avanqard komandalara tutulan Tülkü Təpəsi-Karabıyık-Yuxarı Kağdariç xəttinin keçilməməsi haqqında verilən əmr çox düzgündür. Bu xətdən daha öndə olan hərəkat Yeniköy və Aşkalədə olan ərzağın miqdarından asılı olacaq və 9-cu diviziyanın əksər hissələri Yeniköy xəttinə çatana qədər, hələlik qabaqdakı hissələrin hərəkatı təxirə salınacaqdır. Lakin Ərzurum və onun ətrafında ətraflı kəşfiyyat aparmaqla, oralarda toplanan qüvvənin miqdarı, vəziyyəti və erməni quldur dəstələrinin hansı xətdə müqavimət göstərəcəklərinin tədqiq edilməsi».

Bu gün II korpusun nizamlı süvari polku da Aşkaləyə gəldi. Onlar Kop dağlarında qar həddindən çox olduğundan piyada olaraq böyük çətinliklərlə gələ bilmişlər.

Mamahatun və Yeniköydə əlimizə keçən ərzağın Mamahatundakı əsgərlərin 30 günlük yeməyini və 120 gün də ətlə təmin edəcəyini məmnuniyyətlə öyrənincə, bu ərzağa arxayın olaraq, irəliyə çox hərbi hissələr göndərməklə Mamahatundakı əsgərlərə Surpiran yerinə Sansadan ərzaq verilməsini əmr etdim.

Ərzurumu azad etmək üçün ordu komandanının verdiyi əmri dəfələrlə oxuyaraq, bu əmrin nəinki riskli, hətta fəlakətli olduğunu hiss etdim. Bu oxuduğum əmr haqqında öz fikrimi söyləməyi münasib bildim.

Fevralın 28-də telefonla Vəhib Paşaya əmr haqqında öz fikirlərimi ətraflı olaraq danışdım. O da mənim fikirlərimi bəyəndi və hər ikimizin fikirləri əsasında yeni bir əmr verəcəyini söylədi.

Komandanın bu alicənablığına təşəkkür etdim və bu fürsətdən istifadə edərək: «Aşkaləyə gələn 2-ci Qafqaz korpusunun süvari batalyonu (2 rota) müvəqqəti olaraq mənim ixtiyarıma verilərək, Karabıyık karvansaraylarında yerləşən 200 piyada, 100 süvari və iki topa malik olan ermənilər üzərinə hücum etməyimizi və bu surətlə oradakı anbarları zəbt etməyimizi də ordu

komandanından xahiş etdim. Bu fikirlərimi də bəyəndilər. Bu hücum əməliyyatı sona çatıncaya qədər ikinci bir əmrlə: «növbəti göstərişə qədər» qeyd olunmaqla bu polku mənim ixtiyarıma verdilər.

28 fevralda Karabıyıka hücum edildi. Martın 1-də səhər vaxtı ermənilər qaçdılar. Karabıyık əsgərlərimiz tərəfindən zəbt olundu. Burada təxmin etdiyimiz 200 ton ərzaq əlimizə keçdi. Bu uğurumuz bizi çox sevindirdi və üzümüzü güldürdü.

9-cu diviziyanın qərargahı bu gün Mamahatundan Yeniköyə köçdü.

Martın 1-də Ordu Komandanı Vəhib Paşadan məxfi şifrələrlə belə bir əmr gəldi! (Əmr və raportlar şifrəli teleqrafla yazılmışdır):

1 – «Siyasi vəziyyət düzənlik ərazinin qəflətən zəbt edilməsini tələb edir.

2) – Alınan xəbərlər hələlik Ərzurumda mühüm bir erməni hərbi qüvvəsinin olmadığını və ermənilərin bütün qüvvələrini hələ toplamamış təcili və qəfil bir zərbə endirməklə Ərzurumu zəbt etməyin mümkün olduğunu göstərir. Ərzurum istehkam mövqeyinin hal-hazırda nə qədər erməni tərəfindən necə müdafiə olunması haqqında, müxtəlif süvari dəstələri tərəfindən və üç gün sonra təyyarələr vasitəsilə aparılacaq kəşfiyyatdan da alınacaq əsaslı məlumatlar toplanaraq ən qəti və düzgün fikrə gəldikdən sonra, Ərzuruma kafi dərəcədə hərbi bir qüvvə ilə hücum kəşfiyyatı aparmağa qərar verdim.

Bununla bərabər, bu işə qısa bir zamanda başlamaq üçün Birinci və İkinci Qafqaz korpuslarının bir piyada polku, iki süvari bölüyü, atıcı batalyonu və rotaların nəzdindəki iki dağ topundan başqa, bir dağ piyada komandası əmrə hazır olacaqlar.

3- Birinci Qafqaz korpusu, Yeniköy və onun cənub məntəqəsində, İkinci Qafqaz korpusu da öz komandasını Aşkalə, Aşağı Kağdariç məntəqəsində toplayacaqdır.

4- Korpuslar hazırlıq işlərinin nə vaxt bitəcəyini və hərbi hissələrin hansı tarixdən etibarən əmr olunan məntəqədən irəli hərəkət etmək üçün hazır ola biləcəyini mənə bildirəcəkdir.

5- Bu əmr, Birinci və İkinci Qafqaz korpuslarının komandanlıqlarına verilmişdir».

Martın ikisində səhər bu əmr də əlavə olundu: «İki atıcı batalyonu birləşdirilərək və bir batareya dağ artilleriyası da əlavə edilməklə, Ərzurumu cənub istiqamətindən mühasirə etməyin faydalı olduğunu və belə halda Ereğlidağın şimal yüksəkliklərindən sağ cinahda kəşfiyyat aparmaq və oranın mühafizə olunması məqsədilə, hücum edəcək bölükləri ən bacarıqlı xizəkçilərdən təşkil etmək üçün iki zabit müəllim, korpusun əmrinə göndərilsin».

Vəhib Paşanın mənim vəziyyətdən asılı olaraq hərəkət etmək təklifimi nə üçün tamamilə qəbul etmədiyini başa düşə bilmirdim. İki korpusun hər birinin rotasından götürülmüş qüvvənin göndərilməsi və idarə olunması çox təhlükəli olacağı kimi, İkinci korpusun hərbi hissələri Kop dağını aşıncaya qədər bütün korpusumu Ərzurum qarşısına toplaya bilərdim. Bundan başqa mənim korpusumun hissələrini Yeniköy və onun cənubunda toplamaq əmr olunurdu.

Kavurmaçukuru-Sakalıkəsik yolu, vaxtilə (1916-cı ildə) Ərzurumun köçürülməsində xeyli fəlakətlərə səbəb olmuşdu. Belə qar yığınları içində oraya gedəcək hərbi hissələrin ərzaqla təminatı da imkansızdı. İki atıcı batalyonunu və bir batareya dağ topçusunu Ərzurumun cənubundan göndərmək də bu baxımdan doğru olmazdı.

Mən bu təhlükəli vəziyyət haqqında yazmış və telefonla da çatdırmışdım. Ancaq təkcə bu işi edə bilərdim: Bütün məsuliyyəti üzərimə alaraq, vəziyyətin tələbinə uyğun olaraq öz sərbəst hərəkətimi davam etdirmək.

Çünki, bir fəlakət baş verərsə, maddi və mənəvi məsuliyyət mənim üzərimdə qalar. Çünki mən hadisənin içindəyəm, ordu qərargahı isə yaz havası içində olan və Ərzurumdan 300 km uzaq

bir məsafədə yerləşən Suşehrindədir. Mən qar içində bu hərəkatı idarə edəcəyəm, ordu qərargahı isə isti otaqda xəritə önündə olacaqdır. Vəziyyəti bilərək və görərək əsgərimi soyuqdan dondura və aclıqdan öldürə bilmərəm.

Zəbt etdiyimiz Karabıyık anbarları sayəsində mənim korpusum Ərzurum cəbhəsində toplanaraq oranı bir zərbə ilə azad edə bilərdi. Bunun üçün martın ikisində səhər işi belə nizamlamağa başladım: «9-cu diviziyanın bütün qüvvələri ilə Yeniköy ətrafında, 36-cı diviziyanın da tamamilə Ərzincanda toplanması, 10,5-lik obüs* batalyonunun da Ərzincana gəlməsi əmrini verdim. Bu gün sinif yoldaşım Qədri Bəyin sərəncamındakı 10-cu diviziya da İkinci Qafqaz korpusunun əmri ilə hərəkət etdiyinə görə artıq mənim korpusumda iki diviziya qaldı.

Ərazilərdə apardığımız kəşfiyyatlara görə Mamahatundan sonra qar çox olduğu üçün təkərli arabalar yol ilə belə hərəkət edə bilmirdi. Yollardan kənarda piyadalar da çox çətinliklə hərəkət edə bilirdilər.

Planım haqqında orduya məlumat verdim. Vəhib Paşa bu məlumata çox qəzəblənmiş. Həmin gün, martın ikisində telefonla məni danladı: «Bu nə işdir Qarabəkir? Əmniyyət xəttini Sansın qərbinə qədər göstərdim; sən Karasuya qədər gedib çıxdın, mən oranı göstərdim, sən Yeniköyə qədər irəlilədin. İndi də Ərzuruma gedirsən. Əlinə ərzaq keçdikcə, hey irəli qaçırsan. Məlum oldu: Sənə hərəkət etmək əmri vermək əvəzinə, ərzaq əmri verməliyəm ki, istədiyim yerdə dayana biləsən. İndi bir əmr yazıram» dedi və telefonu asdı.

Ardından da əmr gəldi: «Korpusunuz tamamilə Ərzincan və onun qərbindən ərzaqla təmin olunacaqdır. Aşkalə və Karabıyık anbarları ordunun ixtiyarındadır».

İndi nə edəcəkdim. Mən Karabıyıkda əldə etdiyimiz 200 tonluq ərzağa güvənərək əmrlərimi vermişdim.

* (Obüs-yüksək və alçaqdan mərmi ata bilən qısa lüləli top - E.X)

Əgər ordunun verdiyi bu son əmri yerinə yetirməli olsam, bütün hərbi qüvvələrimi Kötür körpüsünə qədər geri çəkməliyəm. Hərəkat haqqındakı əmrlərdə vəziyyət məlum olmadığı üçün əvvəlki əmrlərlə uğurlu əməliyyat aparmaq üçün irəli getməyə indiyə qədər ordu komandanı etiraz etməmişdi. Lakin bu «Ərzuruma hücum» məsələsində daban-dabana zidd fikrlərlə işə başladıq, Ordunun təcili bir zərbə haqqındakı təklifimi qəbul etməsinə baxmayaraq, hərbi əməliyyatıma dair verdiyi əmr və hələ bu ərzaq haqqındakı əmri işləri alt-üst edirdi. Bu əmrlər uğurlu hərəkatımızı fəlakətə sürükləyə bilərdi. Düşündüm, daşındım, iş artıq rəsmi çərçivəsindən çıxmışdı. Manastır şəhərində mayor olduğum zamanda aramızda olan dostluq münasibətindən istifadə etmək ağlıma gəldi. Vəhib Paşaya xüsusi bir cavab yazdım.

Bu cavabın birinci maddəsi: «Hörmətlə əllərinizdən öpərək xahişimin qəbul olunmasını arzu edirəm» şəklində idi. İkinci maddəsi: də «Son dəfə verilən əmrlə bütün indiyə qədər olan uğurlu əməliyyatımızın məhv olacağını, Kötür körpüsünə geri çəkilməyi tələb edən bu əmrin hərbi hissələrimizin mənəvi cəhətdən də ruh düşkünlüyünə səbəb olacağını və ermənilərin bundan istifadə edəcəklərini» kədərli bir ifadə ilə göstərirdi.

Şifrəli teleqram ilə Vəhib Paşanın əllərindən öpməklə işlərimi yoluna qoydum. «İşlərim» deyirəm, çünki bu «Ərzurumun qurtuluşu işi» idi. Şəraitin tələb etdiyi vacib hərəkətlər də təbii ki, mənim işim idi. Həmin gün martın ikisində gələn bir əmrlə «Məcburiyyət qarşısında, yəni arxadan ərzaqla təmin olunmadığı halda, qarşıdakı anbarlardan istifadə edə bilərsiniz» kimi xoş xəbər aldım ki, bu da mənim üçün kafi idi. Bu gün Rizənin azad olunması xəbərinə çox sevindik. Martın 3-də Vəhib Paşa telefonla Ərzuruma qarşı iki polkla bir hücum kəşfiyyatından istifadə olunması haqqında mənim və 9-cu diviziya komandanı Rüşdü Bəyin fikirlərini soruşdu. Eyni gündə bu cavabı verdim. «3 Mart 1334 (1918)-ci il Ərzuruma qarşı iki polkla bir hücum kəşfiyyatının icrası haqqında mənim acizanə fikirlərimlə 9-cu

diviziya komandanının fikirlərini bildirməsi haqqında əmr verilmişdi. Ətraf yerlər çox qarlı olduğu üçün yoldan kənarda hərəkət etmək çox müşküldür və bəzi yerlərdə imkansız olduğundan, istər hərəkət baxımından və istərsə də ərzaq və cəbhə təchizatı, yaralıların arxaya aparılması kimi cəbhəarxası xidmətlər baxımından və istərsə ərzaq baxımından əsas hərəkatı mərkəz olaraq şose yolu boyunca tutmaq lazımdır. Bunun üçün əksər hissələri (iki polk, iki istehkam bölüyü, 12 top) Evrəni Hanları ətrafında topladıqdan sonra bir polkun şosenin şimalından, digər bir polkun da cənubdan yola salınması və sağ cinahda Haydari (xəritədə Cidari yazılır) tərəfdən 2 batalyon, iki pulemyotçu dəstəsi və bir dağ piyada bölüyündən ibarət bir komanda göndərməyi və Karasuyun şimalından da nizamlı süvari polkunun Ərzurum şimalındakıTufanç istiqamətinə göndərmək və ümumi heyət bir diviziya olduğundan, 9-cu diviziya komandanı polkovnik Rüşdü Bəyin komandasına verməyi münasib gördüm». Rüşdü Bəy də bu fikirlə razılaşdı.

## CƏBHƏYƏ DOĞRU HƏRƏKAT

Martın 4-də səhər qərərgahımın birinci eşelonu ilə Ərzincandan cəbhəyə doğru hərəkət etdim. Hərəkatı özüm idarə edəcəkdim. Yeni bir maneə qarşısında qalmamaq üçün orduya «Hücum kəşfiyyatını yaxından görmək üçün cəbhəyə doğru hərəkət edirəm» deyə məlumat verdim.

İşi arzu etdiyim kimi yoluna qoymuşdum. Vəziyyətin tələb etdiyi bu işi yaxından görərək qərarımı verəcəyimə görə çox sevinirdim. Səhər saat $7^{30}$-da iki faytonla mən və qərargahımdakı hərbçilər Pirvan-Küpəsi düzənliyindən yola düşdük. Yol bərbad idi və körpü də yox. Süleymanlıya qədər bataqlıqlar və qar içində çox əziyyət çəkdik. Çox yerdə faytondan düşüb arabaları bataqlıqdan çıxarmaq üçün çalışdıq. Bizdən sonra hərəkət edən qərargahın atlı dəstəsi minik heyvanları ilə bərabər şose yol ilə bizimlə eyni istiqamətdən keçirdilər. Aramızda 1000 metrdən çox məsafə vardı. Kənddə heç kim olmadığından faytonlarımızın palçıqdan çıxarılmasına kömək edəcək adam tapa bilmədiyimiz üçün atlı dəstələrinə tərəf qaçmağa və onları səsləməyə başladıq. Soyuqdan başlarını möhkəm sarıyan zabit və əsgərlər bizi görmür və səsimizi eşitmirdilər. Tapançalarımızı çıxararaq onlar tərəfə atəş açmağa başladıq və bəzilərimiz də dəsmal yellədik. Paltarımız qış geyimi olduğu üçün sürətlə qaçmağımıza da mane olurdu. Tərslikdən də, atlı dəstələr sürətlərini artırdılar. Artıq bizi ötüb keçdikləri üçün onların arxaya dönüb baxmaları bir möcüzə ola bilərdi. Şose yola gedib çıxıb vaxtından tez olacaq təhlükəni gözləmək, yaxud geri dönüb faytonları palçıqdan çıxarmaqdan başqa çarəmiz yox idi və hər ikisi də soyuq havada xoşa gələn iş deyildi. Bu işin ən pis cəhəti o idi ki, belə vəziyyətdə atlı dəstə başını götürüb gecələmək üçün Sansaya gedərsə, biz mühafizəsiz, qərargahsız ortada qalacaqdıq. Kiçik fotoaparatları xatırladan simsiz radio stansiya cihazlarının tam tətbiq olunması

gözlənilirdi. Simsiz radio stansiya zəngi nə qədər faydalı bir alət olacaq.

Vaxtilə oxuduğum Kamil Flamaryonun “Les inconmius” (Meçhulər - Naməlumlar) başlıqlı əsərinin sonundakı xəyallar kimi insandan insana fikir keçirmək bacarığı hamı üçün tətbiq sahəsinə keçmiş bir dövrdə olsaydıq, belə keçirdiyimiz acınacaqlı günlər bəlkə əyləncəli bir tamaşa olardı. Bu gün düşdüyümüz ağır vəziyyət baş qərargahımın Allahdan imdat diləməsinə səbəb oldu və əlac artıq dua etməyə qaldı. Çünki müharibə əməliyyatlarında qərargahı belə bir vəziyyətə salan yüksək rütbəli hərbiçilərim, maddi çarəsizlik qarşısında çox sıxıntılı bir vəziyyətdə qalmışdılar. Bu işin sonu acınacaqlı da ola bilərdi. Bir quldur erməni dəstəsi ilə qarşılaşmaq olardı. Hərçənd hərbi hissələrimiz çox irəlidə idi, lakin bu işlərdə çox məharətli olan ermənilərdən belə bir hərəkət gözlənilməklə yanaşı, bizi yalnız görəcək Dersim milisləri tərəfindən də təhlükə ola biləcəyini nəzərə almaq məcburiyyətində idik. Dedim ki: - «Yoldaşlar, çox məyusluğa düşməyin. Axırıncı bir çarə ağlıma gəldi, xəritələrimizi ağzı enli boru kimi bükək və hamımız bir ağızdan «Duur!» deyə səsimizi uzadaraq qışqıraq. Şose yol da döngəlidir. Atlılar bizə tərəf dönəcəklər, bəlkə səsimizi onlara çatdıra bilərik.

Hamımız bir ağızdan və gücümüz çatdığı qədər «duur!» deyə xəritədən düzəltdiyimiz borular vasitəsilə çağırmağımızdan sonra, şosenin döngəli yerində atlı dəstəsindən bir nəfər bizə tərəf çevrildi. Tez xəritələrimizi qaldırıb yelləməyə başladıq. Atlı dəstəsi dayandı və artıq hamısı bizi gördü. Biz də müharibədə uğur qazanmış kimi çox sevindik. Atlı qərargahımız dörd nala çaparaq yanımıza gəldilər. Yanlarındakı bu qədər insanı görə bilməyəcək dərəcədə səhlənkarlıq edərək keçib gedən zabitləri bir az danladım.

Biz guya ki, bu gün gedəcəyimiz 60 kilometrdən çox olan bir məsafənin bir hissəsini yorulmamaq üçün faytonla gedəcəkdik. Qısa yoldan getməklə də guya atlı dəstə arxadan bizə yetişəcəkdi. Başımıza gələn bu hadisə əksinə bizi yordu. Taqətsiz

qalan qoşqu atlarına qoşulmuş faytonlarımızı da köməkləşib bataqlıqdan çıxardıq. Biz də artıq atlara minərək şose yola çıxdıq. Qarın üzərində hərəkət çox olduğuna görə tamamilə ərimişdi. Biz sürətlə getməyə başladıq Lakin faytona qoşulan atlar taqətsiz və palçığa bulaşmış halda idilər. Onları sərbəst buraxdıq.

Surpiranda günorta yeməyi yedik. Buradan sonra Sansa Boğazının (dağ keçidinin) Ərzincan düzənliyindəki olan soyuğa bənzəməyən şiddətli soyuğu ilə qarşılaşdıq. Fırat çayı boyunca uzanıb gedən şose yol bəzi yerlərdə lap çayın sahilinə yaxınlaşırdı. Yol boyunca erməni hərbi hissələrinin yandırdıqları və tərk edərək qoyub getdikləri yerlərin izləri görünürdü. Bir çox araba, yük maşını - təbii ki, içlərində heç bir yük olmadan yol kənarına atılmışdı. Sansa Boğazının içərilərinə irəlilədikcə buranın necə qorxunc bir yer olduğu məlum olurdu. Baş qərargah rəisi Cavid, çox cəsur və nəşəli, qərargahın yüksək rütbəli şəxslərindən olan Avni (sonralar bir çox hərəkatda qərargah rəisi vəzifəsində oldu) və digər yoldaşların çoxu rus ordularının qərşısından bu boğazdan çəkilən hərbi hissələrimizin nələr çəkdiklərini nəql etdilər.

Sağımızda Dersim, solumuzda (şimalda) Mürit dağları göylərə yüksələrək boğazı qaranlıq bir hala qoymuşdular. Dersim tərəfi çox sıldırımlıdır. Hər yerində görünməyən pusqular qurmaq üçün əlverişli olan minlərcə əyri-üyrü yerlər vardı. Yol boyunca tək-tük erməni ölüləri görünürdü. Sonda ermənilərin bizə qoyub getmək məcburiyyətində qaldıqları, rusların mükəmməl işlək vəziyyətdə 4 səyyar toplarını və 2 dağ topunu da götürdük. Bunların Ərzincana aparılması əmrini vermişdim. Bu topların nazlı gedişləri bizə böyük sevinc verdi. Sansaya çatmamış axşam düşdü. Soyuq da getdikcə şiddətlənirdi. Üzəngidə olan ayaqlarımızın üzərində içi tüklü qalın örtülər olduğu və ayaqlarımızda da qalın yun corablar və çəkmələr olduğu halda, ayaqlarımız bərk üşüdüyü üçün bəzən piyada getmək məcburiyyətində qalırdıq. Hamı «Ömrümdə belə soyuq görmədim» deyə təkcə bir cümlə deyə bilirdi və tez ağzını-burnunu qapayırdı.

Sansaya qaranlıqda çatdıq. Bizim üçün hazırlanmış iki göz kiçik otaqlı bir evə daxil olduq. Gur yanan ocağın ətrafına toplanmamışdan əvvəl qulaq və burunlarımızın donub donmadığını yoxladıq, hər şeyin qaydasında olduğunu biləndən sonra Allaha şükür edib paltarlarımızı soyunmağa başladıq. Göyün üzü açıqdı, ulduzlar görünürdü. Damın üstündəki dirəkləri çoxdan söküb aparmışdılar. Çəkdiyimiz zəhmətlərlə müqayisə edilərsə, bu dörd divar arasında daldalanmaq sevindirici idi. Evin damı olmasa da, ocaq başında danışa gülə cəbhədən gələn məlumatları, ordudan gələn əmrləri oxuyacaq, lazımlı işləri yerinə yetirəcəyik. Təbii ki, hazır olan isti çaylarımızı da içəcək və qarnımızı da doyuracaqdıq. Sonra yatmağa hazırlaşacağıq. Bu bir az xoşa gələn iş olmasa da, ona da qatlanacaqdıq. Çünki yüklərimiz hələ gəlməmişdi.

Yollarda rastlaşdığımız adamlardan eşitdik ki, bu il başqa illərə nisbətən qar dağ keçidində daha bol imiş. Bunu Ərzincanlılar da, Rəfahiyəlilər də, bir sözlə hamı danışırdı. Şaxtanın 30-35-dərəcə olmasını təxmin edirdik. Belə soyuq bir gecəni üstü açıq bir evdə keçirmək çox çətindi. Lakin bütün ordumuzun belə iztirablar qarşısında qaldığını və önümüzdə bizi zəfərlər və şərəfli işlər gözlədiyini düşünəndə bu damsız ev bizə çox lüks bir salon kimi görünürdü. Vəzifəmə baxmayaraq, qərargahımda səmimiyyətə üstünlük vermək adətim olduğu üçün çaylarımızı gülə-gülə içdik. Yemək vaxtı da ələ keçirdiyimiz Ərzincan qənimətlərindən olan konservləri yeyəcəkdik. Ərzincanda dadına baxmadığımız ət konserviləri haqqında çoxumuz heç bir yaxşı fikir deyə bilməzdik. Hərçənd ki, konservlər inək və dana ətindəndi, lakin təzə ətə alışmamış olanlar üçün ət konserviləri yemək, üstəlik də bu qədər yorğunluqdan sonra ağır idi. Yaxşı yeməklərimiz yolda olan yüklərimizlə birlikdə idi. Və bu yüklərin də nə zaman yetişəcəyi məlum deyildi. Dedim ki: «kim istəyir konservlərdən yesin və ocağın ətrafında büzüşüb yatsın, istəməyənlər də yükləri gözləsin. Mən konserv yemək istəyirəm». Başqaları da konserv yemək istədi. Konservləri açıb ocaqda qaynatdıq. Konservlərdən o qədər ləzzətli

ət çıxdı ki, bunlardan Ərzincanda yemədiyimiz üçün təəssüfləndik. Yalnız balığı necə bişirəcəyimizi bilmədik. Rusların çəlləkdə tədarük etdiyi balığın yəqin ki, yeyilməsi üçün bir hazırlanma qaydası vardı. Bunu Ərzurumda əsir alacağımız ruslardan öyrənə bilərdik. İrəli hərəkət etdiyimiz zaman lap çox miqdarda ət və balıq konserviləri əlimizə keçdi. Balığı necə yeyəcəyimizi də öyrəndik. Başqa bir kitabımda Təbrizdən bəhs edərkən, rusların çox böyük ət konservi müəssisələrinin olduğu haqda yazmışdım.

Aldığımız raport və əmrlərdən bəhs etmədən əvvəl, bu gecəni necə keçirdiyimizi də qısaca qeyd edim: Qərargah zabitimiz özü ilə gətirdiyi yüngül səyyar çarpayısını mənə verdi. Bütün yoldaşlarım yerə uzanıb yatdılar. Hamısı onlarla birlikdə yerdə yatmağıma qarşı çıxaraq, məni bu gecə yerdə yatmaq şərəfindən məhrum etdilər. Lakin gecə yarısı yüklərimiz gəlib çıxdı. Hamı yorulan və uyuşan çiynini, ayağını ovuşduraraq öz səyyar çarpayısına keçdi.

Ordudan gələn əmrdə Ərzuruma hücum etmək haqqında mənim fikrim qəbul olunmayaraq hələlik: «Əsas zərbə vuracaq qüvvənin sağ cinahda, dağlıq hissədə qalması münasib olar» deyə yazılmışdır. Artıq buna heç bir etiraz edə bilməzdim. Cəbhəyə gedirdim. Ərazini, erməni qüvvələrini və xüsusilə qarlı vəziyyəti nəzərə alaraq lazım olan qərarı verəcəkdim. Cəbhədən gələn raportlardan bu məlumatı aldıq: «Martın 3-də Təpəköy-Pulur-Ilıca-Karaz xəttində ermənilərlə təmas necə olmuş. Yəni Ərzurum şəhərinin 10-15 kilometrlik məsafəsindəki həmin kəndlərdə ermənilərlə qarşılaşdıq».

«Bu gün martın 4-də ermənilər, günortadan sonra saat 1-də Titrikə gedən süvarilərimizə topdan 8 mərmi atmışlar".

Dünən ruslarla Brest-Litovskidə bağlanmış sülh müqaviləsi haqqında da. «Daxili İşlər Naziri adından Camal» imzası ilə göndərilmiş bir yazıdan öyrəndik. Rəsədxana kimi damı açıq olan Sansadakı evdə belə yaxşı xəbər almaq bizi sevindirdi.

Bütün günü bərk yorulduğumuza görə çox möhkəm yatmışdıq. Sübh vaxtı ətrafı seyr etmək üçün «kaşanəmizin»

önünə çıxdıq. Dağlara və dağ keçidlərinin vəziyyətinə baxdım. Ermənilərin az tələfat verərək qaçdıqlarına görə çox təəssüfləndim: «Əgər Şərqi Dersim milisləri yaxşı idarə olunsaydı, bu Sansa keçidi Ərzincandan çəkilib gedən erməni hissələrinə məzar olardı» deyərək, komandasını başlı-başına buraxıb, öz staj məsələsini həll etməyə gələn komandana yenidən qəzəbləndim.

Martın 5-də, səhər saat 8-də Sansadan piyada olaraq yola düşdük. Çünki hava çox soyuq olduğu üçün fikirləşdik ki, əgər ata minsək donarıq. Bir tərəfdən də qar yağmağa başladı. Yoldan kənarda qarın qalınlığı bir metrdən çox idi. Yolda gediş-gəliş çox olduğu halda, qarın ayaqlanmasına baxmayaraq, yağmaqda olan qar hərəkəti çox çətinləşdirirdi. Dünənə nisbətən bu gün hava çox soyuqdu və keçidin şərq tərəfindəki çıxışa yaxınlaşdıqca şaxta daha da artırdı. Ara-sıra ata minməyə də məcbur olurduq. Çünki yükümüzün olması və qarın çox olması adamı tez yorur. Qulaqlarımızı, ağzımızı, burnumuzu möhkəm sarımışdıq. Heç kimin bir-birinə bir kəlmə söz deməyə taqəti yox idi. Üzümüzün azacıq açıq qalan yerlərinə dəyən soyuq hava, sanki ülgüc kimi üzümüzü kəsirdi. Qarlı havada gözlərimizə taxdığımız eynəklərimiz nəfəsimizdən tez-tez tərləyirdi.

Bütün qışı çoxlu qarlı dağlar və yaylalar aşdığımız halda, mən bugünkü kimi soyuq görmədim. Yandırıcı soyuq olduğunu bilirdim, bu gün də adamı kəsən soyuğu gördüm. Bəzi gənc zabitlərin qulaqları soyuqdan çat-çat oldu. Əynimizdə qoyun dərisindən kürk olmasına baxmayaraq dağ keçidini piyada keçmək xeyrimizə olar. Ayaq barmaqlarımızın donmasından qorxduğumuz üçün arada bir piyada gedirdik. Krım müharibəsində atamın ayaq barmaqlarının bir neçəsi donmuşdu. Mən balaca olanda, atam ara-sıra barmaqlarının necə donduğundan danışar və donmuş barmaqlarını göstərirdi. Bilmirəm bu qorxumu məndə iz buraxmış, yoxsa Manastırda təqib olunduğumuz zaman donma hadisələrini gözümlə gördüyümün təsirimi beynimdə həkk olunmuşdur. Ayaq barmaqlarım üşüyən kimi, donmağa başladığını zənn edərək tez atdan düşüb piyada gedirdim.

Bu gün dörd saat davam edən bu keçid yolçuluğu bizi əldən saldı. Keçiddən çıxar çıxmaz və hələ Bican kəndinə gəlincə üzümüzə dəyən havanın ılıq olduğunu gördükdə hamımız çaşıb qaldıq. Bəzi adamlar bunun donma əlaməti olduğunu zənn edərək həyəcanlandılar. Lakin həqiqətən havanın xoş olduğunu gördükdə bir-birimizə «keçmiş olsun» dedik və Bicanda ləzzətlə nahar etdik. «Bu kəndə nə üçün Bican adını qoymuşlar» deyə soruşduqda, hamı onun mənasını «Dağ keçidindən keçənlər, buraya halsız bir vəziyyətdə gəldiyi üçün belə adlanır»! deyə izah etdilər.

Yeməyi Doqquzuncu diviziyanın sanitar qatarında yedikdən sonra, rusların qoyub getdikləri silah və maşın parkına, çadırlara baxdıq.

Günortadan sonra saat ikidə atlarımıza minərək şose yol ilə sürətlə Kötür körpüsünə gəldik. Daşdan hörülmüş körpü yaxşı təmir olunmuşdu. Bu körpünün bir az cənubunda başqa bir taxta körpü də var. Bu körpünün hər iki tərəfində rusların yeraltı sığınacaqları qalır. Bu yerlər çox gözəl bir yaylaqdır. Yazda və yayda bura çox gözəl və səfalı olur. Sansa keçidinin dondurucu və kəsici soyuğundan uzaqlaşdıqdan sonra, bu yaylaq qarla örtülsə də adama xoş gəlir.

Tuzla dərəsinin keçidinə çatarkən axşam düşdü. Qar çox tapdalandığı üçün yol nərdivan vəziyyətinə düşmüşdü və heyvanlar üçün çox təhlükəli idi, arabaların irəliləmək imkanı yox idi. Qarda irəliləməyimiz çox çətin və asta olurdu. Mamahatuna ancaq saat 8-də çata bildik. 17-ci polk da buradadır və sabah Hacıbayram yaylağına gedəcək.

Yüngül arabaların da keçməsi üçün yollar əlverişsiz olduğundan hələlik obüs (mərmi atan qısa lüləli top) və səhra batalyonunun Ərzincandan irəli göndərilməyəcəyini orduya bildirdim. Mənim fikrimi münasib bildilər.

Bu gün cəbhənin vəziyyəti belə idi: «Ermənilər bu gün, martın 5-də Ərzurumun 17 km-ə qədər cənub-qərbində yerləşən Sakalıkəsik kəndini işğal etdilər. Buradakı toqquşmada ermənilərdən 10 nəfər ölən var və bir rus zabitiylə bir erməni əsir

alındı. Rus zabiti, Ərzurumda Birinci və Dördüncü erməni polklarının olduğunu və ayrıca Fem, Ərzincan və Bayburtdan qaçan, sayı 1000 nəfərdən ibarət hərbi qüvvənin də buraya gəldiyini söyləyirmiş».

Martın 6-da Mamahatunda qaldıq. Buradakı rusların istehkam parkında 25.000-ə qədər külüng, toxa, kürək, linq, tikanlı məftil, teleqraf teli və s. kommunikasiya ləvazimatı var idi. Anbarlardakı çoxlu ət konserviləri də ələ keçmişdi. Ermənilər döyüş sürsatı anbarının bir hissəsini yandırmışdılarsa da, qalan hissəsi yanmamışdı. Ermənilər radio-teleqraf stansiyasını tamamilə dağıtmışdılar.

Burada ermənilərin tük ürpərdəcək dəhşətli cinayətləri qarşısında iztirablar çəkdik. 8 metrə qədər dərinliyində bir quyu qazmış və quyunun içi çoluq, çocuq, hər yaşdan və hər cinsdən olan türk ölüləri ilə dolu. Onları vurmuş, süngülənmiş, dərilərini soymuşlar və bu quyuya doldurmuşlar. Mamahatundan yalnız bir evin adamları dağlara qaçıb canlarını qurtara bilmişlər. Bu gördüyüm mənzərə qarşısında indiyə qədər iştirak etdiyim ən qanlı müharibələrdə, istər Çanaqqalada və istərsə də İraq cəbhəsində belə iztirab çəkməmişdim. Doğrusu irəliyə doğru hərəkət etmək, qaçmaq və biçarə vətəndaşlarımızı vəhşi heyvanların əlindən qurtarmaq üçün qəti qərara gəlmişdim. Bu mənzərəyə baxanda ağlım çaşdı, ürəyim odlandı. İxtiyarımdakı qüvvələrlə bir an əvvəl Ərzurumda ilk intiqamı almaq, sonra da Karsa, Gümrüyə getmək, Ermənistanın ürəyinə bir ox kimi saplanmaq üçün hər şeyi nəzərə aldım. Bütün sürətimlə korpusumu irəli aparacağam. Qoy ordu komandanlığının cəbhə üçün təyin etdiyi məhdudiyyət xəttləri də korpusumun cəbhəsinə qoşularaq daha da irəli getsin və sərhəddi genişlənsin.

Gördüyüm bu dəhşətli mənzərəni Ordu komandanlığına da çatdırdım. Bu mənzərəni quyunun başında öz gözlərilə görmək daha təsirli idi, nəinki eşitmək.

Erməni gizli təşkilatının üzvləri, illərdən bəri zəhərlənmiş fikirlərlə yanlış yoldan uzaqlaşa bilmirdilər. Mamahatunda qazdıqları və içini məsum insanların qanları və cəsədləri ilə doldurduqları bu «şəhidlər quyusu», erməni varlığı üçün çox

təhlükəli bir xatirə idi. Bu mənzərəni görən əsgərlərimiz, zabitlərimiz, komandanlarımız yumruqlarını sıxaraq «intiqam» deyə qışqırıb cəbhəyə tələsirdi. Bilmirəm ermənilər nəyə güvənirdilər? Rus ordusu içində yetişən komanda və yüksək vəzifəli zabit heyətlərinəmi? Müstəqil erməni qoşun birliklərinin varlığınamı? Ərzurum qalasınamı? Kars qalasınamı? Daha arxadakı Gümrü qalasınamı? Lakin onlar ruhlarımızı üsyana qaldırmışlar, beynimizi, ürəyimizi alovlandırmışdılar. Heç bir qüvvə, heç bir qala sıxılan yumruqlarımızın zərbəsi altında uzun zaman dayana bilməyəcəkdi. Erməni quldur dəstələri, erməni ordusunun deyil, erməni millətinin varlığına da suiqəsd etmiş oldular. Bu həqiqəti imkan düşən kimi Ərzurumdakı erməni rəislərinə yazmağı da düşündüm. Soyqırımların və sonra da qarşıdakı intiqamların qarşısını almaq üçün, bəlkə bunun təsiri olardı.

Bugünkü hadislər cəbhədəki fəaliyyəti artırmışdı. «Martın 6-da ermənilər, Karasuyun şimalında Titrikdəki II Qafqaz korpusu tərəfindən ixtiyarıma verilmiş nizamlı süvari polkuna bir neçə dəfə top atəşi açdıqdan sonra süvarimizi oradan çəkilməyə məcbur etmiş və bu kəndi işğal etmişdilər». «Ayrıca 200 piyada, 60 süvari, 2 pulemyot və iki topdan ibarət bir erməni hərbi qüvvəsi şose boyunca Evrəni-Tevrüzcük keşikçi xəttimizə hücum etmişsə də geri qovulmuşdur.»

«Hələ cənubda Sakalıkəsikdəki ermənilər milislərimiz tərəfindən qovularaq oranı azad etmişlərsə də, ermənilər əlavə qüvvə alaraq Sakalıkəsiyi və cənubundakı Kümbəti işğal etdilər».

Martın 7-də səhər saat $8^{30}$-da Mamahatundan hərəkət edərək günortadan sonra $4^{30}$-da Yeniköyə gəldik və buradakı 9-cu diviziya qərargahı ilə görüşdük. Ruslar şose yolunu yaxşı düzəltmişdilər. Hər yerdə daş yığınları və daş doğrayan maşın, matorlu-matorsuz aparatlar, kompressor qurğuları var idi. Ayrıca səhra dəmiryolu da açmış, körpüləri tikib tamamlamış, Yeniköyə yaxın yerdə dəmiryol stansiyası da tikmişlər. Rusların Ərzincanda və buralarda gördüyüm hazırlıqları, dəhşətli bir Anadolu istilasına hazırlaşdıqlarından xəbər verirdi.

Bu gün martın 7-də cəbhədəki hadisələr daha da fəallaşdı.

«Titrikdəki ermənilər qovuldu».

«300 nəfərdən ibarət erməni qüvvəsi bir pulemyotla Haydariyə hücum edib buranı işğal etsələr də, 84-cü batalyon gəlincə erməniləri qovdu. (Bu batalyon nömrələri ilk zamanlar polk nömrələri, polk nömrələri də yenə o zamanın diviziya nömrələri olub; əsgərləri bölüşdürülüb diviziya polk, polklar da batalyona çevrildiyi vaxt nömrələri eynilə saxlanılmışdır).

«Bugünkü müşahidələrə görə Erçik-Salasor-Karaz xəttində və Ilıcanın qərbindəki təpədə istehkam qurduqları və 100,200 və 400-ə qədər mövcud olan bəzi hərbi dəstələrin hərəkatı göründü. Ümumi görünüşdə Karasuyun şimalında Ercik-Karaz xəttində 800-1000, Karasuyun cənubundakı İlıca və onun qərbində də 800-ə qədər qüvvənin olması təxmin olundu. Hər iki qrupun bir neçə pulemyot və dağ topları da var.

Sakalıkəsik və Təkkədərəsində də 400-ə qədər erməni qüvvələri var ki, bu da hamısı birlikdə hərbi hissələrimizlə təmas edən 2500-ə qədər qüvvə deməkdir.

Tikanlı məftillərin arxasında və Ərzurum şəhərinin içində nə olub olmadığından hələ xəbərimiz yoxdur. Bunun üçün əvvəlcə qarşılaşdığımız erməni qüvvələrinə bir zərbə vurulmasını, sonra Ərzurumun istehkam mövqelərinə hücum etməyi qərara aldım və bu məsələyə görə 9-cu diviziya komandanı Rüşdü Bəyə əmr verdim. Verdiyim əmrin ikinci və üçüncü maddələri mənim düşüncə və qərarımı əks etdirdiyinə görə eynilə aşağıda yazıram:

2) Martın 10-u 1334 cü il (1918) səhər Təkkədərəsi-Süngəriç-Pulur-Ilıca-Karaz xəttindən Ərzuruma qarşı aparılacaq hücumlu kəşfiyyat həmin xəttdəki erməni quldurlarına qarşı dan yeri ağarmamış hücumla başlanacaqdır. Buna görə əməliyyatda iştirak edəcək hərbi hissələr üçün əmr verilmiş, həmin hərbi hissə 8 km. bu xəttə yaxınlaşdırılacaq, 9 mart günü onlar istirahət edəcək və xətt kəşfiyyatla işğal olunacaqdır».

3) –Karazda 400 nəfərdən ibarət erməni quldurları göründüyünə görə, bu quldurların Ilıcaya hücum edəcək əsgərlə-

rimizə qarşı heç bir hərakat həyata keçirə bilməmələri və onların bu hərəkatını yatırtmaq üçün o istiqamətə göndəriləcək süvari dəstələrdən başqa, əlavə olaraq Əbülhindi-Karaz istiqamətində bir piyada qüvvənin də cəlb olunmasını lazım bildim. 2-ci atıcı batalyonu yeddi gündür dayanmadan hərəkət edərək, ancaq martın 7-də 1334 (1918)-cü ilin axşamı Aşkaləyə çatdığı üçün, bu batalyonun martın 10-da Ərzurumun cənubundakı hərəkatda iştirak etmələrinə imkan verə bilmərəm. Bununla bərabər Ilıcada erməni quldur dəstələri müqavimət göstərərsə, bu quldur dəstələrə qarşı cinahdan piyada dəstələr və topçularla hərəkət etməli, Ilıcada müqavimətə qarşı rast gəlinmədiyi təqdirdə düşmənin əsas xəttinin Karasuyun şimalındakı bölmələrinə hücum etmək və səngərlərə girmək mümkün olsa, səngər boyunca cənub istiqamətinə hücum etməli. Əsas xətt müqavimətini davam etdirsə, quldur dəstələrinin müqavimətini qırmaq üçün 2-ci atıcı batalyonunun da pulemyotçu bölüyü və dağ topçu dəstələrindən birlikdə Karasuyun şimalında istifadə olunması üçün onların irəli yaxınlaşdırılması zəruridir. Hələlik 2-ci atıcı batalyonunun əvəzində Haydaridə olan 84-cü batalyon, Dəli Xalid Bəyin ixtiyarına verilsin.

Dersimlilər əgər Ərzurumla Həsənqalanın əlaqəsini kəsə bilsələr, böyük mükafat verəcəyimi də yazdım. (Lakin bunu yerinə yetirə bilmədilər).

Diviziyaya verdiyim əmri ordu komandanına da bildirdim.

Kavurmaçukurunda ələ keçən bir erməni uşağı Yeniköydə qərargahıma gətirildi. On yaşlarında olan bu uşağın bizim haqqımızda məlumat toplamaq üçün Ərzurumdan göndərildiyini anladım. Müharibədə kəşfiyyat təşkilatının belə tidbirlərə əl atması bütün ölkələrdə mövcuddur.

Mən də bizim ordumuzun mənfəəti üçün, bu uşaqdan istifadə etməyi düşündüm. Buna görə ona yaxşı yemək yedirtdim və onunla yaxşı rəftar etdik. Həmin uşağa çoxlu əsgər, top, pulemyot da göstərtdim. Sonra ona bunu söylədim: «Cəsur uşaq! Sənə, səndən öyrənmək istədiklərindən çox məlumat verərək

Ərzuruma göndərəcəyəm. Bu məktubu qoynuna qoy. Bu məktubu Ərzurumdakı ən yüksək rütbəli erməni komandanına ver və de ki: «Kazım Qarabəkir adında olan bir komandan bunu sənə göndərdi. İki korpus ilə bir neçə gündən sonra türklər Ərzuruma hücum edəcəklər. Türklərin hücumundan əvvəl Ərzurumdan çəkilib getsən yaxşı olar».

Bu sözləri uşağa bir neçə dəfə təkrar etdirdim. Uşağa verdiyim məktubun məzmunu belə idi[3]

**7. 3.1334. (1918)**

### Ərzurumdakı Erməni Ordu Komandanına

«Rusiya ilə sülh müqaviləsi bağlandı. Ruslar bu sülh müqaviləsinə əsasən 93-cü il[*] müharibəsində zəbt etdikləri ərazimiz daxil olmaqla, bütün ərazilərimizi boşaltmağı öhdələrinə götürdülər və hərbi bölmələrini tamamilə evakuasiya edərək çəkildilər. Digər tərəfdən bir çox hərbi hissələrimiz Batumu tərk etməkdədir. Onlar Karsa doğru hərəkət edəcəklər. Biz rus əsirlərini, ruslar da bizim əsirlərimizi qaytarmağa başlayıb. Zəmanətlə əsirləri bir-birimizə verdik. Rusların boşaltdıqları ərazini təslim almaq üçün korpuslarımız Ərzurum ətrafında toplandı. Bu hərəkatımız zamanı qarşımıza çıxacaq hər silahlı şübhəsiz qiyamçı kimi qiymətləndiriləcək və haqqında qanunun tələb etdiyi ən ağır cəza tətbiq ediləcəkdir.

Ərzurumda, mədəniyyət və insaniyyətə tamamilə zidd olan hərəkətlərdən əl çəkib, nəhayət martın 9-u 1334-cü ilin (1918) axşamına kimi Ərzurumu, sonra da bütün ərazimizi tərk edərək Qafqaza çəkilməyiniz haqda xəbərdarlıq edirəm. Bu xəbərdarlığıma müvafiq olaraq hərəkət etmədiyiniz təqdirdə,

[3] Ərzurumda nəşr etdiyimiz II Ərzurum Qalası topçu polkunun "Harp Ceridesinde" bu məktubdan bəhs edilmişdir.

[*] 93-cü il müharibəsi-Miladi 1877-1878-ci illərdə Rus-Osmanlı müharibəsi nəzərdə tutulur - E.X.

töküləcək qanların ən böyük məsuliyyəti tamamilə sizin üzərinizdə qalacaq.»

**Korpuslar komandanı**
**KAZIM QARABƏKİR**

Zəif olan düşmənə belə məktubların çox böyük üzücü təsiri olduğunu, hərbi tarixdən bir çoxunun misalları ilə bildiyim kimi, Ədirnədə bolqarların qala komandanı Şükrü Paşaya göndərdikləri məktubların necə təsir etdiyinə də şəxsən şahid olmuşdum. Atəşkəs müqaviləsi komissiyasının rəisi kimi mənə verdikləri məktubu açıb oxuduqdan sonra, altına da sərt bir şəkildə cavab yazaraq geri qaytarmışdım. Lakin sonra başqa vasitə ilə daha ağır məzmunda, mənəviyyatı ağrıdan bir məktub göndərməyə fürsət tapmışlar. Kırcaali komandası komandanı Yavər Paşaya da belə bir məktubla təsir etdiklərini yoldaşlarımdan eşitmişdim.

İndi mən də bu psixoloji silahdan istifadə edirdim. Ermənі uşağını bir ata mindirib, şose yolu boyunca bir çox hərbi hissələrimizin arasından keçirtdirərək sağ salamat Ərzuruma göndərdim. Yollarda bəzi hərbi hissələrlə əlaqə yaradılmasını və erməni uşağına eşitdirəcək şəkildə: Birinci və İkinci Qafqaz korpuslarının Ərzuruma hücum edəcəyi barədə bir çox söhbətlər aparılmasını da təmin etdim.

Martın 8-də ordudan gələn cavabda, verilən ilk əmr təkrar olunurdu: «Ediləcək hücum kəşfiyyatı üçün ordudan verilən bu əmr, həyata keçirilməsi tələb olunan bu məlumatın əsas göstərilərək və onun məzmununa uyğun olaraq hərbi hissələrin yer dəyişməsinə lüzum görülmədiyi, süvari polkunun Karasuyun şimalından piyada, topçu və pulemyotların əmrdə aydın göstərildiyi kimi Ilıca-Ərzurum şosesinin cənubundan hərəkət etmələri…».

Karasuyun şimal məntəqəsinə hakim olan ermənilərin vəziyyətinə görə, əmrdə verilən planla hücum etmək təhlükəli olardı. Çünki ermənilər şoseni ələ keçirmiş bir vəziyyətdə sol tərəfimizdən bizi mühasirəyə ala bilərdilər. Bunun üçün bu gün

axşama qədər vəziyyətin necə olacağını nəzərə alaraq, orduya yeni bir təklif etməyi qərara aldım.

Bu gün padşahın salamı və korpusumuzun bu hərəkatına görə şahanə məmnun olması, ordumuz tərəfindən muştuluqlandı.

Bizim bir təyyarəmiz Ərzurum üzərində kəşfiyyat uçuşları etdi: Ordunun ixtiyarındakı həmin təyyarə bu məlumatları verdi; «Məftil çəpərlərin arxasındakı atıcı səngərlərinin boşalmış olduqlarını ehtimal edir, lakin buralarda hərbi qüvvə görə bilmir».

Bugünkü cəbhənin vəziyyəti: 300-ə qədər erməni piyadası yanlarında iki pulemyot olduğu halda, Sakalıkəsikdən Haydariyə hücum edərək buranı işğal etdilərsə də, 84-cü batalyonun gəlib yetişməsilə Haydari geri alındı.

150 erməni piyadası və 20-ə qədər süvarisi iki dağ topunun atəşi ilə Erinqarda olan piyada bölüyümüzə hücum etdisə də, bölüyə əlavə yardım gəldi və eyni zamanda Poççikdə olan iki piyada və iki pulemyotdan ibarət hərbi qüvvəmiz də əks hücuma keçərək ermənilərin hücumunun qarşısını almışdır. 300 erməni piyadasının Erçiki müdafiə etdiyi görülmüşdür. Ermənilər 40 nəfər itki verdi. II Qafqaz korpusunun 13-cü polkundan 2 zabit və 5 əsgər yaralanmış, bir əsgərimiz də şəhid olmuşdur. 134 dağ topu mərmisi, 22900 piyada və pulemyot mərmisi sərf olundu».

Vəziyyət ciddiləşmişdi: Ermənilərin Karasuyun şimalında da möhkəm müdafiə olunacaqları, sonra vəziyyətlə əlaqədar olaraq məftil çəpərlərin arxasına çəkiləcəkləri məlum olurdu. Bunun üçün 9-cu diviziya qərargahını irəli apardım. Ümumi hərəkatı da şəxsən özüm idarə etməyi qərara aldım. Hərəkatın yolunu belə qərarlaşdırdım: 9-cu diviziyanın bütün bölmələri şose yol boyunca Ilıca istiqamətindən, II Qafqaz korpusunun 5-ci diviziyası da Karasuyun şimalındakı məntəqədən irəliləyəcəkdilər. İki diviziya ilə erməniləri tikanlı məftillərdən kənarda tutub əzmək üçün, mühüm bir fürsəti əldən verməməliyik. Bunun üçün diviziya və ordu komandanlarına, 8 mart, gecənin gec vaxtı aşağıdakı teleqraf və şifrələri yazdım:

**9 - cu Qafqaz Diviziyası Komandanlığına**

**Teleqraf** **Yeniköy**
**8/3/1334. (1918)**

1) - Ərzurumun təchiz edilmiş mövqelərinə qarşı 10/3/1334-cü ildə (1918) yerinə yetirilməsi nəzərdə tutulan hücum kəşfiyyatı bu ətrafa gələn bütün qüvvələrin iştirakı ilə ermənilərin müqavimətini hal-hazırda yerləşdikləri xətdə tamamilə məhv etmək və məftil çəpər arxasında ikinci bir müqavimətə məruz qalmamaq üçün nəzərdə tutulmuş gündə icra olunmayacaqdır.

2) - Keçəcək bu müddət ərzində hərbi hissələrin tam istirahəti təmin edilməklə bərabər, erməni quldurlarının qüvvəsini və döyüş mövqeyini layiqilə tədqiq etmək üçün münasib məhəllələrdə batareya binoklla dəqiq nəzarət edən zabitləri yerləşdirərək hər görüləcək iş, hətta kiçik bir hərəkət qeyd olunmaqla müfəssəl şəkildə mənə məlumat çatdırılsın.

**Birinci Qafqaz korpusu komandanı**
**polkovnik Kazım Qarabəkir**

Martın 8-dən 9-na keçən gecə bu teleqrama, 9-cu diviziya komandanı Rüşdü Bəyə çatdırıldı. Burada: Ərzurum qalası, Ərzurum istehkam mövqeyi, erməni ordusu kimi sözlərin yerinə: Ərzurum hazırlanmış mövqeyi, erməni qulduru sözlərini işlədərək, əsgərlərimə bir qalaya və bir orduya hücumun verəcəyi həyəcanı, əsgərimə hiss etdirmək istəmədim. Lazım olacaq tədbirləri, şəxsən hərəkatı yaxından idarə etməklə özüm aparacaqdım.

Vəhib Paşaya yazdığım şifrə də eynilə belədir:

**Üçüncü Ordu Komandanlığına**

Şifrə **Yeniköy**
**8.3.1334. (1918)**

1) –Yerinə yetirilməsi qərarlaşdırılmış hücum kəşfiyyatı üçün lazım olan hərbi hissələr hazır vəziyyətdədir. Lakin bu qənaətə

gəlirəm ki, ermənilərin istehkam mövqeyindən kənara çıxaraq, qüvvələrinin böyük qismi ilə açıq ərazidə müharibə etməyi nəzərə aldıqlarından, görünür ki, bizim üçün tam istifadə ediləcək bir fürsət yaranmışdır. Buna görə bu gün 8,3 1334 (1918-cü il) Söyüdlü ətrafına getmiş 29-cu Qafqaz rotasından istifadə etmək və Beşinci diviziyanin Aşkalədə olan hərbi hissələrini də onlara yaxınlaşdıraraq, iki diviziya ilə bu açıq ərazidə müharibə etməyə cəsarət edən qulduru əzmək üçün hücum edərək, artıq Ərzurum səngərlərində müdafiəyə imkan verməmək mümkün ola biləcəyi üçün, Beşinci diviziyani tamamilə korpus ixtiyarına vermək və bu hazırlıq üçün keçəcək iki gün ərzində hərəkatı təxirə salmağa icazə verməyinizi xahiş edirəm.

2) – Bu xahişimin əvəzində yüksək rütbəlilərin başqa cavabı olmadığı təqdirdə, əvvəlki tərtib olunmuş plan üzrə hazır vəziyyətə gətirilmiş qüvvələrə 11/3/1334-cü il (1918) hərəkətə keçmək üçün Ordu Komandanlığının fikirlərini gözləyəcəyimi ərz edirəm.

**Birinci Qafqaz Korpusu komandanı,**
**polkovnik Kazım Qarabəkir**

Bu şifrə telefonla, Suşehrində olan ordu komandanlığına gecə yarısından sonra saat $12^{45}$-də çatdırılmışdı. Ordudan gələcək cavabı narahatlıqla gözlədik. Martın 10-da səhər gələn və təklifimi qəbul etməyən cavabı yazmadan əvvəl, öz düşüncələrimi və 9 mart hadisələrini qeyd edirəm.

Balkan müharibəsində mən Ədirnə istehkam mövqeyində Üçüncü Piyada Qoşun diviziyasinin qərargah rəisi idim. diviziyamiz ümumi ehtiyatda olduğu üçün, hər həftə bir cəbhədən hücum edər və düşmənin yaxınlaşmasına mane olardıq. Qarşıdakı mövqelərdən yaralıları da xilas edirdik. Nəhayət elə bir vəziyyət yarandı ki, artıq bütün qala topçusunun himayəsindən məhrum olub, bütün irəlidəki mövqeləri tərk etməklə əsl müdafiə xəttinə çəkilmək lazım gəldi. Düşmənin bizi mühasirəyə almaq üçün topçusunu yerləşdirməsi, istehkam işlərini tamamlaması və qala

ətrafına çox hazırlıqlı qüvvə gətirməsi, bizim müdafiə qüvvələrimizinsə beş aydan bəri verdikləri itkilər nəticəsində zəifləməsi və ərzaq vəziyyətimizin də pis olması kimi səbəblər artıq bizi məftil çəpərin arxasında düşmənin hücumuna qarşı durmağa məcbur edirdi. Yalnız avanpostlarımızı məftil çəpərlərin qarşısına gətirmək lazım gəlirdi. Xüsusilə şərq cəbhəsinin hücumunun qəti olması ehtimalı tam məlum olduqdan sonra, ön cəbhədəki qüvvələrimizin məftil çəpərinə alınmaları üçün etdiyimiz təklifə, qala komandanlığı əhəmiyyət vermədi və bu da qalanın məğlub olmasına səbəb oldu. Düşmənin ön cəbhədəki qüvvələrimizə hücumu və müdafiə qüvvələrinin orada əzilməsi, əsas xətdəki müqaviməti də son dərəcə çətin vəziyyətə qoydu. Başqa sözlə, düşmən əsas xəttə müzəffər addımlarla getdiyi zaman, məftil çəpərlərində müdafiənin çox zəif olduğunu gördü. Ön cəbhəni vuran mühasirə topçusu hücumçu piyadalara asanlıqla yol açdı. Lakin bizim qala topçumuz ön cəbhənin müdafiəsini təmin edə bilmədi.

Ərzurumun istehkam mövqelərini müdafiə etməyə qərar verən ermənilər də, bizim Ədirnədə etdiyimiz bu səhvi təkrar etmişdilər. Doğrudur, biz Ədirnədə beş ay irəlidəki mövqelərimizi müdafiə etmişdik. Lakin əsas məsələ, zamanla müqayisədə deyil, hücumçu qüvvələrin lazımi dərəcədə hücuma keçməsindədir. Cəbhə xəttini açmış, müharibəyə hazırlanmış üstün qüvvələrin məftil çəpərindən kənarda, qala topçusunun himayəsindən uzaqlarda müharibəni qəbul etmək, məğlub olunca qalib gəlmiş qüvvələrlə birlikdə istehkam mövqeyinə girmək deməkdir. Ədirnədə istehkam mövqeyinin komandanı və hərbi qərargahdakıların mənəvi cəhətdən vəziyyətlərinin necə olduğunu yaxından gördüyüm üçün, Ərzurumdakı erməni komanda heyətinin də vəziyyətini başa düşürdüm. Əsas xətdəki döyüş qala komendantlarının əsəblərini gərir. Düşmən uzaqlarda olduğu müddətdə onların daha çox ürəkləri sakit olur. Eynilə təhlükəyə məruz qalan insanın düşüncələri kimi. Halbuki bir çox müharibələrdən alınan dərslərdən nəticə çıxararaq təsdiq olunan

qala nizamnaməsi, qala komendantına çox aydın bir şəkildə öz vəzifəsini xatırladır və ön cəbhəinin, avanpost mövqelərinin və əsas xəttin qiymət və hərbi qüdrətlərini izahla, birindən digərinə çəkilmək zamanlarını açıqca göstərir. Lakin hər sahədə olduğundan daha çox müharibədə insanları yalnız başları deyil, eyni zamanda əsəbləri idarə edir. Bu da insanın təbiətindən asılıdır. Müharibədə düşüncənin hakim olması və bir qədər də nəzəri biliyin tətbiq edilməsi ilə bir nəticə əldə etmək olar.

Ərzurumu müdafiə edəcək erməni komandanının vəziyyəti düzgün qiymətləndirə bilmədiyini, yaxud əsəblərinin çox möhkəm olmadığını tutduqları mövqedən anladım və buna çox sevindim. Çünki açıq ərazidə eyni vəziyyətdə vuruşacaqdım və birlikdə Ərzurum küçələrində döyüşəcəkdik. Ordu komandanına yazdığım təklif bu əsasa söykənirdi. Ordu komandanı Vəhib Paşa da Balkan müharibəsində Yanya qalasının komendantı idi. Hər halda onun da qala müharibələri haqqındakı məlumatı təkcə nəzəriyəyə deyil, həm də əməliyyata söykənirdi. Bunun üçün təklifimi qəbul edəcəyinə ümid edərək çox sevindim.

Martın 9-da qərargahımı Yeniköydən Tazəgülə köçürdüm. Səhər tezdən havanın hərarəti mənfi -2° dərəcə idi. Qar yağırdı və hər tərəf də qarla örtülmüşdü. İki aydan çox bir müddətdən bəri soyuğa və qara o qədər adət etmişdik ki, bugünkü hava bizə bir bahar havası kimi gəlirdi. Həmçinin Ərzurum cəbhəsinə yaxınlaşmaq da bizə zövq verirdi. Üç saat atla 15 km yolu qət edib Karabıyığa gəldik. Yeniköydən buraya qədər dəmiryolu xətti çəkilmişdi. Karabıyıkdan Ərzuruma doğru mükəmməl dəmiryolu xətti uzanır. Yeni adı Kandilli olan Karabıyıkda kiçik bir stansiya var. Burada nahar etdik. Hava xeyli düzəlmişdi və havanın hərarəti 2° idi.

Karabıyıkdakı rus ərzaq anbarları toxunulmaz qalmışdı. İki yüz tondan çox əla növ unu əsgərlərim ləzzətlə yeyəcəklər. Anbarları gəzərkən gördüyüm mənzərə qarşısında aldığım zövqü təsvir edə bilmirəm. Rusların öz əsgərlərini bəslədiyi əla növ un və yüksək keyfiyyətli yem də hamımızın diqqətini çəlb etdi.

Hədsiz dərəcədə qida, ləvazimat və saysız əsgərlər. Lakin böyük məğlubiyyətə də onlar düçar oldular. Əsrlərdən bəri türklüyü məhv etmək arzusu ilə, milyonlarca canlı qüvvə və pul sərf edən Çar Rusiyasının düçar olduğu bu aqibət haqqında qərargahımda öz fəlsəfi fikirlərini söyləyən yoldaşları da dinləmək zövq verəcək bir şeydi. Ərzuruma çatana kimi bizi təmin edəcək bu ərzaq anbarlarında müxtəlif fəlsəfi fikirləri dinləyib qəbul etməkdən təbii bir şey ola bilməzdi. Qərargahdakı yoldaşlarımın bu səmimi və ahəngdar söhbətlərinə mənim də bir dost kimi qoşulmaqdan xoşum gəlirdi. Məndən də nə düşündüyümü soruşan yoldaşlarıma bunu söylədim.

«Ruslar üç bölgədə (Batum, Kars və Ərdahan - E.X.) 40 ildir yaşayırlar. Buralarda isə ancaq üç ilə qədər qaldılar. Güman edirəm ki, şose yollar, dəmiryolu, körpülər və s. kimi abadlıq işləri ilə məşğul olmağı kontraktla onlara tapşırmışdıq. İndi qəti olaraq bu işlərin qəbuluna başlayacağıq. Əgər vəzifələrini lazımi qaydada yerinə yetirmişlərsə də, yol boyunca bu Karabıyık anbarı kimi ərzağımızı, Mamahatun, Ərzincan anbarları kimi bizi ləvazimatla təmin etməmişlərsə Çar hökumətinin saxtakarlığına çox əsəbləşəcəyəm. Lakin keçdiyimiz şose yollar, körpülər, dəmiryolu və bu ərzaq anbarı, bizə daha yaxşı şeylər görəcəyimizə ümid verirdi. Ermənilərin bu anbarları yandırmayaraq Ərzuruma bir zərbə vurmaqla zəbt olunmasını təmin etmələri, həqiqətən hər cür fəlsəfəyə zəmin ola biləcək mahiyyətdədir. Əgər Ərzurumu ümid etdiyim kimi, bir zərbə ilə azad edə biləriksə, filosof yoldaşlarımın söhbətlərinə ləzzətlə qulaq asacağam. Lakin ordudan mənfi bir cavab gəlib, Ərzurumun məhv olunmasına bir seyrci kimi tamaşa edəcəyiksə, o zaman da siz mənə qulaq asarsınız»!

Ehtimal etdiyim bu sonuncu məsələ qərargahımdakı yoldaşlarımın da əhval-ruhiyyəsinə pis təsir etdi və məndən soruşdular: «Belə mənfi bir əmr alsaq, nə edərsiniz? Mən belə cavab verdim: «Şəraitin tələb etdiyi vəziyyətə uyğun hərəkət etmək üçün, hər məsuliyyəti öz üzərimə götürməkdən çəkinmərəm».

Bundan 30 il əvvəl İstanbuldan Van şəhərinə gedərkən keçdiyim yola gəlib çıxmışdım. Lakin o zaman çox kiçik olduğumdan bu yerləri xatırlaya bilmirdim. Ərzurumda başım yarıldığı üçün, içinə yıxıldığım hovuzun olduğu yerlər haqqında canlı xatirələrim vardı. O yerləri görmək böyük arzum idi. Karabıyıkdan dördə 15 dəqiqə işləmiş Tazəgülə gəldik. Karasuyun üzü buz bağladığı üçün üzərindən piyada keçdik. Tazəgül 180 evli bir kənd. Lakin ermənilər çəkilib gedərkən 100-ə qədər evi yandırmış və 30-a qədər də uşaq, qadın və qocanı şəhid etmişdilər. Çox az miqdarda sağ qalan qadın, uşaq və qocalar da müxtəlif yerlərə qaçaraq canlarını qurtarmışdılar.

Zavallı xalq, taqətdən düşmüş bir halda, heç bir şeyləri qalmamış. Ordumuzun tərkibindəki övladları sağ-salamat gəlmişmi deyə, dəli kimi oraya-buraya qaçırlar. Onların hamısını bir yerə yığıb hər birinə bir gümüş məcidiyyə (20 quruş) verdim və dedim ki: «İki üç gündən sonra Ərzuruma gedər, bazardan özünüzə lazım olan xırda-xuruş alarsınız».

Ağlaşmalar, dualar bizi də həyəcanlandırırdı. Bunlara yemək və dərmanla yardım edilməsi üçün də lazım olan adamlara əmr verdim.

Sabahdan başlayaraq, arxa cəbhə Ərzincandakı 36-cı diviziya və korpusun hərbi hissələri, Ərzincana gələcək ordu qərargahının eşelonu üçün gündə on iki ton ərzaq gətirəcək. Ayrıca martın 10-da 440 qutu döyüş sürsatı və martın 10-dan sonra da, hər gün 40 qutu, martın 17-dən sonra isə, gündə 60 qutu döyüş sürsatı gətiriləcək.

Vəziyyəti nəzərə alaraq, 36-cı diviziyadan əlavə bir polku da Karqına qədər irəli apara biləcəyimə görə diviziyaya bunun üçün teleqrafla əmr verdim.

Rəsmi məlumatlarda ingilislərin Fələstin cəbhəsində fəaliyyətləri və Hicaz qiyamçılarının da öz hərəkətlərini bu fəaliyyətlə uyğunlaşdırdıqları bildirilirdi.

Martın 10-da səhər tezdən ordudan gələn şifrəli əmr məni kədərləndirdi. Təklifim qəbul olunmamışdı. Vəziyyəti yaxından

görüb qəti bir qərar vermək üçün qərargahımı Tazəgüldən Alacaköyünə köçürdüm. Ərzurum şəhərini və oradakı istehkamı görə bilmək üçün, bu kəndin şimal-şərqindəki təpələrdən birində bir müşahidə mövqeyi yaratmaq qərarına gəldim. Buradan şəhərə 25 km-lik yol vardı. Erməni hərbi hissələrinin işğal etdiyi mövqelərə də 10 km. yaxınlaşmışdım. Müşahidə mövqeyinə getməmişdən əvvəl kəndi gəzib dolaşdım. Ən müdhiş faciə burada idi. Süngülənmiş və ya yandırılmış cəsədlərin ətrafındakı ağlaşmalar və qışqırıqlar insanın tüklərini ürpərdirdi. Süngülənmiş südəmər uşaqları qucağına almış bəzi analar saçlarını yolurdular. Fikirləşirəm ki, yer üzündə bu qədər faciəli bir səhnə görənlər çox az olar. Biz bu qanlı mənzərənin qarşısında dərd, qəm çəkmiş insanlardanıq. İnsani duyğulardan məhrum olanların heyvanlardan daha vəhşi bir məxluq ola biləcəklərini, burada ibrətlə seyr etdik.

Burada sağ qalanlara bir gümüş məcidiyyə (pul vahidi) paylatdırdım, özlərinə lazım olan şeyləri almalarını söylədim və onlara təsəlli verdim. Qərargahımla birlikdə bir neçə gecə kəndlərində qalacağımı, kəndlinin mənim qonağım olaraq ərzaqla təmin ediləcəyini söylədim.

Müşahidə mövqeyinə çıxmamışdan qabaq, ordudan gələn cavabı bir də yenidən oxudum. Eynilə belədir:

**Birinci Qafqaz Korpusu Komandanlığına**

**Şifrə** **Suşehri**

**C: 8/3/1334 (1918) 9/3/1334. (1918).**

İndiyə kimi aldığım raportlarınızdan və təyyarə kəşfiyyatları haqqında toplanmış məlumatlardan düşmən haqda az-çox bir fikir əldə etdim. Hücum kəşfiyyatının məqsədi, onun başlanğıcı və son nəticəsi haqqında bundan əvvəl bildirdiyimi və izah etdiyimi yaxşı xatırlayıram. Bu məqsədin hər ikisini əldə etməsək də, birincinin icra olunmasından sonra tam hazırlıq görüb, düzgün plan ilə qəti zərbəni vurarıq. Necə ki, siz alilərə

məlumdur: Otuz altı və On birinci diviziyalar bu məqsədlə irəliyə yaxınlaşdırılır. Verdiyim bu qərarın dəyişdirilməsinə bir səbəb görməməklə yanaşı, digər diviziyaların bir yerə toplanmasından əvvəl, Beşinci diviziyanı irəli aparmağı münasib görmürəm. Hücum kəşfiyyatı üçün nəzərdə tutduğum qüvvələr qəti nəticə əldə edə bilməzsə, bu hücum düşmənin qüvvə və vəziyyətini aşkar etməkdən ibarət ola bilər və dörd, beş gün sonra toplanacaq əlavə üç diviziyanın birləşməsilə qəti zərbə vurular.

**Üçüncü Ordu Komandanı**
**VƏHİB PAŞA**

Əmr 10.3.1334 (1918)-cü il saat $6^{45}$də günortadan əvvəl çatmışdır.

Pis bir vəziyyətə düşmüşdüm. Bu bir əmr idi. Lakin əgər bu əmr yerinə yetiriləsi olsa, bu yalnız, hücum kəşfiyyatı edəcək qüvvənin taktiki cəhətdən fəlakətə uğraması ilə bitməyəcək, bütün iki korpus Ərzurum düzənliyində aclıqdan qırılacaqdı. Ordu qərargahı 4-cü diviziyanin Ərzurum qarşısında neçə günə toplana biləcəyini və bu zaman zərfində güvəndiyimiz Karabıyık anbarında ərzaq qalıb qalmadığını və arxa cəbhənin Ərzurum məntəqəsinə qədər bir şey gətirə bilməyəcəyini heç də nəzərə almamışdı. 4-cü və 11-ci diviziyalar bir həftədən tez bizimlə birləşə bilməzdilər. Bu müddət ərzində Karabıyık anbarından ərzaq alan 9-cu və 5-ci diviziyalar və hər iki korpusun hissələri anbardakı ərzağın yarısını yeyəcəklər. İki korpus toplanınca anbarda qalan ərzaq ancaq iki-üç günə kifayət etdiyindən və əgər Ərzurum anbarları ermənilər tərəfindən yandırılarsa və əlimizə heç bir şey keçməzsə, bütün ordu Ərzurumda aclıqdan məhv olacaqdı. Buna xalqın ehtiyatlarını da əlavə etsək, ordu Ərzurumu qurtarmağa deyil, məhv etməyə gəlmiş olacaqdı. Ordu komandanlığı, arxalarda buraxılıb qalan bütün pərakəndələrin və hissələrin irəli aparılmasını gündəlik əmrləriylə də bildirmişdi.

Bu vəziyyət ərzağa ehtiyacı olanların sayını artırır və korpusun gündəlik ehtiyacını 24,5 tona çatdırırdı. Düşmənin

ehtimal olunacaq hərəkətləri haqqında qərargah və komandanlar necə düşünürlərsə, əsgərlərin ərzaq vəziyyəti haqqında da elə düşünməlidirlər. Əks halda ən uğurlu bir hərəkat, ən faciəli bir aqibətlə nəticələnə bilər. Tarixdə Moskva məğlubiyyəti, parlaq bir strateji hərəkatın Napoleon Bonapartı nə vəziyyətə saldığını nağıl kimi oxuyanlar, cəbhə arxasının işlərinə o qədər əhəmiyyət vermirlər. Ənvər Paşa da məşhur Sarıkamış hərəkatını xəritə üzərində parlaq, strateji cəhətdən uğurlu bir hərəkat kimi qəbul etdi. Arxa cəbhənin işləri haqqında nəinki fikirləşdi, o haqda düşünənlərə də qəzəbləndi. Nəticədə aclığın təsirindən bir çox əsgər dondu və yaralılar isə arxaya daşınmadı. Yüksək dərəcəli qüvvələrimiz məğlubiyyətə uğradı, iki qüvvətli korpusumuz məhv oldu. Qarlı dağların başında təkcə ac qalmaq deyil, hətta keyfiyyətsiz qida qəbul etməyin də ən böyük tələfata səbəb olması illərdən bəri cəbhədə təcrübə edilmişdi.

Korpusumun ümumi qüvvəsini və ehtiyacı olan çörək məmulatı, yeyinti və ət məhsulları, heyvanlar üçün lazım olan yem məhsullarının hesab cədvəllərini buraya qeyd edirəm. Bu yolla həm ordu komandanının əmrini yerinə yetirməklə bütün ordunun fəlakətə düçar olmasının səbəbkarı kimi, təbii ki, nəticədə də cavabdeh olacağımı göstərərək, bu əmrin ziddinə şəraitin tələb etdiyi yolla hərəkət etməyə məcbur olduğumu isbat etmiş olacağam, həm də gələcəkdə belə hərəkatlarda komandan və qərargah heyətlərindən komandir və generallar arxa cəbhənin işləri haqqında fikirləşərək lazımi hərəkətlər etmələrini təkrar olaraq yada salmış olacağam.

1)- Qafqaz korpusunun ərzaq cədvəli-Bir gündə: 16382 nəfər əsgər və 5.195 heyvan üçün 24,5 ton yem və ərzaq.

Ordunun arxa cəbhəsi isə bizə martın 10-dan etibarən, Ərzincandan gündə 12 ton ərzaq verə biləcəyini bildirmişdi ki, bunu da Ərzurum məntəqəsinə gətirməyə imkanları yoxdu. Hər iki korpus Karabıyıkda qənimət etdiyimiz ərzaqdan yeyəcəkdi.

İndi martın 10-da baş verən hadisələrə nəzər salaq: Ermənilər işğal etdikləri 30 km-lik bir cəbhənin hər iki cinahlarından hərbi

hissələrimizə hücuma keçdilər. Qərargahımla müşahidə mövqeyini telefon xətti ilə birləşdirdiyim üçün, müşahidə mövqeyindən sağ cinahda olan Xalid Bəyin komandasının yerləşdiyi tərəf görünmədiyi üçün, onlar haqqında telefonla məlumat alırdım. 3 batalyon və 4 dağ topundan ibarət olan Xalid Bəyin komandasını ərzaqla təmin etmək və döyüş sursatı göndərmək qarın çox olmasına görə çətin idi. Əgər o istiqamətə ordunun arzusuna görə, daha çox qüvvə göndərmiş olsaydım, onları ərzaqla təmin etməyə imkanımız olmayacaqdı. Ermənilər buraya 1 dağ topu, 2 pulemyot atəşi altında 600-a qədər piyada ilə hücuma keçdilər.

Lakin əks hücumumuz qarşısında bir zabitlə 39 əsgər itki verdilər, bir pulemyotla, yaralı bir əsgər əsir alındı. Əsirin ifadəsinə görə yaralılar arasında polk komandanlarıyla 2 zabit varmış. Ərzurumda Andranikin komandasında 300 əsgərdən ibarət olan yeddi polk ermənini̇n və 15 pulemyotla yaxşı işlək vəziyyətdə olan 15 topun olduğu, Henegedəki hərbi hissəmizə hücum edən qüvvənin də iki polk olduğunu əsir alınmış erməni öz ifadəsində demişdi.

İki erməni dağ topu Ilıcanın qərbindəki şose üzərindən Ağadir çöllərindəki hərbi hissələrimizə təsirsiz ötüşən on mərmi atdı. Ermənilərin sol cinahımıza qarşı etdikləri hücumları da dəf olundu.

İstər qərargah durbinimlə müşahidə yerindən apardığım müşahidələrimdən və istərsə də mənə gələn raportlardan, ermənilərin əsas zərbə vuracaq qüvvələrinin Ilıca və Karazda (Karasuyun hər iki tərəfində) yerləşdiyi məlum oldu. Martın 10-da axşam mən də şose yol boyunca 9-cu diviziyanin hər üç polku ilə artilleriya qüvvələrimi, martın 11-də səhər hücum etmək üçün toplamışdım. Karasuyun şimalındakı erməni dəstələrinə qarşı ordudan mənim ixtiyarıma verilmiş İkinci Qafqaz Korpusundan On üçüncü polku göndərmişdim. Ən sol cinahımıza da ixtiyarıma verilmiş İkinci Qafqaz Korpusunun 2 bölüklü süvari polkunu göndərdim. Özümün süvari polkumu da mərkəzdə şose yol üzərindəki 9-cu diviziya ilə birləşdirdim. Günorta vaxtı havanın hərarəti + $15^0$ dərəcəyə yüksəldiyindən qarlar əriməyə başladı. Vəziyyətin belə olması bizim hərəkətimizi çətinləşdirirdi. Buna

görə də hücumun şose yolu boyunca edilməsi zərurəti yaranırdı. Yəni ermənilərin vəziyyəti və havanın belə olması artıq hücumu necə etmək lazım olduğunu bizə göstərmişdi.

Martın 10-da günorta vaxtı qəti qərarımı vermişdim. Əlimdəki bütün qüvvələrlə qəti hücumla erməni hissələrini qabağımıza qataraq Ərzurum üzərinə hücuma keçmək. İxtiyarımda 4 piyada polku, iki atıcı batalyonu, iki istehkam bölüyü, 4 süvari bölüyü ki, onların əlində hamısı birlikdə 5000 tüfəng (bunun 332-si eyni zamanda qılınc, 220-si Dersim milisləri üçün), 45 pulemyot, 26 dağ topu var idi.

Martın 10-da günortadan sonra saat 1-də korpus əmrilə, sabahkı hücumun planı haqqında hərbi hissələrimə məlumat verdim və bu hərəkatı Alacadakı müşahidə yerimdən şəxsən özüm idarə edəcəyimi də bildirdim.

Bizi kədərləndirən iki məsələ oldu:

1)- Bu sabah döyüşlərdə sağ və sol cinah komandanlarımız döyüş sürsatını çox sərf etdikləri üçün, İkinci Qafqaz Korpusunun müharibədə iştirak etməyəcək Aşkalə ətrafındakı yerləşən Beşinci diviziyanin, müharibədə işlənən yük arabalarındakı döyüş sürsatının mənim ixtiyarıma verilməsini, həmin diviziya komandanına bildirdimsə də, korpus komandanı tərəfindən icazə verilmədiyi cavabını aldım. Ərzincandan yola saldığım döyüş sursatının mənə xeyri olmayacaqdı. Onları bu diviziyaya verə bilərdim. Lakin olmadı!

2)- Karasuyun cənubundan irəliləyəcək 9-cu diviziyanin döyüş sürsatını çox sərf etməyə imkan verməmək üçün, bu Beşinci diviziyaya başqa bir xahişlə müraciət etdim. O da bundan ibarətdir: Mənim ixtiyarıma verdikləri On Üçüncü Polk Karasu şimalındakı erməni qüvvələrinin öhdəsindən gələ bilməyəcəyi üçün, diviziya başqa bir polkunu da ermənilərə göstərmək yolu ilə bir yürüş dəstəsi halında özünü cəbhəyə yaxınlaşdırsın. Bu sürətlə sağ cinahlarına hücum edəcəyimizi düşünən erməniləri aldadaraq, mərkəzdən süngü hücumlarıyla basqın etməyimizi təmin edək. Buna da eyni cavabı aldım. Korpus komandanları icazə vermirlərmiş.

# ƏRZURUMUN İSTEHKAM MÖVQEYİNƏ HÜCUM

Martın 11-də səhər tezdən mənim əmrimə əsasən, bütün cəbhədən hücumumuz başladı. Mən də qərargahımdakılarla Alacanın şimal-şərqindəki təpədə yerləşən müşahidə mövqeyimə çıxdım. Hava qatı dumanlı və bərk soyuq idi. Qərargahımdakı yoldaşlarım ordu komandanının əmrinin əksinə və onun tərtib etdiyi planın tamamilə ziddinə hərəkət etməyimin nəticəsində bir az narahat idilər. Onları nəşələndirmək üçün, «bu gecə belə bir yuxu gördüm» deyə danışmağa başladım: «Yuxumda Ənvər Paşanı gördüm. Mənə « Karsı da işğal et» dedi. Yalnız «Döyüş sursatının qurtardığını söyləyirlər, bunun üçün nə edək» deyə soruşdu. Mən də cavabında «Əmrinizi böyük məmnuniyyətlə yerinə yetirərəm. Döyüş sursatına gəlincə, bunu düşmənin bizə atdığı mərmi gilizlərindən düzəldərik» dedim. Ənvər Paşa bu cavabımdan çox məmnun qaldı. Bu yuxudan çıxatdığım məna belədir: Ənvər Paşa da mənim kimi hücum etmək istəyir və təkcə Ərzurumu deyil, Karsı da almaq niyyətindədir. Çox ehtimal ki, Vəhib Paşanın hücum kəşfiyyatı qərarını bəyənmədi. Və Ərzuruma qəti hücum etmək əmrini verdi. Bu halda Vəhib Paşanın qəti hücum haqqında əmri də gəlib çatmaq üzrədir. İndi sizə vaxtından qabaq xoş xəbər! Əgər bir maneçilik olub əmr gəlməzsə, həyəcanlanmağa lüzum yox. Uğur qazanacağımıza heç şübhəniz olmasın. Vəziyyət məlumdur. Ermənilər 30 km-lik bir cəbhəyə yayıldı. Cəbhəni tam mərkəzindən qayçı kəsən kimi kəsib Ərzuruma girəcəyik. Mində bir ehtimal ilə qalib gələ bilməzsəm həyatımı qurban verərəm. Haydı, indi iş başına!

Döyüş sursatı cəhətindən vəziyyətimiz belə idi: Hər tüfəng üçün 211, pulemyot üçün 12.000, sürətli dağ topu üçün 140, güclü dağ topu üçün 117 güllə vardı.

İrəli yürüşlərdə ərzaq məsələsini necə nəzərə almaq lazımdırsa, bir hücum üçün döyüş sürsatı məsələsini də nəzərə alaraq qərar vermək bir komandan üçün unudulmaması vacib olan işlərdəndir. Qərargahın bu işlərə dair məsuliyyəti çox

böyükdür. Soruşmasalar da, daima bu işlərdə tamamilə həqiqətə uyğun olmaq şərtilə, komandanlarını qabaqcadan xəbərdar etmələri əsas vəzifələridir.

Mən də diviziyadan orduya qədər müharibə meydanlarında hər böyük birliyin qərargah başçısı vəzifəsini yerinə yetirdiyimə görə, ərzaq və döyüş sursatı məsələləri ilə əlaqədar olan işləri təkcə qərargahdakılarımın öhdəsinə qoymayaraq, hər günkü vəziyyət haqqında öz cib dəftərimə qeyd edir və qərarlarımı vermədən əvvəl bu amilləri nəzərə alıram.

Buna görə də, Ərzurumdakı ermənilərə hücum məsələsində ərzaq ilə yanaşı, döyüş sursatı ilə təmin olunmaq sahəsinə də çox həssas yanaşdım. Əlimdəki döyüş sursatı çox az miqdarda idi. Belə olduğu halda müharibənin uzanması bizim üçün təhlükəli ola bilərdi. İşi tez yerinə yetirmək lazım idi. Buna görə də hərəkatı müşahidə mövqeyimdən durbinlə müşahidə edir, izləyir və idarə etməyə məcbur idim. İndii hərəkatı izləyək:

Martın 11-də səhər tezdən gün doğmadan hərəkat başladı. Saat 6-da Ilıcanın 500 m qərbindən erməni postlarından atəş açıldısa da, 15 dəqiqədən sonra dəf edildilər. Nəzarətim altında olan plana uyğun olaraq Ilıca cənubdan, cəbhə tərəfdən və Ağakörpüsünün şimalından sıxışdırıldı. Burada saat 8-ə kimi silahlı atışma davam etdi.

Karasuyun şimalında ermənilərin Ebülhindi-Salasor arasında öz mövqelərini möhkəmləndirdiyi hiss olunurdu. Bu yer mənim yerləşdiyim Alaca müşahidə məntəqəsindən 8 km. uzaqda yerləşir. Ermənilərin daha çox qüvvətli olduğu yer Ilıca isə 10 km uzaqdadır. Saat 8-də Ilıcanı hərbi hissələrimiz zəbt etdi. Ermənilər burada 14 əsgər itki verdi və bir pulemyot qoyaraq çəkildilər.

Saat 9-da Karasuyun şimalındakı On Üçüncü Polk üzərinə hücum etmək əmri verdim. Hava artıq işıqlanmağa başladı. $10^{15}$-də Öznü körpüsü əsgərlərimiz tərəfindən işğal olundu. Karasuyun şimalındakı erməni hərbi hissələrinin dəstə-dəstə çəkilməyə başladığını gördük.

Ilıcanın cənub qərbindəki təpələrdə mövqe tutmuş topçumuzun və onlardan öndə yerləşən pulemyotçularımızın güclü atəşləri altında 9-cu diviziyanin piyadaları irəli atıldılar. Qarın çoxluğu hərəkəti çox çətinləşdirirdi. Lakin şose yolu boyunca təmir üçün, yolun hər iki tərəfinə topa-topa yığılmış daşlar buradan irəliləyən hərbi hissələrimizin işinə çox yarıyırdı.

Səhər saat 11-də Yarımca kəndini 29-ci Polk zəbt etdi. Buradan Ərzurum şəhərinə 8 km-lik məsafə var idi. Kirəmitlik istehkamındakı düşmən topçusu (Rus topçusu olduğunu Ərzurumu aldıqdan sonra öyrəndik) hərbi hissələrimizi vura bilərdi. Erməni hissələri Yarımcanın cənub məntəqəsindən Süngəriç təpəsində və şimal məntəqəsindəki Gəz kəndində vuruşurdular. Gəz məntəqəsi bizdən 12 km uzaqda yerləşdiyindən, 12 dəfə böyük göstərən iki tərəfli durbinimlə buradakı hərəkatı sanki bir kilometr məsafədə olduğu kimi yaxından izləyirdim. Ilıcanı zəbt edən 17-ci Polkla 2-ci atıcı Batalyonu güclü bir müdafiə cəbhəsi ilə rastlaşdılar. Lakin sonda ermənilərin çox möhkəm yerləşdikləri Gəz kəndini tərk edərək Ərzurum istiqamətinə qaçdıqları göründü. Günortadan sonra $1^{15}$-də Gəz kəndini hücumçu dəstəmiz zəbt etdi. Düşmən burada böyük itkilər verdi: $12^{30}$- da piyadaların və pulemyotların atəş səslərinin gəldiyi sağ cinahımızdan da qələbə xəbərləri gəldi.

Sağ cinahımızdakı Xalid Bəy komandası da Kalaylı Dərəsinin şimalında və Süngəriç Təpəsindəki erməni hərbi hissələrini mövqe dəyişmələri ilə məğlub edərək 100 nəfər əsgərini öldürmüş, iki topla bir çox silah və mal-qaranı qənimət götürmüşlər.

Karasuyun şimalındakı 13- cü Polka öz hücumunu sürətləndirməyi əmr etdim. Bu polkun hərəkət etməsi çox çətin idi. Telefonla polk komandanının zəhmətini təqdir etdim. O da qarın çoxluğundan hərəkət etməyin çox ağır olduğunu, telefon əlaqəsi saxlamağın da çətinləşdiyini bildirdi. Bu çətinlikləri əvvəlcədən təxmin etdiyim üçün də həmin polkun mənsub olduğu 5-ci diviziya qərargahının bu hərəkatı idarə etməsini istəmişdim. Mənim ixtiyarıma verilməyən bu diviziya qərargahı və hissələri

arxamızdakı binalarda yerləşmiş və rahatca orada dincəlirdilər. Bu diviziyaya mənsub olan On Üçüncü Polk ilə süvari polkunun cəbhəsi 12 km olduğundan, polk komandanının əlində cəbhəsinin əlaqəsini təmin edəcək vasitəsi kafi deyildi. Hərçənd ki, ordu komandanım Karasuyun şimalında ancaq süvarilərin qalmasını, bütün piyada və topçuların cənuba göndərilməsini əmr etmişdi. Lakin bu cəbhədəki erməni piyada və topçu qüvvələri sol tərəfimizdə təhlükə yaratdığından, ordunun bu əmrini yerinə yetirməyimiz bütün hərəkatımı iflic etdi.

Əsas qəti nəticəni 9-cu diviziya şose yolu boyunca əldə edəcəkdi. Buna görə də mən ən çox 9-cu diviziyanin hərəkatı ilə məşğul olurdum. Qərargahımdan kapitan Tələt Bəyi, rabitə zabiti olaraq diviziya komandanı Rüşdü Bəyin yanına göndərdim. Müşahidə postumda mən, qərargah rəisim Cavid Bəy və hərəkat şöbəsinin müdiri Avni Bəy, növbə ilə durbinin başından ayrılmayaraq, hərəkatı addım-addım izləyirdik. Bəzən telefonlar xarab olurdu, bəzən də vəziyyət haqqında mənə tabe olan komandanlarım məndən daha gec məlumat alırdılar. Çünki bizim yerimiz onların yerləşdiyi yerdən yüksək olduğu üçün bəzi hərəkətlər onların gözündən yayındığı halda biz müşahidə edə bilirdik. Necə ki, bir vaxt Ərzurumdan şose yolunu müşahidə edərkən, böyük bir yürüş dəstəsinin Gəz istiqamətinə irəlilədiyini görərək cəbhəyə xəbər verdik və top atəşi altında bu erməni dəstəsini dağıtdıq, onlar böyük itkilər verərək geri qaçdılar.

# ORDU KOMANDANI İLƏ TELEFON ƏLAQƏSİ, ÇOX ÇƏTİN BİR VƏZİYYƏT

Cəbhədən 9-cu diviziya komandanı irəliləməyə imkan olmadığını və erməni qüvvələrinin bizə nisbətən üstün olduğunu bildirdiyi vaxt, ordu qərargahı ilə telefon əlaqəsi yarandı. Ərzincana gəlmiş Vəhib Paşa məndən vəziyyəti soruşdu. Ermənilərin «4000 piyada və süvari, 8 topa» qədər qüvvələri olduğunu, (sonra 6000 əsgərlə, işlək vəziyyətdə 24 topları olduğunu martın 14-də Ərzurumda öyrəndik), hücumçu qüvvələrimizin irəliləməkdə olduğunu söylədim.

Vəhib Paşa planlarım haqda soruşdu. Mən bunlar haqqında danışarkən o hirsləndi və qışqırmağa başladı. «Bu planla məqsədə nail olmaq olmaz. Əsgərlərin böyük bir qismini nə üçün şose yolu boyunca göndərməyi planlaşdırdın? Bu qüvvələr sağ cinahda olacaqdı. Piyada qüvvələrini nə üçün Karasuyun şimalında qoydunuz?»

Cavabında: «Qarın çoxluğundan sağ cinahdakı zəif bir komandanın ərzaqla təmin olmasının çətinliyini, Karasuyun şimalında qüvvətli erməni hərbi hissələri gördüyüm üçün, oraya bir polk qüvvə ayırmaq məcburiyyətində olduğumu, şose yolu boyunca planlaşdırdığım əsas qüvvənin bu gecə davamlı hücumla Ərzurumu zəbt edəcəyi qənaətində olduğumu» deyərək izah etdim.

Ordu komandanım bu izahatımdan razı qalmadı və acıqlı bir səslə: «Əmrlərim yerinə yetirilməmişdir. Təhlükəli bir vəziyyət yaranmışdır. Bu planla Ərzurumu ala bilməzsən» – deyə danlamağa başladı. Halbuki o, Ərzincanda, yəni Ərzurumdan 150 km uzaqda idi. Hadisələr mənim durbinimlə müşahidə olunur və həmin vəziyyətə uyğun da qərar verilirdi. Telefonla belə əlaqə yaratmaq çox ədalətsizdi.

Cəbhə telefonu ilə irəli hərəkət etməyə imkan olmadığı xəbəri verilərkən, digər tərəfdən də ordu ilə əlaqə telefonunun bu cansıxıcı danışığı, sanki məni iki od arasında qalmış bir vəziyyətə saldı. Dərhal yavərlərimə tapşıraraq, ordu ilə əlaqə telefonunu

kəsdirdim. Əsas məsələ döyüşü istiqamətləndirmək və idarə etmək idi. Cəbhədəki vəziyyəti tənzimləmək və komandanların əhval-ruhiyyəsini yüksəltməyə başladım. Vəziyyətimi düzəltdikdən sonra ordu komandanına xoş xəbərlər verə bilərdim.

Xüsusilə 9-cu diviziya komandanı Rüşdü Bəyi ruhlandırdım. Bu diviziyanın qüvvətli bir zərbəsi ilə Ərzurumu ala biləcəkdim.

Erməni qüvvələrinin hər tərəfdən Ərzuruma doğru çəkilməyə başladıqlarını görərək sevindik. Ermənilər məftil çəpərlərinin müdafiəsini zəif piyada qüvvələrə tapşırdılar.

Kirəmitlik istehkamı, Harputqapısı və İstanbulqapısı tərəflərindəki döyüşdə beş topdan istifadə edilir, Karasuyun şimalındakı ermənilər də Gürcü Boğazına doğru çəkilirlər.

Günortadan sonra, saat $3^{45}$-də dəqiqədəki mənzərə, bu gün şəhərin alına biləcəyi haqqında məndə böyük ümidlər oyandırdı. Erməniləri təqib etmək üçün bir piyada polku ilə bütün süvari qüvvələrimizi hazır vəziyyətə gətirdim. Hərəkatın yerinə yetirilməsi qaydası haqqında Doqquzuncu diviziya komandanına da lazım olan əmrləri verdim.

Saat 5-də şəhərdə yanğınlar başladı. Müşahidə apardığım mövqedən vəziyyət aydın görünürdü. Gəz kəndinə gedən diviziyanın qərargahı çökəklikdə yerləşdiyi üçün vəziyyəti yaxşı görə bilmir və irəli hərəkət etməyə imkan olmadığını söyləyirdi. Onlara telefonla bu əmri çatdırdım.

**Doqquzuncu Diviziya Komandanlığına**

**Alaca müşahidə məntəqəsindən**
**11 mart, saat 5-dən sonra**

Quldur dəstəsinin daima geriyə doğru çəkilməsinə, şəhərdə yanğın baş verməsinə və ermənilərin bütün qüvvələrinin hamısından müdafiədə tam istifadə etməyərək, döyüşdə lazımi qüvvədən daha az qüvvə saxlamasına görə, onların bu axşam şəhəri boşaldacağına bütün varlığımla inanıram. Buna görə diviziyanın daha çox təşəbbüs göstərərək quldurun şəhərdə qətllər

törətməsinə vaxt və fürsət vermədən, tezliklə əsas məqsədə çatmaq üçün sizin böyük cəhdlər göstərmənizi gözləyirəm.

**Birinci Qafqaz korpusu komandanı**
**KAZIM QARABƏKİR**

Ordu Komandanlığına yenə telefonla şəhəri zəbt edəcəyimizə böyük ümid bəslədiyimi bildirdim.

Qərargah rəisi Avni Bəyi də, vəziyyəti yaxından görmək və 9-cu diviziyaya verdiyim əmrin yerinə yetirilməsini təmin temək üçün Gəz kəndinə göndərdim.

Gecə saat onda bütün cəbhələrdən gələn raportlara görə vəziyyətimiz belə idi. «Sağ cinahdakı Xalid Bəy komandasının uğuruna baxmayaraq, döyüş sursatının qurtarması və qarın çoxluğu hərəkəti çox geciktirməkdədir.

Mərkəzdə əsas hücumçu qüvvəmiz tikanlı məftillər çəpərinə 300 metr məsafəyə qədər girmişlər.

Karasuyun şimalındakı sol cinahda yerləşən On Üçüncü Polk çox çətinliklə irəliləmiş, hələ də Karaz ətrafında dayanır.

Bu vəziyyətə görə görüləcək əsas iş: Mərkəz dəstəsini gecə döyüşlərilə məftil çəpərlərin içərisinə daxil etmək və sabah səhər bütün qüvvələrlə Ərzurum üzərinə hücuma keçməkdən ibarət idi.

Sağ və sol cinahdakı komandaları da gecə vaxtı mümkün olduğu qədər irəliləyərək, sabah olacaq hücumda iştirak edəcəkdirlər.

Süvari polkları istirahət edərək, səhər tezdən hərəkatda iştirak edəcəkdirlər.

Korpus qərargahı da sabah tezdən Ilıcaya göndəriləcəkdir.

Lazım olan əmrləri verdim. Gecə ən böyüyündən ən kiçiyinə qədər bütün korpusdakılar böyük bir sevinc içində, hərə öz yardım və zəhmətlərini əsirgəməyərək çalışdılar, heç kim yatmadı. Gecəni yarı etdik, artıq martın 12-ə keçmişdik. Sabah səhər Ərzurumun qurtuluş saatı olacağına heç şübhəm yox idi. Alaca kəndində telefon başında cəbhədən xəbərlər gözləyir və sevinc içində söhbətlər edirdik. Qərargahımın ən səmimi, nəşəli

və yüksək vəzifəli adamlarından olan Avni Bəy Gəz kəndində diviziya qərargahında gördüklərini dəfələrlə anlatdı. Oradakı hadisələrin beynində həkk etdiyi xatirələr onun nəşəli ruhunu coşdurmuşdu: «9-cu Diviziya qərargahı, şose yol boyunca hər iki tərəfdə yığılmış daşlardan istifadə edib üzərindən keçərək Gəz kəndinə qədər gəlib çıxmışlar. Buradan Ərzuruma 7 km-lik yol var. Məftil çəpərlər də buradan 2 km uzaqdadır. Kirəmitlik istehkamı tərəfindəki rus topçusu 7 km məsafədən, buranı çox təhlükəli bir vəziyyətdə atəşə tutmaqdadır. Belə vəziyyətdə diviziya qərargahından heç kim başını qaldırıb Ərzurumdakı yanğınların tüstülərinə belə baxmağa cürət etməzdi. Bizim Alaca müşahidə mövqeyindən gördüyümüz mənzərə də Gəz kəndindən görünmürdü. Vəziyyət haqqında bizim verdiyimiz məlumat da diviziya qərargahı üçün çox lazımlı və çox dəyərli idi. Belə bir atəş altında olan təhlükəli vəziyyətə düşdükləri üçün, buraya gəldiklərinə görə peşiman olmuşdular. Gecə qaranlığını gözləmişlərsə də, gündüzdən hədəfi müəyyən edən rus topçusu gecə də hərdən bir atəş açaraq narahat etməkdədir».

«Korpusdan gələn əmrə görə hücumçu kolonu təşkil olunmuşdur. Məftil çəpər keçilər keçilməz, ehtiyatda qalaraq istirahət edən 29-cu polk irəliyə göndəriləcək, şəfəq sökülərkən İstanbulqapısından şəhərə hücum edəcəkdir. Eyni zamanda Xalid Bəy komandasının gecikmək ehtimalı olduğuna görə, 28-ci polk da Harputqapısı və Kirəmitlik istehkamına hücum edəcəkdir».

Gecə yarısından sonra saat $2^{30}$-da şad bir bir xəbər gəldi. Şose yolu boyunca hücumçu dəstələrimiz cüzi döyüşdən sonra, saat 2-də məftil çəpərlərini istehkamçı hərbi hissələrimiz vasitəsilə kəsərək içəri daxil olmuşlar.

Ərzurumun zəbt olunması və sonra da erməni qüvvələrinin ciddi surətdə təqib olunması üçün 9-cu diviziya komandanına və digər hissələrə əmr verdim.

Əmrin xülasəsi belədir: «Şəfəq sökülərkən ediləcək hücuma hazırlıq görmək və yardım etmək üçün gecədən düşmənin artilleriya mövqelərinə qüvvətli kəşfiyyatçı dəstələr ilə qəfildən

hücum edilsin və xüsusilə Kirəmitlik istehkamının işğalı təmin olunsun. Səhər çağı piyadalarımızın hücumuna yaxından yardım etmək üçün məftil çəpərlərinə qədər bir batareya irəli çəkilsin. Ərzurumun zəbt olunmasının ardınca erməni quvvələrinin ciddi surətdə təqib olunması üçün bütün süvari qüvvələri sübh tezdən Gəz kəndindən hərəkata hazır vəziyyətə gətirilsin və Həsənqala istiqamətində düşməni təqib etsin. Süvariyə dayaq üçün bir piyada polku və ya İkinci Atıcı Batalyonu da təqibdə iştirak etdirilsin. Mən səhər tezdən qərargahı Ilıcaya köçürəcəyəm».

Əmrləri lazımi yerlərə göndərdikdən sonra, bir az mürgülədik. Bu «mürgüləmək» sözünü deməklə, məqsədim nə olduğunu qısaca qeyd etmək faydalı olacaq. Çünki müharibə həyəcanlarını hiss etməmiş insanlara da bir az bu həyəcanı hiss etdirmək lazımdır. Müharibədə ümumi qayda belədir ki, səyyar çarpayıda yatırdıq. Çətin vəziyyətlərdə paltar və çəkmə də çıxarılmaz. Yüklərimiz vaxtında çatmayıb arxada qalarsa, yerdə də narahat vəziyyətdə yatırdıq. Yəni çox ayıq yatırdıq. Top, tüfəng, telefon səsləri oyandırır, əmrlər, raportlar gəlir, oyanmaq məcburiyyətində qalırsan. Belə oyanmalar insanda adət halına keçir, heç bir şey olmasa da adam bəzən oyanır. Bəzən həyəcanlı yuxular da insanı oyandırır. Oyanmanın təsiri hər adamda eyni olmaz. Çiynində böyük məsuliyyət olan komandanlar, daha çox və daha dəqiq vaxtında oyanır. Lakin rütbələr kiçilib, məsuliyyət azaldıqca yuxular daha şirin və ağır olur. Hər hansı lazım oldu olmadı bir işə görə oyanılmaz, oyanılsa da insanın ağlı tez yerinə gəlməz, gəlsə də əhval-ruhiyyəsi yerində olmaz. Mən bunu əvvəlcə Çanaqqalada diviziya komandanı olduğum zaman təcrübə etdim. Cəbhədə silah səsləri çoxaldıqca, telefon zəngi çaldıqca mən yerimdən atılır, vəziyyəti öyrənirdim. Heç əsəbləşmir, nəşəmi pozmurdum. Vəzifəm və məsuliyyətim mənə qüvvə və qüdrət verirdi. Halbuki kiçik rütbəlilər o qədər həssas ola bilmirdilər. Bir gecə müşahidə apardığım yerimdə, yeraltı otaqda yatırdım. Telefon və növbətçi zabiti olaraq, yavərim Fərid telefonçu əsgərin yanında otururdu. (Növbətçi zabit və əsgərlərin

uzanması qadağandır. Bəlkə oturduğu yerdə bir az yata bilərlər) Cəbhədən şiddətli piyada atəşləri və ağır bomba səsləri ətrafı titrətməyə başladı. Oyandım və tez telefonun yanına qaçdım. Yavərim də, telefonçu da oturduqları yerdə yatmışdılar. Telefonla cəbhədən məlumat soruşmaqla bərabər, yavərimi də qolundan çəkərək oyandırdım. Bədən tərbiyəsi və idmana çox marağı olan və məndən altı yaş cavan olan yavərim gərinərək yuxusundan oyandı, bir müddət özünü toparlaya bilmədi və qol idmanları etməyə və «biz belə edərik, belə edərik» deyərək nəsə deməyə başladı. Məlumdur ki, ayağa qalxmış olsa da, yuxusunu hələ görməkdə idi. «Özünə gəl» deyə yavaşca səslənərək onu oyandırdım. Onun bu vəziyyəti bizi uzun müddət güldürdü.

Mən daima çarpayımın yanında kiçik bir masa qoyar, onun üzərində olan xəritəmi açar, üstünə də pərgəl, cədvəl, mavi, qırmızı qələm, qeyd üçün kağız qoyar və elə də yatardım. Əvvəldən də, yuxudan çox tez oyanmaq, yatınca da tez yuxulamaq adətim müharibədə mənim işimə çox yaradı. Top, tüfəng səsləri məni oyandırdımı, hansı tərəfdən atəş açıldığını və cəbhənin hansı tərəfində nə dərəcədə olduğunu xəritənin üstünə cədvəlimi qoyaraq işarə edərdim. Atəşin gücünü və davamlılığını dəqiqləşdirmək üçün, lazım gəldikdə telefonla əlaqə saxlayıb məlumat alırdım. Müşahidə yerimdə, yerə kiçik taxtadan yol nişanları vuraraq qaranlıqda müxtəlif istiqamətləri tapmağı asanlaşdırdım. Vəziyyətə görə müşahidə durbinimin yanına keçər, hər tərəfi müşahidə edərdim. Gələn məlumatı qeyd edər, lazım gələrsə xəritəmdə də işarələyərdim. Bəzən də insan oyandığı zaman ağlına əhəmiyyətli bir şeylərin gəldiyi olur. Dərhal bunu qeyd edərdim. Çünki bunları qeyd etmədiyim zamanlar, bəzən bu əhəmiyyətli şeyləri unudurdum, xatırlayacağam deyə mühüm işlərimin arasında bir də bunlarla baş sındırdığım vaxtlar da olub.

Balkan müharibəsində Ədirnə istehkamında diviziya qərargahı rəisi idim. Hücum vaxtı bütün qərargahdakılarla səyyar çadırda yan-yana uzanıb yerdə yatardıq. Qərargah zabitinin köməkçilərinin və yavərlərin bərk yatmasını ehtimal etdiyimə

görə, gərgin vəziyyətlərdə gecələr mən ayağıma bir ip bağlar və ipin ucunu bayırda növbə çəkən əsgərin yanına uzadardım. Raportlar gələn kimi, növbətçi ipi çəkər və məni oyandırardı. Bu yaxşı üsulu növbətçi zabitlərə də tətbiq edərdim.

Bir az da bu həyəcanlı müharibə gecələrinin qəribə röyalarından bəhs edim: Müharibə illəri uzandıqca, artıq bu vəziyyətə adam əməlli başlı alışır. İlk zamanlar yuxuda da müharibələr görərkən get-gedə müxtəlif səyahətlər və əyləncəli yuxular da görməyə başladıq. Bəzi yoldaşlarımız çox yuxular görər və yuxusunun da mütləq çin olacağına inanırdı. Bəzilərinin də gördükləri yuxunu danışmaqdan xoşu gəlir, səhər səhər «xeyirdi inşallah» deyərək çalışırdı ki, yoldaşları onun yuxularını dinləsinlər. Çox nəşəli zabitlər üçün yuxular və xəyallar, yoldaşlarını güldürmək, onlara nəşə vermək üçün gözəl bir vasitə olardı. Müharibənin dördüncü ili idi. İstər dağ başlarında, istərsə də çöllərdə olsun, döyüş yoldaşlığı tam bir ailə həyatına dönmüşdü. Hamımız ata, oğul, qardaş kimi olmuşduq. Hələ yemək vaxtı incə zarafatlarla bu acı həyatın ağırlığını yüngülləşdirməyə ehtiyacımız var idi. Gərgin vəziyyətlərdə bəzi əsəbləri zəif olanlar pis yuxu görərdi. O zaman mən onları gözəl xəyallarla nəşələndirərdim. Yuxuya inananlara da qüvvət və nəşəverici sözlər söyləyərək onların nikbin olmasına çalışardım. İndi Ərzurumun zəbt olunması ərəfəsində də, əsgərlər pis düşüncələrlə yatdığı zaman təbii ki, yuxularında da boş yerə ürəksıxıcı yuxular görəcəklər. Mən bunu bildiyim üçün, ən təhlükəli zamanlarda da yatmamışdan əvvəl, yaxşı şeylər haqqında düşünərdim. Münasibətsiz yuxu da demək olar ki, heç görmürdüm. Buna görə də, Ərzurum müharibələrində yuxumda daima Karsın zəbt olunmasını görürdüm və zəif ürəklərə müjdə verirdim. Müharibə yuxularında da düşüncənin, şüuraltının nə qədər böyük təsiri olduğunu mənə yenə də anlatmış oldu. Kars, artıq şüuruma yerləşmişdi. Kiçik yaşlarımda Ərzurumda, Vanda, Harputda Kars mühacirlərindən olan qonşularımızdan 1877-1878-ci il Rusiya ilə olan müharibəyə, Kars müharibələrinə, Karsın məğlub olmasına, Qazi Əhməd Muxtar Paşaya və digər komandanlara aid çox hekayələr eşitmişdim. Səkkiz, on yaşlarında olarkən beynimə

həkk olunan bu sözlər, Hərbi Akademiyada oxuduğum vaxt, qala müharibələri haqqındakı dərsimdə yenidən Karsla məşğul olmaq fikri canlanırdı. Artıq mən Kars qalası ilə daha çox maraqlanırdım. Karsın xəritəsini daha diqqətlə rəngləyər və ərazini daha böyük bir zövqlə öyrənirdim. Karsın bütün istehkamlarını və oradakı hərəkatlar haqqında məlumatı hər tərəfli, təfərrüatı ilə əzbərləmişdim.

Hərbi Akademiya kurslarında ilk dəfə olaraq, orduya komandanlıq etməyi xəritə üzərində tədqiq və mütaliə edərkən, yoldaşlarımın içində özlərini Napoleon Bonopartdan üstün sayanlar da vardı. Hətta tarixdə ad qazanmış komandanlar sırasında özlərini görənlər də lap çoxdu. Bunların təxminən hamısı da daha çox aşağı kurslarda oxuyanlar idi. Onlar özlərinin yüksək komanda məqamlarına çatacaqlarını deməkdən və Napoleondan daha böyük parlaq hərəkətlər edəcəklərindən danışmaqdan çəkinməz, əksinə zövq alardılar. Napoleonun hərəkətlərini hər gün tənqid edə-edə, tarixin ən böyük komandanlarının hərəkətlərini xəritə başında kiçildən yoldaşlarımız, həqiqi döyüş meydanlarında özlərini heç də göstərə bilmirdilər. Mənə gəlincə, Hərbi Akademiya kurslarında əlaçı olmağıma baxmayaraq, mənim də beynimə həkk olunan bu Kars qalasını zəbt etmək həvəsinə düşdüyümü etiraf edirəm. Bu mənim əsas idealım olmuşdu. Hətta bir dəfə bu saf düşüncəmi iki səmimi yoldaşıma deməyə cürət etmişdim. Çünki Napoleonun planlarına gülüb ələ salanların içində mən də vardım.

Ərzurumun zəbt olunması düşüncəsi ilə məşğul olarkən, hər gecə Kars yuxuma girərdi. İnsan düşüncənin pəncəsindən yuxuda da qurtula bilmir.

Martın 12-də səhər top səsindən yuxudan oyanarkən, Çanaqqalada yavərim Fəridin «Biz belə edərik» deyə qollarını yan tərəfə açaraq idman etdiyi kimi, mən də yoldaşlarıma: «Biz Karsı da alacağıq, Karsı da alacağıq» deyə müjdə verirdim.

# ƏRZURUM QURTULUR

16 fevral 1332/1916/-ci ildə rusların əlinə keçən Ərzurumun istehkam mövqeyi, iki ildən artıq əsarət altında inlədikdən sonra, 12 mart 1334 (1918, çərşənbə axşamı) - cü ildə qurtulmuşdur.

Belə ki, 12 mart səhər saat 5-də Ərzurum istiqamətindən top səsləri eşidilməyə başladı. Yataqlarımızdan tez atıldıq. Nə baş verdiyi hələ məlum deyildi. Telefonla hər tərəflə əlaqəyə girdikdən sonra atlarımıza minərək Alacadan yola düşdük. Karasuyu Daşkörpüdən keçərək şose yola çıxdıq. Gediş-gəliş çox olduğundan yol qalın buz təbəqəsi ilə örtülmüşdür və görünüşdə asfalt yolu xatırladırdı. Buna görə də sürətlə getmək mümkün deyildi. Ilıcaya saat 8-də gəlib çatdıq. Çatan kimi Doqquzuncu diviziyanin qərargahını telefonla axtarıb tapdıq və xoş xəbəri də onlar bizə çatdırdı:

«Hərbi hissələrimiz Ərzuruma girmişdir. Şəhərin daxilində cüzi atışmalar olur».

Dünən axşam başlayan yanğınların hələ də davam etdiyini biz də Ilıcadan görürük.

Tez ordu qərargahının telefonu ilə əlaqəyə girdim. Telefona ordu qərargah rəisi, polkovnik Ömər Lütfü bəy cavab verdi. Dedim ki:

- Xoş xəbəri sizəmi, yoxsa komandanınızamı verim?

Lütfü Bəy də cavab verdi ki, Komandan Paşa gec yatdığından hələ oyanmamışdır. Siz haradasınız? Çox maraqlanırıq. Xahiş edirəm mənə məlumat verin.

-Ərzurum qurtulmuşdur. Şəhər hərbi hissələrimizin əlindədir. Mən də qərargahımla Ilıcadayam.

Ordu komandanı və hərbi qərargah, mənim planımla Ərzurumun zəbt olunmasının mümkün olmayacağını demişdi. Bunu komandanım dünən mənə telefonla əsəbi halda bildirmişdi. Sabah onlar pis bir xəbər gözlədikləri halda, mənim çatdırdığım

xoş xəbərdən çaşıb qaldıqları məlum olurdu. Çünki ordunun qərargah rəisi məndən soruşdu:

«Siz indi haradasınız? Alacadasınızmı?

-Xeyr, mən Ilıcadayam, Alacadan səhər tezdən çıxdıq. Bir azdan sonra da Ərzuruma tərəf hərəkət edəcəyəm. Ətraflı raportumu Ərzurumdan yazacağam.

Ömər Lütfü Bəy sanki yanlış sözlər eşidirmiş kimi, yenidən bir də soruşdu:

-İndi siz Alacada deyil, Ilıcadasınız və Ərzurum da hərbi hissəmiz tərəfindən zəbt olundu, eləmi?

-Bəli, mən qərargahımla Alacadan Ilıcaya gəldim. Ərzurumu geri aldıq. Buradakı işlərimi bitirər bitirməz qərargahımla Ərzuruma gedəcəyəm. Oradan da sizinlə telefon əlaqəsi saxlayarıq. Ətraflı raportumu da orduya çatdıraram.

Ordu qərargah rəisi məmnun olduğunu və təşəkkürlərini bildirdi. Ordu komandanını qələbəmiz münasibətilə muştuluqlayacağını söylədi.

Karasuyun şimalındakı hərbi hissələrə və dəstələrə lazımi əmrlər verdikdən sonra, saat 12-də atlarımıza minərək Ərzuruma tərəf yollandıq. 14 kilometrlik yol bizə çox uzun gəlirdi. Gəz kəndi ilə Ərzurum arasındakı şose yol boyunca xeyli cəsədlər qalmışdı. Bunların, dünənki döyüşdə durbinlə müşahidə etdiyimiz erməni yürüş dəstəsinə aid olduğu anlaşılırdı.

Saat 15-də qərargahımla İstanbulqapısından Ərzuruma daxil olduq. Tək tük silah səsləri, güllə uğultusu və bomba səsləri eşidilirdi. Bəzi binalarda gizlənmiş daşnak quldurları, hara gəldi, o istiqamətə atəş açdıqları üçün, şəhər içində döyüşlər davam edirdi.

Şəhərin qərb tərəfində Yakutiyə kazarmasına yaxın olan və rus artilleriya komandanlığının özlərinə qərargah olaraq seçdikləri binada və ətrafındakı evlərdə qərargahımla yerləşdik. Həsənqala istiqamətində geri çəkilən erməni hərbi hissələrinin təqib olunması vəzifəsini 9-cu diviziya komandanı Rüşdü Bəyə,

şəhərin içindəki düşməndən təmizlənmə işini də Dəli Xalid Bəyə həvalə etdim.

Hərbi hissələrimizdən raportların toplanması, orduya raport yazılması, yaralılar, xəstələr, ərzaq, döyüş sursatı təminatı, xalqa yardım olunması, müharibədə ələ keçirilən qənimətlərin mühafizə altına alınması və qeydiyyatının aparılması kimi bir çox işlərimizi görmək üçün bütün qərargahdakılarla işə başladıq.

Ərzurum azad olduğu vaxt itkilərimiz aşağıda qeyd olunduğu qədərdir: 2 zabitlə 12 əsgər şəhid, 3 zabitlə 113 əsgər yaralı (çoxu yüngül yaralı), Ərzuruma gələn zaman yollarda soyuqdan donub ölənlərin sayı da 308 nəfərdir. Ərzurumun daxilində dinc əhalidən şəhid olanların sayı 1708 nəfər, yaralıların sayı da 37 nəfər idi.

Sərf etdiyimiz döyüş sürsatı da bu qədər idi: Hər tüfəng üçün 50 güllə, hər top üçün 24 mərmi. Piyadalar üçün əlimizdə olan döyüş sürsatının dörddə birini, artilleriya üçün olan döyüş sursatının yeddidə birini sərf etmişdik.

İstər insan tələfatı və istərsə də döyüş sürsatı cəhətindən itirdiklərimiz qazandıqlarımızın yanında cüzi bir şey idi. Xüsusilə bütün Ərzurum əhalisinin məhvinə və şəhərin də xarabalığa çevrilməsinə imkan verməməyimiz və qazandığımız qənimətləri nəzərə alsaq, uğurlarımız daha çoxdur.

Götürdüyümüz əsirlər və düşmənin verdiyi itkilər arasında: 35 rus zabiti, 3 gürcü zabiti, 3 rus əsgəri, 13 rus qadını ilə 3 rus uşağı vardı. Ermənilərdən ölənlərin sayı 500-ə qədərdi. Bu qədərdən də çox olan yaralılarını ermənilər özləri ilə apardıqları məlum oldu.

## Qənimətlər:

Ərzurum istehkam mövqeyində: 400 top və həddən çox döyüş sursatı, silah, ərzaqla ağzına qədər dolu istehkam parkları və dəmiryol materialları, 8 lokomotiv, 15 vaqon dolu neft, benzin və sairə qənimət olaraq götürdük. Ayrıca rus zabitlərinin bizə

qarşı işlətdikləri 16 səhra topu ilə, ermənilərin işlətdiyi 8 dağ topundan altısı da yaxşı işlək vəziyyətdə əlimizə keçdi. Bundan sonrakı hərəkatlarda işimizə çox yarayacaq möhkəm bir minik maşını da əldə etdiyimiz qənimətlər arasında idi.

**Hər iki tərəfin qüvvələri**

Döyüşçü olaraq ermənilərin hərbi qüvvələri, kəsirsiz 6000, türklərin hərbi qüvvələri isə 5000 qədərdi.

## ƏRZURUM NECƏ GERİ ALINDI?

Aldığımız raportlara görə Ərzurumun işğalı belə olmuşdur:

Qüvvətli bir zabit kəşfiyyat kolonumuz, dəstəmiz gecə İstanbul qapısına qədər gəlmişdir. Sağ cinahda 28-ci polkun 82-ci batalyonu saat 4-də Harput qapısına 500 metrə qədər yaxınlaşmış və erməni hərbi hissələrilə burada döyüşməyə başlamışlar. 29-cu polk da, $4^{30}$-da İstanbul qapısının hər iki tərəfindəki səngərləri işğal etmiş, düşmənin 600-ə qədər piyada və dörd pulemyot atəşinə məruz qalaraq, döyüşməyə başlamışdılar.

Saat 5-də Kirəmitlik istehkamından iki və Harput qapısından da bir düşmən topu atəş açmağa başlamışdır.

Saat 6-ya işləmiş şəhərin ətrafındakı yüksək torpaq səngərlərdən fasiləsiz açılan atəş bizim hərbi hissələrimizin bir neçə istehkama girməsinə səbəb olduğu üçün, döyüş saat 6-a qalmışa kimi davam etmişdir.

Saat 6-ya qalmış Harput və İstanbul qapılarından və bu qapıların hər iki tərəfindəki istehkamlardan 9-cu diviziyanin hissələri Ərzurum şəhərinə girmişdir. Şəhərə daxil olan hissələrin bir qismi Ahali istehkamı, Topdağı və Surpnişan istehkamlarını tutmuş və buralarda 100-ə qədər erməni əsgərləri öldürülmüş və 6 dağ topu qənimət olaraq götürülmüşdür.

Sağ cinahdakı Xalid Bəy komandası da saat 7-dən əvvəl Harput qapısından girərək, Ərzurumun şərqindəki Karsqapısında 9-cu diviziya hissələrilə birləşmişdir. Qar çox olduğuna görə Eğerlidağın yüksəkliklərindən gələn milis komandalarının irəlidə gələn qisimləri ancaq saat 6-da Harput qapısına çata bilmişdir.

Süvari hissələrimizin hamısını erməniləri təqib etmək üçün göndərdimsə də, İkinci Qafqaz Korpusunun nizamlı süvari polku, ancaq günortadan əvvəl, saat 9-da Ilıcadan keçə bildikləri üçün, günorta saat 12-də Ərzurumdan Həsənqala istiqamətinə keçə bilmişdilər.

İşlərimizi bitirdikdən sonra teleqraf idarəsinin yerləşdiyi 9-cu Diviziya qərargahına getdim. Taşhanlar buraya daha yaxındı.

Daşnakların çoxu da burada idi. Xalid Bəy Dersim milislərilə buranı ermənilərdən təmizləməyə çalışırdı. Lakin az itki verməklə bu işi yerinə yetirmək asan olmurdu. Həsənqala martın 13-də süvarimiz tərəfindən işğal olunduğu halda Ərzurumdakı ermənilərin müqaviməti bu gün də davam etdi və nəhayət 13 martda şəhərin ermənilərdən təmizlənməsi başa çatdı. Ölən quldur dəstəsindən 46-sı erməni, beşi gürcü idi.

Şərqi Dersim milislərindən Ərzuruma qədər 200 nəfəri gəlmişdi. Bunları martın 13-də, 35 nəfərdən ibarət olan Qərbi Dersim komandasını da martın 14-də pulla mükafatlandıraraq tərxis etdim. Bu komanda döyüşdə iki şəhid vermişdi.

Martın 13-də şəhəri gəzdiyim zaman ilk işim, mən balaca olduğum zaman başımın yarıldığı hovuzu axtarmaq oldu. O zamankı abad karvansara indi dağılmışdı. Ortada balaca bir hovuz, bunun içinə necə yıxıldığıma çaşqınlıqla baxdım.

## BİR RUS CASUSU

Qərargahımız yerləşən binada ruslar «peç» deyilən özlərinə məxsus böyük sobalar qurmuşdular. Belə sobanı ilk dəfə görürdük. Bizimkilər bu sobanı yandırmağı bacara bilmədikləri üçün, bu işi bacaran bir usta gətirmişlər. Mənim otağımın sobasını təmir edəcək bu adamdan şübhələndiyini yavərim Xalid Bəy mənə xəbər verdi. Üstünü başını təmizlədikdən sonra, yanıma çağırtdım. Başında abani çalma (naxışlı ağ ipək parçadan) şalvarlı, köynəkli və sarı bənizli rus tipli bir adam. Bir az danışdıqdan sonra, İslamı qəbul etmiş bir rus olduğu məlum oldu. Hərif müsəlmanlığı qəbul etmiş və yaxınlığımızdakı evlərdən birində yaşayan təqaüdçü Mehmed Əfəndi adlı bir zabitin kürəkəni olmuş. Həm də qızla sevişərək evlənmişlər.

Hərifin bir rus casusu olduğuna şübhəmiz yoxdu. Dərhal Mehmed Əfəndinin evini axtartdıraraq nə qədər sənəd varsa hamısını gətirtdim. Sənədləri yoxladıqdan sonra hər şey aydın oldu. Bu rus Ərzurumdakı rus komandanının katibi imiş. Mehmed Əfəndinin qızı ilə sevişirmiş kimi rola girərək rus qərargahından qaçır, Mehmed Əfəndinin evində gizlənərək müsəlmanlığı qəbul edir və gözəl qızla da evlənir. Beləliklə, müsəlmanlar arasına girərək casus kimi fəaliyyət göstərir. Bir tərəfdən bizim cəbhəmizin arxasındakı bəzi kəndlərdə bir rus casusluq şəbəkəsi qurur, digər tərəfdən də əvvəlki rus komandanına müntəzəm olaraq raportlarını verir.

Rus casusun həbs olunmasından xəbər tutan qadınlar və Mehmed Əfəndinin qızı da qərargahımın qabağına gələrək ağlaşmağa və müsəlman olmuş bu rusa havadarlıq etməyə başladılar: «O həqiqi imana çatdı, müsəlman oldu. O çox yaxşı bir adamdır. Bizi daşnak quldur dəstələrinin əlindən o qurtardı» deyirdilər.

Götürdüyümüz sənədlərə görə onun bir casus olduğunu və məhkəməyə veriləcəyini çox çətinliklə qadınlara başa saldıq.[1]

Ərzurum camaatı çox əziyyət çəkmişdi. Anasını, atasını itirən uşaqlar, yaxud oğullarını itirən ana və ataların fəryadları, ac qalanların iztirabları çox böyükdü. Korpus artilleriya komandanı, podpolkovnik Rəcəb Bəyə Ərzincanda olduğu kimi, Ərzurumda da vali və komandanlıq vəzifələrini tapşırdım. Və xalqa mümkün olduğu qədər bütün yardımları etməsini və şəhərin sanitar təmizliyini də təmin etməsi üçün lazım olan köməyi, səlahiyyəti və vəsaiti verdim.

Ərzurumdakı ərzaq, geyim əşyaları və tibbi vəsait anbarları, istehkam parkları indiyə kimi gördüklərimizdən daha zəngindi. Ruslar bütün Anadolunu istila etməyi qəti qərara almış və buna görə hazırlıqlar görmüş, lakin nəzərə almadıqları bir icraçının bu parlaq planı alt-üst edəcəyini düşünməmiş, bütün bu hazırlıq ləvazimatını bizim ixtiyarımıza qoymağa məcbur olduqlarını təəccüb və ibrətlə seyr etdik.

Martın 14-də, yəni iki gün istirahət etdikdən sonra, hərbi hissələrimə hərəkət etmək əmrlərini verdim; 9-cu diviziya iki polk ilə Həsənqalaya gedəcək. Süvarimiz Horasanı alacaq və sərhədə qədər kəşfiyyat dəstələrini göndərəcək. Ərzincandakı 36-cı diviziya və korpusa aid olan hissələr, Ərzuruma gələcəklər.

Martın 15-də ordudan gələn bir əmrdə, rus zabitlərinin əsir olaraq Ərzincana göndərilməsi bildirildi. Bunları qərargahımın qarşısına gətirdərək gözdən keçirdim. Martın 17-də Ərzincana yola düşəcəklərini dedim. Onların komandanları olan podpolkovnik Tverdo-Xlebovla qərargahımda xeyli söhbət etdik.

[1] Mehmed Əfəndi adı ilə adlandırılan bu rusu sənədləri ilə birlikdə Ordu Komandanlığına təslim etmişdik. Mütarikədə (atəşkəsdə) təkrar Ərzuruma gəldiyim zaman, bu Mehmed Əfəndinin azad olduğunu və hətta Tartum tərəflərində meşəbəyi təyin edildiyini təəccüblə qarşıladım.Sənədlər də itirilmiş. Haqqında məhkəmə işi yenidən başlandığını öyrənincə bu adam qaçıb gizlənmiş. Yerli hökumətdən onun vəfat etdiyi xəbərini verdilər

Çox ağıllı və ali təhsilli olan bir rusdu. Karsda artilleriya komandanlığında çalışmış. Ondan ermənilər, Ərzurum və Kars qalaları haqqında xeyli məlumat aldım. Ermənilərin sayının 6000-ə qədər olduğunu və türklərə çox zülmlər etmələri haqqında məlumat verdi. Bu məlumatların altında da öz imzasını qoyacağını vəd etdi.

(Bu hadisələrə aid yazdığı iki risalə rus dilində olub, rəsmi idarəyə məxsus yerdə qorunub saxlanılır. O zamanlar türkcə və fransızcaya tərcümə olunmuşdu. Risalənin birinin adı «Tarixçə» adlanıb, İkinci Ərzurum qalası artilleriya polkunun yaranmasından Osmanlı ordusunun Ərzurumu geri alması tarixinə qədərki vəziyyəti təsvir edir. Digər risalə də «Xatirə» adlanır ki, burada rus inqilabının başlanmasından etibarən 27 fevral[2] 1918-ci ildə Osmanlı hərbi hissələrinin Ərzurumu geri aldıqları tarixə qədər ermənilərin Ərzurum şəhəri və onun ətrafındakı türk sakinlərinə qarşı etdikləri hərəkətlər haqqında ətraflı məlumat verir. Bunlardan birinci risalə olan «Tarixçəni» bu yazımın sonunda verdim. Digəri eynilə «Ermənilər» başlıqlı əsərdə veriləcəkdir).

Martın 16-da süvarimiz Horasanı işğal etdi. Ermənilərin 75-ə qədər süvarisi təmas vəziyyətində idi. Horasanda səhra dəmiryolunun çox mühüm bir stansiyası varmış. Burada 100 lokomotiv, yüz yük vaqonu (iyirmisi kömür yüklü) işlək vəziyyətdə ələ keçmiş. Telefon mərkəzi də dağılmamış vəziyyətdə qalırdı. Hətta Kötək erməni mərkəzindən Horasan mərkəzi ilə əlaqə saxlayırmışlar.

«Bedros» deyə səslənən ermənilərə bizim telefonçu zəif bildiyi ermənicə ilə cavab vermişsə də, ermənilər bunu başa düşərək, türklərin Horasanı işğal etdiklərini rusca Sarıqamışa bildirmişlər.

Martın 17-də Narman əsgərlərimiz tərəfindən zəbt olundu. Nəhayət Kötəkdəki 100 piyada və 150 erməni süvarisi də

---

[2] Ruslar I Dünya müharibəsinin ortalarına qədər bizim işlətdiyimiz Rumi aylarını işlədirdilər. 27 fevral Ərzurumun qurtulduğu 12 marta uyğun gəlir.

qovularaq, 1293-cü il (21 - mart 1918-ci il) sərhəddinə qədər olan məntəqəni də tutduq.

Ordu komandanı Vəhib Paşa martın 19-da Ərzuruma gəldi. Ruslardan qalma bir minik avtomobili əldə etmiş və adını «qənimət» qoymuşdum. Bu avtomobilə minərək komandanımı Tevrücükdə qarşıladım. Ərzuruma gələrkən müharibə haqqında ətraflı məlumat verdim. Vəhib Paşa təəccüblə soruşdu:

“Mən erməniləri bolqarlardan daha güclü bir millət sanırdım. Necə oldu ki, partizan müharibələri ilə sizin başınızı qata bilmədilər. Qələbəniz çox sürətlə oldu”. Belə cavab verdim:

«Diqqətinizə görə təşəkkür edirəm. Qələbəni ordumuz qazanıb. Partizan müharibəsinin qələbə qazanması üçün, eyni irqli kəndlərin olmasına ehtiyac olduğu kimi, qışda dağ başlarında qalmağın çətinliyini də hər halda ermənilər dadmış olacaqdılar. Makedoniyada bolqar, yunan və serb partizanlarının illərcə mövcud olmaları, xalqa arxalanmalarından irəli gəlirdi. Xalq da avropalıların himayəsinə qovuşmuşdular. Quldurlar qışda kəndlərdə gizlənirlər, yayda dağlara çıxırdılar».

Vəhib Paşa verdiyi əmrin yerinə yetirilməməsinə görə əsəbləşsə də, belə tez qələbə qazanmağı qiymətləndirirdi. İstanbul qapısından kənarda Ərzurum camaatı və əsgərlərlə parlaq bir istiqbal mərasimi təşkil etdik. Bəzi gözəl sözlər söylədikdən sonra, hazırlatdığım qərargaha birlikdə getdik. (Bura Ərzurumun teleqraf binasıdır. 9-cu diviziya Qərargahı əvvəllər burada yerləşmişdi.)

Bu ərazi üzərinə olan hücumumuz haqqında xəritə üzərində verdiyim izahatı dinləyən ordu komandanım yenə də öz narahatlığını bildirdi. «Qüvvələrinin böyük bir qisminin şose yolu boyunca hücum etməsində, erməni qüvvələrinin sizin sağ tərəfinizdən vuraraq qüvvələrinin Karasuya atmaq təhlükəsindən necə qorxmadın? Hələ də təəccüb edirəm». Bu haqda izahat verdim. «Qarın çoxluğundan şose yoldan uzaq yerlərə hərəkət etmək təhlükəli idi. Hərbi hissələrimə ərzaq və döyüş sursatı çatdırmağa da imkan tapa bilməzdik. Necə ki, bir polk və bir

komanda olan sağ cinahımın döyüş sursatı və ərzağı qurtardığı halda, bunları da təmin edə bilməmişdik».

Ərzurumun azad olmasında, fədəkarlıqlar göstərərək öz vəzifələrini şərəflə yerinə yetirənlər mükafatlandırılarkən, mən də «Qılınclı İkinci Osmani Nişanı» ilə təltif olundum. Lakin mənə görə ən böyük mükafat, nizamnamələrimizin bizə əmr etdiyi kimi «məsuliyyətdən çəkinməmək» xüsusiyyətinə malik olmaqla, Ərzurumun bir zərbə ilə azad olmasını təmin edən müvəffəqiyyət olmuşdur. Dünya müharibəsində vuruşan bütün ordular, bu uğurlu düsturu yenidən «Ordunun idarə olunması» nizamnamələrində belə ifadə etmişdilər:

**“Komandanlığın ən yüksək xüsusiyyəti məsuliyyətdən çəkinməməkdir”**

Vəziyyətə uyğun bir düşüncə ilə vəzifə və vəziyyətin tələb etdiyi lazımi tədbirləri özü görmək əvəzinə, aldığı əmrlərə görə kor-koranə hərəkət edən adamlar, bəzən nəinki uğur qazanar, əksinə fəlakətə də səbəb ola bilərlər. Belə bir halda əmrin düzgün yerinə yetirilməsi uğursuzluğun xəcalətini və məsuliyyəti ortadan qaldırmaz. Xüsusilə böyük komandanlıqlarda (korpus və daha yuxarılar) yaxşı bilməlidir ki, məsuliyyətdən çəkinmək çox vaxt insanı daha ağır məsuliyyətlərə düçar edər.

## KORQANOVUN XATİRƏLƏRİ

Ərzurum müharibələrindən bəhs edən (Çar ordusundan qalma erməni generalı G.Korqanovun 1927-ci ildə Parisdə nəşr olunan «La Participation des Armeniens a la Guerre Mondial sur le Front du Caucase, 1914-1918» adlı fransızca (s. 100-113) və Tverdo-Xlebov tərəfindən rusca yazılmış iki əsərə nəzər salaq.

General G.Korqanovun əsərindən Ərzurum hərakatı haqqında məlumat belədir: Ərzurum qalasını müdafiə edəcək erməni qüvvələri Ərzurum polku, Ərzincan polku, Dördüncü Atıcı Polkundan bir batalyon, ərzurumlulardan bir batalyon ki, cəmi 9 batalyon piyada, 3 bölük süvari, 2 batareya dağ topu (rus qala topçusundan ayrı). Bu nizami qüvvələrin yekunu: 3100 süngü, 400 qılınc, 8 top (Qeyri nizami erməni qüvvələrini hesaba qatmır).

Ərzurum istehkam mövqeyi Rus texniki işçiləri tərəfindən uzun müddət üçün müqavimət cəhətdən möhkəmləndirilmişdir. İndi onu müdafiə edəcək qüvvə üçün, onun bir dəyəri olmayacaqdı. Çünki mühüm taktiki mövqeləri işğal etmək lüzumu hərbi hissələri dağıdacaq və zəiflədəcəkdi.

Ərzurum artilleriyası; 400-ə qədər səhra və qala topuna malikdir. (7,7 sm-dən 15 sm-ə qədər). Lakin bunlardan istifadə etmək üçün ancaq 40 zabit və 400 əsgər vardı.

Bu 400 topdan da yalnız 16 səhra topu işlək vəziyyətdə idi. Digər toplar və mərmi yığınları qalın qar təbəqəsi altında yatırdı. Ərzurum qalasının bütün texniki təsisatı da eyni vəziyyətdə idi.

Martın 3-də Brest- Litovsk müqaviləsi imzalandı. Müqaviləyə əsasən Batum, Kars və Ərdahan Türkiyənin əlinə keçirdi.

Martın 7-də Qafqaz heyətləri Trabzona gəldilər. Lakin türk nümayəndələri qəsdən gecikərək, martın 12-də gəldilər və martın 14-də Trabzon konfransı başladı.

Ərzurumu, Bayburt və Mamahatun istiqamətlərindən müdafiə etmək üçün bir batalyon piyada, 200 süvari və 2 dağ topundan

ibarət bir komanda, Ərzurum Bayburt və Ərzurum Mamahatun yollarının arasında, Karabıyık kəndi yanına yerləşdirilmişdi. Bu avanqard komanda kəşfiyyat dəstələrini Aşkalə və Yeniköy aşırımına göndərmişdi. Bunlar düşmənin təzyiqi altında, fevralın 25-də Karabıyıka çəkildilər.

Fevralın 27-də düşmənin 400 süngü, 2 dağ topu və 300 süvarisindən ibarət avanqard komandası erməni avanqard komandasına hücum etdisə də 8 saatlıq bir döyüşdən sonra qovuldular.

Fevralın 28-də erməni avanqard komandası, güclü düşmən qüvvələri qarşısında Yeniköy tərəfindən mühasirəyə alınmaq təhlükəsinə görə Alacaya çəkilmək məcburiyyətində qaldı və martın 2-də Ilıcaya, qalanın içərilərinə doğru çəkilməyə davam etdi.

Ilıca komandasına yardım üçün general Andranik[1], Birinci atıcı polkunun bir qismini (500 süngü) irəli göndərdi. Halbuki komanda öz sağ cinahını möhkəmlətmək üçün Karaz kəndini işğal etdi, sonra da sağ cinahdakı Erçik-İsavank xəttini tutdu.

Türk ordusu ilə birləşmək üçün Ərzurumun şimal qərbində toplanan silahlı müsəlman partizan dəstələri dağıdıldı (Bu dəqiqdir. Onlar Ərzuruma hücum etməmişdən əvvəl mənə məktubla müraciət etsələr də, sonradan görünmədilər - K.K.). Türk ordusu Ilıca və Təkkədərəsi qarşısında toplanmağa başladıqdan sonra, istehkam mövqeyinin cənub-qərbində toplanan erməni komandası türklərin hücumundan qurtula bilmədi.

[1] Müstəqil diviziya komandanlığına təyin olunan Andranik, martın 3-də Ərzurum istehkam mövqeyi komandanlığına təyin olundu. Rus Qərargahı Ərzurumu fevralın 25-də tərk etmiş və ümumi qərargahını Sarıqamışda təsis etmişdi. Andraniki, ətrafında imtiyazlı və yaxşı hərbi biliklərə yiyələnmiş zabitlərdən ibarət olan bir qərargah ilə bu yeni vəzifəyə göndərən Qafqaz Cəbhəsi Rus Komandanlığı idi. Onlar, Rus inqilabına görə orduda sarsılan mənəviyyatı yüksəltməyi və intizamın bərpa olunmasını ancaq bu erməni milli qəhrəmanının bacara biləcəyinə ümid edirdilər.

Ərzurumun zəif qarnizonu qarşısında 36-cı Türk piyada diviziyası dayanırdı. Onlar Bayburt və Ərzincandan gələn Türk hərbi hissələrilə tez qüvvətləndirildi.

Martın 8-də, günortaya yaxın düşmən Ilıca komandasının sağ tərəfinə doğru, Erinkar istiqamətindən irəliləməyə başladı. Ercik kəndi ətrafına qədər gələn türk hərbi hissələri dəf olundu və hücumdan əvvəlki yerinə çəkildi.

Türk hərbi hissələrinin Alacada toplanmaları martın doqquzu və onunda davam etdi və martın 11-də sübh tezdən Ilıca komandasına qarşı hücuma başladılar. Elə səhər tezdən, saat 9-da türk hərbi hissələrinin üstünlüyü hiss olundu. Erməni komandasının komandanı mühasirəyə alındıqlarını görüncə, günortaya doğru qala ətrafının yaxınlığına, Gəz kəndinə tərəf çəkilməyə qərar verdi və Han kəndini işğal etdi.

İstehkam mövqeyi komandanlığından bir batalyon göndərilərək yardım alan komanda Gəz kəndinin təpələrini yenidən işğal etmək üçün hücuma keçsə də dəf olundular.

Bu gün Ilıca komandası ölü və yaralılarla birlikdə 130 nəfər itki verdi.

Eyni zamanda müharibə Təkkədərəsində də başlamışdı. 2000 nəfərdən ibarət bir düşmən dəstəsi Kığı istiqamətindən Təkkədərəsi-Ərzurum üzərinə hücum etdi. Buradakı erməni komandası 250 süngü, 4 pulemyot və 50 süvaridən ibarət idi. Ilıca komandası ilə əlaqə Süngəriç kəndindəki kəşfiyyat dəstələri vasitəsilə yaranırdı. Lakin martın 6-dan bəri bu əlaqə kəsildi. Bu kəşfiyyat dəstələri təqribən 300 nəfərlik bir düşmən hücumuna məruz qaldılar və iki saatlıq bir döyüşdən sonra mühasirəyə alınmaq təhlükəsindən qorxaraq Təkkədərəsinə tərəf çəkildilər.

Ilıca cəbhəsində 9,10 və 11 martdakı hadisələr davam edərkən, ilk zamanlar hərəkətsiz dayanan və Taşağıl və Yağmurcuq kəndində toplanan düşmən qrupu, martın 9-da Təkkədərəsi üzərinə hücum etdi.

Əvvəlcə dəf olunan bu hücum, martın 11-də sübh tezdən yenidən təkrar olundu.Təkkədərəsi komandanı öz mövqeyində

möhkəm dayanırdı. Lakin Ilıca komandasının geri çəkildiyini öyrənincə, o komanda da Ərzurum istehkam mövqeyinə çəkilməyə qərar verdi. Bunun da tam zamanı idi. Çünki cəbhədə möhkəm müqavimət əsnasında, hər iki tərəfdən mühasirədə olduğundan türk müdafiə xəttləri arasından yol açmaq üçün süngüdən istifadə etməyə məcbur oldu. Bu komandanın parlaq hərəkatı, komandan olan polkovnik Torkomun (rus ordusunda rütbəsi podpolkovnik idi) enerjisi sayəsində olmuşdur. Komanda ancaq axşama doğru istehkam məntəqəsinə girə bildi. Tərkibində 350 əsgər və 40 at olan bu komandanın üç gündə verdiyi itki 93 ölü və yaralıdan ibarət olmuşdur.

Martın 11-də axşama doğru kəşfiyyat dəstələri raport verdilər ki, bir diviziyalıq düşmən qüvvəsi Ərzurum istehkam mövqeyinin qərb məntəqəsi önündə toplanmış, Ilıca və Gəz kəndlərini də zəbt etmişdilər. Nizami türk hərbi hissələrinin yan tərəfində də 1500-ə qədər müsəlmanlar Ciftlik-Dudcu kəndləri ətrafında dayanmışdılar. Ərzurum qalasının içində də 4000 silahlı müsəlman, türk ordusu ilə birlikdə hərəkata hazır vəziyyətdə dayanmışdılar. Bütün bunlara qarşı Ərzurum müdafiə xəttlərində ancaq 3000 adam var idi. Belə vəziyyətdə ciddi müqavimət göstərmək imkansızdı, istehkam mövqeyindəki şəraitin genişliyi ilə qarnizondakıların sayı qətiyyən uyğun deyildi və ləvazimat çatışmadığına görə hərbi hissələrlə əlaqə yaratmaq mümkün deyildi, buna görə də bu hərbi hissələr əlaqə saxlamadan müqavimət göstərməyə məcbur olurdular. Şəhər də hər tərəfdən axın edib gələn qaçqınlarla dolmuşdu.

Martın 11-də axşam saat 8-də qala komandanı Andranik fövqəladə bir hərbi məclis topladı. Bu məclis Ərzurumun evakuasiyasına və hərbi hissələrin geri çəkilməsinə qərar verdi.

Martın 12-də səhər saat 5-ə yaxın ağır texnikalar və qaçqınlar Həsənqalaya köçürüldü. Saat 7-də hərbi hissələr yola düşdü. Bunların geri çəkilməsini ört-basdır etmək və hərəkat zamanı bu hərbi hissənin təhlükəsizliyini qorumaq üçün qoşunun arxadakı

komandası istehkam mövqeyinin qərbindəki Harput və İstanbulqapılarının yaxınlığındakı mövqeləri işğal etdilər.

Səhər saat 9-a yaxın (Bu saat yanlışdır. Bizim ermənilərlə saat fərqimiz olsa da, bu qədər çox ola bilməz. Hərbi hissələrimiz səhər, bizim vaxtımızla saat 5-də hücuma başladılar və saat 6-da qala qapılarından girdilər – K.K). Harput və İstanbulqapılarının hər ikisinə də eyni zamanda hücuma keçdilər. Qısa, lakin şiddətli bir döyüşdən sonra, arxadan gələn yardımçı komanda mühasirəyə alınmaq təhlükəsini gördüyü üçün, arxasında da şəhərin silahlı və düşmən camaatı olduğuna görə geri çəkilməyə və süngüsü ilə düşmən xəttləri arasından özünə yol açmağa məcbur oldu. Qala qapılarını bağlamağa təşəbbüs göstərən şəhər camaatının bir çox hücumlarını dəf etdikdən sonra ən sonda Muradın süvariləri şəhəri tərk etdi. Ərzurum batalyonu Həsənqaladan 1914-cü ilin sərhəddinə doğru təhlükəsiz olaraq çəkilə bildi.

Martın 12-də Ərzurum müharibəsində batalyonun 136 zabit və əsgəri öldürülmüş, 95 əsgəri yaralanmış, 60 nəfəri əsir düşmüş, 120 erməni vaxtında şəhərdən qaça bilmədikləri üçün, Ərzurum camaatı tərəfindən öldürülmüşdür.

Ərzurumun qurtuluşu ilə türklərlə ermənilər arasında müharibə sona çatdı və müharibə Zaqafqaziya sərhəddini aşdı.

x x x

(Erməni) general G.Korqanov ermənilərin yalnız hərbi hərəkatları barədə yazmış! Ərzurumda baş verən hadisələrin əvvəlindən sonuna qədər öz gözləri ilə görmüş bir rusun xatirələrinə nəzər salaq! Ərzurumun qurtuluşu haqqında rus artilleriya komandanı Tverdo - Xlebovun rus dilində yazdığı «Tarixçə» və «Xatirə» adlı risalələrin tərcümələri Ərzurum müharibəsinin şahidi olmuş bir hərbçinin gördüklərini və bildiklərini bizə çatdırır.

*Tverdo -Xlebov*

# TARİXÇƏ

## (ƏRZİNCAN VƏ ƏRZURUMDA ERMƏNİ ZÜLMLƏRİ)

İkinci Ərzurum qalası artilleriya polkunun yaranmasından etibarən Osmanlı ordusunun Ərzurumu geri aldığı tarix olan 12 mart 1918-ci ilə qədərki vəziyyət haqqında*

## ÖN SÖZ

Ərzurumdakı rus ikinci artilleriya polkunun hərbi əməliyyat jurnalında nəşr olunan «Tarixçə» risaləsinin rusca əsli mühafizə edilir. Ermənilərin türklərin başına gətirdikləri dəhşətli hadisələr və etdikləri zülmlər, bu jurnalın bir çox yerlərində yazılıb qeyd olunmuşsa da, türklərin düçar olduqları bu zülm və qəddarlıqlar haqqında məlumat almağı arzu edən şəxslər Ərzurum Rus İkinci Artilleriya Polkunun komandiri, podpolkovnik Tverdo-Xlebovun «Tarixçə»sini və bu sənədlərə istinad edilərək nəşr olunan «Xatirə» adlı digər kitabı oxumalıdır.

1917-ci il dekabr ayının sonlarında Rus Qafqaz ordusu istər ordu, istərsə də baş komandanlığın icazəsi olmadan öz başlarına cəbhədən çəkildi. Ərzurum qalasının artilleriya polkundan yalnız 40 zabit qaldı. Bu zabitlər, əsgərlərin qoyub getdikləri topların başında duraraq, öz vəzifə borclarını yerinə yetirmək üçün

---

* 21 iyun 1918-ci il Batumda mayor Mehmed Sadıqın türk dilinə tərcümə etdiyi bu «Tarixçə» risaləsi, 1918-ci ildə Ərzurum (və ya Trabzonda) nəşr olunmuşdur. Nəşr olunmuş tərcümənin əsli, 1939-cu ildə Kazım Qarabəkir Paşanın İstanbulda çıxan «Ərzincan və Ərzurum qurtuluşu» adlı kitabında (s.229-266) dərc edilmiş: sadələşdirilmiş xülasəsi də 1970-ci ildə A.Hulki Saral Paşanın Ankarada çap olunan «Erməni məsələsi» adlı kitabında (s. 388-396) verilmişdir. Rus dilindəki əsli Müharibə Tarixi İdarəsi arxivi, I Dünya müharibəsi bölməsi 123, 5-ci göz, dosya 5-A-1 16.D.1-dədir. Biz, 1918-ci il türkcə nəşrindən sadələşdirilərək onun səhifə sırasına işarə etdik (M.F.K.).

qalmışdılar. Başqa zabitlər də buranı tərk edib getdilər. İstehkam mövqelərində 400-dən çox top qalmışdı. Orada qalmış zabitlərin topları aparmağa imkanları olmadığı üçün, məcburi olaraq öz mövqelərində qaldılar. Zabitlər istər vəzifə, istərsə də namus düşüncəsilə baş komandanlığın onların yanına yeni əsgər göndərilməsini, yaxud da topları orada qoyub getmələri üçün əmr gözləyirdilər. Birinci Polk cəbhəni tərk etdikdən sonra, orada qalan zabitlərdən İkinci Ərzurum Qala Artilleriyası Polku təşkil olundu. Ordunun çəkilib getməsindən sonra Ərzurumda iğtişaş yolu ilə Erməni Birliyi yarandı və özlərinə «Erməni əsgər birliyi» adını verdilər. O zaman da ordu komandanlığı yeni gəlmiş 400-ə qədər erməni İkinci Qala Artilleriya Polkunun ixtiyarına verdi. Bunların bir qismi qaçıb dağıldı, orada qalanlar da ancaq növbətçilik və batareyaların qorunması vəzifəsi ilə fəaliyyət göstərdilər.

Ordunun çəkilib getməsindən bir qədər əvvəl Şimali Qafqazda vətəndaş müharibələri başlayıb. Zaqafqaziyanın Rusiya ilə əlaqələri kəsilincə, Tiflisdə müvəqqəti bir hökumət yaranaraq Zaqafqaziya Komissarlığı adı ilə adlandırıldı və özünün müstəqil bir hökumət olmadığını, işlərini qaydaya salana kimi, müvəqqəti olaraq mərkəzləşdirilmiş hökuməti təmsil edib. Rusiyanın ayrılmaz bir hissəsi olduğunu elan etdi. Bu komissarlıq çəkilib gedən ordunun yerinə 31 dekabr 1917-ci il tarixli sərəncamı ilə yenidən ordu qurulacağını elan etdi və yeni ordu milliyyətcə rus, gürcü, müsəlman (türk), erməni korpusları və çərkəz, osetin, asuri (nasturi) kimi digər kiçik millətlərdən və kiçik birliklərdən ibarət olacaqdı.

Artilleriya birliklərinin hansı millətdən təşkil ediləcəyi məsələsi həll olunana kimi, Ərzurum Dəvəboynu istehkam mövqeyinin artilleriyası müxtəlif millətlərdən ibarət olaraq qaldı. Komanda heyətinin hamısı daima ruslar olub, əsgərləri isə ermənilər idi. Komanda heyətinin əsl kadrosu daima rus olan bu artilleriya birliklərini heç kim erməni hesab edə bilməz. Bunların erməni olduğuna dair heç kim bir əmr vermədi. Bu artilleriya birlikləri daima rus adını daşıdı. Biz, daima rus ordusu artilleriyasına xidmət etdik, rus xəzinəsindən maaş aldıq və rus

komandanlarının ixtiyarında olduq. Polkda rus papasının rəhbərliyi altında rus kilsəsi vardı, erməni kilsəsi yox idi.

Rus ordusunun çəkilib getməsindən iki ay keçmişdi, hələ də hərbi hissəni təkmilləşdirmək üçün başqa millətlərdən əlavə əsgər və çavuşlar gəlmədiyi kimi, Ərzuruma başqa milli birliklər də gəlməmişdi. Polkda intizam yarana bilmədi. Əsgərlər qaçır və talanlar edir, zabitləri hədələyir, hətta əmrlərinə açıqdan açığa əməl etməməyə başladılar.

Bolqar ermənilərindən olduğunu eşitdiyim polkovnik Torkom 1918-ci ilin fevral ayında Ərzurum şəhərinin komendantı təyin olundu. Bu ilin yanvar ayının sonunda erməni piyada hissələrindən bir neçə əsgər Ərzurumun ziyalı və tanınmış adamlarından birini evində öldürüb, əmlakını da talan etmişlər. Ölənin adını xatırlaya bilmirəm.

Baş komandan (Gürcü millətindən olan korpus generalı) Odişelidze, bütün birliklərin komandanlarını yanına toplayıb, mütləq üç günün içində qatilin tapılmasını tələb etdi. Xüsusilə erməni komandanlarına qatilin aşkar olunmasının onları daha çox maraqlandıracaq bir məsələ olduğunu söylədi və ermənilərin süvari əsgərləri tərəfindən şəhərdə edilən zülmlərə və itaətsizliyə son qoyulmasını tələb etdi. Sonra özlərini qoruya bilmək üçün türk əhalisinə silah paylamaq məcburiyyətində qalacağını da əlavə etdi. Polkovnik Torkom cavabında: -Bir neçə quldurun zülm və talan etməsilə, bir millətin adının ləkələnməsinin doğru olmadığını və bütün ermənilərin də quldur olmadığını qəzəblə bildirdi.

Birlik komandanları Hərbi tribunalın təşkilini və cəza qanununun tətbiq olunmasını, edam ilə cəzalandırmağı baş komandandan tələb etdilər. Baş komandan bu işlər haqqında təşəbbüs göstərdiyini söylədi. Ancaq qatilin tapılıb tapılmadığını bilmirəm. Yadımda qaldığına görə polkovnik Torkom martın 10-da Ərzurum şəhərindəki bütün birliklərdən ibarət bir nümayiş təşkil etdirib, iyirmi bir dəfə top atdıraraq, şəhərdə yaşayanlara (türklərə) əsgərlərin gücünü göstərmək istədi. Nümayiş zamanı polkovnik Torkom baş komandan, general Odişelidzeyə erməni dilində yazılmış çıxışını oxudu. Təbii ki, biz erməni dilini

bilmədiyimiz üçün heç birimiz onun çıxışından heç nə anlamadıq. Sonra söylədiklərinə görə Ermənistan dövləti yarandığını və şəxsən özünün hökuməti idarə etməyə başladığını elan etmiş! Baş komandan bunu öyrəndiyi vaxt Torkomu Ərzurumdan qovdu.

Tiflisdəki azərbaycanlı-gürcü və ermənidən ibarət olan müvəqqəti hökumətin, necə olur olsun erməni istiqlalına meydan vermək istəmədiyini anladıq.

İstər Ərzurumda və istərsə də ətrafındakı anbarlardan və cəbhədə ermənilərə verilmiş əşyalar, silahlar və ləvazimat onlara məxsus mallar olmayıb, başqa birliklər mövcud olmadığına görə, bu əşyaları mühafizə etmək üçün müvəqqəti olaraq və lazım gəldiyi vaxt geri qaytarmaq şərtilə, ermənilərə verildiyini və qərargahdan dəfələrlə onlara xəbərdarlıq edildiyini eşitdim. Bu əsnalarda ermənilər Ərzincanda dinc silahsız türkləri hər cür vəhşiliklərlə qırmış, Osmanlı hərbi hissələrinin yaxınlaşmasından qorxaraq, Ərzuruma doğru qaçdıqları xəbəri gəldi.

Baş komandanlığın aldığı xəbərlərə və hadisə yerində olub, geri qayıdan rus zabitlərinin söylədiklərinə görə, Ərzincanda ermənilər tərəfindən səkkiz yüz türk öldürüldüyü halda, özünü müdafiə etdiyi vaxt yalnız tək bir erməni ölmüşdü. Ərzurumun yaxınlığındakı Ilıca kəndində də, biçarə türklərin qətl edildikləri məlum oldu. 1918-ci il, fevralın 20-də Ərzurumda, günortadan sonra, küçələrdə, milislər və əsgərlər tərəfindən çoxlu türk kişilərinin toplanaraq naməlum bir istiqamətə göndərilməsi diqqətimi cəlb etdi. Hara göndərildiklərini soruşduqda «dəmiryolunda yığılıb qalmış qarların təmizlənməsi üçün muzdur olaraq göndəriləcəklərini» söylədilər.

Saat 3-ə yaxın, polkumun zabitlərindən, leytenant Lipski Yakutiyədəki bir kazarmada, erməni süvari əsgərlərindən bir neçəsi, küçədə 5 nəfər türkü tutub gətirərək, kazarmanın həyətində bir kənara basıb döydüklərini və bəlkə axırda onları öldürəcəklərini, telefonla mənə xəbər verdi. Rus zabiti bunları ermənilərin əlindən qurtarmağa cəhd etmişsə də, o da silahla hədələnmiş və orada olan bir erməni zabiti də bunların erməni əsgərlərinin əlindən qurtarılması təklifinə razılıq verməmişdi.

Yaxınlıqda olan başqa üç rus zabitini özümlə götürüb bu zavallıları qurtarmağa qaçdım. Mənə telefonla xəbər verən rus zabiti ilə Bələdiyyə rəisi Stavrovski qarşıma çıxıb, yenə ermənilər tərəfindən küçədə tutulan və onların dostu olan bir türkü axtardıqlarını söylədilər. Erməni əsgərləri onların kazarmanın həyətinə girmələrinə silahla mane olduqlarını da söylədilər.

Kazarmaya yaxınlaşdığımız zaman, həyət qapısından on ikiyə qədər müsəlmanın qorxu və dəhşətlə çıxıb qaçdıqlarını gördük. Bunlardan birini tuta bildiksə də, onunla tərcüməçisiz danışa bilmədik. Müqavimət göstərilmədən kazarmanın həyətinə girdim. Küçədən toplanan adamların harada olduqlarını, onların yerlərini göstərmələrini tələb etdim. Adamlardan heç kimin kazarmada olmadığını söylədilər. Kazarmanı axtardığım vaxt, kazarmanın hamamında qorxu və dəhşət içində yetmişə qədər türkün gizlədildiyini gördüm. Tez yoxlama aparmağa başladım. Bu işin təşkilatçısı olan altı əsgəri həbs edərək, türkləri azad etdim. Yoxlama əsnasında naməlum bir erməni əsgəri tərəfindən kazarmanın yanındakı evlərdən birinin damında görünən zavallı bir yoxsul türkün tüfənglə öldürüldüyünü öyrəndim. Martın 12-də Osmanlı hərbi hissələrinin Ərzurumu geri aldıqları əsnada heyf ki, bütün sənədlər arasında bu təhqiqat apardığım sənədlərlə, azad etdiyim türklərin adları yazılmış siyahı da itmişdir. Lakin bu gün Ərzurumda sağ qalanlarla küçədə rastlaşdığım vaxt, həyatlarını qurtardığıma görə minnətdarlıqlarını, ürəkdən gələn salamlarını çatdıran türklərdən soruşulsa, baş verən hadisələrin həqiqət olduğu məlum olar.

Ərzurum Bələdiyyə rəisi müsyö Stavrovskinin yanında katiblikdə işləyən tərcüməçi Axıskalı Əli Bəy Pipinov yoxlama apardığı sıralarda protokol və siyahını qaydaya saldığı üçün həmin şəxsləri o tanıya bilər.

Yoxlama vaxtı, artilleriya polkuna aid olan piyada birliyindəki ehtiyatda olan erməni zabiti Karaqudayevin baş vermiş hadisələrin təşkilatçısı olduğu, türkləri zorla evlərindən çıxararaq topladığı zaman, onların bir çox əşyalarını da, bu sahədə böyük bacarıq sahibləri olan erməni əsgərləri vasitəsilə

güclə əllərindən alaraq talan edildikəri məlum oldu. Həmin zabit, başqa erməni əsgərləri ilə birlikdə həbs olundu. Axşamüstü bölgə komissarı Zlatov və onun köməkçisi Starovskinin yanında, baş komandana bu vəziyyət haqqında məlumat verildi. Bu gün də ermənilər müxtəlif yerlərdə bir neçə nəfəri öldürmüş və türk bazarında yanğınlar törətmişlər.

Ümumi olaraq bu günlərdə, Ərzurum və onun ətrafında tək-tək ölüm halları olduğu haqda məlumatlar gəlməkdə davam edirdi. Tafta istehkamı yanında bir türkü öldürən ermənini şəxsən özüm tutub baş komandanlığa təslim etdim.

Fəhlə kimi işləməyə göndərilən türklərdən bir çoxunun izi itirilərək, (şəhərin şimal-şərqində və dekovil yolunun cənubundakı Yanıqdərədə hamısı birlikdə böyük vəhşiliklərlə şəhid edildiklərindən) bir daha geri qayıtmadıqları əhali tərəfindən söylənilirdi. Bələdiyyə heyəti bunu baş komandana çatdırdı.

Yüksək rütbəli artilleriya zabitləri birləşərək birlikdə baş komandana verdiyimiz raportda: "Ərzurumdakı istehkam mövqeyindən hamımızın çəkilməsinə icazə verilməsini, çünki burada qalarkən heç bir hadisə törətməyib, ancaq bu quldur ermənilərə görə adımızın ləkələnməsini heç bir zaman istəmədiyimizi bildirdik".

Bunun cavabında baş komandan: «Osmanlı ordusunun komandanı, general Vəhib Paşadan aldığı radioteleqrafda, Osmanlı ordusunun Ərzincanı zəbt edib, irəliyə doğru hücumunu davam etdirmək əmrini aldığını və ermənilərin bu bölgədəki türk əhalisinə etdikləri zülmlərə görə başqa cür cavab verməli olacaqlarını və bu hücumun rus birlikləri ilə təmas nöqtəsinə gəlincəyə qədər davam edəcəyini bildirdiyini», dedi.

Bu səbəbdən Zaqafqaziya komissarlığı, Osmanlı hökumətinə sülh təklif etdi. Radioteleqrafla alınan cavabda Osmanlı ordusu və komandanı sülh təklifini məmnuniyyətlə qəbul etdiklərini, lakin məsələnin həlli üçün, Zaqafqaziya Komissarlığının bu təklifinin Osmanlı hökumətinə çatdırıldığını bildirilmişdir.

Bizim müraciətimizə görə, general Odişelidze Tiflisdəki komissarlığın rəisi və xarici işlər komissarı, əslən gürcü olan

Kekuçkuri və baş komandan general, əslən rus olan Lebedinski ilə teleqraf əlaqəsi yaratdı.

Alınan cavabda Erməni Milli Məclisinə bir ultimatum verilərək, erməni rəzalətinin dayandırılması qəti surətdə tələb edilməklə, Ərzurumdakı özbaşınalıqlara son qoymaq üçün, erməni məclisi tərəfindən doktor Gavriyev və Daşnak quldur dəstəsinin başçısı, türk cəlladı Andranik göndərilmişdir. Zabitlərin istəklərini qəti olaraq nəzərə almaq, Osmanlı hökumətindən sülh müqaviləsi bağlamaq üçün alınacaq cavabdan asılı olaraq, zabitlərin o zamana qədər Ərzurumda qalmalarının vacib olacağı bildirilmişdir. Buna əlavə olaraq zabitlərə indiyə qədər vəzifələrini yerinə yetirdikləri üçün təşəkkür etməklə bərabər, Rusiyanın yenidən bir təhlükə qarşısında qaldığı vaxt bütün zabitlərin son dəqiqəyə qədər öz vəzifələrinin başından ayrılmayacaqlarna inandıqları da qeyd edilmişdir.

Bundan başqa, ordu komandanı yazılı surətdə verdiyi əmrdə bütün zabitlərin öz vəzifələrindən ayrılmamaları üçün xəbərdarlıq edilmiş, zabitlərin nahaq yerə ölüm işləri və adlarının pis işlərlə əlaqələndirilib çəkilməsinə heç cür icazə verməyəcəyini, əlində olan bütün imkanlardan istifadə edərək buna mane olacağını bildirdi. Bu səbəbdən də, biz ancaq rus komandasının əmrinə əsasən və yalnız Rusiyanın mənfəəti üçün Ərzurumda qaldıq. Bu zaman da, Osmanlı hökuməti Zaqafqaziya Komissarlığının təklifi ilə razılaşmış, sülh müqaviləsi bağlamaq üçün görüşmələrin Trabzonda 1918-ci il martın ikisində başlanacağı məlum oldu.

Ərzurum və onun ətrafında Osmanlı hərbi birlikləri ilə döyüşməyi düşünməyərək, ordu, sülh müqaviləsi imzalanıncaya qədər Ərzurumda qalacaq. Müqaviləyə əsasən bütün silahlar və ləvazimat, ya Rusiyaya daşınacaq, yaxud hamısı Osmanlı hökumətinə təhvil veriləcək və əks təqdirdə sülh müqaviləsi bağlanmadan Osmanlı hərbi birlikləri Ərzurumu geri almağa təşəbbüs etdikləri halda, toplar xarab edildikdən sonra, bütün heyət və zabitlər də Rusiyaya qayıdacaq və bunların qayıtması üçün hər halda yeddi gün əvvəl qəti əmr veriləcəyini ordu komandanı bütün zabitlərə şifahi halda bildirdi.

Zabitlərin Ərzurumda qalıb qalmaması məsələsi qəti surətdə həll olununcaya qədər, bəzi köçəri tayfaların gözlənilən hücumlarından müdafiə olunmaq məcburiyyəti yarandığı məlum oldu. Çünki «bəzi köçəri tayfaların heç kimə qulaq asmayıb, öz başına hücum etmələrini» Osmanlı hökuməti 18 dekabr 1917-ci ildə Ərzincanda imzalanan mütarikə (atəşkəs) zamanı, rəsmi olaraq bildirmişdi. Bu səbəbdən hələ fevralın ikinci həftəsinin əvvəllərində Ərzurum-Ərzincan cəbhə xəttinə lazımi qədər top göndərilməsi və camaatın bu cəbhə xəttinin ətrafındakı anbarlardan ərzaq talan etmək üçün edilən hücumların qarşısını almaq, ordu komandanlığında tədbirlər görmək qərara alınmışdı. Buna görə hər cəbhə məntəqəsinə bir zabit ilə bir və ya iki top yerləşdirildi. Erməni hərbi birlikləri, Ərzincandan Ərzuruma çəkilərkən, bu topları da özləri ilə birlikdə geri qaytardı. İyirmi üç fevralda, eyni məqsədlə Trabzonqapısı üstündəki Böyükkirəmitlər mövqeyi ilə Əbdürrəhmanqazi mövqeyinə iki top yerləşdirilmişdi. Ayrıca şəhərin müdafiə məntəqələrinin bəzilərinə də bir neçə top yerləşdirildi.

Palantökən istiqamətindən müsəlman milislərin hücumlarını ehtimal etdiklərinə görə Kars ilə Harputqapıları arasına da top yerləşdiriləcəkdi. Halbuki bu toplar, xüsusilə müsəlman milislərin hücumuna qarşı yerləşdirilib, bütün xidmətçi personal da bu xidməti yerinə yetirə bilsə belə, topçusu olan nizami orduya qarşı, bir iki dəfə atəş açılarsa hamısının məhv ediləcəyi məlum idi. Fevralın sonlarında uzaq mövqelərdəki topların sürgüləri, müşahidə etmək və nişan almaq üçün toplardakı durbinlərin hamısı toplanaraq mərkəzdəki anbara yığılmış, yaxın mövqelərdəki topların da nişangahları çıxarılıb, indi də sürgülərin götürülməsinə başlanmışdı. Palantökəndəki toplar üçün belə bir əmr verilmişdisə də, hələlik heç nə etməmişdilər. Yalnız müsəlman milislərin hücumlarını dəf etmək üçün ayrılmış topların nişangahları hələ üstündə idi. Osmanlı hərbi birliklərinin hələlik bu yaxın zamanlarda hücumları gözlənilmirdi. Osmanlı hərbi birlikləri yay mövsümündən qabaq hücuma keçməyə

qüdrəti olmayan və mənəvi cəhətdən də əhval-ruhiyyəsi pozulmuş bir birlik kimi güman edilirdi.

Fevralın 25-də, təpədən dırnağa qədər silahlanmış erməni quldur dəstəsinin on-on iki nəfər türkü vağzal binasının yanında güllələmək istədiklərini görən iki rus zabiti türkləri ermənilərin əlindən qurtarmağa cəhd etmişlərsə də, ermənilər bu zabitləri silahla hədələdikləri üçün, bu zavalı türklərə heç kim yardım edə bilməyib öldürülmüşdülər.

Fevralın 26-da ordu komandanı, hərbi vəziyyət elan etməklə Hərbi tribunal təşkil etdi və əvvəlki qanuna əsasən edam cəzasının tətbiq olunması üçün əmr verdi. 13 fevral 1918-ci ildə Ərzincan azad olunarkən, oradan 11 gün ərzində Ərzuruma çəkilən ermənipərəst, fransız soyundan olan polkovnik Morel, Ərzurum istehkam mövqeyinin komandanı və ermənilərdən birisi də Hərbi tribunalın rəisi təyin olundu. Baş komandan korpus generalı Odişelidze ilə birlikdə istehkam mövqeyinin komandanı, general Gerasimov da bu gün Ərzuruma yola düşdülər. Onlar, lazım gəldikdə artilleriya geri çəkilərsə, arxada hansı mövqedə toplanacağını təyin edəcəkdilər. İstehkam mövqeyinin artilleriya komandanlığı vəzifəsini yerinə yetirmək üçün mən qaldım. Polkovnik Morelin qərargahı əksəriyyətlə rus zabitlərindən təşkil olunmuşdu. Polk qərargahının rəisi, qərargah kapitanı Şneör idi.

Ordu komandanı Sarıqamışa gedən kimi, polkovnik Morel başqa bir görkəm aldı. Ərzurumun son dəqiqəyə qədər müdafiə ediləcəyini, zabitlərlə əli silah tutan adamlardan heç kimin şəhəri tərk etmələrinə icazə verməyəcəyini söylədi. Ərzurumu tərk etmək istəyən zabitlər haqqında Hərbi tribunala məlumat verdiyim zaman, Hərbi tribunalın üzvlərindən erməni Sokhumyan yüksək səslə qışqıraraq: «Ərzurumu tərk etmək istəyənlərin hamısını şəxsən güllələyəcəyini və gizlicə qaçanlar isə şəxsən öz vəsiqələrini üstlərində gəzdirmədikləri üçün Körpüköy və Həsənqalada yerləşdirilən qüvvətli erməni birlikləri tərəfindən tutulub Hərbi tribunala göndəriləcəklərini söylədi. Qurtulması çox çətin olan bir tələyə düşdüyümüzü anladım. Hərbi vəziyyət

və Hərbi tribunalın erməni quldur dəstəsi üçün deyil, əslində rus zabitləri üçün təşkil olunduğu məlum oldu.

Şəhərdə özbaşınalıq və təzyiqlər əvvəlki kimi davam etdi. Hər zamankı kimi, hücuma məruz qalan silahsız və müdafiəsiz türk əhalisini rus zabitləri imkan daxilində qorumağa çalışdılar. İxtiyarımda olan zabitlərdən bir çoxu küçədə yaxalanıb, qarət edilmiş türkləri ermənilərin əlindən zorla qurtarmışdılar. Elmi-texniki konsultant vəzifəsində işləyən Karayev gündüz küçədə bir türkü qarət edib qaçan ermənini silahı ilə vurmuşdu. Silahsız dinc əhalini öldürənlərin cəzalandırılacağına söz vermişlərsə də, bundan bir şey çıxmamışdı.

Hərbi tribunal ermənilərdən qorxduğuna görə heç bir ermənini məhkum edə bilmədi. Halbuki Hərbi-tribunalın təşkil olunmasını ən çox ermənilər tələb etmişdilər. Heç vaxt bir ermənının başqa bir erməni tərəfindən cəzalandırılmayacağını türklər təkidlə söyləyirdilər. Rus atalar sözündə: «Qarğa qarğanın gözünü oymaz» deyirlər ki, bunun da doğru olduğunu gözümüzlə gördük. Əli silah tutan ermənilər qaçan ailələrini qorumaq məqsədilə, onlarla birlikdə qaçdılar. Həbs olunan, ehtiyatda olan zabit Karaqudayev, məndən xəbərsiz və icazəm olmadan sərbəst buraxılmış. Onun sərbəst buraxılmasının səbəblərini polkovnik Moreldən soruşduqda, yenidən tədqiqat işi aparılaraq, günahkar olmadığının sübut edildiyini söylədi. Halbuki, istər mən, istərsə də iki zabitim hadisənin əsas şahidlərindən idik. Bizdən buna dair heç bir şey soruşulmadı. Belə olduqda, polkda tədqiqat və sorğu-sual apararaq, sənədləri polkovnik Aleksandrova verdim. Taftada tutduğum cani də, heç bir cəza ilə cəzalandırılmadı.

Polkovnik Morel Ərzurumdakı türk əhalisinin qiyamından qorxmağa başladı. Martın 2-də Andranik Ərzuruma gəldi. Onunla birlikdə, istila edilən bölgələr komissarının köməkçisi doktor Zavriyev də gəlmişdi. Erməni məsələlərilə heç maraqlanmadığımız üçün Andranikin Osmanlı hökuməti tərəfindən edama məhkum edilmiş bir cani sayıldığından xəbərimiz yox idi. Bütün bunları martın 20-də Osmanlı ordusu komandanı ilə söhbət zamanı eşitdim. Andranik rus briqada generalı formasında gəldi.

Dördüncü rütbədən Sen-Vladimir və ikinci rütbədən Sen-Jorj xaçı medallarını gəzdirirdi. Bunlardan başqa, əsgərlərə məxsus Sen-jorj xaçının ikinci rütbəsini də gəzdirirdi. Onunla birlikdə qərargah rəisi olan, rus qərargah polkovniki Zinkeviç də gəlmişdi. Andranik Ərzuruma gəlməmişdən bir gün əvvəl, polkovnik Morel, Andranikdən aldığı teleqramda «Ərzurumdan qaçan qorxaqların hamısını yox etmək üçün Körpüköyünə pulemyotlar qoyulmuş» deyə yazıldığını hamıya elan etdi. Andranik gəldikdən sonra, polkovnik Morelin yerinə, Ərzurum mərkəzi komandanlığını öz əlinə aldı, polkovnik Morel də onun tabeliyində qaldı. Biz isə polkovnik Morelin komandası altında qaldıq.

2 Mart 1918-ci il Andranikin gəldiyi gün, mənim bölgəm olan Təpəköydə bütün əhali, qadın, kişi, çoluq-çocuğun hamısının ermənilər tərəfindən qırıldığını, o bölgədə olan zabitimin vasitəsilə məlumat aldım. Andraniklə görüşən zaman, baş vermiş hadisələri ona danışdım. Mənim yanımda Təpəköyə iyirmi atlı göndərilməsini, günahkarlardan heç olmasa bir nəfər də olsa tutulmasını əmr etdi. Bu işin necə nəticələndiyini mən bu gün də bilmirəm.

Polkovnik Torkom yenə meydana çıxdı. Andranik gəldikdən bir-iki gün sonra erməni artilleriya polkovniki Doluxanov Ərzuruma gəldi. Əvvəlcə o, artilleriya müfəttişi olaraq mənim rəisim olacağını söylədi. Buna cavab olaraq, mən özüm diviziya komandanı vəzifəsini apardığım üçün, rəisə ehtiyacım olmadığını və əgər belə olmasa, bu vəzifədən gedəcəyimi bildirdikdə, Doluxanov özünün Ərzurum istehkam mövqeyinin artilleriya işlərini idarə etmək vəzifəsinə təyin olunduğunu dedi. Buna görə, mənə göndərdiyi qərarlar öz adından deyil, baş komandan Andranikin adından göndərməkdə davam etdi. Komandanlığım altındakı artilleriya batalyonu komandanının müavini, erməni Canbolatyan da mənim işlərimə qarışmağa çalışırdı. Bütün topların və projektorlarla generatorlarının hamısının geri qaytarılacağını söylədikdə, ermənilərin hər halda Ərzurumda qalacaqları üçün, bunların hamısının onlara lazım olacağını və heç birinin geri göndərilməsinə razı olmayacağını bildirmişdi.

Bundan məlum olur ki, bütün komandanlıq işlərini ermənilər öz əllərinə alaraq, rus zabitlərinə də, icra məmurluğundan başqa bir iş tapşırmaq istəmirdilər.

Rus zabitlərinin yardımı ilə ermənilər öz müstəqilliklərinə çalışdıqları, lakin bunu heç kimə hiss etdirmək istəmədikləri məlum idi. Çünki qarşıya qoyduqları bu məqsədlərini açıqca söyləsələr, rus zabitlərinin çoxu işdən gedincə, ermənilər zabitsiz qalacaqdılar. Artilleriya zabitlərinin öz vəzifələrini tərk etmələrindən ermənilərin çox qorxduqları, dağ artilleriya batalyonu komandanının müavini, kapitan Pilyatın aşağıdakı sözlərindən məlum olur: fevralın 20-də dağ artilleriyası batalyonunun Sarıqamışa gedəcəyindən xəbər tutan ermənilər, hələ fevralın 18-də artilleriya parkının komandanını həbs etmiş və ordu komandanının əmri ilə sərbəst buraxmış, sonra üç dəfə yenidən həbs etmişlər. Ermənilər əgər artilleriya qüvvələri Ərzurumu tərk edərsə, Ərzurumu qana boyayacaqlarını söyləyərək, hədələməyə başlamışdılar. Həbs edilənlər rus qərargah zabitlərinin təşəbbüsü ilə sərbəst buraxıldıqları üçün sonunda ordu komandanlığının əmrilə artilleriya qüvvələrinin Ərzurumdan çıxarılması dayandırılmışdır.

Yeddinci dağ artilleriyası komandanı ilə razılaşmaq məcburiyyəti yarandı. Rus artilleriya zabitlərinə ermənilər bir başa təzyiq göstərməyə cəsarət edib, bizim ermənilərin xeyrinə iş görməyimizi açıqdan açığa tələb edərlərsə, gizlicə bir-birimizə kömək etməyimizi qərarlaşdırdıq. Əlimizdə maddi qüvvə olaraq top, pulemyot və bir də rus zabitləri vardı. Dağ artilleriya zabitləri mümkün olduğu qədər bir-birlərinə yaxın yerlərdə yaşamağa başladıqları kimi, istehkam mövqeyinin artilleriya zabitləri də, işğalın əvvəlindən bəri qərargahımızın yerləşdiyi Yeğenağadakı müsəlman məhəlləsində bir-birimizə yaxın məsafələrdə toplandıq. Andranikin gəlişindən sonra polkovnik Morelin (qədim Ərzurum Sultanisi (liseyi) və indi Qız orta məktəbi binasındakı) qərargahında Ərzurum əhalisinin qiyam edəcəyi qorxusu yarandı. Xalq hərəkatının təşkilatçıları həbs olunarkən, əgər bir qiyam baş verərsə, bunlara topdan atəş açmaq üçün, Məcidiyə istehkamında

bu işin öhdəsindən gələ bilən rus zabitlərinin yerləşdirilməsini polkovnik Morel əmr etdi.

Bizim hamımızın da müsəlman məhəlləsindən çıxıb, erməni məhəlləsinə köçürülməyimiz əmr edilmişdi.

İki ildən bəri Yeğenağadakı müsəlman məhəlləsində Münir Özışık Bəyin malikanələrində türklərlə yanaşı yaşadığımıza görə, ermənilərin öz özlərinə şübhələnərək əsası olmayan qorxaqlıqlarına güldük. Rus artilleriya zabitləri sözü bir yerə qoyub razılığa gəldilər və namuslu bir düşmənlə vuruşmaq üçün, vəzifə başında olarkən, qadın və uşaqlara topdan atəş açılmasına heç bir vaxt girişməyəcəklərini çox kəskin şəkildə bildirdilər. Çünki ermənilər, heç bir səbəb olmadığı halda, türklərin qiyam etdiklərini fərz edərək, bu zavallıların üzərinə topdan atəş açılmasını tələb edəcəklərinə şübhə qalmamışdı.

Erməni məhəlləsinə köçmək aşağıdakı üç səbəbə görə, imkansızdı: 1) –Təyin olunan vaxtda, köçmək mümkün deyildi; 2) –Rus zabitlərinin türk məhəlləsindən köçmələri burada ermənilərin sərbəstcə qırğınlar törətmələrinə əlverişli şərait yaradacaqdı, 3) – Rus zabitləri, son zamanlar bütün sahələrdə heç bir inamı qalmayan erməni mühitinə özlərini atmış olacaqdılar. İstehkam mövqeyi tərkibinə daxil olmayan dağ artilleriyası batalyonu zabitləri də digər zabitlər kimi, ermənilərin bu təklifini rədd etdilər. Sonda ermənilər öz işlərini özləri görmək məcburiyyətində qalaraq, qiyam təhrikçiləri deyə bir çox adamları tutmağa başladılar. Polkovnik Morelin «şəhəri top atəşinə tutmaq» təklifi nəzərimizi cəlb etdiyindən, rəhbərlik etdiyim zabitlərə iclas çağırmaq məcburiyyətində qaldım. Bir gün ara verməklə iki iclas çağırdıq. Birinci yığıncaqda Ərzurumda olan bütün artilleriya zabitləri ilə birlikdə bir neçə gün qabaq Ərzuruma gəlmiş iki ingilis zabiti, polkovnik Morel, Andranikin korpus rəisi, korpus polkovniki Zinkeviç, Doluxanov, Torkom, Andranik və dr. Zavriyev də iştirak edirdilər.

İngilis zabitlərini bu yığıncağa çağırmaqda yeganə məqsədimiz, rus zabitləri ilə erməni komandanı arasındakı münasibəti göstərmək və rus zabitlərinin erməni vəhşiliklərinə necə əngəl

olmağa çalışdıqlarını başa düşüb, bir neçə gündən sonra vətənlərinə qayıdarkən, gördüklərini və oxuduqlarını bu hadisə ilə təsdiqləyə bilmələri üçündü. Çünki bilavasitə istifadə etmək üçün teleqraf və telefon xəttlərinə malik olmadığıma görə, göndərdiyim teleqramların öz yerlərinə çatdırılmamasına inandığımı, gördüyüm və aldığım məlumatlardan öyrəndiyim hər cürə erməni vəhşiliklərini bütün həqiqəti ilə açıb söylədim. Erməni itaətsizliyinin son həddə çatdığını, şəxsən ordu komandanı Odişelidzedən eşitdiyim hadisələrlə izah etdim. Bütün söylədiklərimi bu cümlələrlə bitirdim. «Ərzurumda qalan bütün rus zabitləri, öz ləyaqət və hərəkətləri ilə ermənilərin türk xalqına etdikləri zülmləri ört-basdır etmək məqsədilə deyil, ancaq öz komandanlarının əmrinə itaət edərək yalnız Rusiyaya xidmət etmək üçün qaldıq və Ərzurumda olduğumuz müddətdə erməni vəhşiliyinə və rəzalətinə son qoyulmasını, belə olmazsa, bütün rus zabitlərinin öz yerlərini tərk edərək geri qayıtmalarına icazə verilməsini təkidlə tələb edəcəyimizi» bildirdim. Məndən sonra çıxış edən zabitlər də mənim fikirlərimlə həmrəy olduqlarını bildirdilər.

Andranikin buna verdiyi cavabda: «Ermənilər, Rusiyaya son dərəcə minnətdar olub, böyük Rusiya əhalisinin ayrılmaz hissəsi olduqlarını və indi də, Rusiyaya yardım etməkdən başqa bir məqsədləri olmadığını, «erməni qırğını» deyilən məsələnin əsrlərdən bəri erməni-türk arasındakı düşmənçiliyin nəticəsi olmaqla bərabər, bundan sonra heç bir qeyri-qanuni hərəkətlərin baş verməməsini təmin etmək məqsədilə Ərzuruma gəldiyini və əgər burada ermənilər onun sözlərinə fikir verməyib, qırğının qabağını almağa müvəffəq olmazsa, şəxsən özünün birinci olaraq Ərzurumdan gedəcəyini» dedi. Bütün danışıqlar tərcüməçi vasitəsilə aparılırdı. Qayıtmaq istəyən zabitlərin Ərzurumdan çıxa bilmələri üçün imkan olub olmadığını soruşduqda: «Öz cəsarətinə güvənə bilməyənlərin, Ərzurumu tərk etmələri daha yaxşı olar, bunların Ərzurumdan çıxmalarına imkan daxilində yardım ediləcəyini" söylədi. Polkovnik Zinkeviç isə bütün iclasdakıların önündə: «Burada görüləcək işlər, ancaq Rusiyaya xidmət etmək

vəzifəsi olduğuna inanaraq, şəxsən özünün də ancaq bu məqsədlə Ərzurumda qaldığını» söylədi.

Axırda, bütün zabitlər on gün də gözləyərək, Andranikin dediklərinin doğru olub-olmadığını görmək və bu vəziyyətə görə də hərəkət edəcəklərinə qərar verdilər. Bu iclas martın beşi, ya da altısında çağırıldı. İclas bitdikdən bir az sonra polkovnik Doluxanov rus zabitlərinin ermənilərə bu qədər nifrət hissilə baxmaqda olduqlarını heç bir zaman təsəvvür edə bilməyib, təəccübləndiyini istər mənə, istərsə də başqa zabitlərinə çox çaşqınlıqla söyləmişdir. Sabahısı gün Andranik tərəfindən küçələrə, cami və çeşmə divarlarına yapışdırılan türkcə müraciətnamələrdə: «Öldürülən müsəlman olsun, erməni olsun, mütləq günahkar tapılıb eyni cəza ilə cəzalandırılacaq və müsəlmanların heç kimdən qorxmayıb dükanlarını açaraq ticarətləri ilə məşğul olmaları, dəmiryolunda qarı təmizlətmək bəhanəsilə, işlətmək üçün toplanıb göndərilən müsəlmanlardan birinin yoxa çıxdığı vaxt, bunları toplayıb göndərməyə cavabdeh olan cəmiyyət üzvlərinin hamısının öz həyatları ilə məsuliyyət daşıyacaqları və sairə» yazılmışdır (Ərzurumlu olan bu cani Andranik, ayrıca qoşa minarələr önündəki meydanda türkcə nitq söyləyərək, Ərzurumluları evlərindən bayıra çıxarmağa və beləcə asanlıqla həbs olunmaları üçün həvəsləndirici və and içməklə inandırıcı sözlər söyləmişdir).

Sabahı günü tabeliyimdəki batalyonun birinin komandanı olan kapitan müavini Canbolatyan ilə birlikdə at üstündə bir küçədən keçərkən, bir neçə adamın divardakı elanı oxuduqlarını gördük. Canbolatyan bunlara türkcə izah edərək: «Müsəlmanlar tərəfindən bir qiyam olmadığı təqdirdə, ermənilər tərəfindən heç bir xətər toxunmayacağını» dedi. Bunun qarşılığında: «İki ildən bəri müsəlman (türk) əhalinin heç bir pis işlər görmək təşəbbüsləri olmadığı kimi, bundan sonra da belə bir pislik etmək niyyətində olmayıb, ancaq silahsız və müdafiəsiz qalan" müsəlmanların, səbəbsiz yerə, günahları olmadan öldürülməmələrini xahiş etdilər. Mənim rus artilleriyası komandanı olduğumu istər mən və istərsə də mənim yoldaşlarım olan rus zabitləri, müsəlman əhalinin səbəbsiz yerə zərər çəkmələrinə razı olmayıb,

indiyə qədər olduğu kimi, bundan sonra da əllərindən gəldiyi qədər bu zavallıları qoruyacağımızı onlara başa salmasını kapitan müavini Canbolatyandan xahiş etdim. Orada olan türklərdən bir çoxu və xüsusilə, içlərindən bir-iki nəfəri, 20 fevral hadisəsində şəxsən mənim onların həyatlarını xilas etdiyimi söyləyərək, sözlərimi təsdiq etdilər. Canbolatyan (Taşkan) erməni komitəsi üzvlərindən idi.

İkinci iclas yalnız rus zabitlərinin iştirakı ilə təşkil olunub, kənardan ancaq dr. Zavriyev gəlmişdi. Bu iclasda: «İkinci Ərzurum artilleriya polkunun ermənilərin düşündükləri kimi, erməni artilleriya polku olmayıb, daima rus artilleriyası polkudur və zabitlərdən heç biri ermənilərə xidmət etmək üçün yazılmamışdı, yazılmaq da istəmir. Ermənilərə xidmət etmək üçün, heç birimiz imza atmamış, müqavilə də bağlamamışıq və real olaraq hökumət bu polkun rus yaxud erməni polku olduğunu qəti olaraq göstərməlidir. Əgər rus polkudursa bizə rus əsgərləri göndərməli, əgər erməni polkudursa rus ordusunda xidmət etməyi arzu edən zabitlərə bu erməni polkunu tərk etmələri üçün icazə verilməlidir. Qafqaz cəbhəsində xidmət etmək istəməyənlər də başqa cəbhədə xidmət etmək üçün geri göndərilməlidirlər. Ərzurumda elan edilən hərbi vəziyyət yalnız bu məsələyə mane ola bilərdi. Bu zaman yayılmış məlumata görə, Zaqafqaziya Rusiya hökumətindən ayrılacaqsa, rus zabitlərinə burada xarici ölkə zabiti kimi qalacaqlarına mütləq icazə verilməlidir» kimi danışıqlar olmuş və nəticədə yayılmış məlumatlara əsaslanaraq, bütün arzu edən zabitlər ya Müdafiə Nazirliyinin ixtiyarına, yaxud rus korpuslarından birinə köçürülmək üçün rəsmi surətdə müraciət edə bilərlər. Mənə təqdim olunacaq belə ərizələr uyğun görülərsə, lazım olan yerlərə göndəriləcəyini elan etdim. Bu iclas zamanı həmin məsələlər ətrafında gərgin mübahisələr gedərkən, Yeddinci Qafqaz dağ artilleriya batalyonundan kapitan müavini Yermolov yeni təşkil olunmuş erməni batalyonuna getmək istəməyərək, oradan çıxmaq ərizəsi vermiş, əvvəlcə onu öz fikrindən imtina etməyə cəhd etmişlər. Lakin onun öz fikrində təkid etdiyini gördükdə, polkovnik Morel Yermolovun yazdığı

ərizənin altında, «bu zabit işə yaramadığı üçün cəbhə qərargahının ixtiyarına qaytarılsın» qeydini qoyaraq, 24 saat ərzində Ərzurumdan çıxmağa məcbur edilmişdir. Belə bir fədakar döyüşçü olan zabit Yermolov xüsusilə erməni hərbi birliklərində xidmət etmək istəmədiyindən və bir də ehtiyatsızlıq edib polkovnik Morelin ermənilərə xidmət etdiyini açıq söylədiyinə görə belə haqsız yerə ləkələndiyi məlum oldu.

Dr. Zavriyev də Andranikin sözlərini eynilə təkrar edərək «Sülh müqaviləsi bağlanana qədər Ərzurumda qalmağımız, Rusiyanın mənfəəti naminə və mədəni surətdə yaşayan bir millətə mənsub zabit olduğumuz üçün, əgər şeytan bizi yoldan çıxartsa belə - "Ermənilər, siz türklərlə haqq hesab çürüdün! Bir-birinizi öldürün. Sizin daxili işlərinizə nə üçün qarışaq kimi sözlər deyə bilməyəcəyik» fikrini irəli sürdü. Axırda «Əgər bəşəriyyətə xidmət etməyi arzu edirsinizsə, Ərzurumda qalaraq, bundan sonra ermənilərin türkləri qırmasına imkan verməmək üçün çalışmağımız da bir insanlıq vəzifəsi olduğu üçündür» dedi. Zavriyevin çıxışı lazımi qədər təsir edə bilmədi. İclasdan sonra, şəxsən . Zavriyevin özü «artıq heç bir şeyi qaydaya salmağa ümidi qalmamış və bəlkə bütün zabitlər erməni batalyonundan gedəcəklər» dedi.

Osmanlı ordusunun Ərzurumu geri almasından on gün sonra, 22 mart 1918-ci ildə bəzi sənədləri oxumağa imkan yarandı. Bu sənədlərdə dr. Zavriyev açıqdan açığa ermənilərə muxtariyyət verilməsindən bəhs etmiş və bunun üçün də rus zabitlərinin xidmətindən istifadə edilməsinin lazım olacağı məsələsinə toxunmuş; bu sözlər dr. Zavriyev Ərzuruma gəlməmişdən əvvəl Tiflisdəki erməni məclisi tərəfindən qələmə alınmışdır. Hiss olunurdu ki, dr. Zavriyev Rus cəmiyyətinin psixologiyasını çox yaxşı başa düşür. Biz daima əsgər idik, heç birimizdə siyasətlə məşğul olmaq arzusu yox idi. Erməni quldur müharibəsinin təşkilində də rus zabitləri iştirak etməmişdilər. Andranikin verdiyi söz də vəd olaraq qaldı. Əhali verilən bu vədlərin heç birinə inanmırdı.

Bazarlar bağlı, hamı qorxur. Müsəlman məhəllələrinin küçələrində heç kim gözə dəymir. Yalnız Bələdiyyə idarəsi yanında bir-iki dükan açıq olduğu üçün təkcə gündüzlər bir neçə türk

buralarda toplana bilirdi. Ermənilərdən heç kim cəza çəkmədi. Heç bir erməni günahkar kimi meydana çıxarılmadı. Günahsız ermənilərə necə cəza verilə bilər ki! Ermənilərin bu danışıqlarının əleyhinə, rus zabitləri indiyə kimi ermənilərdən bir çoxunu günahkar kimi meydana çıxardıqları halda, bunların heç birisinin cəzalandırılmadığı haqda danışıqlar olanda, onlar susurdular. Ayrı-ayrı adamların öldürüldüyü hələ də davam edirdi, lakin bunu bir az gizli saxlamağa çalışırdılar. Cinayətlərini şəhərdən kənarda olan kəndlərdə və rus zabitlərinin gözündən uzaq olan yerlərdə törətməyə başlamışdılar. Şəhərə yaxın kəndlərdəki türklər köçüb getdilər, lakin hara getdikləri məlum olmadı.

Uzaq kəndlərdəkilər də, silahla özlərini qorumağa başladılar. Şəhərdə qiyam baş verəcəyi bəhanəsilə həbslər çoxaldı. Həbs olunanların vəziyyətlərinin necə olması, Ərzincandakı kimi başlarının kəsilməsi təhlükəsinin olması və onların həyatları haqqında polkovnik Moreldən kinayə ilə soruşduğum zaman, həbs olunanların etibarlı keşikçilər vasitəsi ilə göndərilib mühafizə edildiklərini və qismən Tiflisə göndərilməkdə olanların bir neçəsinin də əsir olaraq Ərzurumda saxlandığı cavabını vermişdir.

Ərzaq sahəsində qanunsuzluqlar baş alıb gedirdi. Artilleriya polku üçün yağ istənildiyi vaxt erməni anbar məmuru verməzdi. Halbuki, Elektrik deyilən erməni bölükləri üçün baş çavuş getdikdə, Andranik ilə əvvəldən tanışlığı olduğuna görə, onlara tez yağ verilirdi. Şəkər istəsələr, şəxsən Andranik şəkəri öz yanında yığdırıb, hamıya eyni çəkidə paylayacağından bəhs etsə də, sonradan verilmədiyini, aldığım məlumatlardan öyrəndim. Ərzincan-Ərzurum arasındakı cəbhə xətti ilə gələn rus zabitləri çəkdikləri əzab-əziyyətdən şikayət etdikləri halda, erməni zabitləri hər yerdə rahat yer və isti yeməklə təmin olunurdular. Fevralın sonlarında artilleriya zabitlərinə dekovildən iki kiçik vaqon verilərək, bununla yüklərini və qismən də ailələrini geri göndərəcəkdilər. Əlavə üç vaqon da verilməsi üçün edilən müraciətə qərargah, hələ Ərzurumdan getməmişdən əvvəl müsbət cavab vermişdi. Qərargah getdikdən sonra, vaqon verilməsi məsələsi uzandı. Bunun üçün polkovnik Zinkeviçə yazılı surətdə

müraciət etdikdə, bu məsələyə səlahiyyətli olan erməni, iki gündən sonra cavab verəcəyini söylədiyi halda, bütün zabitlərin gözü qabağında, qaçan ermənilərə hər cür nəqliyyat vasitəsi tədarük edilirdi.

Yollarda isə silahlı fərari ermənilər dəstələrlə qaçarkən, rast gəldikləri hər adamı qorxularından, yaxud pullarına göz dikdiklərindən öldürüb soyardılar. Belə hadisələrin davam etdiyi bir vaxtda, yüklərin və ailələrin mühafizəsiz olaraq göndərilməsi çox təhlükəli idi. Arxadan əlavə qoşun göndərilməmişdi, ixtiyarımızda olan az miqdardakı piyada əsgərlər də heç kimin əmrinə itaət etmirdilər.

Andranik gəlməmişdən əvvəl piyada bölükləri cəbhəyə getməkdən boyun qaçırırdılar. Andranik gəldikdən sonra, nə qədər cəbhəyə piyada bölükləri göndərə bilmişlərsə də, onlar da son dərəcə rüsvayçılıqla qaçmaqda idilər. Andranik şəxsən özü ata minərək, qılıncla, güc hesabına fərariləri toplayıb cəbhəyə göndərməyə çalışırdı. Rus zabitlərinin olduğu birliklər isə kiçik dəstələr halına düşdü. Andranik əsgərləri idarə etmək sahəsində bəlkə böyük məharət sahibi ola bilər, ancaq polkovnik Doluxanov vasitəsilə aldığımız əmrlər mənasız və cəfəngiyyat olduğu üçün məni təəccübləndirirdi.

Başlarının üstündə Andranik olduğu halda, ermənilərin yeganə ümidi rus topçusuna idi. Halbuki istehkam mövqeyindəki toplardan istifadə edə bilmək üçün təlim görmüş əsgərlərə, kifayət qədər də intizamlı və təlimli piyadalara malik olmaqla, bunun mümkün olacağını heç düşünmürdülər. Əsl məqsəd qaçarkən topların himayəsinə sığınmaq idi ki, nəticə də tamamilə elə oldu.

Trabzonda sülh danışıqlarının başlanması tarixi gündən-günə başqa vaxta keçrilirdi. Əvvəlcə bu danışıqların 2 mart, sonra 6 mart, daha sonra 10 martda başlanacağını Ərzurum hərbi birliklərin qərargahından öyrənirdik. Qərargahımın hər ikisi də, şəhərin müxtəlif səmtlərində yerləşirdi. İstehkam mövqeyindəki qərargahın telefonu pis işlədiyi üçün, şəxsən özüm gündə iki dəfə oraya getmək məcburiyyətində qalırdım. Polkovnik Morel və

onun qərargahından aldığım məlumatlarda: Nizami Osmanlı birləşmələri Ərzurum ətrafında olmayıb, ermənilərin türk partizan dəstələri ilə, aralarında Osmanlı ordusunun Ərzurumdan 1916-cı ildə çəkilib getdiyi vaxt, orada qalan təlimli əsgərlərin qoşulduğu qonşu kəndlərin silahlı kəndliləri ilə vuruşduğu məlum olurdu. İstər partizan dəstələri və istərsə də tərkibində əsgər olan kəndli birlikləri, buraya gələn bir çox Osmanlı zabitlərini, xüsusilə türkləri qorumaq üçün yaratdıqları təşkilatdan ibarət olduğu güman edilirdi. Hücum edənlərin əlində, ancaq ermənilərin Ərzurumda qoyub getdikləri iki dağ topu vardı.

Bunlar Ərzincan Oltu yolu istiqamətlərindən hücum edə bilərdilər. Arxadan, Kars və Palantökən istiqamətlərindən də gəlmələri ehtimal edilirdi. Polkovnik Morel, nədənsə yalnız Oltu tərəfindən hücum ediləcəyini düşünürdü.

Kəşfiyyat işləri ermənilər tərəfindən çox cahilliklə aparılmaqda idi. Süvarilər isə kəndlərdə qırğınlar törətmək və talançılıq etməklə məşğul idi, kəşfiyyat aparmaq əvəzinə, kəndlilərin heyvanlarını sürüb aparmaqla vaxt keçirirdilər. Raportları isə, tamamilə uydurma idi. Kəşfiyyat komandasına hücum edən düşmən qüvvələri iki min göstərilsə də, həqiqətdə ancaq iki yüz adamdan az olardı. Üç yüz-dörd yüz əsgər tərəfindən mühasirədə olduqları halda, mühasirəni yarmağa müvəffəq olduqlarını söyləyərək əsgərlərindən də ancaq birinin yaralı və birinin də tələf olduğunu söyləməkdən utanmazdılar. Bir gün erməni zabitlərindən birisi, komandiri olduğu bir bölgəyə dörd yüz nəfərlik bir komandanın hücum etməyə başladığını telefonla xəbər vermiş, həqiqətdə isə qarşı kənddən iki silahsız adamın gəlib sonra geri qayıtmaqlarından başqa bir hadisənin baş vermədiyi məlum olmuşdu. Ermənilər Ərzincanı tərk etdikləri vaxtdan Osmanlı hərbi birliklərinin Ərzurumu geri aldıqları tarixə qədər keçən müddət ərzində erməni kəşfiyyat dəstələri tərəfindən türk ordusundan yalnız bir süvari tutulmuşdu. Təxmin etdiyimə görə, bu biçarənin ya ayaqları donmuş, ya da bir başqasının yardımı olmadığı üçün gedə bilməmişdir.

İkinci dəfə zabitlərin iclasından sonra, bir çox zabitlər başqa birliklərə keçirilməsi üçün ərizə vermişdilər. Bunların ərizələrini polkovnik Morelə apardığım zaman bərk qəzəblənib özündən çıxdı. Hərbi tribunalın qərarı ilə bunların buradan getməsinə var gücü ilə mane olacağını söyləmişdi. Halbuki toplar hələ rus zabitlərinin əlində olduğuna görə təzyiq və gücə qarşı top atəşi ilə cavab verəcəklərini bildirdim və zabitlər öz başına olaraq mövqelərini tərk etməyib, qanuni şəkildə dəyişdirilmələrini istədiklərini və bu arzularının qəbul edilməsinin zəruri olacağını bildirdimsə də, buranı tərk etmək istəyən bütün zabitlərə, kapitan müavini Yermolova verdiyi sənəd kimi, onları da ləkələyəcək sənədlər verəcəyini və arzu edənin bunu təcrübədən keçirməsini söylədi. Polkovnik Doluxanov Tiflis ilə Batumidə söylədiyi kimi, burada qalmaq istəməyən zabitlərin iş başında qalmasında heç bir fayda olmayacağını dediyim zaman, «bunun üçün altmış ingilis artilleriya zabitinin Ərzuruma göndərilməsini xahiş edib, (Tiflis hökumətinin tabeliyində Sarıqamışda olan baş komandanlıqdan) vəd verildiyini» bildirdi.

Ərzurum stansiyasının baş məmuru vəzifəsində işləyən bir rus və ya polyak olan əsgərin öz vəzifəsində qalmaq istmədiyi üçün, həbs olunaraq, məcburi surətdə vəzifəsinə göndərildiyini eşitmişdim. Verilən əmrlərin tez yerinə yetirilməsi bəhanəsilə, lakin həqiqətdə, hər ehtimala qarşı, bütün zabitlərin lazım gəldikdə bir-birinə yardım edə bilmələrinə görə, yaxın yerlərdə yaşamaları üçün lazım olan əmrləri verdim. Kapitan müavini Yermolov martın 10-da yola düşüb gedərkən, Sarıqamışa baş çəkib və orada olan qərargah rəisi, general Vişinski ilə artilleriya komandanı, general Gerasimova, ermənilərin bizə qarşı pis münasibətindən və vəziyyətimizin ağır olmasından, şahidi olduğu və bildiyi hadisələr haqqında danışmasını və mümkün olduğu qədər təcili bizi bu vəziyyətdən qurtarmalarını xahiş etməsini tövsiyə etdim.

Martın 9-da bir Osmanlı təyyarəsinin gəlib ətrafda kəşfiyyat aparmasından, Osmanlı birliklərinin Ərzincanda və hətta Mamahatunda olduqlarına qərar verdim. Bu zaman polkovnik

Morel, Ərzurumun boşaldılması haqqında Korpus komandanı, polkovnik Kazım Qarabəkirin imzası ilə türklərdən bir məktub aldığını söyləmişdi. Osmanlı hərbi dəstələrinin Ərzurumu aldıqdan sonra, şəxsən korpus komandanı Kazım Qarabəkirdən öyrəndiyimə görə, Ərzurumun boşaldılmasına dair kağız, əhəmiyyətsiz bir təklif vərəqəsindən ibarət olmayıb, şəxsən özünün imzaladığı bir məktub olduğu məlum olmuşdur[2] Polkovnik Morel isə, bu məsələni əhəmiyyətsiz sayıb, şəxsən korpus komandanının imzası olan rəsmi məktubu, imzasız adi bir təbliğat vərəqəsi kimi göstərərək, məni aldatmağa çalışmışdır.

İstehkam mövqeyi komandanlığından verilən məlumatlara görə, martın 9-u və 10-da cəbhədə təhlükəli vəziyyət olmamışdır. Yalnız, Təkədərəsi tərəfində türklərin toplanması xəbəri gəldikdə, onlara qarşı bir komanda göndərilərək, onların irəliləməsinin qarşısı alındığı məlum olurdu. Ərzurumdan göndərilən bir komanda isə düşməni Ilıcadan bir neçə verst (1067 metr) geri qaytardığı söylənirdi. Martın 11-də Təkədərəsindəki erməni komandası mühasirəyə alınmış və qaça bilənlər Ərzuruma getmiş

[2] Qafqaz korpusu komandanı, polkovnik Kazım Qarabəkir, Ərzurumdakı erməni kəşfiyyatçılarından olub, casusluq üçün göndərilən və Qovurmaçuxurunda tutulan 13 yaşındakı bir erməni uşağını yaxşı yedizdirdikdən sonra 7 mart 1918-ci ildə «Ərzurumdakı erməni rəislərinə» başlığı ilə yazdığı bir rəsmi məktubla Ərzuruma geri göndərmişdi. «Korpus komandanı Kazım Qarabəkir» imzalı bu məktubda belə yazılmışdı: («Ərzincan və Ərzurumun qurtuluşu", 1939. İstanbul, s. 176-177). "Rusiya ilə sülh müqaviləsi imzalandı. Ruslar bu sülh müqaviləsinə əsasən 93-cü il (1877-1878-ci ildə Rusiya ilə Osmanlı arasındakı müharibə) müharibəsində əllərinə keçən torpaqlarımız da daxil olmaqla bütün torpaqlarımızı boşaltmağa söz verdilər və çox yerləri də tamamilə boşaldaraq çəkildilər. Digər tərəfdən bir çox hərbi birliklərimiz Batuma yola düşməkdədir. Bunlar Karsa doğru hərəkət edəcəklər. Biz rusların əsirlərini, ruslar da bizim dusdaqlarımızı qaytarmağa başladılar. İlk əsirlər dəstəsini dəyişdik. Rusların boşaltdığı yerləri təhvil almaq üçün korpuslarımız Ərzurum ətrafına toplandı. Bu hərəkatımız zamanı qarşımaza çıxacaq hər silahlı, sözsüz ki, asi sayılacaq və haqqında qanunauyğun cəza tətbiq edilərək cəzalandırılacaqdır». «Ərzurumda mədəniyyət və insanlığa büsbütün zidd olan hərəkətlərdə iştirak etməkdən vaz keçərək, nəhayət 9 mart 1918-ci ilin axşamına qədər Ərzurumu və sonra da bütün torpaqlarımızı tərk edərək Qafqaza çəkilməyiniz üçün sizə xəbərdarlıq edirəm. Bu xəbərdarlığıma uyğun şəkildə davranmadığınız halda töküləcək qanların bütün ağır məsuliyyəti sizin üzərinizdə qalacaqdır».

və Ilıcadakı komandanın dağılıb eyni istiqamətə qaçdıqları xəbəri gəldi.

Hücum edənlərə qarşı artilleriya atəşi açılması haqqında polkovnik Moreldən şifahi əmr almışdım. Ancaq heç bir yerdə hücum edən hədəf görə bilmədim. Harput yolunda vahiməyə düşərək Ərzuruma qaçan erməni əsgərlərindən başqa heç kim görünmürdü. Trabzon yolunda isə, manevr meydanında yürüş edən kimi, kütləvi halda erməni birlikləri Ərzuruma geri çəkilməkdə idilər. Günortadan sonra yaxındakı Gəz kəndinin ətrafında düşmən birliklərinin olduğu məlum oldu. Bunların sayı təxminən 1500 nəfər olardı. Bu komanda təlim görməmiş yerli partizan dəstələrinə bənzəməyib, lazımi qaydada idarə edilərək, irəli göndərilən bir polka bənzəyirdi. Ancaq aralarında olan səpələnmiş süvari dəstələri bunlara bir az intizamlı komanda görkəmi verirdi. Geri çəkilənlərin vəziyyəti və görünüşü, çox kədərli və ümidsiz idi. Geri çəkilən ermənilər ara-sıra dağınıq olaraq tək-tük atıcı halında yayılmışdılar. Onlar şose yolunun kənarlarında dəstə halında toplanıb başlarını itirmiş halda gedirdilər. Bunların üzlərində qorxudan başqa bir şey görünmürdü. Andranik bunları bir az intizamlı bir dəstə halına salmaq üçün, piyada xəttinə qədər irəli göndərməyə müvəffəq oldusa da, qorxaq ermənilər bir kərə yatınca, bir daha qalxmadılar. Bizim tərəflərdə top atəşi gecə qaranlığa qədər davam etdi. Müsəlman milislərin hücumları başladığına görə, onların hücumlarını dəf etməklə məşğul olmağa başladığımız üçün, bütün rus zabitləri buranı tərk etmək qərarından vaz keçib, üzərlərinə düşən vəzifələrini vicdanla yerinə yetirməyə çalışmışdılar. Çünki belə zamanda tərk etməyi arzu edənlər, qorxaqlıqla ittiham ediləcəkdi.

Ermənilərin artilleriya haqqındakı fikirlərini bu gün öyrəndim. Böyükkirəmitlik yanındakı batareyamın qorunmasına həvalə edilən erməni piyadasını irəliyə aparmaq mümkün olmadı. Əksinə, bunlar batareyanı buraxıb Harputqapısına doğru daima geri çəkilməkdə idilər. Təkədərəsi kəndindən qaçan ermənilər qaçarkən də yanlarında olan heyvanları sürüb aparmağa və yalnız gördükləri silahsız əhalini öldürməyə çalışmışdılar.

Türklərin şəhərə yaxınlaşmaları, rus qərargahının gözləmədiyi bir zamanda baş vermişdir. Çünki lazımi müharibə əmri verilməmişdi, verilmiş olsa da, bu vaxta kimi mənə gəlib çatmamışdır. Kənardan təhlükə siqnalı və hücum borusu çalındığı vaxt, piyada birliklərinin tutacaqları mövqelər əvvəlcədən müəyyən edilib elan olunduğunu eşitmişdim. Lakin bu əmr də mənə gəlib çatmamışdır.

Mənim vəzifəm çox asan idi. Vəzifəm şəhərin istehkam xəttlərinin artilleriya atəşindən kənarda qalan düşmənin oradan keçməsinə imkan verməmək üçün, onları artilleriya atəşinə tutmaqdan ibarət idi. Qarşıdakı mövqelərdə isə piyada ilə birlikdə, mənim tabeliyimdə olmayan dağ topları vardı.

Bu gün axşama kimi şəhər milisləri olan ermənilər şəhər içindəki müsəlman kişilərin hamısını, hətta yaşlı və xəstələri də toplamağa davam etdilər. Səbəbini soruşduqda «dəmiryolu boyunca qarı təmizləmək üçün fəhlə topladıqlarını» deyirdilər. Yaşadığım evin qapısında mənim adım yazılı olduğu halda, bir universitet tələbəsi olan erməni, yanındakı patrulla axtarış aparmaq üçün evimə girmək istədiyini bu axşam eşitdim. Ailəmin müqavimət göstərməsinə görə evə girməyə cəsarət etməyib, evin yiyəsi olan yaşlı türk kişisi ilə bir neçə xidmətçini özü ilə apara bilməmiş, lakin ağzına gələni söyləmiş. Bu özbaşınalıqların Andranikin əmri ilə baş verdiyini universitet tələbəsi özü danışmış. Kişiləri topladıqları zaman, yenə də ev sahibi olan qoca türkü aparmağa gəldikləri vaxtb gizlənmək üçün, onun otağından mənim yaşadığım otağa keçə bilməsi üçün qapı açdırdım.

Son zamanlarda, mənim Andranik və onun qərargahındakılarla olan münasibətimə şahid olması üçün, hər gedişimdə Səfərbərlik şöbəsi müdiri, kapitan Jultkeviçi həmişə özümlə götürdüyümə görə, bu axşam da, 11 mart 1918-ci il, bazar ertəsi günü, zabitlərin iclasına yenə birlikdə getmişdik. Oraya çatdığımız zaman, bizim gəlməyimizi gözləmədən iclasın başlandığını öyrəndik. İclasda Andranik, dr. Zavriyev, polkovnik Zinkeviç, polkovnik Morel, Doluxanov və bir neçə başqa şəxslər iştirak edirdilər. Məni gördükləri zaman baş komandan Odişelidzenin

Sarıqamışdan göndərdiyi teleqramı oxumağa başladı: «Osmanlı ordusu komandanı Vəhib Paşa, Ərzurumun işğalı üçün birliklərə əmr verdiyini radio-teleqrafla bildirdiyi üçün istehkam mövqelərində olan topların yararsız hala salınması ilə birliklərin geri çəkilməsi, imza: Odişelidze». Bu əmr bizə gec gəlib çatdığından topları yararsız hala salmaq üçün iki-üç gün lazım olduğu üçün, biz heç nə edə bilmədik.

Andranik yüksək səslə kiməsə ermənicə söyür, Dr. Zavriyev, onu sakitləşdirməyə çalışır və Andranikin dediyi sözləri bizə tərcümə edirdi: «On-on beş min adam göndərdik; Ərzurumu qoruyacaqları halda, arxada oturub erməni millətinin və Ermənistanın adını batıran erməni rəhbərlərinə lənət etdiyini, tabeliyində olan bir neçə min ermənінin də heç birisinin cəbhəyə getmək istəmədiyini» çığıra-bağıra söyləyirmiş. Bundan sonra Andranik öz qərarını bizə belə söylədi.: «İki gün də Ərzurumda dayanaraq mümkün olan təxribat işlərini etdikdən sonra bu şəhər boşaldılsın». Sonra da otaqda sanki heç kim yoxmuş kimi, soyunub yatağına girdi.

Şəhərin müxtəlif yerlərində baş verən yanğınların söndürülmədiyini və gecə vaxtı erməni milisləri tərəfindən yaşlı və xəstə türk kişilərinin evlərindən çıxarılıb naməlum bir yerə aparıldıqlarını dr. Zavriyevə söylədiyim zaman, yanğınların söndürülməsi və müsəlmanları bir yerə toplayaraq aparılmaması üçün əmrlər verildiyini dedi. Dr. Zavriyevə əvvəlki danışıqlarımızda: Özünü hökumət üzvlərindən biri saydığı üçün, heç bir qanunsuzluğa yol verilməsini istəmədiyini və bunun qarşısını almağa var gücü ilə çalışdığını söylədi.

İstər o və istərsə də onun kimi erməni ziyalılarından, daima bu yolda bir-birinə uyğun fikirlər eşidirdim. Ürəklərində və düşüncələrində nə məqsəd güddüklərini bilmərəm. Ancaq erməni ziyalıları arasında qırğın və talan fikrinin iyrənc olduğunu açıq söyləyənlər də var idi, bu inkar edilə bilməz. Dr. Zavriyev, erməni fikirlərini məndən çox onun yaxşı bilməsi lazımdır.

Andranik tərəfindən verilən qərarın yerinə yetirilməsinə dair bir çox mülahizələrdən sonra, hamı evlərinə dağılmışdı.

Ərzurumda iki gün qalmaq məsələsinə gəlincə; irəlidəki cəbhə xəttində istehkamın qüvvəsi və onu qoruyanların çoxluğu baxımından yalnız partizan dəstələrinə qarşı deyil, nizami hərbi birliklərə qarşı da qırx iki gün müdafiə oluna bilərdi. 18 yanvar 1917-ci ildə Ərzincanda sona çatan atəşkəs haqqındakı görüşmələr zamanı Türkiyə hökuməti partizanlara təsir edə bilməyəcəklərini rəsmən bildirdiyinə görə, onların hücumuna qarşı müxtəlif tədbirlər görmək bizim borcumuz idi.

Martın 11-də bazar ertəsi, gecə evimə qayıdarkən, yanğınların söndüyünü və qanunsuzluqlardan heç bir əsər qalmadığını gördüm. Çünki artıq ermənilər Ərzurumdan qaçmağa və canlarını qurtarmağa başlamışdılar. Qərargahıma gələn kimi, topların yararsız hala salınması üçün lazım olan əmrləri verdim. İki gün içində bu toplar yararsız hala salına bilərdi. Erməni piyadalarının gecənin qaranlığından istifadə edərək, səngəri tərk etdiklərini zabitlərin raportlarından başa düşürdüm. Bir çox cəhdlərdən sonra telefonla polkovnik Moreli tapıb, aldığım məlumatları ona çatdıra bildim. Buna qarşı tədbirlər görülərək əlavə yardımçı qüvvələr göndərildiyi üçün, heç bir təhlükənin mövcud olmadığını bildirdi. (Beləcə ermənipərəst Morel, rus zabitlərinin öz işlərinin başında qalmalarını təmin etmək üçün onları aldadırdı.) 12 mart, çərşənbə axşamı evimə gedib gecə saat 1-də yatdıqdan sonra, saat iki ilə üç arasında, şəhərdə tək-tük silah səsləri eşidilməyə başladı.

Eynilə keçən günlərdə olduğu kimi, küçələrdə erməni səsləri, balta ilə qapıların qırılması, əhalinin zorla aparılması səsləri eşidilməyə başladı. İki məsələ mənim ürəyimi sıxırdı. Əvvləcə hadisələrin içində olub da, məsələni öz gözlərilə görməyənlərin, bu «azadlıq» mücahidləri olan erməni quldurunun törətdikləri vəhşilik və rəzaləti. Bu işləri rus zabitlərinin icazəsi ilə törətdiklərini sanaraq, rus zabitlərinin də ermənilərlə birlikdə ləkələnməsi: ikincisi, şəhərə hücum etməyə başlayan birlik arasında mütəşəkkil nizami Osmanlı hərbi birliklərinin də olması ehtimalı. Halbuki baş komandan general Odişelidzenin qərarı, verdiyi əmr və arzusu nizami birliklərlə vuruşmaq olmayıb,

şəhərin boşaldılmasından (və beləcə 3 mart 1918-ci ildə Brest-Litovsk müqaviləsinin qanunlarına əməl etmək) ibarət olduğundan və bu səbəbdən də bir yanlış anlama ehtimalı. Bu iki mühüm səbəbə görə aşağıdakı qərarları verdim: Səhər tezdən polkovnik Morelin yanına gedib iki ciddi təklif vermək; əvvəlcə ermənilərin quldur hərəkətlərinin qarşısını almaq iqtidarında deyilsə, topların bir hissəsini ermənilərin üzərinə çevirmək; əvvəlcə onlara təklif etmək, sonra atəşlə onları məcbur etmək. İkincisi, təcili olaraq onlarla danışıq aparmaq üçün adamlar göndərərək döyüşü dayandırmaq və iki gün içində qan tökmədən Ərzurumu boşaldıb təhvil veriləcəyini Osmanlı birliklərinə çatdırmaq, Ərzurumun boşaldılması zamanı ermənilərin qırğınlar törətməmələri üçün, rus zabitlərinin komandası altında ermənisiz komandalar təşkil edərək, qırğına silahla mane olmaq və sairədir.

Səhər tezdən kapitan Jultkeviç ilə birlikdə polkovnik Morelin yanına gedərkən, yolda artilleriya cəbhəsinin önündə, orada qulluq edən leytenant Baqratyana rast gəldik. Geri çəkilmə əmri verildiyinə görə, silah anbarının partladılmasını istəyirdi, lakin bunun üçün mənim əmr verməyimin lazım olduğunu söylədi, mən buna təəccüb etdim. Çünki, silah anbarı Doluxanova aid idi. Belə olduqda, silah anbarının partladılması haqqında topçulara heç bir əmr verilmədiyindən, bu partlayışdan bütün rus zabitləri ilə birlikdə, şəhərdə yaşayanlara da zərər dəyəcəyindən, silah anbarının partladılmamasını söylədim; onları inandıraraq silah anbarının patladılmasının qarşısını aldım.

Polkovnik Morelin qərargahına (Sultani məktəbinə-Liseyə) yaxınlaşdığım zaman hamının qaçdığını və qərargahın qarşısındakı Amerikan konsulluğunun yerləşdiyi evin tamamilə alışıb yandığını gördüm. 12 mart 1918-ci il çərşənbə axşamı, səhər saat 7-də polkovnik Morel ilə Torkom atlarına minmiş, yüklərini də bir avtomobil ilə bir neçə arabaya yükləmiş və qaçmağa hazır bir vəziyyətdə dayanmışdılar. İşlərin nə vəziyyətdə olduğunu soruşduğum zaman: « - Sabah beşdə geri çəkilmə əmri verildiyi halda, hələ bu əmrin ona çatmamasından bir şey anlaya bilmədiyini» söylədi.

Qorxduğum başıma gəldi. Rus zabitləri və onların toplarının himayəsində ermənilər qaçmağa müvəffəq oldular. Rus zabitləri toplarını şəxsən özləri idarə edərək hücum edən türk ordusunun qarşısını almağa çalışarkən, ermənilər arxada rahatca qırğınlar törədib qaçmağa müvəffəq olmuşdular. Özüm bura gəlməsəydim, geri çəkilmə əmrindən heç bir rus zabitinin xəbəri olmayacaqdı.

Əvvəlcə olub bitən işlər haqqında mümkün olduğu qədər az məlumat verdikləri halda, mənə heç lazım olmayan sərəncam və əmrləri də göndərirdilər. Kars şosesində rahatca qaçmaqda olan igid (!) ermənilərə son təşəkkürlərimi çatdırmaq üçün Məcidiyə istehkamına qaçıb, bunları şarapnel* ilə gözəlcə bir salamlamaq lazım olacaqdı. Ancaq qaçanlar arasında heç günahı olmayan bir çox adamların da zərər görəcəklərini fikirləşdiyim üçün, bu fikrimdən vaz keçdim. Ərzurumda hələ bir çox əhali və çoluq-çocuq qalmışdı.

Erməni fatehlərinin beləcə rus zabitlərini aldatmalarına görə, toplar yararsız vəziyyətə salına bilməmişdi. Təcili qərargaha qayıdarkən yolda qorxularından başlarını itirən bir çox erməni qaçqınlarına rast gəldik. Yollar qaçqınların atdıqları əşya və ləvazimatlarla dolmuşdu. Yollar keçilməz bir hala düşdüyü üçün, bir az boş olan küçəyə dönmüşdük. Burada bir çox adamın çığırtılarına və yaylım atəşinə rast gəldik. Küçələrin döngəli yerlərində, qarşıda nə baş verdiyini görə bilmirdik. Yalnız qarın üzərindəki qan ləkələrindən bu ətrafda vuruşmanın davam etdiyinə qərar verərək geri döndük. Dördyol ayrıcına çatdıqda, maşından düşüb piyada getməyə başladıq. Küçələrin birindən milis komandanı olan erməninin at üstündə çıxdığını görüncə, təxmin etdiyim hadisənin baş verməsində aldanmadığıma qərar verdim.

Qərargaha döndükdə, piyadalar ilə birlikdə batareyalarıma da geri çəkilmə əmri verdim. Artilleriya zabitlərinin buranı tərk etmələri üçün də daşıma arabalarının verilməsini əmr etdim. Daşıma arabaçıların gecə top atəşindən qorxaraq qaçdıqlarını

* (Şarapnel-havada partlayaraq güllə və ya dəmir parçalarını səpən top mərmisi - E.X.)

öyrəndik. Təpədən dırnağa qədər silahlı erməni qaçqınları atları arabadan açıb bir ata iki adam minərək, Karsa doğru qaçmağa başlamışlar. Mənim arabamdakı atları da açmaq istədikləri vaxt mehtərim mane olmaq istəyəndə ona atəş açmışlar; atlardan biri yaralanmış və götürüb apara bilməmişlər. Əlli daşıma arabalarından ancaq iki-üç araba ələ keçirə bildik. Bu arabalardan ancaq bir neçə zabit istifadə edə bilib, tələm-tələsik əşyalarını yükləyib getdilər. Bir neçə araba var idi ki, onlardan istifadə etmək olardı, ancaq küçələrdə hara gəldi amansızcasına atəş açan qorxaq erməni qaçqınlarının bu atdığı güllələrdən qorunmaq üçün evlərimizə çəkilməyə məcbur olmuşduq. Türk əhalisi, istər bizi, istərsə də ailələrimizi, qəzəblənmiş adamların sataşmasından qoruyacaqlarına əminliklə söz verdilər. Ermənilərin dəlicəsinə atdıqları atəşə baxmayaraq, küçələrdən keçməyə çalışsaydıq belə, Karsqapısını türklər tutduqları üçün buradan keçmək mümkün olmayacaqdı. Kapitan müavini Mitrofan o qapıya yaxın olduğu halda belə, oradan keçə bilməyərək, geri dönmüşdü.

Bir qədər sonra Osmanlı birliklərinin şəhərə girdiyini öyrənincə, hücum edənlərin yalnız partizan dəstələrindən ibarət olmayıb, bunların nizami hərbi birliklər olduğu məlum oldu. Cəsur erməni piyadaları! gecə vaxtından istifadə edərək tələsik, fırtına surətilə Ərzurum - Kars şosesi ilə qaçmağa başlamışlar. Əgər həqiqətən fırtına olsaydı, bu qədər az zamanda Ərzurumu erməni iyrəncliyindən təmizləyə bilməzdi.

İstər səngərlərdə və istərsə də şəhərdə ermənilərdən heç bir yaralı və ya ölü qalmamışdı. Ermənilərin nə qədər müqavimət göstərərək müdafiə olunduqları bundan da bəlli olur! Ərzurumda əsir olan xüsusilə rus zabitləri, ermənilərin nə qədər fədakarlıq etdiklərinə həqiqi bir şahiddir! Osmanlı hərbi birliklərinin Ərzurumu zəbt etdiyini öyrənən kimi yavərimlə birlikdə müraciət edərək, özümüz haqqında məlumatlar verdim. Rusiyanın Türkiyə ilə sülh müqaviləsi bağladığını ancaq bu dəqiqədə öyrəndim. Yollarda gedib-gələrkən mənə rast gələn türk əhalisi, əllərimə sarılaraq canlarını qurtardığıma görə təşəkkür etməkdə idilər.

Çünki əgər rus zabitləri olmasaydı, Osmanlı hərbi birlikləri Ərzurumu tutduğu vaxt, heç bir sağ qalmış türkü tapa bilməyəcəkdi.

Romalı Petroni ermənilər haqqında: «ermənilər də insandır, lakin evlərində dörd ayaqlı hərəkət edirlər» deyə yazmışdı. Rus şairi Lermontov da ermənilər haqqında: «Sən köləsən, sən qorxaqsan, sən ermənisən» demişdi.

**12 May 1918-Ərzurum**
Ərzurum və Dəvəboynu istehkamının
komandan müavini və İkinci Ərzurum
Qalası artilleriya polkunun komandanı,
müharibədə əsir olmuş
**Tverdo-Xlebov**

# XATİRƏ

## ERMƏNİLƏRİN ƏRZİNCAN VƏ ƏRZURUMDA TÜRKLƏRƏ QARŞI ETDİKLƏRİ ZÜLMLƏR

7 noyabr 1917-ci il rus inqilabının əvvəlindən etibarən, 12 mart 1918-ci ildə Osmanlı hərbi birliklərinin Ərzurumu geri aldıqları tarixə qədər, ermənilərin Ərzurum şəhəri və onun ətrafında türk əhalisinə qarşı etdikləri hərəkətləri və davranışları haqqında*.

Bu xatirə II Rus Ərzurum Qalası Artilleriya Polkunun komandanı podpolkovnik Tverdo-Xlebovun «Tarixçə» risaləsinə əlavə olaraq yazılmışsa da, ayrıca olaraq bir sənəd xarakterinə malikdir.

## ÖN SÖZ

Bu sənəd, Ərzincan və Ərzurum şəhərləri ilə. Ərzincan-Ərzurum yolunun hər iki tərəfində yaşayan müsəlmanların düçar olduqları zülm və qəddarlıqların nə qədər geniş dərəcədə olmasını bütün çılpaqlığı ilə sübut və əks etdirir. Podpolkovnik Tverdo-Xlebovun öz xətti ilə yazılan bu sənədin rusca əsli mühafizə olunur.

Qədim dövrdən bəri Avropada Rusiyanın ümumi rəyinə görə bilinən Türk-Erməni düşmənçiliyi, I dünya müharibəsi dövründə baş verən hadisələr heç bir zaman bu qədər, təsəvvür edilməyəcək dərəcədə olmamışdır.

Ermənilərin türkləri görmək istəmədikləri qədim dövrdən bəri məlumdur. Ermənilər özlərini hər zaman zülm görmüş əzabkeş bir millət kimi göstərmişlər, mədəniyyətdəki tərəqqiləri

* Bu sənədin əsli: Müharibə Tarixi İdarəsinin Arxivi-dolab: 123, göz 10, dosya: 2-5-dədir. Bunun sadələşdirilmiş mətni, hörmətli A.Hulki Saral Paşanın 1970-ci ildə Ankarada nəşr olunan «Erməni məsələsi» kitabına (s.396-403) salınmışdır. Biz 1918-ci ildə Ərzurum nəşrinin səhifələrini göstəririk.

və dinlərinə görə, çox ağır işgəncələrə düçar olan bir millət kimi görünməkdə, daima müvəffəq olmuşdular. Ermənilərlə əlaqələri daha çox olan ruslar ermənilərin mədəniyyəti və onun əməllərinə bir az başqa cür düşünməyə başlamışdılar. Erməniləri olduqca xəsis, çaşdırıcı, acgöz və ancaq başqasının hesabına dolanan bir millət kimi tanımışdılar. Rus kəndlisi ermənilər haqqında başqa cür düşünürdü. Rus əsgərlərindən dəfələrlə bu sözləri eşitdim:

«Ermənilər, riyakar millətdir! Türklər bunların öhdəsindən yaxşı gəldilər, lakin onların kökünü kəsə bilmədilər, bir dənəsi də qalmayana qədər kəsməliydilər!».

Rus hərbi birləşmələri arasındakı erməni əsgərləri, hər barədə daima ən aşağı səviyyəli sayılmışlar. Ermənilər daima pərakəndə, xırda işləri görməyə və cəbhəyə getməməyə üstünlük vermişdilər. Müharibənin əvvəlindən bəri ermənilərdən bir çox əsgər fərarilərin olması və özü-özünü yaralamaq kimi hadisələr, ermənilər haqqındakı bu düşüncəni təsdiqləmişdir. Lakin türklərin Ərzurumu geri almalarına qədər keçən iki ay ərzində, ermənilərdən şəxsən gördüyüm və eşitdiyim hadisələr, onlar haqqındakı hər cür pis fərziyə və təsəvvürlərdən də artıqdır.

16 fevral 1916-cı ildə Ərzurum, rus hərbi birlikləri tərəfindən işğal olunarkən, istər şəhərə və istərsə də onun həndəvərinə heç bir ermənin yaxınlaşmasına icazə verilməmişdir. Birinci Korpus komandanı, general Kalitin Ərzurum və onun ətrafına komandanlıq etdiyi vaxtlar, aralarında erməni əsgərləri olan birliklər bu ətrafa göndərilməmişdi. İnqilabdan sonra hər cür tədbirlər ortadan qaldırılınca ermənilər Ərzuruma və onun ətrafına hücum etdilər. Bu hücum zamanı istər şəhərdə və istərsə də yaxın kəndlərdə evlər talan olundu, ev sahiblərini top atəşinə tutan ermənilər qəddarlığa başladılar. Burada rusların olması, ermənilərin öz qəddarlıqlarını açıq bir şəkildə törətmələrinə mane olurdu. Öldürmə halları və talanlar gizli aparılırdı.

Bir gün atla şəhərdə küçələrin birindən keçərkən, bir dəstə rus əsgərləri bir erməni əsgərin başçılığı ilə yetmiş yaşında iki türk kişisini harasa qovduqlarını gördüm. Erməni əsgərin əlində məftildən hörülmüş bir qamçı vardı, onun qəzəbdən rəngi

ağarmışdı, yollar da çox palçıqlı idi. Erməni əsgərləri bu zavalı yaşlı türkləri palçığın içində küçənin bu başından o biri başına sürüyüb aparırdılar. Əsgərləri dilə tutmaq və bu işdən yayındırmaq üçün çox çalışdım. Bu yaşlı adamlarla insan kimi rəftar etmələrini söylədim. Dəstənin başında duran erməni əlindəki məftil qamıçı ilə üzərimə gələrək: « - Siz onları qoruyursunuz, eləmi? Onlar bizi öldürürlər, siz də onlara yardımçı olursunuz, belə deyil mi?» - deyə mənə qışqırdı. Orada olan ermənilər də onun tərəfini saxladılar. O zaman rus əsgərləri də o qədər yollarını azmışdılar ki, hər yerdə zabitləri döyməkdə, hətta öldürməkdə idilər. Vəziyyətim çox pisləşmişdi. Zabit komandasında itaətli bir patrul dəstəsi görününcə vəziyyət dəyişdi. Ermənilər cəld ortadan yoxa çıxdı. Rus əsgərləri də yaşlı adamları sakitcə aparmağa başladılar.

Rus hərbi birliklərinin 7 noyabr 1917-ci il bolşevik inqilabına görə özbaşına cəbhəni tərk edib dağıldıqları vaxt, arxadan başqa millətlərə mənsub hərbi birliklər gəlincəyə qədər, cəbhədə qalan və buralara qaçıb gələn ermənilərin türk kəndlilərinə qarşı çox vəhşi hərəkətlər edəcəyi qorxusu yaranmışdı. Erməni ziyalıları belə bir hadisənin baş verməyəcəyini çox böyük qətiyyətlə söyləyirdilər. Türklərlə ermənilər arasında tam barışığa çalışıb, buna nail olacaqlarını və bu yolda hər cür təşəbbüs göstərdikləri fikrini ortaya atırdılar. Gecələr bu durğunluq və səssizliyin yaranacağını düşünmək olardı.

Həqiqətən də əvvəllər belə vədlərə inanmaq olurdu. Məsələn, rus əsgərləri tərəfindən kazarma və tövlə halına salınmış Ərzurumdakı camilər boşaldılıb təmizlənir və daha istifadə olunmurdu. Türk və ermənilərdən ibarət şəhər milisləri təşkil olunur, adam öldürən və talan edənlərin mühakiməsi üçün Hərbi tribunalın yaradılmasını ermənilər çox istəyirdilər.

Bunların hamısının hiylə və kələk olduğu sonradan məlum olmuşdu. Milis təşkilatına qoşulan türklər, sonradan buradan uzaqlaşmağa başladılar. Çünki milis təşkilatına daxil olan türklərin bir çoxu gecə polis məntəqələrindən qayıtmamağa və başlarına nə hadisə gəlməsi haqqında məlumatlar alınmamağa

başlandı. Şəhər kənarına «işlədilməyə göndərilən» türklər də geri dönmürdülər. Axırda Hərbi tribunalın nümayəndələri edama məhkum edəcəyi günahkarlardan qorxaraq, heç kimi cəzalandıra bilmirdi. Tək-tək olan talanlar və öldürmə hadisələri çoxalmağa başladı.

Fevral ayının ortalarına yaxın talançılar tərəfindən Ərzurumun tanınmış adamlarından Hacı Bəkir Əfəndi bir gecə öz evində öldürüldü. Gürcü əsilli rus baş komandanı, korpus generalı Odişelidze, üç gün içində qatilin tapılmasını birlik komandanlarına əmr etdi. Baş komandan, erməni birlikləri komandanlarına, əsgərlərin itaətsizliyinin həddini aşdığını söyləyərək çox ağır tələblər irəli sürdü. Quldurcasına zülm və təcavüzlərlə, «yollarda işlətmək» bəhanəsilə çöllərə tökülən türklərin təxminən yarıya qədərinin geri qayıtmaması haqqında məlumatı erməni zabit və komandanlarına çatdıraraq: «əgər işğal etdikləri torpaqlarda ermənilər hökmranlıq etmək istəyirsə, özlərinin yaxşı əxlaq sahibi olduqlarını göstərməyin vacib olduğunu və törətdikləri cinayətlər ilə öz millətlərinin adını ləkələdiklərini», erməni ziyalılarına çox kəskin bir dillə xatırlatdı. Əlavə olaraq: «dünya müharibəsinin bitmədiyi və ümumsülh konqresi buranın ermənilərə verilməsini hələ qətiləşdirmədiyi, nə təsdiq, nə də qəbul etmədiyi bir zamanda ermənilərin xüsusilə qanuna daha çox əməl etmələrini və özlərinin azadlığa layiq bir millət olduqlarını göstərmələrinin lazım gəldiyini» söylədi.

Erməni komandanları və erməni militaristləri: – Bir qrup ermənininin vəhşilik etmələrinin bütün erməni millətinin namusunu ləkələyəcəyini kəskin bir dillə bildirib, bir dəstə ermənininin türklərin qədim vaxtlarda onlara etdikləri zülmün əvəzini çıxmaqda olduqlarını, lakin ziyalı ermənilərin buna mane olmaq üçün çalışdıqlarını bunun üçün də sərt tədbirlər görüləcəyini xatırladaraq, bu tədbirlərin qüvvəyə minəcəyini söylədilər.

Bundan bir müddət sonra Ərzincanda ermənilərin türkləri qırması haqqında xəbər gəldi. Bu hadisənin təfsilatını, şəxsən baş komandan Odişelidzenin özündən eşitdim. Onun dediyinə görə, qırğın bir həkim və təchizat işinə baxan birisi tərəfindən təşkil

olunmuş, yəni hər halda quldur tərəfindən tərtib edilməmişdir. Həmin ermənilərin adlarını yaxşı bilmədiyim üçün burada adlarını xatırlaya bilməyəcəyəm. Hər cür müdafiədən məhrum olan və silahsız qalan səkkiz yüzdən çox türk öldürülmüşdür. Böyük quyular qazılmış və zavallı türklər bu quyuların yanına gətirilərək, heyvan kimi boğazları kəsilmiş və bu quyulara doldurulmuş. Ermənilərdən birisi ölənləri sayırmış, yetmişmi oldu? Yenə on adam gətir, boğazını kəs! deyincə yenə on adamın boğazını kəsər, quyuya atıb, üstünü torpaqla örtərlərmiş. Şəxsən həmin təchizatçı, əylənmək üçün səksənə qədər zavallı türkləri bir evə doldurub, qapıdan bayıra çıxarkən bir-bir başlarını partlatmış.

Ərzincan qırğınından sonra yaxşı silahlanmış ermənilər Ərzuruma doğru geri çəkilməyə başladılar. Ərzincan-Ərzurum şosesi boyunca olan mənzil xəttini yerli xalqın hücumundan qorumaq üçün bir neçə topla birlikdə həmin mənzil xətti ilə geri çəkilməyə məcbur olan rus artilleriya zabiti, bir gün müharibənin tələbinə uyğun olaraq erməni birliklərindən bir neçəsini döyüş meydanına buraxmaq istəməmiş. Mütəşəkkil halda vuruşmaq ermənilərin xoşuna gəlmədiyi üçün, bir gecə rus zabitləri evlərində yatarkən, onları evləri ilə birlikdə yandırmaq istədilər və evə od vurdular. Rus zabitləri çox çətinliklə yanğından qurtulmuşlar, ancaq çoxusunun əşyaları büsbütün yanmışdır.

Ərzincandan Ərzuruma çəkilən erməni quldur dəstələri, yollarının üstündə yerləşən müsəlman kəndlərini əhalisi ilə birlikdə məhv etmişlər. Mənzil xəttindəki arabaları və artilleriya anbarını daşımaq üçün silahsız və dinc əhalidən arabaçılar tutulmuşdu. Bunlar Ərzuruma yaxınlaşdıqca, ermənilər yollarda rus zabitlərinin öz evlərinə çəkilməsindən istifadə edərək bu arabaçıları öldürməyə başlamışlar. Bayırdakı fəryadları eşidib yardım üçün bayıra çıxan rus zabitləri, müsəlman arabaçıları qorumaq üçün müdafiə etdikləri vaxt, ermənilər rus zabitlərinin də türk arabaçılarının aqibətinə düşəcəklərini deyərək onları hədələmiş və üstlərinə silah çəkmişlər. Bu qırğın vəhşicəsinə və dəhşətlə edilirdi.

Ərzurum şəhərində rus artilleriya zabitlərinin kazinosunda artilleriya leytenantı, gürcü əsilli Midivani, belə bir hadisənin şahidi olduğunu açıqca söyləmişdir. Bir erməni türk arabaçılarından birini öldürmək üçün vurmuş; lakin arabaçı hələ ölməmiş, arxası üstə yıxılmış, erməni əlindəki dəyənəyi, can verən bu arabaçının ağzına soxmaq istəmiş, dişləri, ağzı qıc olduğu üçün kilitlənmiş, dəyənəyi ağzına soxa bilməyən erməni, bu türkün qarnını təpikləyə-təpikləyə öldürmüş.

Ilıca qəsəbəsində qaça bilməyən türklərin hamısının öldürüldüyünü və küt baltalarla ənsələrindən kəsilmiş bir çox uşaq cənazələrini gördüyünü (Ərzincandan Ərzuruma qayıdarkən) şəxsən Odişelidze söylədi. Ilıca qırğınından üç həftə sonra, 11 mart 1918-ci il bazar ertəsi günü, oradan qayıdan podpolkovnik Qriyaznov gördüklərini belə söylədi: Kəndlərə gedən yollarda, bədən üzvləri bərbad hala salınmış bir çox cənazələrə rast gəlmiş. Oradan keçən hər bir erməni bu cəsədlərə bir kərə söyər və üstünə tüpürərmiş. 12-15 sajen (25,5-31,9 metr) kvadrat metrlik cami həyətində iki arşın (142 sm) hündürlüyündə cənazə yığılmışdı. Bunların arasında hər yaşda qadın, kişi, uşaq və yaşlılar vardı. Qadınların cənazələrində zorla namusa toxunma halları olduğu məlum olurdu. Bir çox qadın və qızların cinsi orqanlarına tüfəng gülləsi doldurulmuşdu.

Podpolkovnik Qriyaznov erməni birlikləri yanında telefonçu işləyən erməni qızlarından bir-ikisini caminin həyətinə çağırmış; ermənilərin «hünərlərini» görüb öyünmələrini kinayə ilə təklif etmiş və onlara cənazələri göstərmiş. Erməni axçilərinin (qızlarının) o dəhşətli mənzərəni gördükləri zaman üzüləcəklərinin əvəzinə, əksinə sevinərək gülməyə başlamaları, podpolkovnikin nifrətlə qarışıq çaşqınlığına səbəb olmuş və bundan çox təsirlənən Qriyaznov bunları danlamağa və məzəmmət etməyə başlamış və «döyüşmüş, nə qədər qəddarlıqlar görmüş bir zabitin, tüklərini ürpədən belə dəhşətli mənzərə qarşısında, təhsil, təlim-tərbiyə görmüş gənc qızların sevinərək gülmələri, ermənilərin, hətta qadın belə olsalar, necə alçaq və vəhşi bir millət olduqlarına sübutdur» deyincə, bir az sıxılmaq lazım gəldiyini hiss edən

qızlar, əsəblərinin pozulmasına görə güldüklərini söyləmişlərsə də, öz qaniçici fikirlərini gizlədə bilməmişdilər.

Alaca cəbhə komandanlığında təchizat işlərinə baxan bir erməni, martın 12-də Alacada törədilən vəhşiliklər haqqında bunları danışmışdı: «Ermənilər bir qadını diri-diri divara mıxlamışlar, sonra ürəyini çıxarıb başının üstündən asmışlar!».

Ərzurumda ilk kütləvi qırğın törətməyə 20 fevralda təşəbbüs göstərmişlər. İndi söyləndiyinə görə, artilleriya əsgərləri küçələrdə əhalidən 270 nəfərini tutmuş, onları yaxşıca talan etdikdən sonra, məqsədlərini yerinə yetirmək (öldürmək) üçün hamısını Yakutiyədəki kazarmanın hamamına doldurmuşlar. Şəxsən mənim böyük cəhdlərim sayəsində, bunlardan ancaq sağ qalan 100 nəfər qurtulmuşdur. Qalanlarını mənim ermənilərin niyyətlərini başa düşdüyümə görə, əsgərlər tərəfindən əvvəlcədən azad etdiklərini söylədilər. Bu hadisələrin artilleriya birliklərinə tabe olan ermənilərdən ibarət piyadalar arasında ehtiyatda olan zabit Karaqudayev adlı bir vəhşi tərəfindən təşkil olunduğu məlum oldu. Bu gün küçələrdə bir neçə türk öldürülmüşdü.

Fevralın 25-də Ərzurum dəmiryol vağzalındaın bir neçə erməni silahsız, dinc türklərdən on nəfərdən çoxunu güllələmişlər. Türkləri qorumaq və gizlətməyə cəhd edən rus zabitlərini ermənilər ölümlə hədələmişlər. Bu əsnada heç bir günahı olmayan türkü öldürdüyünə görə bir ermənini həbs etmişdim. Baş komandan Hərbi tribunalın təşkil olunmasını əmr etmişdi. Əvvəlki qanuna görə cinayət törədənlər edam olunmalıydı. Erməni zabitlərindən birisi həbs olunan erməniyə törətdiyi bu cinayətə görə asılacağını söylədikdə, həbs olunmuş erməni qəzəblənərək: - «Bir türk üçün, bir erməninin asıldığı harada görülmüş» deyə qışqırmış.

Ermənilər Ərzurumda türk bazarını yandırmağa başladılar. Martın ikisində artilleriya polkunun bölgəsi içində yerləşən Təpəköyün, qadın-kişi, çoluq-çocuğu olmaqla bütün əhalisinin öldürüldüyünü eşitdim. Həmin gün Andranik Ərzuruma gələndə baş vermiş bu qırğın haqqında ona danışdım və günahkarların aşkar olunmalarını tələb etdim. Nə ilə nəticələndiyi bilinmədi.

Andranik artilleriya zabitlərinin kazinosunda hamının önündə qayda-qanun yaradılacağını vəd etdi. Lakin deyilən sözlər vəd olaraq qaldı. Halbuki Zaqafqaziya hökuməti, Andranik ilə Dr. Zavriyevi əsasən qayda-qanun yaradılması üçün Ərzuruma göndərmişdilər. Şəhərdə bir qədər gurultu, səs-küy azaldı. Əhalisi öldürülən kəndlərdə də, təbii olaraq sakitlik yarandı.

Ətrafdakı döyüşlər Osmanlıların Ilıcaya doğru yaxınlaşdıqlarından xəbər verincə, Ərzurum şəhərində türk əhalisinin ermənilər tərəfindən həbs olunmaları yenidən başlandı. Xüsusilə, martın 10-11-də həbslər daha çox gözə çarpdı. Martın 11-12-də (1918-ci il bazar ertəsi, çərşənbə axşamı) ermənilər rus zabitlərini aldadaraq qırğınlar törədib, türk əsgərlərinin qorxusundan qaçdılar. Bu qırğın təsadüfi olmayıb, planlı şəkildə təşkil olunaraq, əvvəlcədən də həbs olunanlarla birlikdə türkləri tutub, sonra bir-bir öldürülmüşlər. Bu qırğında öldürülənlərin sayının üç minə yaxın olduğunu yenə ermənilər özləri qürurlanaraq fəxrlə söyləmişdi.

Ərzurumu müdafiə edən ermənilər o qədər az idi ki, iki top ilə min beş yüzdən ibarət türk əsgərinin qarşısında dayana bilməyib qaçdılar. Lakin, təkcə bu gecə törətdikləri qırğınlar daha çox oldu. Qırğının qarşısını almaq tamamilə ermənilərin nüfuzlu, sözü keçən adamlarının əlində idi. Buna görə, qırğında təkcə quldur dəstələri deyil, ziyalı ermənilərin də əli vardı. Ermənilərin aşağı təbəqəsi bu ziyalı təbəqəsinə və xüsusilə içlərində olan bəzi nüfuz sahiblərinin əmrlərinə daha çox itaət edirdilər. Mənim polkumdakı zabitlərin hamısı rus olduğu halda, əsgərlərin hamısı demək olar ki, erməni idi. Bunlara qarşı əlimizdə heç bir qüvvə olmadığı halda, əmrlərimizi daima yerinə yetirməyə nail olduq. Erməni əsgərləri heç bir zaman aşkarda cinayət törətməyə girişmirdi. Hətta qırğın gecəsi, polkumuzun daşınıb gəldiyi kazarmada yalnız bir rus zabiti növbətçi olduğu halda, mehtərlik edən müsəlmanlardan heç birisi öldürülməmişdir. Maraqlı o idi ki, müsəlmanların yanında olan erməni artilleriya əsgərləri yüzlərcə olduğu halda, bir nəfər müsəlmanın burnu belə qanamamışdı.

Fərq qoymadan bütün erməni ziyalılarının hamısının cinayətdə əlləri olduğunu söyləmək istəmirəm. Xeyr, belə hərəkətin doğru olmadığını və ermənilərin tutduğu bu yolun çıxılmaz vəziyyətə düşəcəyini etiraf edən erməni ziyalılarına rast gəldim. Hətta təkcə sözdə deyil, davranışı ilə də qırğına maneçilik edən bir çox erməni ziyalıları olmuşdu. Ancaq bunların sayı, çoxluq təşkil edən ermənilər arasında çox az idi. Bu ziyalılar da həmişə erməni vəhşiləri tərəfindən lənətlənərək, nifrətə layiq görülmüşdülər. Bir çox erməni də zahirdə özlərini bu cinayətin əleyhdarı kimi göstərirsə də, həqiqətdə isə, fürsət düşən kimi türkü öldürməkdən çəkinməmişdilər.

Ermənilərin bir hissəsi danışmamağa üstünlük verirlər; bir hissəsi də rusların onları məzəmmət etməsinə etiraz edib! - «Siz russunuz, heç bir zaman erməni millətinin məqsədini başa düşə bilməzsiniz!» deyərdilər. Onlar vicdan əzabı nədir, bilməzlər. İnsanların vicdanı, qiymətli almaz kimi ləkəsiz yaradılmışdır, ləkəsiz də qalmalıdır.

Türkləri öldürdüklərinə görə danlanıb məzəmmət olunarkən, bir çox erməni də belə cavab vermişdi. «Türklər də erməniləri məhv etmək üçün belə hərəkət etmirlərmi? Bizim də məqsədimiz ancaq intiqam almaqdır».

Bu baş vermiş hadisələr erməni millətinin və erməni ziyalılarının düşüncələrini açıq aydın göstərir. Heç kim baş vermiş hadisələri ört-basdır edə bilməz. Ermənilər külək əkdilər, lakin külək əkənin fırtına biçəcəyini unutdular! (Atalar sözüdür: Külək əkən, fırtına biçər - E.X.)

29 aprel 1918-ci il, Ərzurum Dəvəboynu mövqelərinin müvəqqəti komandan müavini və İkinci Ərzurum istehkamı artilleriya polkunun komandanı, müharibədə əsir olmuş podpolkovnik Tverdo -Xlebov.

Zərfin içindəki məktubun tərcüməsidir. (Podpolkovnik Tverdo-Xlebova) 30 aprel 1918-ci il, Ərzurum (Erməni qəddarlığı və silahsız Ərzurum türkləri).

Saadetli* Əfəndim Həzrətləri!

Rusiya ata qoşqulu artilleriyasının yeganə nümayəndəsi kimi rus zabitlərinə göstərdiyiniz yaxşılığa görə təşəkkürlərimi bildirirəm. Birinci korpus komandanı olan general Kalitinin, sizə haqqında məlumat verdiyi kapitan Pilyat adını xatırlamağınızı arzu edərək, vaxtınızı almağa cəsarət edirəm.

Mən 1918-ci il fevral ayının ortalarında, 12 ədəd tezatan qoşqulu və dağ topları, pulemyotları ilə (Ərzurum (Bakı İslam) Xeyriyyə cəmiyyətinin sədri, ali savadlı, 22 yaşındakı Gəncəli D.Seyidov Əfəndiyə) Ərzurumda ermənilərin qəddar hərəkətlərinin qarşısını almaq üçün əmrlərinə hazır olmaq və xidmət etməyi təklif edən iki rus topçusundan biriyəm.[1] O zaman Yeddinci Qafqaz dağ artilleriya batalyonu komandanı olduğum üçün, erməniləri zorla çıxardıqdan sonra, baş komandan general Odişelidzenin razılığı ilə Ərzurumun geri alınmasında vuruşmamağı təmin etmək üçün Osmanlı birlikləri ilə razılığa gələ biləcəyimizə güvənirdim.

Türk birlikləri ilə vuruşmaq Odişelidzenin planında yox idi. Lakin tale, öz hökmünü başqa cür verdi. Seyidov türkləri vaxtında silahlandıra bilmədi, üsyan olmadı. Seyidov ilə kapitan müavini Yermolovun öldürülmüş olmaqlarından qorxurdum. Mən özümü ermənilərin zülmündən qoruya bildim və Ulu-Tanrıya çox şükür olsun ki, ermənilərə deyil, türklərə təslim oldum. Sağ qaldığımı təsdiq edən bu məktubumu Kiyevdə yaşayan ailəmə göndərilməsini xahiş edirəm».

**(Ərzurum, 7-ci dağ artilleriya batalyonunun komandan müavini) kapitan İvan Qokilaviç Pilyat**

---

* Osmanlı imperiyası dövrlərində general ilə polkovnik arasındakı rütbəli zabitlərə və bu dərəcədə olan vəzirlərə verilən fəxri ad - E.X.

[1] Bu türk Xeyriyyə cəmiyyəti və D.Seyidov üçün Əbülhindi kəndindən Cəfər Erçikanın "Ərzurum" jurnalında çıxan, aprel 1918-ci il tarixli məktubuna baxın.

# AXALKALAKİDƏ YAŞAYAN TÜRKLƏRƏ QARŞI ERMƏNİLƏRİN ETDİKLƏRİ VƏHŞİLİKLƏR VƏ QIRĞINLAR

(Dekabr ,1917-ci il- may,1918-ci il.)

(Aşağıdakı sənədin rusca əsli, çizgili yazı kağızının bir üzünə mürəkkəblə yazılı olub. Kars Milli-Şurası Xarici İşlər üzrə nümayəndəsi Piroğlu Fəxrəddin Ərdoğanın, Ankarada «Türk İnkılap Tarihi Enstitüsü» (TİTE) arxivinə verdiyi sənədlər içində, 74-cü qovluqdakı 5 rusca sənəd arasında 17571 nömrədədir. Bu sənədin rusca bir surəti, 1918-ci ilin may ayında Axalkalaki bölgəsini azad edən türk birliyi komandanına da verilmiş və bunun türkcə tərcüməsi İstanbulda çap olunan «Müsəlman əhalinin düçar olduqları zülmlər haqqında sənədə istinad edilən məlumat» adlı kitabın «ikinci çapı fevral 1335/1919-cu il» -61-63-cü səhifələrində nəşr edilərək, «21 may 1334/1918-ci ildə Axalkalaki ətrafında Okam müsəlman kəndində ermənilərin hücumu və soyqırıma düçar olan məsum müsəlman əhalinin bir hissəsinin şəhid olduğunu göstərən» fotoqrafdan «yüzlərcə cəsəd olan bir lövhə» neqativi ilə birlikdə nəşr edilmişdir. TİTE arxivi 74 /17571 nömrədəki rusca əslindən, Krımlı hörmətli Kamal Ortaylının tərcüməsini aşağıda təqdim edirik).

1917-ci ilin dekabr ayından 21 may 1918-ci il tarixinə qədər ermənilərin Axalkalaki bölgəsində yaşayan yerli və dinc müsəlman xalqının başına gətirdikləri vəhşiliklərdən bəhs edəcəyəm. İstər yerli gürcülərin mənə danışdıqlarına əsaslanaraq və istərsə də öz gözlərimlə gördüklərimi gözlərim yaşla dolaraq yazmağa başlayıram.

1917-ci il dekabr ayının ortalarına yaxın, Arpaçayın başlanğıcındakı Ağbaba nahiyəsindən səkkiz müsəlman Axalkalaki bölgəsinin cənubundakı Xançarlı gölünün şərqində yerləşən rus koloniyasındakı kəndlilərin yerləşdiyi Boğdanovka kəndində yaşayan duxoborlardan quru ot satın almaq üçün buraya gəlmişdilər. Bunu da bu başdan söyləyim ki, o zaman

təhlükəsizlik baxımından əmin-amanlıq olduğuna görə, həmin müsəlmanlar özləri ilə heç bir silah götürməmişdilər. Qonşu Hocabek kəndinin erməniləri bundan xəbər tutunca, tez oraya gələrək, bu səkkiz müsəlmandan dördünü xəncərlə öldürdükdən sonra, gözlərini oymuş, dilləri ilə gövdələrinin digər hissələrini də kəsib bədənlərini tikələrə bölərək müxtəlif təhqiredici hərəkətlər etmişdilər. Qalan dörd nəfəri də tüfənglə vuraraq öldürmüşdülər. Bundan sonra tikələrə bölünmüş cəsədləri yandırmışdılar. Tüfənglə öldürülən dörd nəfərin cəsədlərini də sonradan ağbabalılara vermişlər.

1918-ci ilin yanvar ayından başlayaraq ermənilər müsəlmanların yaşadıqları kəndlərə hücum etməyə başladılar. Əvvəlcə «silahlarınızı bizə təhvil versəniz, sizlərə heç vaxt toxunmarıq» deyərək söz verdilər. Ermənilər bu yalan vədlərə inanan müsəlmanların əllərindəki silahları aldıqdan sonra müsəlmanların kəndlərinə hücum etməyə, onları öldürməyə, kəndlərini yandırıb xaraba qoymağa, mallarını və əşyalarını talan etməyə başladılar. Beləliklə, Xorenya, Kokıya, Vereban, Toq, Okam, Kulalıs, Xançarlı gölünün şərqindəki Patkana, (Tuman-Duman gölünün şərq-şimal sahilindəki) Saqama, Kuvaşa, Alaca və Gümris kəndlərini yandırdılar və xaraba qoydular; var-yoxlarını və bütün əşyalarını götürdükdən sonra, sağ qalan kişilərlə bütün qadınları da əsir olaraq Axalkalaki qəsəbəsindəki düşərgəyə topladılar. Axalkalaki düşərgəsində əsir edilmiş müsəlmanlara, iyirmi dörd saatda bir funt (400 qr) çörəklə sudan başqa heç bir şey vermirdilər. Soyuq düşərgələrdə ac və sağlamlığa zərər verəcək bir şərait içində olan müsəlmanlar arasında tif xəstəliyi başlayıb yayıldı. Həkimlər əsirlərin daha yaxşı yeməklə təmin olunmaları və təmiz yerdə saxlanılmaları üçün təkidlə müraciət etmişlərsə də, ermənilər buna fikir verməyərək, müsəlmanları soyuq və pis düşərgələrdə ac saxlamağa davam etdilər. Nəticədə, düşərgələrdə müsəlmanlardan hər gün ölənlər olurdu. Müsəlmanlara edilən yardımlara da ermənilər maneçilik törədir, hətta onları ziyarətə

gələnlərin də əsir düşərgələrinə yaxınlaşmasına icazə vermirdilər. Bu vəziyyət dörd aydan çox davam etdi.

Lakin 1918-ci il mayın 21-də Türk silahlı Qüvvələri (Çıldır gölünün şimalında və bu gün ortasından dövlət sərhəddi keçən Kenarbel/Xozapın gölünün şimal-şərqindəki böyük) Karsak kəndinə gəldiyi zaman bütün ermənilər qaçmağa başladılar. Qaçarkən də, axşam saat beşdə əsir götürdükləri müsəlmanları Axalkalakidəki düşərgələrdə xəncərlə və tüfənglə öldürdükdən sonra, qaldıqları evlərin damlarını həmin cəsədlərin üzərinə uçurdular və cəsədlər uçurulmuş evlərin altında qaldılar. Bir çoxlarının cəsədlərini də üzərinə əhəng məhlulu töküb quyulara atdıqdan sonra, üzərlərinə neft tökərək yandırdılar.

XX əsrin «Ermənistanında» yaşayan mədəni (!) ermənilərin etdikləri vəhşiliklər.

**I Aksigin İdarəsi Müfəttişi**
**Dr. Xoreşenov (və imza)**

# M Ü N D Ə R İ C A T

Ön söz ........................................................................................ 3

**Zəki Başar**

Keçmişi unudan ermənilər ........................................................ 9

Keçmişdəki davranışlarıyla Türklər-Ermənilər ....................... 16

ABŞ Konqresinə müraciət ...................................................... 21

Diqqətlə və ibrətlə oxunmalı.................................................... 26

Əvvəlki və sonrakı günlərdə Ərzurumun qurtuluşu.................. 28

Xalqımıza qarşı olan Ermənilər ............................................... 36

**Əhməd Rəfiq Altınay**

Qafqaz yollarında xatirələr və təəssüratlar kitabından.................................................................................. 42

**Camal Paşa**

Erməni problemi ....................................................................... 53

İttihadçılar və ermənilər............................................................ 66

Adana hadisəsi .......................................................................... 70

Rusiya və erməni problemi ....................................................... 79

Ermənilərin köçürülməsi........................................................... 82

Əsas məsuliyyət daşıyan şəxslər............................................... 87

İstiqbal haqqında düşüncələr..................................................... 90

**Kazım Qarabəkir**

Ərzurumun qurtuluşu ................................................................ 95

Ərzuruma doğru hərəkat davam edir ...................................... 101

Cəbhəyə doğru hərəkat ........................................................... 114

Ərzurumun istehkam mövqeyinə hücum ................................ 139

Ordu komandanı ilə telefon əlaqəsi, çox çətin bir vəziyyət.... 143

Ərzurum qurtulur .................................................................... 151

Ərzurum necə geri alındı? ...................................................... 155

Bir rus casusu.......................................................................... 157

Korqanovun xatirələri ............................................................. 162

**Tverdo-Xlebov**
**Tarixçə**
(Ərzincan və Ərzurumda erməni zülmləri)............................ 167
**Xatirə**
Ermənilərin Ərzincan və Ərzrumda türklərə qarşı etdikləri zülmlər ......................................................................... 197
**Xoreşenov**
Axalkalakidə yaşayan Türklərə qarşı ermənilərin etdikləri vəhşiliklər və qırğınlar. ........................................................ 207

**TÜRK MƏTBUATINDA**
**«ERMƏNİ MƏSƏLƏSİ»**

**Kompyuter tərtibatçısı: Nübubət Qarayeva**

Çapa imzalanmışdır: 22.09.2014
Kağız formatı: 60x84 1/16
Həcmi: 13,25 ç.v.; Sifariş: 391/8; Sayı: 500

Kitab "Zərdabi LTD" MMC
Nəşriyyat Poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.

*Ünvan: Bakı şəh., Keşlə qəs., N.Abdullayev küç., 12*
Тел.: (012) 514-73-73